# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

# ƏLLİ SƏKKİZİNCİ KİTAB

## İYUL 2013 - SENTYABR 2013

**AZƏRNƏŞR**
**BAKI - 2018**

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI – 2018

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56** **İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2018, 396 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf–məqsədimizdir» çoxcildliyinin bu cildində Rusiya Federasiyası Prezidentinin və İtaliya Respublikası Baş nazirinin ölkəmizə səfərləri zamanı bu ölkələrin rəhbərləri ilə ikitərəfli əlaqələrin inkişafına dair görüş və danışıqlarından, bağlanan müqavilələrdən bəhs olunur. Azərbaycan Prezidenti bütün görüş və danışıqlarda Ermənistanın işğalçılıq siyasətini önə çəkmiş, regionun inkişafına əngəl olan Dağlıq Qarabağ probleminin beynəlxalq hüquq normaları çərçivəsində həllinə dəstək olmağa çağırmışdır.

Eyni zamanda, bu cilddə Qəbələdə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III Zirvə toplantısında dövlət başçısının çıxışı və yekun nitqi, türkdilli dövlətlərin rəhbərləri ilə görüşləri, söhbət və mükalimələri yer almışdır. Həmçinin ölkəmizə gələn xarici dövlətlərin hökumət rəhbərləri, siyasi xadimlər ilə danışıqları, nitq və çıxışları, nüfuzlu mətbuat orqanlarına və televiziya kanallarına verdiyi müsahibələri də bu cildin əsas materiallarındandır.

Kitabda dövlət başçısının bölgələrə səfərləri zamanı bir sıra mədəniyyət mərkəzlərinin, məktəblərin, uşaq bağçalarının və digər sənaye müəssisələrinin açılışında iştirakı, bölgə ictimaiyyətinin nümayəndələri ilə görüş və çıxışlarına dair materiallar da toplanmışdır.

**ISBN 978-9952-8100-7-3**

**Я** $\frac{\textbf{0801000000}}{\textbf{M – 651(07)– 2018}}$ **ББК - 32**

© Azərnəşr, 2018

# KAZANDA KEÇİRİLƏN XXVII ÜMUMDÜNYA YAY UNİVERSİADASININ QALİBLƏRİ, MÜKAFATÇILARI, ONLARIN MƏŞQÇİLƏRİ VƏ RESPUBLİKANIN İDMAN MÜTƏXƏSSİSLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*24 iyul 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 24-də Kazanda keçirilən XXVII Ümumdünya Yay Universiadasının qaliblərini, mükafatçılarını, onların məşqçilərini və respublikanın idman mütəxəssislərini qəbul etmişdir.*

**İ l h a m  Ə l i y e v:** Əziz idmançılar!

Hörmətli qonaqlar, idman mütəxəssisləri, məşqçilər!

Sizi salamlayıram və bu yaxınlarda Kazan şəhərində keçirilmiş universiadada əldə edilmiş böyük uğurlar münasibətilə təbrik edirəm.

Bu doğrudan da böyük qələbədir. Dövlətimizin, xalqımızın növbəti böyük idman uğurudur. İdmançılarımız çox yüksək səviyyədə çıxış etmişlər, 16 medal qazanmışlar. Onlardan 4-ü qızıl, 5-i gümüş, 7-si isə bürünc medaldır. 4 dəfə milli himnimiz səslənmişdir, 16 dəfə Dövlət bayrağımız qaldırılmışdır. Azərbaycan bir daha bütün dünyaya sübut etdi ki, idman dövlətidir və idman Azərbaycanda çox uğurla inkişaf edir.

Onu da qeyd etməliyəm ki, idmançılarımız komanda hesabında 15-ci yerə çata bilmişlər, Avropada 9-cu, müsəlman ölkələri arasında isə 1-ci yerdəyik. Bu da böyük uğurumuzdur. Bu uğurun təməlində gərgin iş və idmançıların peşəkarlığı dayanır. Keçən il Londonda keçirilmiş Olimpiya oyunlarında idmançılarımız çox yüksək və tarixi nailiyyət göstərmişlər. İdman Azərbaycanda o qədər sürətlə inkişaf edir ki, burada ardıcıllıq da müşahidə olunur. Peşəkar idmançılar, gənclər,

tələbə idmançılar, uşaqlar, yeniyetmələr idmana böyük maraq göstərirlər. Azərbaycan bütün mötəbər beynəlxalq yarışlarda böyük uğurlara imza atır. Londonda 10 medal qazanmışıq və bu da tarixi nailiyyət idi.

Universiadaya da böyük maraq var idi. Bu günlər ərzində dünyanın marağı, demək olar ki, oraya istiqamətlənmişdi. Əlbəttə, Azərbaycanın belə uğurları ölkəmizin ümumi inkişafını göstərir. Çünki sirr deyildir ki, ancaq güclü, qüdrətli dövlətlərdə idman uğurla inkişaf edə və idmanda böyük uğurlar ola bilər.

Azərbaycan o ölkələrdəndir ki, sürətlə inkişaf edir. O cümlədən, idman sahəsində də əldə edilmiş uğurlar artıq dünya ictimaiyyəti tərəfindən qiymətləndirilir. Biz idmanın kütləviliyini, hesab edirəm ki, böyük dərəcədə təmin edə bilmişik. Düzdür, hələ bu istiqamətdə görüləsi işlər çoxdur. Ancaq bütövlükdə götürəndə, son illərdə idmana artan maraq, idman bölmələrinə müşahidə olunan axın, xüsusilə uşaqlar, yeniyetmələr tərəfindən göstərilən maraq onu deməyə əsas verir ki, biz kütləviliyi təmin edə bilmişik. Bu yaxınlarda Xaçmazda 38-ci regional Olimpiya İdman Mərkəzinin açılışı da bunu göstərir. İndi 38 şəhərimizdə idmanla məşğul olmaq üçün gözəl şərait vardır. Bildiyiniz kimi, bu işlər davam etdirilir. Hər bir şəhərdə, hər bir rayon mərkəzində gözəl imkanlar olacaqdır.

İdman hər bir cəmiyyətin ümumi inkişafını göstərir. Bir daha demək istəyirəm ki, idman arenalarında ən böyük uğurları inkişaf etmiş ölkələr qazanır. Bu da təbiidir. Çünki bu ölkələrdə idmana diqqət daha da yüksək səviyyədədir, həm maddi-texniki baza möhkəmdir, həm də investisiyalar qoyulur. Baxmayaraq ki, Azərbaycan gənc müstəqil dövlətdir, biz də öz gücümüzü artırırıq və idmana olan dövlət dəstəyi hesab edirəm ki, bu uğurların əldə edilməsində öz rolunu oynamışdır. Əlbəttə ki, məşqçilərin, idman mütəxəssislərinin çox peşəkar fəaliyyəti və idmançıların fədakarlığı bu ümumi inkişafa öz töhfəsini vermişdir.

Azərbaycanda idman ümummilli məsələdir. İdman cəmiyyətimizin ayrılmaz hissəsidir. Mən idmanla bağlı olan bütün

tədbirlərdə qeyd edirəm ki, hər bir insan, xüsusilə hər bir gənc mütləq idmanla məşğul olmalıdır. Lap idmançı olmasa belə, idmanla məşğul olmaq insana həm fiziki, həm mənəvi güc və əminlik verir. İdman həm də mədəniyyətdir.

Hesab edirəm ki, dövlət tərəfindən aparılan siyasət bu istiqamətdə müsbət nəticələrə gətirib çıxarmışdır. İdmançılara dövlət tərəfindən göstərilən diqqət də yüksək səviyyədədir. Mən vaxtaşırı idmançılarla görüşürəm. Onları uğurları münasibətilə təbrik edirəm. Çox şadam ki, bu illər ərzində bizim görüşlərimiz mütəmadi qaydada keçirilir.

Əlbəttə, Milli Olimpiya Komitəsinin prezidenti kimi, bu mənim vəzifə borcumdur. Ancaq mən idmançılarla görüşlər əsnasında onların işləri ilə maraqlanıram. Gənc idmançıların yetişdirilməsi üçün əlavə hansı tədbir görülməlidir, bunu da biz daim diqqətdə saxlayırıq. İdmanın uğurlu və ardıcıl şəkildə inkişafı artıq təmin edilibdir. Bizdə gənc nəsil yetişir – tələbə idmançılar, uşaqlar. İndi mən mütəmadi qaydada müxtəlif bölgələrdə olarkən görürəm ki, uşaqlar, hətta kiçik yaşlı uşaqlar da idmanla necə həvəslə məşğul olurlar.

Həmçinin siz də gəncsiniz. Siz indi böyük idmana, demək olar ki, təzəcə qədəm qoyursunuz. Sizin yaxşı, gözəl gələcəyiniz vardır. Əminəm ki, siz 2016-cı ildə keçiriləcək Olimpiya oyunlarında da iştirak edəcəksiniz. Orada da Azərbaycan bayrağını yüksəklərə qaldıracaqsınız. Bir sözlə, idmanın gələcəyi ilə bağlı nə məndə, əminəm ki, nə sizdə, nə də Azərbaycan cəmiyyətində heç bir şübhə yoxdur. Biz əminik ki, idmançılar daim bizi sevindirəcəklər.

Onu da qeyd etməliyəm ki, cəmiyyətdə artıq idmançıların uğurlarına bir vərdiş yaranıb. Sanki belə də olmalıdır. Əvvəlki illərdə hər bir qələbə böyük bir rezonansa səbəb olurdu. Ancaq bu da təbiidir. Çünki qələbələrin sayı artdıqca insanlar buna öyrəşir və elə gəlir ki, bu qələbələri əldə etmək çox asandır. Siz idmançılar və idmanla məşğul olanlar yaxşı bilirsiniz ki, bütün bu nailiyyətlər nə qədər böyük zəhmət hesabına əldə edilir. İdmançılar nəyin bahasına öz dövlətini ləyaqətlə təmsil edirlər,

zədələnirlər, xəsarət alırlar, yorulurlar. Bütün bu işlər diqqətdən bir qədər kənarda qalır. Belə mötəbər yarışlarda böyük qələbəni əldə etmək üçün mütləq çox böyük fədakarlıq, peşəkarlıq və Vətənə sevgi lazımdır. Bizim gənclər vətənpərvərlik ruhunda tərbiyə alırlar, Vətənə, xalqa bağlıdırlar. Onların ən böyük mükafatı xalqın sevgisi və qiymətidir. Əminəm ki, sizin üçün də bu belədir.

Mən çox şadam ki, bu gün sizinlə görüşürəm. Qeyd etmək istəyirəm ki, Azərbaycan dövləti sizin uğurlarınızı layiqincə qiymətləndirir. Bu gün səhər imzaladığım sərəncam əsasında idmançılara pul mükafatı veriləcəkdir. İlk dəfə universiadada əldə edilmiş uğurlara görə yüksək səviyyəli pul mükafatı veriləcək. Bu gün müvafiq sərəncam oxunacaqdır. İdmançılara və onların məşqçilərinə dövlət tərəfindən daim diqqət, qayğı vardır. İdmançıların məişət problemləri də həll edilir. Hər ilin sonunda ənənəvi olaraq biz idmançıları mənzillərlə mükafatlandırırıq. İl ərzində digər mükafatlar da verilir. Bu təbiidir, bu lazımdır. Bu, dövlətin dəstəyidir, qayğısıdır.

Mən tam əminəm ki, sizi qələbəyə aparan yollar sizin ürəyinizdən, Vətənə olan sevgidən, bizim milli bayrağımıza olan məhəbbətdən keçibdir. Mən sizi bir daha qələbə münasibətilə təbrik edirəm. Xalqımızın adından sizə minnətdarlığımı bildirirəm. Əminəm ki, siz gələcəkdə bizi hələ çox sevindirəcəksiniz. Sağ olun.

**Rəsul Çunayev** *(Universiadanın Yunan-Roma güləşi üzrə qalibi):* Hörmətli cənab Prezident!

Hörmətli idmançılar və qonaqlar!

Mən Yunan-Roma güləşi üzrə qızıl medal qazanmışam.

Mən bu gün dərin və sonsuz sevinc içindəyəm. Kütləviliyinə görə dünyada Olimpiya oyunlarından sonra ikinci yerdə dayanan mötəbər bir yarışın – Tələbələrin XXVII Yay Universiadasının qalibi olmuşam. Bu, təkcə mənim qələbəm deyildir.

Möhtərəm Prezident, bu böyük qələbə Sizin qələbənizdir. Bu, dünyanın hər bir ölkəsində yaşayan azərbaycanlıların

qələbəsidir. Mən sevinirəm ki, ölkəmizin şan-şöhrətini, nüfuzunu dünyada tanıtdım. Çətin mübarizələrdə Sizin dəstəyiniz, xalqımızın dəstəyi mənə kömək oldu. Bütün idmançılar kimi, mən də bu köməyi, dövlətimizin diqqət və qayğısını yarışlara hazırlıq dövründə hiss etmişəm. Mən özümü bu mötəbər yarışlara həm fiziki, həm də mənəvi cəhətdən tam hazır hiss etmişəm. Elə bu inamla da yarışlarda idmanın Yunan-Roma güləşi növündə mübarizə apararaq fəxri kürsünün ən yüksək pilləsinə qalxdım. Bu yarışlar mənim böyük təcrübə toplamağımda mühüm rol oynadı. Milli komandamızın digər üzvləri də əzmlə mübarizə apararaq mükafatçılar sırasına düşdülər. Bu isə Azərbaycanın 162 ölkə arasında 15-ci yerdə qərarlaşmasına səbəb oldu.

Möhtərəm cənab Prezident, mən öz qələbəmə görə Sizə minnətdarlığımı bildirirəm. Ölkəmizin bütün idmançıları adından böyük ehtiramla bildirirəm ki, qarşıdan gələn seçkilərdə biz öz prezidentimizi, idmançıların və gənclərin prezidenti İlham Əliyevi dəstəkləyəcək, bundan sonra da doğma Vətənimizin idman şərəfini beynəlxalq miqyasda ləyaqətlə qoruyacaq, yeni nailiyyətlər əldə edəcəyik.

Diqqətinizə görə təşəkkür edirəm.

**Yaqub Məmmədov** (*sərbəst güləş üzrə məşqçi*): Möhtərəm cənab Prezident!

Hörmətli qonaqlar! Əziz idmançılar!

Öz miqyasına görə dünyada Olimpiya oyunlarından sonra ikinci böyük auditoriya toplayan Tələbələrin XXVII Ümumdünya Yay Universiadası başa çatmışdır. Bu yarışlar ölkəmiz üçün çox əlamətdar olmuşdur. Azərbaycanın nümayəndə heyəti tələbə-gənclərin yarışına 81 idmançı ilə qatılmış, 10 idman növündə mübarizə aparmış və 16 medalla 162 ölkə arasında fəxri 15-ci yeri tutmuşdur. Bu isə ötən illərlə müqayisədə rekord göstəricidir.

Möhtərəm Prezident, düşünürəm ki, bu qələbələr əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən möhkəm təməllər üzərində qurulan bədən tərbiyəsi və idman siyasətinin Sizin

möhtəşəm fəaliyyətinizlə yeni məzmun və keyfiyyətlə davam etdirilməsinin bəhrəsidir. Tam qətiyyətlə deyə bilərəm ki, bütün idmançılar və biz məşqçilər daim Sizin qayğınızla əhatə olunmuşuq, həmişə Sizin diqqətinizi hiss etmişik. Bu isə idman sahəsində çalışan hər bir insan üçün çox vacibdir. Məhz bu qayğı idmançılarda daim ruh yüksəkliyi yaratmış, onları əzmlə mübarizə aparmağa, qələbə qazanmağa sövq etmişdir.

Mən bir məşqçi kimi, idmanın güləş növünü təmsil edirəm. Son illərdə Azərbaycan idmanının beynəlxalq miqyasda mövqeyinin kifayət qədər möhkəmlənməsi məni heyran edir.

Təbii ki, bu mötəbər yarışda da əldə olunmuş qələbələr uğur ardıcıllığının bir nümunəsidir.

Cənab Prezident, bu qələbələr Azərbaycan idman ailəsinin Sizə töhfəsidir. Azərbaycan yığma komandasının bu mötəbər idman tədbirindəki uğurlu çıxışı ölkəmizin gücünü bütün dünyaya nümayiş etdirmişdir. Fürsətdən istifadə edib göstərdiyiniz davamlı diqqət və qayğıya görə Sizə dərin təşəkkürümü ifadə edirəm, Sizə cansağlığı arzulayıram və bildirmək istəyirəm ki, növbəti prezident seçkilərində biz – bütün idman ictimaiyyəti Sizinləyik. Gələcəkdə də ölkəmizdə bədən tərbiyəsi və idmanın inkişaf yolunda var qüvvəmizlə çalışacağıq.

Diqqətinizə görə çox sağ olun.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Doğrudan da bu, böyük qələbədir. Bir daha qeyd etmək istəyirəm ki, bu həm idmanımızın, həm də Azərbaycan dövlətinin qələbəsidir. Gənc müstəqil Azərbaycan dövləti idman aləmində də öz sözünü deyir və biz güclülər sırasındayıq.

Onu da qeyd etmək istəyirəm ki, son illər ərzində Azərbaycanda keçirilmiş beynəlxalq yarışlar, o cümlədən dünya çempionatları, Avropa çempionatları, əlbəttə ki, idmanın inkişafına öz töhfəsini vermişdir. Çünki Azərbaycan indi dünya idman aləmində də çox böyük qiymətə layiq olan bir ölkədir. Azərbaycanda mütəmadi qaydada beynəlxalq yarışlar keçirilir,

o cümlədən, 2 il bundan sonra I Avropa oyunları Azərbaycanda keçiriləcək. Bu da bizim növbəti idman uğurumuzdur.

Bildiyiniz kimi, bu günə qədər Avropa oyunları keçirilmirdi. Başqa qitələrdə bu oyunlar keçirilib, uzun illərdir ki, keçirilir. Avropada isə belə təcrübə yox idi. Belə oyunların keçirilməsi haqqında qəbul edilmiş qərar özlüyündə böyük əhəmiyyətə malikdir. Xüsusilə nəzərə alsaq ki, birinci oyunların keçirilməsi bizə etibar edilib. Bu, əlbəttə, ölkəmizin növbəti uğurudur. İndi hazırlıq işləri gedir, cəmi 2 il vaxtımız var. Siz universiadada uğurla çıxış etmisiniz, bilirsiniz ki, neçə il ərzində universiadaya hazırlıq işləri aparılmışdır. Yay Olimpiya oyunları üçün hazırlıq dövrü təqribən 6-7 ildir. Bu ilin sonunda 2020-ci ildə keçiriləcək Olimpiadanın yeri müəyyən ediləcəkdir. Yəni 6-7 il vaxt olacaqdır.

Bizim isə cəmi 2 il vaxtımız var. Buna baxmayaraq mən əminəm ki, biz Avropa oyunlarını ən yüksək səviyyədə keçirəcəyik. Yay Olimpiya oyunlarının səviyyəsində keçirəcəyik. İndi bunu etmək üçün bizim imkanlarımız var və idman qurğuları, o cümlədən, Bakıda möhtəşəm Olimpiya stadionu, Su İdmanı Sarayı tikilir. Bizim mövcud idman qurğularımız təmir edilir.

Əlbəttə ki, Avropa oyunlarının keçirilməsi təkcə idman infrastrukturunun yaradılması ilə məhdudlaşmır, nəqliyyat, təhlükəsizlik, təşkilati məsələlər. Bütün bu məsələlər böyük zəhmət və istedad tələb edir. Ancaq Azərbaycanın artıq beynəlxalq yarışların və beynəlxalq tədbirlərin keçirilməsində böyük təcrübəsi vardır. Mən heç şübhə etmirəm ki, vaxt azlığına baxmayaraq, biz Avropa oyunlarını yüksək səviyyədə keçirəcəyik. Əminəm ki, siz, bu gün burada əyləşən idmançılar bu oyunlarda fəal iştirak edəcəksiniz, xalqımızı bir daha sevindirəcəksiniz.

Onu da qeyd etmək istəyirəm ki, idmanın inkişafı ilə bağlı, əlbəttə, müxtəlif meyarlar mövcuddur, idman infrastrukturu, idmanla məşğul olan insanların faiz baxımından miqdarı, ondan sonra digər amillər vardır. Ancaq bunların içində hesab edirəm

ki, idmançıların uğurları və medalların sayı ön plandadır. Biz ardıcıllıqla ildən-ilə medalların sayını artırmışıq. Əgər Olimpiya oyunlarının tarixinə nəzər salsaq görərik ki, 1996-cı ildən 2012-ci ilə qədər ardıcıllıqla bütün Olimpiya oyunlarında medalların sayı artmışdır və indi 10 medal əldə edilib. Bu da son hədd deyil, keçən Olimpiya oyunlarında da medalların sayı çox olmalı idi. Sadəcə olaraq, hakimlərin bəzi hallarda ədalətsizliyi buna imkan vermədi.

Ancaq bizim idmançılar hesab edirəm ki, gələcəkdə də bizi sevindirəcəklər. Biz sizdən yeni qələbələr gözləyirik. Çox şadam ki, indi idmanımızda yeni simalar, yeni adlar üzə çıxır. Bu universiadada iştirak edən və uğur qazananların əksəriyyəti gənc idmançılardır, Azərbaycan ictimaiyyətinə o qədər də tanış deyillər. Bu da çox müsbət haldır. Yəni gənc nəsil yetişir və əminəm ki, idmançılarımızın uğurları bundan sonra da olacaqdır.

Bir daha o fikrimə qayıtmaq istəyirəm ki, 162 ölkə arasında dünya miqyasında keçirilmiş Olimpiya oyunlarından sonra ikinci mötəbər yarışda 15-ci yerə layiq olmaq tarixi qələbədir. Ancaq güclü dövlətlər buna qadirdir və güclü dövlət güclü cəmiyyət deməkdir.

İnsanlarımızın peşəkarlığı, istedadı və bir daha demək istəyirəm ki, Vətənə olan bağlılığı, bax, bu uğurları şərtləndirmişdir. Bir daha sizi ürəkdən təbrik edirəm, sizə yeni uğurlar və yeni qələbələr arzulayıram.

## RAMAZAN AYI MÜNASİBƏTİLƏ İFTAR MƏRASİMİNDƏ İŞTİRAK

*Qafqaz Müsəlmanları İdarəsi*

*24 iyul 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 24-də Ramazan ayı münasibətilə Qafqaz Müsəlmanları İdarəsində keçirilən iftar mərasimində iştirak etmişdir.*

*İftar mərasimi Qurani-Kərimdən ayələrin və Ramazan duasının oxunması ilə başladı.*

**Şeyxülislam Allahşükür Paşazadə** *(Qafqaz Müsəlmanları İdarəsinin sədri):* Bismillahir-rəhmanir-rəhim!

Möhtərəm cənab prezident İlham Əliyev həzrətləri!

Hörmətli din xadimləri, səfirlər, əziz qonaqlar!

Ramazan ayının bu mübarək günlərində sizləri iftar mərasimində salamlayır, dəvətimi qəbul etdiyinizə görə cənablarınıza Allahdan xoş arzularımı diləyirəm.

Qurani-Kərimin nazil olduğu Ramazan ayının fəzilətləri böyükdür. Allah-Taalanın mərhəmət və lütfünün ən yüksək dərəcədə təzahür etdiyi bu məqamda müxtəlif din və millət mənsublarının müqəddəs iftar süfrəsi ətrafında toplaşması olduqca önəmlidir. Belə bir ayda din və dövlət xadimlərinin bir araya gəlməsi, xüsusilə Zati-alilərinin bu mübarək gecədə bizimlə birlikdə olması ölkəmizdəki tolerantlığın, dövlətimizin milli-mənəvi dəyərlərə yüksək ehtiramının nümunəsidir.

Bu gözəl ənənənin bünövrəsini unudulmaz şəxsiyyət ulu öndər Heydər Əliyev həzrətləri qoymuşdur. Ulu öndərin möhkəm təməl üzərində qurduğu ölkəmiz bütün sahələrdə yeni

uğurlar qazanmaqdadır. Bu irəliləyişi təmin edən o nurlu yolun davamçısı prezident İlham Əliyev həzrətləridir.

Cənab Prezident! Sizin hər il bu müqəddəs ayda iftar mərasiminə təşrif buyurmağınız, müsəlman dövlətlərinin səfirləri ilə görüşməyiniz dünyada analoqu olmayan bir ənənədir.

Ötən bir il ərzində ölkəmizdə aparılan davamlı quruculuq işlərinin bütün sahələr kimi, mənəviyyat sahəsini də əhatə etməsi məni və dindarları çox sevindirir. İlin çoxsaylı əlamətdar hadisələri sırasında məscid və ziyarətgahların, kilsə və sinaqoqların dövlətimizin başçısı və Heydər Əliyev Fondunun dəstəyi ilə təmir və bərpa işlərini sadalamaq istərdim.

Buna misal olaraq, Azərbaycanda ən qədim ibadətgah olan Şamaxı Cümə məscidinin tamamilə yenidən qurulmuş möhtəşəm binasının dindarların istifadəsinə verilməsini, Bakıda ən böyük məscid binasının təməlinin qoyulmasını, Qəbələdə, Sumqayıtda məscidlərin təntənəli açılışlarını, Gəncədə İmamzadə kompleksində bərpa işlərinin ən yüksək səviyyədə davam etdirilməsini, Rus Pravoslav Kilsəsinin Bakı Yeparxiyası üçün yeni inzibati binanın inşasını, Bakı sinaqoquna dini ehtiyaclar üçün əlavə ərazinin ayrılmasını, Azərbaycan müstəqillik qazandıqdan sonra buraya ilk dəfə müqəddəs Tövrat nüsxəsinin gətirilməsini və digər məqamları sadalamaq olar.

Zati-aliləri! Siz Ümumdünya Mədəniyyətlərarası Dialoq forumlarının keçirilməsinin təşəbbüskarı olmaq iradəsini nümayiş etdirdiniz. Bu yaxınlarda Bakı artıq sayca ikinci Foruma ev sahibliyi etdi. Mən qürur duyuram ki, Siz təkcə ölkə deyil, dünya miqyasında mədəni, mənəvi dəyərlərə dəstək verir, dünyada müxtəlif mədəniyyətlərin dinc birgə-yaşayış ideyasını, multikulturalizmi fəal müdafiə edirsiniz.

Siz bəşəri dəyərlərlə bir araya sığmayan islamofobiya hallarına qarşı hər zaman kəskin etirazınızı bildirir, müqəddəs dinimizin adının terrorla yanaşı çəkilməsinə, Quranın yandırılması və bu kimi hallara qarşı qətiyyətli mövqe nümayiş etdirirsiniz.

Müsəlman ölkələrində tez-tez səfərdə olan şəxs kimi, xüsusi vurğulamaq istərdim ki, gənc, müstəqil Azərbaycan dövlətinin liderinin islam həmrəyliyi məsələlərinə bu qədər böyük önəm verməsi, müqəddəs dinimizin sülhsevər mahiyyətinin dünya miqyasında təbliği istiqamətində səyləri islam dünyasında böyük əks-səda verir və ölkəmizin nüfuzunu daha da artırır. Təsadüfi deyildir ki, Zati-aliləri, Siz beynəlxalq miqyasda onilliyin dövlət başçısı olaraq dəyərləndirilirsiniz.

Ümumiyyətlə, Zati-alilərinizin təşəbbüsləri və hörmətli Mehriban xanımın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun layihələri sayəsində Azərbaycan mədəni, mənəvi və dini dəyərlərə ehtiram məkanına çevrilmişdir. Din xadimi olaraq, bütün görülən işlərə görə, Sizə, cənab Prezident və Fondun rəhbəri Mehriban xanıma minnətdarlığımı bildirmək istəyirəm.

Azərbaycanda keçirilən mötəbər tədbirlərin sayı və miqyası ölkəmizin beynəlxalq səviyyədə nüfuzunun artmasından qaynaqlanır və dünya birliyinin Azərbaycana verdiyi önəmin göstəricisidir.

Məsələn, bu yaxınlarda keçirdiyimiz MDB Müsəlmanları Məşvərət Şurasının Bakı Konfransı zamanı Azərbaycanın dinlərarası və mədəniyyətlərarası dialoq işinə verdiyi töhfənin bütün dünya üçün nümunə sayıla biləcəyi bəyan edildi.

Zati-aliləri! Azərbaycan tarixən müxtəlif mədəniyyətlər arasında mədəni, mənəvi körpü olmuşdur. Bu gün də Sizin müəllifi olduğunuz «Bakı prosesi» sayəsində Azərbaycan Şərq və Qərb mədəniyyətini, mənəviyyatını bir araya gətirmək iqtidarını nümayiş etdirir.

Bəli, Azərbaycan inkişaf edir, ölkəmiz abadlaşır, nəinki paytaxt Bakı, bütün bölgələr də gözəlləşir, müasirləşir. İstər bu yaxınlarda ziyarət etdiyim Naxçıvanın 2018-ci ilin İslam mədəniyyəti paytaxtı, istərsə də Qəbələnin MDB-nin mədəniyyət paytaxtı seçilməsi aparılan böyük quruculuq işlərinin, dini-mənəvi irsə qayğının məntiqi nəticəsidir.

Hamımız bir vətəndaş kimi, müstəqilliyimizin qorunması, torpaqlarımızın işğaldan azad olunması naminə dövlətimizin başçısının ətrafında sıx birləşməli, milli vəhdətə nail olmalıyıq.

Zati-aliləri! Allahın lütfüdür ki, Azərbaycanda ulu öndər Heydər Əliyevdən başlayaraq, dövlət rəhbəri ilə din rəhbəri arasında qarşılıqlı ehtiram və sonsuz etimad mühiti formalaşmışdır.

Ulu öndərlə münasibətlərimizdəki dostluq, qardaşlıq və səmimiyyət, nəticə etibarilə, müstəqillik dövrünə qədəm qoyduğumuz zamanlarda xalqımızın milli-mənəvi dəyərlərinin dirçəldilməsinin bünövrəsini qoymuşdur.

Bizim ulu öndərlə səmimi münasibətlər zəminində açıq fikir mübadilələrimiz, məsləhətləşmələrimiz bir çox problemlərin həllinə vəsilə olmuşdur. Şükürlər olsun ki, dövlət və din münasibətlərinin yüksək səviyyəsinə dəlalət edən bu zəngin təcrübə bu gün Azərbaycanda Zati-alilərinizin iradəsi ilə davam edir.

Şəxsiyyətin bütövlüyündən irəli gələn və ulu öndərdə müşahidə etdiyim nəcib xüsusiyyətləri Zati-alilərinizdə görmək olduqca xoşdur. Səmimi münasibətlərimiz mənim üçün olduqca dəyərlidir və ümummilli mənafelərimizə xidmət edir. Bütün bunlara görə Sizə və ailənizə təşəkkür edirəm.

Möhtərəm cənab Prezident! Bu müqəddəs günlər ruhların şad olan günləridir. Bu yaxınlarda 90 illiklərini qeyd etdiyimiz ulu öndərimiz Heydər Əliyevə və onun ömür-gün yoldaşı Zərifə xanıma Allah-Taaladan rəhmət diləyirəm.

Əlbəttə, Xocalı qətliamının soyqırımı kimi tanınması yönündəki uğurlar Azərbaycan dövlətinin beynəlxalq aləmdə böyük nailiyyəti olmaqla bərabər, şəhidlərimizin ruhlarını şad edən məqamlardandır. Allah şəhidlərimizə rəhmət etsin! Bu əziz günlərdə Allahdan arzumuz budur ki, Qarabağ torpaqları Sizin rəhbərliyinizlə tezliklə azad olunsun, ölkəmizin ərazi bütövlüyü bərpa edilsin.

Möhtərəm cənab Prezident! Vədinizə sadiq qalaraq, bu əziz gündə bu məclisə təşrif buyurmağınız bizi sevindirir. Mən Zati-

alilərinizə hər zaman layiq olduğunuz məqamda bərqərar olmağınızı Uca Allahdan diləyirəm. Gələn illərdə də bu məkanda iftar süfrələrində Sizinlə bir yerdə olmaq bizlərə nəsib olsun, inşallah. Bir daha Sizi və ailənizi qarşıdan gələn bayram münasibətilə təbrik edirəm.

Hamıya bir daha «Xoş gəlmisiniz!» – deyir, Allahdan məclis iştirakçılarına və xalqımıza xeyir-dualar diləyirəm! Amin!

Vəssalamu əleykum və rəhmətullahi və bərəkatuhu!

**A l e k s a n d r** *(Rus Pravoslav Kilsəsinin Bakı və Xəzəryanı Yeparxiyasının rəhbəri):* Möhtərəm cənab Prezident!

Möhtərəm şeyx həzrətləri!

Hörmətli xanımlar və cənablar!

İcazə verin, bütün müsəlmanları mömin insanların həyatında xüsusi dövr olan Ramazan ayı münasibətilə təbrik edim.

Biz olduqca təlatümlü və qarışıq müasir həyatda yaşayırıq. Bu həyatda bizim dini mənsubiyyətimiz və dini vəzifələrimiz barədə düşünməyə həmişə imkan olmur. Xoşbəxtlikdən oruc tutmaq kimi, elə bir vaxt gəlir və hər bir mömin insan anlamağa başlayır ki, o, zaman daxilində yaşasa da əbədiyyətə məxsusdur.

Bu il Azərbaycan üçün əlamətdardır. Bu il «Heydər Əliyev ili» kimi qeyd olunur. Bir tərəfdən, onun anadan olmasının 90 illiyi, digər tərəfdən, vəfatının 10 illiyi tamam olur. Böyük insanlar həyatdan gedəndən sonra, təxminən 2 il qeyri-ixtiyari olaraq həyat onların yaşadığı və çalışdığı istiqamətdə davam edir. Biz artıq 10 ildir ki, Heydər Əliyevin ölkənin inkişafı istiqamətində yaratdığı mühitdə yaşayırıq. Biz ölkənin iqtisadiyyatının, siyasi həyatının, mədəniyyətinin necə sürətlə inkişaf etdiyini görürük.

Amma mən din xadimi kimi, iqtisadi, yaxud siyasi həyata qiymət verməli deyiləm. Mən cəmiyyətin dini mənzərəsi haqqında danışmalıyam. Din xalqın qəlbidir. Heydər Əliyev dərin imanlı insan kimi, bunu yaxşı başa düşürdü. Məhz onun dövründə dini icmalar öz dini həyatının əsl azadlığını və inkişafını əldə etdilər. Ölkədə bu istiqamətdə xeyli iş görüldü. Biz dini məbədlərin, dini məktəblərin tikildiyini görürük.

Bundan başqa, bir çox dini bayramların ümummilli və dövləti xarakter aldığını görürük. Müxtəlif siyasi qüvvələrin dindən öz məqsədləri naminə istifadə etməmələri üçün bütün tədbirlər görülüb. Bütün bunlara Heydər Əliyevin ölkəyə rəhbərliyi dövründə nail olunub. Bundan əlavə, ölkədə əsl tolerantlıq mühiti yaranıb. Müxtəlif milli və dini baxışlara malik insanlar arasında qarşılıqlı hörmət yaranıb. Mən Heydər Əliyevin sözlərini təkrar etməkdən usanmıram: «Çoxmillətlilik bizim sərvətimizdir».

Lakin biz 10 il ərzində dini sahədə də xeyli dəyişikliklərin baş verdiyini görürük. Mən demək istərdim ki, ölkədə nəinki yüksək tolerantlıq səviyyəsinə nail olunub, həm də dinlərarası həyatda tamamilə yeni münasibətlər yaranıb. Biz dinlərarası dialoq adlanan səviyyəyə yaxınlaşmışıq. Bu mərhələdə dini icmalar müxtəlif mədəni və ictimai layihələri birlikdə həyata keçirirlər. Bu da artıq bizim Azərbaycanda gerçəkliyə çevrilib.

Çox hörmətli cənab Prezident! Mən səmimi-qəlbdən Sizi Ramazan ayı münasibətilə təbrik edirəm. Tam əminəm ki, Siz bu istiqamətdə fəaliyyətinizi davam etdirəcək, Qafqazda sülhün və sabitliyin möhkəmləndirilməsi, Azərbaycan xalqının daha firavan həyatı üçün var qüvvənizi sərf edəcəksiniz. Sizə bu yolda tükənməz qüvvə və Tanrının köməyini arzulayıram!

**M i l i x  Y e v d a y e v** *(Bakı Dağ Yəhudiləri Dini İcmasının sədri):* Müqəddəs Ramazan ayı 11 ayın sultanı, xeyir-bərəkət ayıdır. Buna görə də Ramazan ayının orucunun öz xüsusi hikmətləri vardır. Müqəddəs Qurani-Kərimin orucluğa aid hədislərinin birində deyilir ki, «Adəm oğlunun hər bir əməli özü üçündür, ancaq orucdan qeyri. O, Allah üçündür, əvəzini də Allah verir». Allah-Taala bütün tutduğunuz orucların, etdiyiniz duaların əvəzində sizə xoşbəxtlik və səadət bəxş etsin.

Biz dağ yəhudiləri uzun əsrlərdir ki, bu torpaqda məskunlaşmışıq. Uzun əsrlərdir ki, biz bu xalqla doğmalaşıb, qardaşlaşmışıq. Azərbaycan xalqı həmişə bizə dayaq olmuş və bir qalxana çevrilərək həmişə bizi bütün bəlalardan müdafiə etmişdir. Həmin bu qardaşlığın rəmzidir ki, Azərbaycanda

yaşamış və indi bütün dünyada yayılmış dağ yəhudilərinin hər biri özünü hər vaxt, hər zaman azərbaycanlı sayır və Azərbaycanı öz Vətəni hesab edir. Bu qardaşlığın rəmzidir ki, möhtərəm cənab Prezidentin sərəncamı ilə Bakıda gözəl bir sinaqoq tikilmişdir. Bu ibadətgah Azərbaycanda yaşayan dağ yəhudilərinə, ümumiyyətlə, bütün dünyaya yayılmış dağ yəhudilərinə bir hədiyyədir.

Ulu öndərin bizim xalq üçün bir qalxana çevrilmiş kəlamını Sizin diqqətinizə çatdırmaq istərdim: «Yəhudilər Azərbaycanda tam əmin-amanlıq şəraitində yaşaya bilərlər». Bəli, bu əmin-amanlığın nəticəsidir ki, yəhudilər əsrlər boyu Azərbaycanda yaşamış, yaşayır, yaşayacaqlar.

Bu məqamda ulu öndərin daha bir kəlamını xatırlatmaq istərdim: «Tolerantlıq yüksək mədəniyyətin təzahürüdür». Bəli, yüksək mədəniyyətin təzahürü odur ki, Azərbaycanda yaşayan bütün xalqlar öz milli adət-ənənələrini, milli-mənəvi dəyərlərini saxlayaraq dinc, sakit və mehriban yaşayırlar.

Möhtərəm Prezident həzrətləri!

Şeyx həzrətləri!

Möhtərəm qonaqlar! Hamınıza Ulu Tanrıdan cansağlığı, ailələrinizə səadət, süfrələrinizə bol ruzi, bərəkət, xalqımıza sülh və əmin-amanlıq arzulayıram.

Allah-Taaladan arzum budur ki, yaxın zamanlarda doğma Qarabağımızda Azərbaycanın Dövlət bayrağı dalğalansın, gələn Ramazan bayramını doğma Qarabağda keçirək. Allah-Taala bu gözəl günlərdə cəmi şəhidlərimizin ruhunu şad etsin. Allah-Taala Azərbaycanı qorusun. Allah-Taala hamınıza yar olsun.

**Vladimir Fekete** *(Azərbaycandakı Katolik kilsəsinin baş keşişi):* Əlahəzrət cənab prezident İlham Əliyev!

Əlahəzrət şeyxülislam Allahşükür Paşazadə!

Hörmətli xanımlar və cənablar!

Mən xoşbəxtəm ki, hörmətli şeyx bizi bu il də müqəddəs Ramazan ayı münasibətilə keçirilən bu tədbirdə və Ramazan ayının sonunda keçiriləcək böyük «Ədl-fitrə» bayramında birlikdə iştiraka dəvət edib. İlk növbədə, mən bizim hörmətli

şeyxə bu gözəl binada bizə göstərdiyi qonaqpərvərliyə görə minnətdarlığımı bildirirəm. Biz dəfələrlə bu qonaqpərvərliyin şahidi olmuşuq.

Möhtərəm şeyxülislam! Azərbaycanın bütün katolikləri adından sizə ən xoş arzularımı bildirirəm. Ulu Tanrı sizi və ailənizi qorusun! Bu gözəl ölkənin bütün sakinlərinin həyatında dini dözümlülük və əməkdaşlıq ideyalarının möhkəmləndirilməsi istiqamətində fəaliyyətinizdə Tanrı yardımçınız olsun. Şəxsən mənim üçün çox fərəhlidir ki, bu fürsətdən istifadə edərək, Azərbaycanda və xaricdə yaşayan katoliklər adından, cənab Prezident, xüsusilə Sizə dərin ehtiram və minnətdarlıq duyğularımı ifadə edim. Bu axşam burada dəfələrlə deyildiyi kimi, Siz dini dözümlülüyün və mərhum atanız, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu müdrik siyasətin qarantısınız. Sizin rəhbərliyiniz altında bu siyasət davam edir və möhkəmlənir.

Zati-aliləri, biz Sizin və hökumətinizin ölkənin modernləşdirilməsi, zəngin mədəniyyətinizin və tarixi-mədəni irsinizin qorunub saxlanması istiqamətində fəaliyyətinizi dəstəkləyirik. Mən Sizə əsrlər boyu Azərbaycan ərazisində mövcud olmuş bu ölkənin ənənəvi icmalarına göstərilən köməyə və dəstəyə görə minnətdarlığımı bildirirəm.

Azərbaycan katolikləri kiçik icmadır. Hərçənd bu icma Azərbaycanın inkişafına kömək etmək istəyən əcnəbilər hesabına son vaxtlar genişlənməkdədir. Biz dua edirik ki, Azərbaycanda həyat gələcəkdə də sülh və əmin-amanlıq şəraitində davam etsin. Qoy İlahi qanunlara riayət və hər bir insanın ləyaqətinə hörmət bizim ölkəmizin tərəqqisinə və inkişafına xidmət etsin.

Əlahəzrət möhtərəm Prezident!

Hörmətli şeyxülislam!

Hörmətli qonaqlar!

İcazə verin, bir daha hamınıza Ramazan ayı münasibətilə möhkəm cansağlığı, Tanrı köməyi və bütün müsəlman qardaşlarımıza əmin-amanlıq, sülh və tərəqqi arzulayım.

## RAMAZAN AYI MÜNASİBƏTİLƏ İFTAR MƏRASİMİNDƏ ÇIXIŞ

*24 iyun 2013-cü il*

Hörmətli şeyx həzrətləri!
Hörmətli din xadimləri!
Xanımlar və cənablar!
Əziz dostlar!

İlk növbədə, şeyx həzrətləri, mənim haqqımda dediyiniz xoş sözlərə görə sizə minnətdaram. Eyni zamanda, digər çıxışlarda səslənən fikirlərə görə də minnətdarlığımı bildirmək istəyirəm.

Əslində bu çıxışlar və səslənən bu fikirlər bizim birliyimizi, Azərbaycan cəmiyyətinin birliyini göstərir. Bizim birliyimiz reallıqdır. Müstəqil Azərbaycanın ən böyük sərvətlərindən biri də ondan ibarətdir ki, Azərbaycanda bütün xalqların, bütün dinlərin nümayəndələri rahat, bir ailə kimi yaşayırlar, bütün hüquqlardan istifadə edirlər. Heç vaxt Azərbaycan tarixində dini, milli zəmində ayrı-seçkilik, yaxud da qarşıdurma olmamışdır və əminəm ki, olmayacaqdır.

İctimai-siyasi quruluşdan asılı olmayaraq, bütün dövrlərdə Azərbaycanda yaşayan bütün xalqlar bir yerdə olmuşlar və bugünkü mərasim bunun əyani sübutudur. Əminəm ki, bundan sonra da Azərbaycanda millətlərarası, dinlərarası münasibətlər bu sağlam zəmində inkişaf edəcək və bizim birliyimiz, gücümüz artacaqdır.

Bu gün Azərbaycan güclü dövlətdir və bizim gücümüz təkcə iqtisadi nailiyyətlərlə ölçülmür. Cəmiyyətimizin çox sağlam dayaqları vardır. Bu dayaqlar tarix, dərin mənəviyyat, qarşılıqlı anlaşma, qarşılıqlı dəstək üzərində qurulubdur. Hesab edirəm ki, bizim təcrübəmiz bir nümunə olaraq artıq dünyada öyrənilir.

Azərbaycanda vaxtaşırı keçirilən mötəbər beynəlxalq tədbirlər, xüsusilə dini və milli dözümlülüklə bağlı olan tədbirlər bir daha bunu göstərir, müxtəlif bölgələrdən, diyarlardan gələn qonaqlar vurğulayırlar ki, Azərbaycanda bu münasibətlər ən yüksək səviyyədə qurulmuşdur. Bizim üçün isə bu təbiidir. Çünki bu bizim həyat tərzimizdir, başqa cür ola da bilməz. Ancaq bəzi hallarda başqa ölkələrdə yaşanan olaylara nəzər salaraq görürük ki, heç də hər yerdə belə deyil. Ona görə bir daha əldə edilmiş bütün bu nailiyyətləri düzgün təhlil edərək deyə bilərik ki, bu bizim böyük sərvətimizdir, böyük xoşbəxtliyimizdir. Biz bu dəyəri qorumalıyıq və qoruyacağıq. Dövlət öz tərəfindən üzərinə düşən vəzifələri icra edir. Çox şadam ki, bütün dini icmalar, dini konfessiyalar da bu sahədə vahid mövqedən çıxış edirlər.

Bugünkü iftar mərasimimiz ənənəvi xarakter daşıyır. Mən artıq 10-cu dəfədir ki, Prezident kimi, bu mərasimdə iştirak edirəm. Bu ənənəni ulu öndər Heydər Əliyev və şeyx həzrətləri qoymuşlar. Artıq şeyx həzrətləri dediyi kimi, bu da nadir bir təcrübədir. Çünki Azərbaycanda dövlət–din münasibətlərinin düzgün istiqamətdə inkişafı üçün bu mərasimlər çox lazımdır. Hər bir sahədə olduğu kimi, ulu öndərin o cümlədən bu sahədə qoyduğu ənənələr yaşayır, davam edir.

Dövlət–din münasibətlərinin düzgün zəmində qurulması hər bir dövlət, xüsusilə gənc dövlətlər üçün önəmlidir. Xüsusilə tam başqa bir ictimai quruluşda, ateizm şəraitində yaşamış dövlət üçün bu münasibətlər, demək olar ki, sıfırdan qurulmalı idi və quruldu da. Əlbəttə, bu münasibətlərin düzgün istiqamətdə inkişafı bizim gücümüzü daha da artırdı, cəmiyyətdə mövcud olan sağlam ab-havanı və gələcək üçün gözəl imkanları yaratdı.

Azərbaycan çoxmillətli, çoxkonfessiyalı dövlətdir. Bu bizim böyük sərvətimizdir. Biz bu sərvəti qoruyuruq və qoruyacağıq. Ulu öndər Heydər Əliyevin bu sahədəki təşəbbüsləri xalq tərəfindən, dindarlar tərəfindən yüksək qiymətləndirilmişdir.

Şeyx həzrətlərinin fəaliyyətini xüsusilə vurğulamaq istəyirəm. Şeyx həzrətlərinin Azərbaycanda, Qafqazda çox böyük

hörməti vardır. Mən Şimali Qafqaz respublikalarının müftiləri ilə vaxtaşırı görüşlər əsnasında bir daha görürəm ki, şeyx həzrətlərinə nə qədər böyük inam və hörmət vardır. Şeyx həzrətləri nəinki Qafqazda, MDB məkanında tanınmış dini liderdir. Təsadüfi deyil ki, o, MDB Dinlərarası Əlaqələndirmə Şurasına həmsədrlik edir. Dünya miqyasında, bizim bölgədə şeyx həzrətlərinin fəaliyyəti çox uğurludur və dövlətimizin maraqlarını təmin edir.

Bax, bu nadir vəziyyət bir daha onu göstərir ki, Azərbaycan düzgün istiqamətdə inkişaf edir. Azərbaycanda hər bir istiqamət üzrə düşünülmüş siyasət vardır. Hər bir məsələ ilə bağlı konkret yanaşma mexanizmləri, prinsipləri var, o cümlədən ictimai proseslərlə, dini siyasətlə bağlı.

Təsadüfi deyil ki, müstəqillik dövründə Azərbaycanda 2 minə yaxın məscid tikilmişdir. Son 10 ildə 140-a yaxın məscid tikilmiş, 80 məscid isə əsaslı təmir edilmişdir. Digər dinlərin də dini ocaqları, məbədləri artıq burada deyildiyi kimi, təmir edilir, tikilir. Yəni bu sahədə heç bir ayrı-seçkilik yoxdur. Mən tam əminəm ki, insanlarda başqa dinlərə olan hörmət öz dininə hörmətdən başlayır. Bu nadir atmosferi biz düzgün qiymətləndirməliyik, qorumalıyıq və dünyada təbliğ etməliyik. Azərbaycan haqqında dolğun məlumatları dünya ictimaiyyətinə çatdırmalıyıq.

Deyə bilərəm ki, son illər Azərbaycan ilə bağlı olan reallıqlar dünya ictimaiyyətinə çatdırılır. Dünyada Azərbaycan ilə bağlı olan fikirlər müsbətdir. Bizim beynəlxalq nüfuzumuz artır. Əgər belə olmasaydı, dünya birliyi bizə böyük etibar göstərib BMT Təhlükəsizlik Şurasına üzv seçməzdi. 155 ölkə bizə inandı, bizi dəstəklədi. Bu, beynəlxalq aləmin mütləq əksəriyyəti deməkdir.

Əlbəttə, əminəm ki, gələcəkdə də Azərbaycanda bütün ictimai proseslər, o cümlədən dini siyasət düzgün istiqamətdə inkişaf edəcəkdir. Biz elə etməliyik ki, bizdən sonra gələn nəsil də milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə alsın. Milli-mənəvi dəyərlər gələcək nəsillər üçün əsas olmalıdır. Biz

müstəqil, demokratik dövlətik, dünyəvi ölkəyik. Dövlətimiz çox güclü əsaslar, ənənələr, milli dəyərlər üzərində qurulubdur. Bu dəyərlər əsrlər boyu bizi xalq kimi qoruyub saxlaya bildi Biz başqa dövlətlərin tərkibində yaşamışıq. Bu dəyərlər – öz dini bayramlarımıza olan münasibət, öz adət-ənənələrimizə olan hörmət, bütün bu amillər nəsildən-nəslə keçməli və davam etməlidir. Mən çox şadam ki, bizim gənclərimiz də milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə alırlar. Vətən sevgisi hər bir insan üçün, xüsusilə gənclər üçün əsas olmalıdır.

Burada qeyd edildiyi kimi, Azərbaycanda multikulturalizmlə bağlı keçirilən tədbirlər artıq dünyanın diqqətini cəlb etdi. Multikulturalizm nisbətən yeni anlayışdır. Ancaq bu anlayışın mahiyyəti əsrlər boyu Azərbaycanda mövcud olmuşdur. Bu bizim normal həyat tərzimizdir, başqa cür ola da bilməz. Ona görə Azərbaycanda bu mövzu ilə bağlı keçirilən mötəbər tədbirlər təbiidir. Azərbaycanda şeyx həzrətlərinin təşəbbüsü ilə bir neçə il əvvəl dünya dinlərinin liderlərinin zirvə görüşü keçirilmişdir. Humanitar forumlar keçirilir. İkinci dəfə Beynəlxalq Mədəniyyətlərarası Dialoq Forumunun keçirilməsi də çox əlamətdar hadisə idi. Çünki bu, artıq yeni ənənəyə çevrilmişdir. Bu tədbirlərin keçirilməsi və açıq fikir mübadiləsinin aparılması özlüyündə müsbət haldır. Çünki ilk növbədə, Azərbaycanın timsalında dinlərarası, millətlərarası münasibətlərin necə uğurla tənzimlənməsini hər kəs müşahidə edə bilər. Bu forumlarda açıq şəkildə aparılan fikir mübadiləsi insanları birləşdirir, yaxınlaşdırır. Bəzi hallarda mövcud olan anlaşılmazlıqları da aradan götürür. Bu onu göstərir ki, bütün xalqlar, bütün dinlər birlikdə yaşaya bilər. Əgər radikalizmə yol verilməsə, əgər radikalizmin qarşısı alınarsa, əgər diskriminasiya, ksenofobiya, islamofobiya, rasizm, faşizm kimi XXI əsr üçün məqbul olmayan anlayışlar aradan götürülərsə və əgər dünya siyasətçiləri bu məsələlərlə bağlı öz qəti mövqelərini ortaya qoyarlarsa, qısa müddət ərzində bu sahədə sağlamlaşma gedə bilər.

Ancaq əfsuslar olsun ki, bəzi hallarda biz bunun əksini görürük. Görürük ki, bəzi hallarda daha çox ayrı-seçkiliyə rəvac verilir. Milli, dini zəmin üzərində qərarlar qəbul edilir. Bəzi xalqlar diskriminasiyaya məruz qalırlar. Multikulturalizmlə bağlı fikirlər səslənir ki, multikulturalizm iflasa uğradı. Multikulturalizmin gələcəyi yoxdur. Bu çox zərərli fikirlərdir. Mən bu barədə bir neçə dəfə fikirlərimi bildirmişəm və bir daha demək istəyirəm ki, multikulturalizmin dünyada çox müsbət təcrübəsi, müsbət əlamətləri, ünvanları vardır. Onların biri də Azərbaycandır. Biz Azərbaycanın timsalında bu münasibətlərin necə düzgün həll edilməsini görə bilirik. Ona görə gələcəkdə də Azərbaycanda bu kimi forumlar keçiriləcəkdir.

Azərbaycan bu gün bölgənin iqtisadi mərkəzinə çevrilmişdir. Siyasi proseslərin gedişatında bizim böyük rolumuz, təsir imkanlarımız vardır. Azərbaycan bu gün humanitar sahədə də bölgənin mərkəzidir. Xüsusilə dinlərarası münasibətlərin qurulması ilə əlaqədar bizim təcrübəmiz çox müsbətdir.

«Bakı prosesi» haqqında şeyx həzrətləri öz çıxışında söylədi. Bu da Bakıda baş vermiş hadisədir. Bu proses 2008-ci ildə başlamışdır. İlk dəfə olaraq İslam Əməkdaşlıq Təşkilatı və Avropa Şurasına üzv olan ölkələrin nazirləri bir araya gəldilər və birgə sənəd qəbul edildi. Ondan sonra müxtəlif tədbirlər keçirilmişdir. Əlbəttə ki, Azərbaycanın nadir, siyasi imkanları da bu prosesin Bakıda həyata keçirilməsinə xidmət etmişdir. Çünki biz həm İslam Əməkdaşlıq Təşkilatının, həm də Avropa Şurasının üzvüyük. Hər iki təşkilatda çox fəalıq və dinlərarası, mədəniyyətlərarası, qitələrarası körpü rolunu oynayırıq. Ancaq bu coğrafi vəziyyət əgər ciddi siyasət olmasa, əlbəttə ki, çox böyük əhəmiyyətə malik deyildir. İş burasındadır ki, Azərbaycanda reallaşan böyük layihələr – energetika, nəqliyyat, infrastruktur sahələrində reallaşan layihələr, humanitar sahədə reallaşan təşəbbüslər Azərbaycanı bu bölgənin mərkəzinə çevirmişdir. Bu, böyük şərəfdir, böyük məsuliyyətdir. Dediyim bu məsələlərlə bağlı Azərbaycanın mövqeyindən, yanaşmasından və addımlarından çox şey asılıdır. Biz bu məsuliyyətə hazırıq,

bunu öz üzərimizə götürmüşük və əminəm ki, bu məsuliyyəti böyük şərəflə aparacağıq.

Əziz dostlar, bu müqəddəs Ramazan ayında görüşməyimizi mən bir daha qeyd etmək istəyirəm. Bu ənənə yaşamalıdır və yaşayacaqdır. Bu ənənənin yaşadılması üçün hər bir Azərbaycan vətəndaşı öz səylərini qoymalıdır və biz cəmiyyətdə formalaşmış çox gözəl ab-havanı qorumalıyıq, müstəqil inkişafımızı təmin etməliyik. Biz müstəqilliyin üstünlüklərini görürük. Bugünkü mərasim və bu mövzu ilə bağlı burada səslənən fikirlər bir daha müstəqilliyin üstünlüyünü təsdiqləyir. Çünki müstəqilliyə qədər olan dövrdə belə mərasimlərdən söhbət gedə bilməzdi. Biz öz dini bayramlarımızı evlərdə, yaxınlarımızın əhatəsində qeyd edirdik. Bu gün bizim dini bayramlarımız dövlət səviyyəsində qeyd edilir. Ramazan bayramı, Qurban bayramı, əsrlər boyu yaşatdığımız, ürəyimizdə saxladığımız Novruz bayramı bizim böyük sərvətimizdir, Azərbaycan xalqının böyük sərvətidir.

Qarşıdan gələn bayram münasibətilə sizi, Azərbaycan xalqını və dünya müsəlmanlarını təbrik etmək istəyirəm, hər birinizə uğurlar, cansağlığı arzulayıram. Sağ olun.

**Şeyxülislam Allahşükür Paşazadə:** Zatialiləri, cənab Prezident!

Ünvanıma söylədiyiniz xoş sözlərə, şəxsiyyətimə verdiyiniz qiymətə görə Sizə dərin minnətdarlığımı bildirirəm. Mən bilirəm ki, Sizin dedikləriniz xalqımızın milli-mənəvi dəyərlərinə verilən yüksək qiymətdir. Ona görə də çox sağ olun.

Allah ulu öndər Heydər Əliyev həzrətlərinə rəhmət etsin. 1994-cü ilin oktyabrında çevrilişə cəhd dövründə xalq hamısı Prezident Aparatının qarşısında, mən 5-6 nəfərlə – adlarını da bilirəm, deyə bilərəm – səhərə qədər Prezident Aparatında qapı ağzında bərabər idik. O dövrdə ulu öndər mənə belə dedi: «Şeyx həzrətləri, məni istəməyənlər vardır. Hətta məni məhv etmək istəyən qüvvələr vardır. Onlar mənə heç vaxt qalib gələ bilməz. Çünki mən Allahlayam, Allah da mənimlədir».

Mən ancaq onu deyə bilərəm ki, Prezident həzrətləri, Allah həmişə Sizə yar olsun. Həmişə Siz qalib gələsiniz. Çünki Sizin getdiyiniz yol həqiqət yoludur, Heydər Əliyev yoludur, Allah yoludur.

Mən burada qardaşlarıma da, başqa dinə mənsub qardaşlarıma da minnətdarlığımı bildirirəm. Mən bu gün bir sirri də açmaq istəyirəm. Bu görüş sabah olmalı idi. Amma Prezident həzrətləri onu bu günə təyin etdi. Nəyə görə? Çünki peyğəmbərimiz Məhəmməd Sallallahu Əleyhi və Səlləmin nəvəsi, Həzrəti Əlinin, Fatimənin oğlu İmam Həsən Əleyhissalamın anadan olan günüdür. Bu müqəddəs gün bütün müsəlmanları, məzhəbləri birləşdirən bir gündür. Ona görə də mən fürsətdən istifadə edərək, başda Prezident həzrətləri olmaqla, xalqımızı və burada iştirak edənlərin hamısını bayram münasibətilə təbrik edirəm.

**İSPANİYA KRALI ƏLAHƏZRƏT
I XUAN KARLOSA**

Əlahəzrət!

Madrid–Ferrol istiqamətində hərəkət edən sərnişin qatarının qəzaya uğraması nəticəsində çox sayda insanın tələf olması və xəsarət alması xəbəri məni son dərəcə kədərləndirdi.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına Azərbaycan xalqı adından və şəxsən öz adımdan dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 iyul 2013-cü il*

**PERU RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB OLYANTA UMALA TASSOYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı Azərbaycan xalqı adından və öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Peru arasındakı münasibətlərin inkişafı dostluq əlaqələrimizin möhkəmlənməsinə, əməkdaşlığımızın genişlənməsinə xidmət edəcəkdir.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, dost Peru xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 iyul 2013-cü il*

## ZIĞ DAİRƏSİ – HEYDƏR ƏLİYEV BEYNƏLXALQ AEROPORTU AVTOMAGİSTRALININ 13-cü KİLOMETRLİYİNDƏN QALA QƏSƏBƏSİNƏ GEDƏN YOLUN AÇILIŞI MƏRASİMİ

*25 iyul 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 25-də Zığ dairəsi – Heydər Əliyev Beynəlxalq Aeroportu avtomagistralının 13-cü kilometrliyindən Qala qəsəbəsinə gedən yolun açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş «Bakı şəhərinin qəsəbələrinin 2006–2007-ci illər üzrə sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Proqramı»nın davamı olan 2011–2013-cü illəri əhatə edən Dövlət Proqramı bir çox sahələrlə yanaşı, paytaxtda yol infrastrukturunun müasirləşdirilməsini də əhatə edir. İndi Bakı və ətraf qəsəbələrin yolları ən müasir səviyyədə yenidən qurulur, yeni yol qovşaqları inşa edilir. Zığ dairəsi – Heydər Əliyev Beynəlxalq Aeroportu avtomagistralının 13-cü kilometrliyindən Qala qəsəbəsinə gedən yolun müasir tələblər səviyyəsində inşası bunu aydın nümayiş etdirir.*

*Məlumat verildi ki, prezident İlham Əliyevin Bakı şəhərinin nəqliyyat sisteminin inkişaf etdirilməsi və paytaxtın kənd və qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramında nəzərdə tutulan tədbirlər çərçivəsində inşa olunmuş və Bakıda həyata keçirilən yol-nəqliyyat layihələrinin tərkib hissəsi kimi, mühüm əhəmiyyətə malikdir. Ümumi uzunluğu 12,5 kilometr olan yol ən müasir səviyyədə inşa edilib. Yolboyu geniş abadlıq işləri aparılıb, müasir yol nişanları qoyulub, müasir işıqlandırma sistemi yaradılıb, yaşıllaşdırma işləri görülüb. Yeni yol Bakı şəhərinin Türkan, Zirə, Gürgən, Pirallahı,*

*Dübəndi, Qala, Şüvəlan və Mərdəkan qəsəbələrinin nəqliyyat əlaqələrinin yaxşılaşdırılmasına, şəhərin mərkəzinə gələn nəqliyyat vasitələrinin normal hərəkətinə şərait yaradacaqdır. Magistral boyu yol qovşaqları, avtomobil keçidi tikilmiş, suötürücü dəmir-beton borular quraşdırılmışdır.*

*Prezident İlham Əliyevə Babək prospekti ilə K.Əfkari küçəsinin və Neftçilər prospekti ilə Y.Səfərov küçəsinin kəsişmələrində inşa edilən yeraltı piyada keçidləri barədə də məlumat verildi.*

*Bildirildi ki, Babək prospekti ilə K.Əfkari küçəsinin kəsişməsində yerləşən keçidin ümumi uzunluğu 80, eni isə 8 metrdir. Keçid ən müasir səviyyədə inşa edilib. Hündürlüyü 3,2 metr olan keçidin 2 çıxışı vardır. Neftçilər prospekti ilə Y.Səfərov küçəsinin kəsişməsində inşa edilən yeraltı piyada keçidi də müasir səviyyədədir. Bu keçidin uzunluğu 89 metr, eni 8, hündürlüyü 3 metrdir. Burada 4 eskalator quraşdırılıb.*

*Sonra dövlətimizin başçısı Zığ dairəsi – Heydər Əliyev Beynəlxalq Aeroportu avtomagistralının 13-cü kilometrliyindən Qala qəsəbəsinə gedən yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

## PAYTAXTIN FÜZULİ VƏ MİRZƏAĞA ƏLİYEV KÜÇƏLƏRİNİN ARASINDA İNŞA OLUNMUŞ YERALTI AVTOMOBİL DAYANACAĞININ AÇILIŞI MƏRASİMİ

*25 iyul 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 25-də paytaxtın Füzuli və Mirzəağa Əliyev küçələrinin arasında inşa olunmuş yeraltı avtomobil dayanacağının açılışında iştirak etmişdir.*

*Son dövrlərdə Bakıda yaradılan yeraltı avtomobil dayanacaqları da paytaxtda tıxacların qarşısının alınması, avtomobillərin maneəsiz və təhlükəsiz hərəkətini təmin etmək baxımından mühüm rola malikdir. Belə dayanacaqların yaradılması ilə yanaşı, yeraltı piyada keçidlərinin inşası da yol-nəqliyyat infrastrukturunun daha da müasirləşdirilməsi istiqamətində atılan addımların nəticəsidir.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov dövlətimizin başçısına yeraltı avtomobil dayanacağının texniki göstəriciləri barədə məlumat verərək bildirdi ki, yeraltı dayanacaq 4500 avtomobil tutumuna, bundan əlavə 37 avtomobil tutumu olan xüsusi bölməyə malikdir. Burada, həmçinin avtoyuma məntəqələri də fəaliyyət göstərəcəkdir. Dayanacaq üçmərtəbəlidir və ümumi sahəsi 21 hektardır. Mərtəbələrdən ikisi avtomobil dayanacağı, biri isə texniki mərtəbədir. Texniki mərtəbədə digər qurğularla yanaşı, 1200 kubmetr tutumu olan 8 su hovuzu da yerləşir. Yeraltı dayanacaq müasir avadanlıq və sistemlərlə təchiz edilib. Burada ən müasir havalandırma, yanğından mühafizə və təhlükəsizlik sistemləri quraşdırılıb. Təhlükəsizliyin və nəzarətin tam təmin edilməsi məqsədilə dayanacaqda 270-ə yaxın kamera qoyulub. Bundan əlavə,*

*çıxışlar 700 dərəcəyə dözən şüşəbəndlərlə bağlanılıb. Burada 5 giriş-çıxış mövcuddur. Şəmsi Bədəlbəyli küçəsi yeraltı dayanacağın üzərindən keçdiyindən bu hissə körpü prinsipi ilə inşa edilib.*

*Prezident İlham Əliyev yeraltı avtomobil dayanacağının üstündə salınan park, bağ və fəvvarələr kompleksini gəzdi.*

*Məlumat verildi ki, yeraltı avtodayanacaqda 14 lift quraşdırılıb. Parkın ətrafında 7 yeraltı keçid inşa edilib və 24 eskalatorla təchiz olunub. Əlillər üçün 8 lift-eskalator fəaliyyət göstərir. Beləliklə, 7 hektar sahəsi olan bu kompleks indi paytaxt sakinlərinin və qonaqların ən sevimli istirahət məkanlarından birinə çevrilib.*

## AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ FİLİPP LEFORTUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*26 iyul 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 26-da Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Filipp Lefortun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə əlaqədar danışıqlar prosesi və Azərbaycanda qaçqınların vəziyyəti ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

**MƏRAKEŞ KRALI ƏLAHƏZRƏT**
**VI MƏHƏMMƏDƏ**

Əlahəzrət!

Əziz qardaşım!

Mərakeşin milli bayramı – Taxt-tac Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı Azərbaycan xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, dostluq əlaqələrimizin daim möhkəmləndirilməsi, qarşılıqlı etimad və dəstəyə əsaslanan əməkdaşlığımızın ikitərəfli və çoxtərəfli qaydada müvəffəqiyyətlə davam etdirilməsi üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Mərakeş xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 iyul 2013-cü il*

**İTALİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB CİORCİO NAPOLİTANOYA**

Hörmətli cənab Prezident!

Ölkənizin cənubunda avtobusun qəzaya uğraması nəticəsində çox sayda insanın həlak olması və xəsarət alması xəbəri bizi olduqca kədərləndirdi.

Baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına Azərbaycan xalqı adından və öz adımdan dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 iyul 2013-cü il*

**İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB UELİ MAURERƏ**

Hörmətli cənab Prezident!

İsveçrə Konfederasiyasının milli bayramı münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimi yetirirəm.

Bu gün Azərbaycan–İsveçrə münasibətləri hərtərəfli inkişaf etməkdədir. Ümidvaram ki, ölkələrimiz və xalqlarımız arasındakı dostluq əlaqələrinin möhkəmləndirilməsi və qarşılıqlı faydalı əməkdaşlığımızın daha da dərinləşdirilməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İsveçrə xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 iyul 2013-cü il*

**BENİN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB BONİ YAYİYƏ**

Hörmətli cənab Prezident!

Benin Respublikasının milli bayramı münasibətilə Sizi və xalqınızı Azərbaycan xalqı adından və öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Benin arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Benin xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 iyul 2013-cü il*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏMNUN HÜSEYNƏ**

Hörmətli cənab Məmnun Hüseyn!

Pakistan İslam Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Mən Azərbaycan–Pakistan münasibətlərinə xüsusi əhəmiyyət verirəm. Ümidvaram ki, xalqlarımızın iradəsini ifadə edən, qarşılıqlı etimad və dəstəyə əsaslanan dövlətlərarası münasibətlərimizin və dostluq əlaqələrimizin daim möhkəmləndirilməsi, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın xoş ənənələrinin bundan sonra da müvəffəqiyyətlə davam etdirilməsi üçün birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Pakistan xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 iyul 2013-cü il*

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BARAK OBAMAYA**

Hörmətli cənab Prezident!

Ad gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edir, Sizə möhkəm cansağlığı, uzun ömür və xoşbəxtlik arzulayıram.

Bu gün Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatlarını möhkəm dostluq və sıx əməkdaşlıq münasibətləri birləşdirir. Məmnunluq hissi ilə qeyd etmək istərdim ki, enerji təhlükəsizliyinin təmin edilməsi sahəsində birgə səylərimiz strateji tərəfdaşlıq xarakteri almışdır. Qlobal təhdidlərə və terrorizmə qarşı mübarizədə, münaqişə ocaqlarında sülhyaratma missiyasında və bir sıra digər sahələrdə əməkdaşlığımız da bu qəbildəndir.

Eyni zamanda, biz xalqımızın qarşılaşdığı ən ağrılı problem olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üçün ATƏT-in Minsk qrupunun həmsədri kimi, Birləşmiş Ştatların və şəxsən Sizin səylərinizə böyük ümidlər bəsləyir, bu səylərin münaqişənin beynəlxalq hüquq çərçivəsində ədalətli həllinə tezliklə töhfə verəcəyini gözləyirik.

Belə bir əlamətdar gündə, cənab Prezident, Sizə və ailənizin bütün üzvlərinə ən xoş arzularımı yetirir, dost Amerika xalqının rifahı naminə fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 avqust 2013-cü il*

**SİNQAPUR RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB TONİ TAN KENQ YAMA**

Hörmətli cənab Prezident!

Sinqapur Respublikasının milli bayramı münasibətilə Sizə və bütün xalqınıza Azərbaycan xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan–Sinqapur əlaqələri bundan sonra da dostluq və əməkdaşlıq zəminində inkişaf edərək, xalqlarımızın rifahına xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Sinqapur xalqına isə daim sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 avqust 2013-cü il*

## RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızı mübarək Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir və ən səmimi arzularımı çatdırıram.

Ramazan ayı müqəddəs kitabımız Qurani-Kərimin nazil olması ilə əlamətdardır. İnsanlar arasında birlik, bərabərlik və xeyirxahlığı, dini dəyərlərə bağlılığı təcəssüm etdirən bu mübarək ayda müsəlmanlar Allah qarşısında vicdani borcunu daha dolğun ödəmək fürsəti qazanır, mənəvi zənginliyin və əxlaqi kamilliyin nəfs üzərində qələbə sevincini yaşayırlar.

Tarixən islam dünyasının mədəni mərkəzlərindən biri kimi tanınmış Azərbaycanda dini və milli-mənəvi dəyərlərə hörmət həmişə qorunub saxlanmışdır. Respublikamızda vicdan və dini etiqad azadlığı, dövlət-din münasibətləri ölkə qanunvericiliyinə və beynəlxalq standartlara uyğun olaraq təmin edilmiş, müstəqillik illərində milli-mənəvi dəyərlərimizin təbliği və təşviqi sahəsində kompleks tədbirlər həyata keçirilmişdir. Məmnuniyyətlə qeyd etmək istəyirəm ki, islam mədəniyyətinin nadir incilərindən olan tarixi-dini abidələrimizin əsaslı şəkildə yenidən qurulması sahəsində işlər davamlı xarakter almışdır. Bu il Cənubi Qafqazın ilk müsəlman məbədi – Şamaxı Cümə məscidi bərpa edilərək dindarların istifadəsinə verilmişdir.

İnsanların qəlbini və ruhunu ilahi hikmətlə nurlandıran mübarək Ramazan ayı artıq başa çatır. Orucluğun sınaqlarından alnıaçıq çıxan vətəndaşlarımız bayram sevincini səmimiyyətlə bölüşür, xalqımızın və dövlətimizin əmin-amanlığı və tərəqqisi üçün diləklər edilir, şəhidlərimizin xatirəsi minnətdarlıqla yad olunur.

Əziz bacı və qardaşlarım!

Cəmiyyətimizdə humanizmin, qardaşlıq və həmrəylik duyğularının təntənəsinə çevrilən Ramazan ayını hər il olduğu kimi, bu il də böyük qürur və məmnunluq hissi ilə yola salırıq. Bu əziz bayram günlərində bir daha bütün xeyirxah dua və diləklərinizlə həmrəy olduğumu bildirir, ailələrinizə firavanlıq, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Allah orucunuzu qəbul etsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 avqust 2013-cü il*

## KÜRDƏMİR RAYONUNA SƏFƏR

*7 avqust 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 7-də Kürdəmir rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə Kürdəmir şəhərinin mərkəzindəki Heydər parkında xalqımızın ümummilli liderinin abidəsi önünə gül dəstəsi qoydu.*

*Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı İrşad Əliyev Azərbaycan Prezidentinə abidənin yerləşdiyi Heydər parkında görülən abadlıq-quruculuq işləri barədə məlumat verdi ki, parkda 2 fəvvarə kompleksi yaradılmış, şəlalə inşa olunmuş, 300 yerlik yay kinoteatrı, avtokartinq, uşaq əyləncə mərkəzi, mağaza, ana və uşaq kafesi tikilmiş, karusel quraşdırılmışdır. Burada Gənclər Mərkəzi də fəaliyyət göstərir.*

*Parkın 5,6 hektarlıq ərazisi yaşıllaşdırılıb, dekorativ ağac və gül kolları əkilib, suvarma sistemi qurulub. Rayon sakinlərinin, o cümlədən gənclərin səmərəli istirahəti üçün burada hər cür şərait yaradılıb.*

*Prezident İlham Əliyev parkda yaradılmış şəraitdən razılığını bildirdi.*

### Heydər Əliyev Mərkəzinin fəaliyyəti ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 7-də Kürdəmirə səfəri çərçivəsində Heydər Əliyev Mərkəzinin fəaliyyəti ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Mərkəzin yerləşdiyi Heydər parkı Kürdəmir şəhər sakinlərinin üz tutduqları ən sevimli məkanlardan biridir. Burada yerli əhalinin və qonaqların istirahəti üçün hər cür şərait yaradılıb. Ərazidə apa-*

*rılan kompleks yenidənqurma, abadlaşdırma və yaşıllaşdırma işləri bu məkanı Kürdəmirin ən gözəl yerlərindən birinə çevirib.*

*Azərbaycan Prezidenti Mərkəzdə fotoguşələrə baxdı.*

*Mərkəzdə ulu öndər Heydər Əliyevin möhtəşəm portreti diqqəti cəlb edir. Burada ümummilli liderin və prezident İlham Əliyevin Kürdəmir rayonuna müxtəlif dövrlərdə səfərlərini əks etdirən fotoguşələr xüsusi zövqlə tərtib olunub. Nümayiş etdirilən fotolarda ulu öndərin uşaqlıq, yeniyetməlik, tələbəlik dövrü, Dövlət Təhlükəsizlik Komitəsində işlədiyi, Azərbaycan Kommunist Partiyasının Birinci katibi və SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini olduğu dövrləri, 1990–92-ci illərdə Naxçıvandakı fəaliyyətini və sonradan Azərbaycan Respublikasının Prezidenti olduğu dövrlərin ayrı-ayrı məqamları geniş işıqlandırılıb. Dahi rəhbər Heydər Əliyev bütün mənalı və şərəfli ömrünü, özünün də dediyi kimi, Azərbaycan xalqına bağışlamışdır. Buradakı eksponatlar və fotolardan da aydın görünür ki, müasir Azərbaycan tarixinin çox mühüm və taleyüklü səhifələri məhz dünya şöhrətli siyasi xadim Heydər Əliyevin adı ilə bağlıdır. İkinci mərtəbədə ekspozisiya zalı və müxtəlif tədbirlərin keçirilməsi üçün 30 nəfərlik konfrans zalı vardır. Burada, həmçinin ümummilli liderin zəngin irsini təbliğ etmək üçün tədris otağı yaradılıb.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Heydər Əliyev Mərkəzinin inşası ötən ilin iyulunda başlanılmış, bu ilin iyulunda başa çatdırılmışdır. Ümumi sahəsi 2524 kvadratmetr olan Mərkəzin üçmərtəbəli binasında ulu öndər Heydər Əliyevə aid kitablar və müxtəlif tarixi sənədlər də sərgilənir. Mərkəzin elektron kitabxana, tədris, poeziya otaqları, 300 nəfərlik akt zalı, xarici dil kursları da ən müasir səviyyədə tərtib olunub. Burada rəqs, heykəltəraşlıq, xalçaçılıq dərnəkləri, rəsm studiyası, 3D kinozalı, internet-kafe və fotostudiya fəaliyyət göstərir. Bir sözlə, Mərkəzdə ulu öndər Heydər Əliyevin zəngin siyasi irsinin hərtərəfli təbliği üçün geniş şərait yaradılıb.*

## KÜLÜLLÜ SU MƏNBƏYİNDƏN KÜRDƏMİR ŞƏHƏRİNƏ İÇMƏLİ SUYUN VERİLMƏSİ MƏRASİMİNDƏ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*7 avqust 2013-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 7-də Külüllü su mənbəyindən Kürdəmir şəhərinə içməli suyun verilməsi mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

**İlham Əliyev:** İlk növbədə, mən sizi qarşıdan gələn Ramazan bayramı münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Sizə cansağlığı, yeni uğurlar arzulamaq istəyirəm. Biz bayram ərəfəsində Kürdəmirdə gözəl layihənin istifadəyə verilməsini qeyd edirik. Kürdəmirə içməli suyun verilməsi artıq reallıqdır. Mənə verilən məlumata görə, artıq evlərə su verilir. Getdikcə bu layihə böyüyəcəkdir. Gələn ilin sonuna qədər Kürdəmirin su və kanalizasiya problemləri tamamilə öz həllini tapacaq. Bundan əvvəlki dövrdə biz çayboyu yerləşən kəndlərdə təmizləyici qurğular quraşdırmışıq. 30-a yaxın kəndə indi içməli suyun verilməsi təmin edilmişdir. İndi şəhərə suyun verilməsi layihəsi artıq başa çatır. Bir sözlə, Kürdəmirin su problemləri tamamilə öz həllini tapacaq. Bu, böyük layihədir, tarixi nailiyyətdir. Nəinki Kürdəmirdə, demək olar ki, Azərbaycanın bütün yaşayış yerlərində içməli su problemi uzun illərdir insanları narahat edir.

Bildiyimiz kimi, Azərbaycanda su ehtiyatları o qədər də böyük deyil. Bizim əsas mənbəmiz ölkəmizdən kənarda formalaşır. Suyun idarə edilməsi, sudan səmərəli şəkildə istifadə

olunması, müasir şəbəkənin yaradılması layihələri xüsusi əhəmiyyət daşıyır.

Əsas məsələ ondan ibarətdir ki, Azərbaycan dövləti bu problemi də həll edir. İnfrastruktur layihələri arasında içməli su və kanalizasiya problemləri, əlbəttə ki, böyük əhəmiyyət daşıyır. Əvvəlki dövrlərdə digər infrastruktur layihələri uğurla icra edilmişdir. Onların böyük əksəriyyəti, demək olar ki, başa çatmışdır, o cümlədən magistral yolların tikintisi. İndi Hacıqabul–Kürdəmir avtomobil yolunun genişləndirilməsi prosesi gedir, 4 zolaqdan ibarət olacaqdır. Qazlaşdırma layihələri icra edilir. Kürdəmirdə də bu proses geniş vüsət alıb. Təqribən 70 faiz səviyyəsində artıq qazlaşdırma təmin edilmişdir. Ancaq Kürdəmir rayonunda 100 faiz, yəni bütün yaşayış məntəqələrində qazlaşdırma layihələri icra edilməlidir. Qazlaşdırma 100 faiz aparılacaqdır.

Kənd yollarının tikintisi gedir. Həm dövlət büdcəsindən, həm Prezidentin ehtiyat fondundan vəsait ayrılır. İndi işlər gedir. Bir neçə kəndi birləşdirən yollar tikilməkdədir. Gələcəkdə bu layihələrə də əlavə vəsait ayrılacaqdır. Bu layihələrin arasında içməli su layihəsi, əlbəttə ki, xüsusi əhəmiyyət daşıyır. Çünki su həyat deməkdir. Təmiz su sağlam həyat deməkdir. İnsanların sağlamlığı üçün Azərbaycan dövləti əlindən gələni edir. O cümlədən əvvəlki dövrlərdə Kürdəmirdə poliklinika, şəhər xəstəxanası təmir edilmişdir, Olimpiya Mərkəzi tikilmişdir. İndi isə su layihəsinin istismara verilməsini qeyd edirik.

İnsan amili Azərbaycanda prioritet məsələdir. Mən hələ 10 il əvvəl demişdim ki, biz qara qızılı insan kapitalına çevirməliyik. Hesab edirəm ki, biz ötən illər ərzində bu istiqamətdə istədiyimizə nail ola bilmişik. İnsanların rifahı artır, sağlamlığı möhkəmlənir. Biz bunu statistik göstəricilərdə də görə bilərik. İnsanların ömrünün uzunluğu artır. Ümumdünya Səhiyyə Təşkilatı, yəni dünyada səhiyyə məsələləri ilə məşğul olan ən böyük təşkilat Azərbaycanda bu sahədə gedən islahatları dəstəkləyir və qiymətləndirir. Biz isə öz növbəmizdə insanların

rahat yaşaması üçün əlimizdən gələni edirik və edəcəyik. Çünki bir daha demək istəyirəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır.

Azərbaycan, əlbəttə ki, son 20 il ərzində bazar iqtisadiyyatı prinsipləri ilə idarə olunur. İqtisadiyyatımız tam bazar iqtisadiyyatı üzərində qurulubdur. Ancaq buna baxmayaraq, çox güclü sosial siyasət aparılır.

Biz indi müxtəlif yerlərdə baş verən hadisələri izləyərkən görürük ki, sosial məsələlərə fikir verilmədiyi halda böyük problemlər yaşanır. Çünki bazar iqtisadiyyatı hər bir ölkənin iqtisadi inkişafı üçün əsas şərtdir. Ancaq bəzi hallarda islahatlar çətinliklərə də gətirib çıxarır. Bu çətinliklərin qarşısını almaq və islahatları daha da inamla aparmaq üçün güclü sosial siyasət olmalıdır. Bu sosial siyasət müxtəlif formalarda özünü göstərir – tikilən məktəblər, xəstəxanalar, yollar, sosial obyektlər, maaşların, pensiyaların qaldırılması, infrastruktur layihələrinin icra edilməsi, yəni insanı narahat edən bütün problemlər aradan qaldırılmalıdır.

Son illər ərzində bu istiqamətdə nailiyyətlər, hesab edirəm ki, kifayət qədərdir. Gələcək illərdə biz bu işləri davam etdirəcəyik. Çünki hələ görüləsi işlər çoxdur. Biz həm iqtisadi sahədə, həm sosial məsələlərin həllində bundan sonra da islahatlar aparacağıq. İslahatlara böyük ehtiyac vardır. Çünki burada söhbət təkcə investisiyalardan getmir, investisiya qoyuluşu Azərbaycanda yüksək səviyyədə həll olunur, eyni zamanda, sistem xarakterli islahatlar aparılmalıdır.

Biz keçid dövrünü başa vurmuşuq. Azərbaycan bu gün tamamilə müasir əsaslar üzərində inkişaf edir – istər siyasi sahədə, istər iqtisadi sahədə, istərsə də sosial məsələlərin həllində. Ancaq biz bu sahədə, xüsusilə sosial məsələlərin həllində inkişaf etmiş ölkələrin təcrübəsinə baxmalıyıq. Bu təcrübədə həm müsbət, həm mənfi məqamlar vardır. Əlbəttə ki, biz müsbət məqamları seçməliyik və öz sosial siyasətimizi inkişaf etmiş ölkələrin meyarlarına yaxınlaşdırmalıyıq, ona uyğunlaşdırmalıyıq.

Biz bunu edirik və bu gün Azərbaycanda sosial sahədə aparılan işlər dünya miqyasında yüksək qiymətləndirilir. Hətta son bir neçə il ərzində dünyanı, xüsusilə Avropanı bürümüş iqtisadi-maliyyə böhranı zamanı Azərbaycanda bir dənə də olsun, sosial layihə ixtisar edilmədi, əksinə, maaşlar, pensiyalar qaldırılır, sosialyönümlü investisiyalara vəsait ayrılır.

İçməli su layihələrinin icrası böyük vəsait tələb edir. Bu vəsaitin əsas hissəsi dövlət büdcəsi hesabına təşkil edilir. Bu işlərin bir hissəsi kreditlər hesabına icra edilir, ancaq bu kreditləri də Azərbaycan dövləti qaytarmalıdır. Bir sözlə, bu layihələr sırf sosial məna daşıyır. Bu layihələrə qoyulan investisiyalar 100 milyonlarla, bəlkə milyardlarla ölçüləcəkdir. Çünki biz ölkəmizin bütün su təsərrüfatını yenidən qurmalıyıq və qururuq. Buraya qoyulan investisiyalar qayıdan investisiyalar deyildir. Çünki Azərbaycanda suya olan dövlət tarifləri çox aşağıdır və qoyulan investisiyaları əhalidən yığılan tariflər hesabına qaytarmaq mümkün olmayacaqdır. İstəyirəm ki, bunu hamı bilsin. Elə investisiyalar var ki, onlar kommersiya xarakteri daşıyır. Amma Azərbaycanda infrastruktur layihələrinə qoyulan vəsait sırf sosial xarakter daşıyır. Avtomobil yolları, qazlaşdırma, su layihələri, kənd yolları – bunları dövlət insanların rahat, normal yaşaması üçün edir.

Çox şadam ki, Kürdəmir şəhərində də bu layihə artıq istismara verilir. Kürdəmirin inkişafı daim diqqət mərkəzindədir. Bayaq qeyd etdiyim kimi, burada əvvəlki illərdə dövlət tərəfindən dəstək olmuşdur, layihələr icra edilmişdir, sosial obyektlər, gözəl Heydər Əliyev Mərkəzi tikilmişdir. Bu doğrudan da Mərkəzdir. Burada müxtəlif tədbirlər keçiriləcəkdir. Kürdəmirdə iş yerlərinin açılması ilə bağlı da işlər görülür. Bu gün südçülük, heyvandarlıq ferması ilə tanış olacağam. Rayonun hərtərəfli inkişafı artıq reallıqdır. Bu yüksək templəri biz gələcək illərdə saxlamalıyıq ki, Kürdəmir daha da sürətlə inkişaf etsin, insanlar daha da yaxşı yaşasınlar.

**Sabir Novruzov** *(Kürdəmir Rayon Ziyalılar Cəmiyyətinin sədri):* Möhtərəm cənab Prezident!

Sizi rayon ictimaiyyəti adından salamlayıram, Kürdəmirə xoş gəlmisiniz! Bu gün Siz müqəddəs bayram ərəfəsində Kürdəmirdə 22 min əhaliyə içməli təmiz bulaq suyu verirsiniz, insanlarımıza sağlam həyat bəxş edirsiniz.

Su saflıqdır, insan həyatı üçün əvəzolunmaz nemətdir. Lakin biz kürdəmirlilər uzun illərdir ki, bu nemətin həsrətində idik. Şükürlər olsun ki, Sizin diqqət və qayğınız sayəsində bu problemimiz həll olunub.

Rayonumuzun 30-a yaxın kəndində Sizin təşəbbüsünüzlə, Sizin tapşırığınızla yaradılmış sutəmizləyici qurğular fəaliyyət göstərir. İnsanlarımız bundan faydalanır, sağlam həyat keçirirlər. Ümumilikdə, rayonumuzun əksər yaşayış məntəqələri sutəmizləyici qurğularla, təmiz su ilə təmin olunmuşdur. Bu işlər hazırda da davam etdirilir. Bütün bunlara görə rayonumuzun uşaqdan böyüyə qədər bütün əhalisinin minnətdarlığını Sizə çatdırıram.

Ölkəmizin bütün bölgələrində olduğu kimi, rayonumuz da gündən-günə inkişaf edir, gözəl əhval-ruhiyyə hökm sürür. Şəhərimiz, kəndlərimiz, qəsəbələrimiz abadlaşır, yeni parklar, xiyabanlar, mərkəzlər açılır, küçələrimiz yenidən qurulur, yeni binalar tikilir, yeni istehsal sahələri yaradılır. Rahat yaşamağımız, firavanlığımız üçün hər şey edirsiniz.

Möhtərəm cənab Prezident, biz ziyalılar uzun illərdir ki, ölkəmizdə baş verən yenilikləri diqqətlə izləyirik. Son 10 ildə ölkəmiz gündən-günə inkişaf edir, dünya miqyasında şöhrətini, öz nüfuzunu, qüdrətini daha da artırır. Bütün bunlar bir reallıqdır. Bu reallığa Siz özünüzün xalqa söykənən uğurlu siyasətinizlə, yenilməz iradənizlə nail olmusunuz. Hər bir Azərbaycan vətəndaşının rahat yaşaması, hüquqlarından maneəsiz istifadə etməsi üçün hər cür şərait yaratmısınız. Sizin tapşırığınızla yaradılmış «ASAN xidmət» qısa müddət ərzində geniş əhali kütləsinin rəğbətini qazanmışdır. Bu xidmət bir neçə gündür ki, rayonumuzda da fəaliyyət göstərir. İnsanlarımız bundan faydalanır, ən xırda problemlərini belə, qısa vaxtda

operativ, ən başlıcası şəffaf şəkildə həll edirlər. Bütün bunlar bir reallıqdır. Bu reallığa Siz nail olmusunuz.

Rayonumuzun hər yerində tikinti, abadlıq, quruculuq işləri görülür. Bütün bunlar bir daha sübut edir ki, Siz həmişə bizi düşünürsünüz, problemlərimizin həllinə çalışırsınız, rahat yaşamağımız, xoşbəxt gələcəyimiz üçün lazım olan hər şeyi edirsiniz.

Biz kürdəmirlilər də bugünkü uğurlu inkişafımızın sabahını, gələcəyini istəyirik, rahat, sakit yaşamağımızı istəyirik. Özümüzün, balalarımızın, nəvələrimizin, bütün Azərbaycan xalqının xoşbəxt gələcəyini istəyirik. Bütün bunları Siz təmin edə bilərsiniz. Biz əminik ki, Siz bunu təmin edəcəksiniz. Siz güclü Azərbaycanımızın qarantısınız, rəmzisiniz. Biz də həmişə Sizinlə olacağıq, Sizə arxa-dayaq olacağıq, Sizi dəstəkləyəcəyik. Allah Sizi qorusun!

**İ l h a m Ə l i y e v:** Sağ olun! Biz hələ çox iş görməliyik. Gələcəkdə görüləsi işlər çoxdur. Ancaq son illər ərzində doğrudan da böyük işlər görülmüşdür. Azərbaycan artıq dünya miqyasında güclü dövlət kimi tanınır, beynəlxalq əlaqələrimiz genişlənir, dostlarımızın sayı artır. Azərbaycan dünyanın ən mötəbər beynəlxalq təşkilatlarının üzvüdür. Bölgədə Azərbaycanın mövqeyindən çox şey asılıdır. Bütün bu uğurlar Azərbaycan xalqının istedadı, zəhməti hesabına qazanılıbdır. Çünki 20 il əvvəl biz müstəqilliyimizin ilk illərində idik və hamımız o günləri yaxşı xatırlayırıq.

O vaxt Azərbaycanın ümumi inkişafı sual altında idi. Azərbaycan, demək olar ki, parçalanırdı, vətəndaş müharibəsi təhlükəsi vardı, iqtisadi sahədə heç bir islahat aparılmırdı, sənaye tamamilə iflic vəziyyətinə düşmüşdü. O vaxt həm dünyada, həm ölkə daxilində Azərbaycanın gələcəyi ilə bağlı çox bədbin fikirlər var idi. Ancaq güclü iradə, islahatlar və xalqla iqtidar arasında olan birlik Azərbaycanı bu bəlalardan xilas etdi. Bu gün açdığımız Heydər Əliyev Mərkəzində o illərin şəkilləri əks olunub. O illər, xüsusilə 1993-cü il həlledici il olmuşdur. O ildə Azərbaycanın taleyi həll olunurdu. Xoşbəxtlikdən ulu öndərin

qətiyyəti, cəsarəti, müdrikliyi, xalqın ona olan inamı Azərbaycanı bu bəlalardan qurtardı və 20 il ərzində biz inkişaf yolu ilə gedirik.

Bu gün Azərbaycan dünya xəritəsində nadir ölkələrdəndir ki, həm beynəlxalq aləmdə, həm bölgədə, həm də ölkə daxilində çox müsbət istiqamətdə inkişaf edir, irəliyə gedir. Azərbaycan xalqı təhlükəsizlik, əmin-amanlıq şəraitində yaşayır. 20 ildir ki, Azərbaycanda sabitlik, ictimai asayiş qorunur, möhkəmlənir. Yəni hər bir ölkənin inkişafı üçün əsas şərt sabitlikdir, əmin-amanlıqdır, təhlükəsizlikdir.

Biz elə bir bölgədə yaşayırıq ki, ətrafımızda görürsünüz hansı problemlər cərəyan edir – toqquşmalar, qarşıdurmalar, müharibələr. Biz ölkəmizi güclü və müstəqil siyasətlə qorumalıyıq və qoruyuruq. Daxildə aparılan islahatlar istər siyasi sahədə, iqtisadi sahədə, istək sosial məsələlərin həllində ölkəmizi gücləndirir.

Bu gün Azərbaycan tam şəkildə müstəqil siyasət aparır. Bu siyasətin arxasında Azərbaycan iqtidarının iradəsi və güclü iqtisadiyyat dayanır. Güclü iqtisadiyyatı isə biz yaratmışıq, Azərbaycan xalqı yaratmışdır. Bu gün Azərbaycan dünya miqyasında ən yüksək reytinqlərə malikdir. Biz dünyanın aparıcı ölkələri sırasındayıq, iqtisadiyyatın rəqabət-qabiliyyətliliyinə görə 46-cı yerdəyik. Bu, böyük nailiyyətdir.

Ölkədə quruculuq, abadlıq işləri çox gözəl bir ab-hava yaradıb. Yəni mən bölgələrdə tez-tez oluram. Kürdəmir rayonunda da bir neçə dəfə olmuşam. Vəziyyətlə tanış oluram və görürəm ki, hər bir rayonda belə quruculuğa, inkişafa olan istək, meyil çox güclüdür. Elə bil ki, rayonlar bir-biri ilə yarışa çıxıblar və bu, sağlam rəqabətdir. Bu məni çox sevindirir. Bölgələr, rayonlar, şəhərlər abadlaşır. İndi Kürdəmir əvvəlki kimi deyildir, inkişaf edib, gözəlləşib və daha da gözəl olacaqdır. Yəni ölkəmizin təcrübəsi, hesab edirəm ki, keçid dövründə yaşayan ölkələr üçün də vacibdir.

İstənilən sahədə – iqtisadi-siyasi islahatlar, cəmiyyətdə gedən proseslər, birlik, həmrəylik, milli-dini tolerantlıq. Biz bir

çox məsələlərlə bağlı nümunə göstəririk. Ancaq yenə də deyirəm ki, bizim əsas məqsədimiz ondan ibarət deyildir. Əsas məqsədimiz ölkəmizi gücləndirmək, insanların yaxşı, normal yaşamasını təmin etməkdir. Əlbəttə, bu layihələrin, məqsədlərin arasında bu gün qeyd etdiyimiz layihə xüsusi yer tutur. Əminəm ki, Kürdəmirdə bundan sonra da böyük işlər görüləcəkdir. Biz hələ sizinlə görüşəcəyik, böyük açılışlar olacaqdır. Bütün işlər Azərbaycanda həmişə olduğu kimi, yaxşı olacaqdır.

* * *

*Sonra dövlətimizin başçısı «Kürdəmir şəhərinin su təchizatının planı»nı, «Külüllü–Kürdəmir–Ucar–Zərdab su kəmərinin planı»nı və Külüllü su mənbəyində görülən işləri əks etdirən stendlərə baxdı.*

*«Azərsu» Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov «Kürdəmir şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması» layihəsi və Külüllü su mənbəyi haqqında prezident İlham Əliyevə məlumat verdi.*

*Bildirildi ki, 2011-ci ilin oktyabrında icrasına başlanılan «Kürdəmir şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması» layihəsinə uyğun olaraq əhalini fasiləsiz və keyfiyyətli içməli su ilə təmin etmək üçün Ağsu rayonu ərazisində yerləşən Külüllü su mənbəyindən istifadə olunur. Bu məqsədlə Girdimançayın yatağında məhsuldarlığı saniyədə 450 litr olan drenaj tipli suqəbuledici qurğu tikilib. Külüllü mənbəyindən Kürdəmir şəhərinə saniyədə 120 litr təmiz və keyfiyyətli içməli suyun verilməsi nəzərdə tutulub. Layihə 2035-ci ilə qədər perspektiv inkişaf nəzərə alınmaqla, Kürdəmir şəhərində 22,3 min nəfərin su təchizatı və kanalizasiya xidmətlərinin, həmçinin Kürdəmir rayonunun 14, Ağsu rayonunun 13 kəndində 48 min nəfərin su təchizatının yaxşılaşdırılmasına hesablanıb.*

*Qeyd olundu ki, Külüllüdən Kürdəmir şəhərinə və ətraf kəndlərə suyun özaxımlı rejimdə verilməsi məqsədi ilə 27 kilometr uzunluğunda magistral xətt çəkilmiş, tutumu 7,5 min*

*kubmetr olan anbar tikilmişdir. Layihə çərçivəsində tikintisi nəzərdə tutulan 131,5 kilometrlik su şəbəkəsinin 110 kilometrlik hissəsində işlər yekunlaşmışdır.*

*Diqqətə çatdırıldı ki, 6 min abunəçinin 1550-si xəttə qoşulmuş, «smart kart» tipli ön ödənişli sayğac quraşdırılmışdır. Kürdəmir şəhərində inşası nəzərdə tutulan 114,6 kilometrlik kanalizasiya şəbəkəsinin 22 kilometrlik hissəsi tikilib. Şəhərdə toplanacaq tullantı sularının çirkab sutəmizləyici qurğuya özaxımlı rejimdə ötürülməsini təmin etmək üçün 6,3 kilometr uzunluğunda mikro-tunel tipli kollektorun inşası və sutkalıq məhsuldarlığı 30 min kubmetr olacaq çirkab sutəmizləyici qurğunun tikintisi davam etdirilir. Dövlət büdcəsi vəsaiti hesabına maliyyələşdirilən layihənin icrasının 2014-cü ildə başa çatdırılması planlaşdırılır.*

*Məlumat verildi ki, Külüllü mənbəyi Kürdəmir şəhəri ilə yanaşı, Zərdab və Ucar şəhərlərini, həmçinin ətraf kəndləri də içməli su ilə təmin edəcəkdir. Layihəyə uyğun olaraq, Külüllüdən Kürdəmir şəhərinə 27, Zərdab şəhərinə 72, Ucar şəhərinə isə 57 kilometr uzunluğunda magistral su kəmərləri çəkilib. Layihə tam yekunlaşdıqdan sonra Ucar rayonunun 22, Kürdəmir rayonunun 14, Zərdab rayonunun 15, Ağsu rayonunun 13 və Göyçay rayonunun 3 kəndi də su ilə təmin olunacaqdır. Ümumilikdə layihədən 170 mindən artıq insan faydalanacaqdır. Külüllü mənbəyindən 2 kilometr cənubda yerləşən suqəbuledici və paylayıcı anbarların SCADA sistemi ilə idarə edilməsi də nəzərdə tutulur.*

*Kürdəmirlilər ulu öndər Heydər Əliyevin bu rayona səfərlərini xatırlatdılar. Ümummilli liderin ölkəmizin inkişafına xidmət edən siyasətinin bu gün prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirdilər.*

*Sonra dövlətimizin başçısı Kürdəmir şəhərinə suyun rəmzi olaraq verilməsini bildirən düyməni basdı.*

*Azərbaycan Prezidenti işlərin uğurla başa çatdırılması ilə əlaqədar müvafiq tapşırıqlarını verdi.*

**Kürdəmir Rayon İcra Hakimiyyətinin yeni inzibati binasının açılışı mərasimi**

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 7-də Kürdəmir Rayon İcra Hakimiyyətinin yeni inzibati binasının açılışı mərasimində iştirak etmişdir.*

*Məlumat verildi ki, binanın inşası 2011-ci ilin sentyabrında başlanılmış, bu ilin iyulunda sona çatdırılmışdır. Müasir memarlıq üslubunda inşa olunan bina həm də rayonun görkəminə xüsusi gözəllik verir. Sahəsi 4 min kvadratmetr olan ikimərtəbəli bina bütün lazımi avadanlıq və sistemlərlə təchiz edilib. Binanın interyeri yüksək zövqlə tərtib olunub, otaqların hamısı müasir tələblər səviyyəsində qurulub. Burada ümumilikdə 30 iş otağı vardır.*

*Foyedə ölkəmizin inkişafında əvəzsiz xidmətləri olmuş ulu öndər Heydər Əliyevin büstü qoyulub. Burada, həmçinin ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin fəaliyyətlərini əks etdirən fotoguşə yaradılıb. Fotoguşələrdə ümummilli liderin və dövlətimizin başçısı İlham Əliyevin Kürdəmir rayonunda müxtəlif illərdə keçirilən tədbirlərdə iştiraklarını əks etdirən şəkillər böyük maraq doğurur.*

*Prezident İlham Əliyev otaqlarda yaradılan şəraitlə tanış oldu. Otaqların hamısında işçilərin normal fəaliyyəti üçün hərtərəfli imkan yaradılıb. Vətəndaşların qəbulu otağında da hər cür şərait vardır.Dövlətimizin başçısı akt zalına da baxdı. Ən müasir standartlar səviyyəsində qurulan 250 yerlik zal akustika sistemi ilə təchiz olunub. Burada müxtəlif tədbirlər keçiriləcəkdir.Prezident İlham Əliyev yeni inzibati binanın operativ idarəetmə mərkəzi ilə tanış oldu. Mərkəzdə kənd icra nümayəndəlikləri ilə birbaşa canlı bağlantı yaratmaq mümkündür.*

*Konfrans zalı ilə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, bu zal da bütün lazımi inventar və avadanlıqla təchiz edilib. İcra hakimiyyətinin yeni inzibati binası həm də rayonun*

*simasına yeni görkəm verir. Binanın ətrafında geniş yenidənqurma işləri aparılıb, ətraf abadlaşdırılıb.*

*Prezident İlham Əliyev yaradılmış şəraitdən razılığını bildirdi, əhaliyə yüksək xidmət göstərilməsi ilə bağlı tapşırıqlarını verdi.*

**Heyvandarlıq və süd kompleksində yeni qablaşdırma sahəsinin fəaliyyətə başlaması mərasimi**

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 7-də Kürdəmirə səfəri çərçivəsində Heyvandarlıq və süd kompleksi ilə tanış olmuşdur.*

*«Azərsun Holdinq»in Müşahidə Şurasının sədri Abdulbari Gözəl dövlətimizin başçısına məlumat verdi ki, kompleksdə tikinti işlərinin aparılmasına və avadanlıqla təchiz edilməsinə 2011-ci ilin sonunda başlanılmış, bu ilin əvvəlində sona çatdırılmışdır. Kompleks Atakişili kəndində 10 hektar ərazidə ən müasir standartlar səviyyəsində inşa edilib. Müəssisənin tərkibinə Süd emalı zavodu və 500 başlıq heyvandarlıq kompleksi daxildir. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq istifadəyə verilmiş kompleksin ümumi dəyəri 12,6 milyon manatdır. Kompleksin yaradılmasına İqtisadi İnkişaf Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən ümumilikdə 3,2 milyon manat güzəştli kredit ayrılıb.*

*Prezident İlham Əliyev kompleksin Süd emalı zavodu ilə yaxından tanış oldu.Binanın foyesində ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin «Azərsun Holdinq»ə daxil olan müəssisələrin açılışlarında iştirakını əks etdirən fotoguşə yaradılıb.Sonra Azərbaycan Prezidenti süd emalı prosesini izlədi.Zavodun laboratoriyasında xammalın və hazır məhsulların keyfiyyətinin dəqiq yoxlanılması üçün ən müasir cihazlar quraşdırılıb. Bildirildi ki, gündəlik 50 ton süd emalı gücünə malik olan zavod Avropa ölkələrindən gətirilən avadanlıqlarla təchiz edilib. Zavodda ən son texnologiyaların tətbiq edilməsi sanitar-gigiyenik normalara uyğun süd və süd məhsullarının istehsalına, saxlanılmasına, istehlakçılara keyfiyyətli şəkildə*

*çatdırılmasına şərait yaradır. Zavodda 10 növdə, 36 çeşiddə «Bizim süd» və «Azəri süd» brendi ilə süd və süd məhsulları istehsal edilir. Bu məhsullar qida sahəsində mövcud standartlara cavab verməklə, beynəlxalq keyfiyyət sertifikatlarına layiq görülüb.*

*Prezident İlham Əliyev Süd emalı zavodunun fəaliyyəti ilə tanışlıqdan sonra kompleksin yeni qablaşdırma sahəsini işə salan düyməni basdı.Burada İsveçin dünyanın 170-dən çox ölkəsində fəaliyyət göstərən «Tetra Pak» şirkətinin ən son avadanlığı quraşdırılıb. Qablaşdırılan məhsullar uzun müddət təzə və təravətli qalır.Dövlətimizin başçısı Süd emalı zavodunun fəaliyyətini əks etdirən filmə və sxemə baxdı.Burada prezident İlham Əliyevə Kürdəmirdə və ölkənin digər rayonlarında heyvandarlığın inkişafı ilə bağlı sxemlər təqdim olundu.İqtisadi İnkişaf Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun icraçı direktoru Şirzad Abdullayev məlumat verdi ki, zavodun xammala olan tələbatının tam ödənilməsi məqsədi ilə Şamaxı rayonu ərazisində ümumi dəyəri 14 milyon manat olan 1500 başlıq yeni heyvandarlıq kompleksinin tikintisinə başlanılıb. Bu layihənin maliyyələşdirilməsinə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 8 milyon manat güzəştli kredit ayrılıb.*

*Diqqətə çatdırıldı ki, ümumilikdə Aran iqtisadi rayonunda 6 min 270-dək sahibkara 300 milyon manatdan çox, o cümlədən Kürdəmir rayonunda 203 sahibkara 14,2 milyon manat güzəştli kreditlər verilib. Bu kreditlər hesabına 26 min 760-dək yeni iş yeri yaradılıb. Azərbaycan Prezidentinin tapşırığına uyğun olaraq 19 min 750 başlıq 16 müasir heyvandarlıq kompleksinin yaradılmasına 77 milyon manat və illik emal gücü 175,2 min ton olan 7 süd zavoduna 9,7 milyon manat güzəştli kredit verilib. Maliyyələşdirilən süd emalı müəssisələrinin hamısı, heyvandarlıq komplekslərinin isə 9-u artıq istifadəyə verilib. Yeni fəaliyyətə başlayan Biləsuvar heyvandarlıq kompleksində 500 baş ətlik, 500 baş damazlıq qaramal bəslənəcəkdir. Artıq damazlıq qaramalın bir hissəsi ölkəmizə gətirilib. Əlavə 3*

*heyvandarlıq kompleksinin maliyyələşdirilməsi məsələsinə baxılır.*

*Sonra prezident İlham Əliyev heyvandarlıq ferması və buzovların saxlanma şəraiti ilə tanış oldu.Zavodun xammal bazasının təmin edilməsi məqsədi ilə süd emalı kompleksinin tərkibində ilkin olaraq yaradılan 500 başlıq iribuynuzlu heyvandarlıq təsərrüfatı Almaniyanın «GEA» şirkətinin ferma avadanlığı, avtomatik yönləndirmə və yemləmə sistemləri, bir dəfəyə 28 baş inək tutumlu «Paralel» tipli sağım avadanlığı, soyutma sistemləri və digər avadanlıqla təchiz edilib. Kompleksə hər biri gündəlik 25 litrdən çox süd- vermə qabiliyyətinə malik 500 baş «Holstein Friesian» cinsli inəklər gətirilib. Heyvandarlıq kompleksində il ərzində 3,8 min ton süd istehsalı nəzərdə tutulur. Bu isə Süd emalı zavodunun xammala olan tələbatını qismən ödəyir. Bununla yanaşı, Kürdəmir və ətraf rayonlarda fəaliyyət göstərən fermerlərdən gündəlik südün qəbulu təşkil edilir ki, bu da öz növbəsində heyvandarlığın inkişafını stimullaşdırır.*

*Qeyd olundu ki, kompleksin tərkibində argentinalı mütəxəssislərlə birlikdə müasir anqar tipli yüngül konstruksiyalı tövlə də tikilib. Burada eyni vaxtda 3500 inək bəslənəcəkdir.Kompleksdə 140 nəfər daimi iş yeri ilə təmin edilib. İnşa olunan yeni heyvandarlıq kompleksinin hesabına işçilərin sayının 200-dək artırılacağı nəzərdə tutulur.*

*Komplekslə tanışlıq zamanı dövlətimizin başçısına məlumat verildi ki, tətbiq olunan müasir texnologiyaların istifadəsi, cins heyvanların xüsusiyyətləri nəzərə alınmaqla, yemlənməsi və bəslənməsi, kənd təsərrüfatı texnikalarından istifadə qaydalarının daha dərindən mənimsənilməsi və dünyanın qabaqcıl ölkələrinin təcrübəsinin öyrənilməsi məqsədi ilə burada çalışan mütəxəssislərin bir hissəsi Avropa ölkələrində xüsusi kurs keçib. Gələcəkdə digər işçilərin də təcrübələrinin artırılması məqsədi ilə kurs və seminarlara göndərilməsi nəzərdə tutulur.*

*Komplekslə tanışlıqdan sonra prezident İlham Əliyev kollektivə uğurlar arzuladı.*

# MOSKVA DÖVLƏT BEYNƏLXALQ MÜNASİBƏTLƏR İNSTİTUTU MƏZUNLARI ASSOSİASİYASININ «MGİMO JOURNAL» NƏŞRİNƏ MÜSAHİBƏ

*Prezident sarayı*

*8 avqust 2013-cü il*

*Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu (MDBMİ) Məzunları Assosiasiyasının «MGİMO Journal» nəşrinin 2013-cü il avqust buraxılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müsahibəsi dərc olunmuşdur.*

**M ü x b i r: Azərbaycan Prezidenti Administrasiyasının binası Bakının ən hündür nöqtələrindən birində yerləşir. Buradan şəhər buxtasında dalğalanan nəhəng Dövlət bayrağı, alov dilləri formasında olan 3 göydələndən ibarət «Flame Towers» kompleksi, Dənizkənarı bulvar gözəl görünür.**

**İlham Əliyev MDBMİ Məzunlarının Forumundan yenicə qayıtmışdır. O, Forumda böyük auditoriya qarşısında çıxış etmiş, sonra uzun illər görmədiyi tələbə dostları, müəllimləri, eləcə də seminar apardığı, zaçot götürdüyü keçmiş tələbələri ilə görüşmüşdür. Söhbətdən əvvəl «MGİMO Journal»ın Foruma həsr olunmuş xüsusi nömrəsini vərəqləyərkən o, tez-tez tanış simalara rast gəlib deyirdi: «Bu isə Medavoydur?! Onu yaxşı xatırlayıram. O həmişə səliqəli, qədd-qamətli idi. Özü də indiyədək işləyir?! Afərin...»**

**Yeri gəlmişkən, Siz oxuyan zaman MDBMİ-nin rektoru olmuş Nikolay İvanoviç Lebedev də əla formadadır. O, Forumun fəxri qonağıdır.**

**İ l h a m  Ə l i y e v:** Mən ona böyük hörmətlə yanaşıram və bu gün çıxışımda bu barədə dedim. Bir qədər əvvəl biz onunla 2 saat birlikdə olduq, həmin vaxtları xatırladıq. Nikolay İvanoviç ən xoş sözlərə layiqdir: döyüş yolu keçmiş, prinsipial, hər zaman ləyaqətini qoruyan əsl liderdir. Onun rəhbərliyi altında MDBMİ inkişaf edirdi, ölkənin aparıcı ali məktəbi idi! Anatoli Vasilyeviç Torkunov bu ənənələri bərpa etdi. Mən bu haqda da Forumda dedim. Biz məzunlar fəxr edirik ki, MDBMİ nəinki Rusiyanın, hətta dünyanın aparıcı ali məktəblərindən biridir. Bir çox azərbaycanlı məzun sizə deyər ki, MDBMİ-də yiyələndikləri baza, aldıqları biliklər onlara bu günə qədər Azərbaycanda ən yüksək vəzifələrdə çox kömək edir.

**M ü x b i r: Prezident postundan daha məsuliyyətli vəzifə təsəvvür etmək çətindir. Bizim məzunun dövlət başçısı olması nadir situasiyadır. Ümumiyyətlə, azərbaycanlı məzunların MDBMİ ailəsində xüsusi yeri var: Sizin qızınız Leyla MDBMİ-nin Azərbaycan Klubunun prezidenti və MDBMİ Məzunlarının Azərbaycan Assosiasiyasının sədridir. Assosiasiyanın katibi Ruslan Əliyev isə universitetdə böyük perspektivləri olan ekologiya və təbiətdən istifadə kafedrasını yaratmış və ona başçılıq edir.**

**İ l h a m  Ə l i y e v:** Ona görə də MDBMİ-nin Forumunun Azərbaycanda keçməsi məntiqə uyğundur.

**M ü x b i r: Fürsətdən istifadə edib Azərbaycanın bizi çox gözəl qarşıladığına görə Sizə minnətdarlığımı bildirmək istəyirəm. «Alov qüllələri», Heydər Əliyev Mərkəzi kimi ən müasir binaları ilə hamımızı heyran qoyan Bakı haqqında ayrıca danışmaq lazımdır.**

**İ l h a m  Ə l i y e v:** Bəli, bunlar Bakının yeni rəmzləridir. Onlar Bakının urbanizasiya prosesində meydana gəlmişdir. Düşünürəm ki, biz bir tərəfdən, müasir arxitektura ideyalarına özünüifadə etmək imkanı verməyə, eyni zamanda, keçmişi qoruyub saxlamağa müvəffəq olmuşuq. Müasir binalar şəhərin tarixi siması ilə ziddiyyət təşkil etməməlidir. Bizdə arxitektura

yeniliklərini bu nöqteyi-nəzərdən qiymətləndirən ekspert qrupları fəaliyyət göstərir.

**S u a l: «Alov qüllələri» heyrətamiz ideyadır! O necə yarandı?**

**C a v a b:** Azərbaycan Odlar diyarıdır. Şəhərin müxtəlif yerlərində qədim dövrlərdən yerin altından alov püskürür. Ona görə də Bakının gerbində 3 alov dili hər zaman olmuşdur. Obrazlı desək, alov, yanğı Bakı üçün, xalqımız və cəmiyyətimiz üçün təbii haldır. Ona görə də arxitektorun alov dillərinin proyeksiya olunduğu və onların xüsusilə gecələr məşəl kimi «yandığı» binalar kompleksi ucaltmaq ideyası şəhərə xüsusi görkəm verir. Ancaq bizim ənənəvi rəmzlərimiz də var. Bu, orta əsrlər abidəsi olan Qız qalasıdır. Köhnə şəhərdə gəzərkən orta əsr mühitinə düşürsən, lakin yolu keçib sahilyanı küçəyə çıxmaq kifayətdir ki, özünü müasir şəhərdə hiss edəsən.

**S u a l: Və nəhəng bayraq görünür. Deyilənə görə dünyada ən böyük Dövlət bayrağıdır.**

**C a v a b:** Əlbəttə, onun dünyada ən böyük olması məqsəd deyildi. Məqsədimiz bu ərazinin görkəmini dəyişmək, abadlaşdırmaq idi. Axı əvvəllər bu rayonda zavodlar və hərbi dəniz bazası yerləşirdi. Onu biz başqa yerə köçürdük, indi burada, bayrağın yaxınlığında təqribən 5 hektar sahədə Dövlət Bayrağı Muzeyi də fəaliyyət göstərir. Bu kompleksin ətrafında ümumi ərazi 60 hektardır. Bundan ötrü biz Dənizkənarı bulvarın uzunluğunu 3,5 kilometrdən 14 kilometrə çatdırdıq! Düz də etdik. Çünki bura çox əlverişli yerdir, demək olar ki, şəhərin hər bir nöqtəsindən görünür.

**S u a l: «Alov qüllələri» və bayraq yəqin ki, azərbaycanlıların milli özünüdərkinin möhkəmlənməsinə xidmət edən rəmzlərdir.**

**C a v a b:** Şübhəsiz.

**S u a l: Bizdə – Rusiyada artıq 20 il olar ki, milli ideyamız nədir sualı ətrafında baş sındırırlar. Bəs siz öz milli ideyanızı necə ifadə edirsiniz?**

**C a v a b:** İlk növbədə, bu müstəqillikdir. Ötən əsrin 90-cı illərinin əvvəllərini müxtəlif cür qəbul etmək olar. Lakin hər şeydən əvvəl bu, müstəqillik əldə etmək şansı qazanmaq və müstəqil Azərbaycan dövlətini qurmaq məqamı idi. XX əsrin əvvəlində də bizim belə təcrübəmiz olmuşdu, lakin qısa müddətli, cəmi 2 il. Azərbaycanın müstəqillik ideyasının inkişafı və azərbaycanlıların identifikasiyası ölkənin uğurlu inkişafına əsaslanır. Müstəqillik illərində – bu hələ qısa bir müddət, cəmi 21 ildir – ictimai sistemin və iqtisadi əlaqələrin tam transformasiyası baş verdi. Bu gün Azərbaycan regionda və dünyada möhkəm mövqeləri olan dövlətdir. Bir qədər əvvəl Azərbaycanın Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi isə bu qurumun 5 daimi üzvü sırasına daxil olmayan hər hansı dövlətin beynəlxalq fəallığının zirvəsidir. Əlbəttə, bu fonda bayraq, gerb, himn kimi dövlət rəmzləri, həmçinin Bakının və digər şəhərlərin simasının dəyişməsi gənclərin vətənpərvərlik, Vətənə məhəbbət, öz ölkəsinə görə qürur hissi keçirmək ruhunda tərbiyə olunması, cəmiyyətdə müsbət əhval-ruhiyyənin yaradılması vasitəsidir. Azərbaycanda ictimai şüur, insanların əhval-ruhiyyəsi, onların, xüsusilə gənclərin həyata münasibəti çox müsbətdir, siz yəqin ki, bunu hiss etdiniz. Axı vacib olan təkcə statistik göstəricilər və ümumi daxili məhsul deyil, həmçinin insanların özlərini necə hiss etmələridir.

**S u a l: Mən bunu həqiqətən də hiss etdim. Bu mənə Sizin MDBMİ-də dərs dediyiniz illərdə ölkədə, gənclərdə fəal həyat mövqeyi formalaşdırmağa dair göstərişin olduğunu xatırladır. Bu yəqin ki, Sizin yadınızdadır?**

**C a v a b:** Yadımdadır, düzgün göstərişdir! Mən onu alqışlayıram!

**S u a l: Dərs demək asan məsələ deyil, hətta bəziləri hesab edirlər ki, qədri bilinməyən işdir. Digər tərəfdən isə, güclü enerji mübadiləsidir!**

**C a v a b:** Razıyam, mən dərs deməyə institutu bitirəndən bir neçə il sonra, hələ aspirant ikən başladım. Mən tələbələrin

hisslərini gözəl başa düşürdüm, demək olar ki, qəlbən hələ onların, auditoriyada oturanların yanında idim. Odur ki, daim onlara kömək etməyə, dəstək olmağa, hətta qiymətlərini bir qədər artırmağa çalışırdım. Düşünürəm ki, mən pis müəllim deyildim və o vaxtları yaxşı xatırlayıram. Ancaq bu gün Forum vaxtı dərs dediyim uşaqlar mənə yaxınlaşanda açığını deyim, hamını xatırlaya bilmədim – mənim tələbələrim çox idi! Onlar təkcə Moskvada, Rusiyanın digər şəhərlərində deyil, Mərkəzi Avropa ölkələrində də yaşayır və işləyirlər. Mən hər dəfə onlara rast gələndə həqiqi mənada, yaxşı hisslər keçirirəm! Əlbəttə ki, Forumda köhnə institut dostlarımla çox böyük sevinclə görüşdüm. Məsələn, Sergey Abakumovla. O, komsomol təşkilatının katibi, mən isə tələbə idim, amma biz dostluq edirdik. Yeri gəlmişkən, onun bizim Forumun keçirilməsində böyük rolu vardır. Mən bir yerdə oxuduğum, daha sonra işlədiyim bir çoxlarını da yada sala bilərəm, həyatımın 15 ili institutla bağlıdır!

**S u a l: MDBMİ-dəki yeniliklərdən nə dərəcədə xəbərdarsınız? Bizim saytımıza daxil olursunuzmu? Rektor Anatoli Torkunov yeni müddətə seçiləndən sonra universitetin qarşısında iddialı yeniləşmə vəzifələri qoymuşdur.**

**C a v a b:** Əfsus ki, sayta çoxdandır baxmıram, ancaq rektorla mütəmadi əlaqə saxlayıram, son illər Anatoli Vasilyeviç dəfələrlə Bakıda olmuşdur. O məni yeniliklər barədə məlumatlandırır. Amma deyə bilmərəm ki, institutun gündəlik fəaliyyətini izləyirəm – sadəcə, buna vaxt yoxdur.

**S u a l: 2014-cü ildə MDBMİ 70 illik yubileyini qeyd edəcək. 60 illikdə Sizin çıxışınızı xatırlayıram, bu əsl hadisə idi. Qarşıdan gələn yubileydə çıxış etməyi planlaşdırırsınızmı?**

**C a v a b:** Bilirsiniz, mən 1984-cü ildə MDBMİ-nin 40 illik yubiley bayramında iştirak etmişdim. Mərasim İttifaqlar Evinin Sütunlu zalında təşkil olunmuşdu. Düzdür, mən o vaxt zalda əyləşmişdim, çünki hələ aspirant idim. Bayram mərasimini isə Nikolay İvanoviç Lebedev aparırdı. 1994-cü ildə

təntənələrdə iştirak etməyə imkanım yox idi, 2004-cü ildə, doğru qeyd etdiyiniz kimi, yubileydə çıxış etmişdim. Odur ki, 2014-cü ildə imkan olsa, çıxış etməyə şad olaram.

**S u a l: Forum başa çatdı və ünsiyyətdə olmaq çox gözəl idi. Sizcə, bu Forum MDBMİ həmrəyliyinin inkişafına təkan verdimi?**

**C a v a b:** Bəri başdan deyim, şübhəsiz ki, verdi. Bu, institutumuzun tarixində rəmzi hadisədir. Forum göstərdi ki, biz bir yerdəyik və bir-birimizlə əlaqələri həqiqətən də itirməmişik. Bəlkə də belə geniş tərkibdə görüşmürdük, lakin əminəm və öz təcrübəmdən bilirəm ki, biz heç vaxt əlaqələrimizi itirməmişdik. Birincisi, Forum göstərdi ki, bizim bir yerə yığışmağa böyük həvəsimiz var. Bu bizim – müxtəlif sahələrdə: siyasətdə, diplomatiyada, biznesdə, jurnalistikada və digər sahələrdə böyük uğurlar qazanmış bir çox insanların birliyini göstərdi. Bu, təhsilin yüksək səviyyəsinə dəlalət edir. İkincisi, Forum bizə MDBMİ-yə münasibətimizi, instituta sevgimizi nümayiş etdirməyə imkan verdi. İnkişaf nədədir? Düşünürəm ki, gələcəkdə biz Forumu – əlbəttə, MDBMİ rəhbərliyi ilə məsləhətləşmələrdən sonra – diskussiya meydanına transformasiya edəcəyik. Diskussiyalar əsasında ola bilsin ki, mühüm xarici siyasi təşəbbüslər işlənib hazırlanacaqdır.

**S u a l: Yəni bu daha çox işgüzar görüş olacaq, nəinki sadəcə, xoş ünsiyyət?**

**C a v a b:** Əlbəttə, işgüzar, həm də xoş ovqat yaradan görüş! Bakıda Forum iştirakçılarının həm istirahət etmək, həm şəhəri gəzmək, həm cavanlıqda olduğu kimi, dost masası arxasında oturmaq, həm də müasir beynəlxalq münasibətlərin mühüm məsələlərini, ekologiya, təhsil problemlərini və s. müzakirə etmək imkanı oldu. Gələcəkdə bu diskussiyalarda iştirak etmək üçün Foruma MDBMİ-yə aidiyyəti olmayan tanınmış siyasətçiləri, ictimai xadimləri dəvət etmək olar. Mən Forumun gələcəyini belə görürəm. Forumdakı çıxışımda mən bundan sonra da MDBMİ-nin forumlarının Bakıda keçirilməsinə hazır olduğumuzu bildirdim. Biz çoxlu belə tədbirlər keçiririk – bir

neçə gün bundan əvvəl Davos Forumuna ev sahibliyi etmişdik, keçən il Krans Montana Forumu oldu. Biz Sivilizasiyaların Alyansı – Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunu, digər beynəlxalq tədbirləri keçiririk. Düşünürəm ki, MDBMİ Forumu bu sırada öz layiqli yerini tutacaqdır.

**M ü x b i r: Mən gördüm ki, Sizin ideyanız auditoriya tərəfindən bəyənildi. Burada təəccüblü bir şey yoxdur, Forum yüksək səviyyədə keçirilmişdir.**

**İ l h a m Ə l i y e v:** Zənnimcə, əgər səsvermə keçirsəydik, auditoriyanın tam əksəriyyəti lehinə səs verəcəkdi!

## YASAMAL RAYONUNDAKI 31 SAYLI ORTA ÜMUMTƏHSİL MƏKTƏBİNDƏ APARILAN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*10 avqust 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 10-da Yasamal rayonundakı 31 saylı orta ümumtəhsil məktəbində aparılan əsaslı təmir və yenidənqurma işləri ilə tanış olmuşdur.*

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə təhsil islahatlarının genişləndirilməsi və bu sahədə keyfiyyət dəyişikliklərinə nail olunması istiqamətində görülən işlər artıq öz bəhrəsini verir. Bunun nəticəsidir ki, indiyə qədər ölkədə 2200-dən çox məktəb binası tikilib, Azərbaycanda heç vaxt olmayan qədər geniş bazaya malik təhsil infrastrukturu yaradılıb. Yeni təhsil ocaqlarının inşası ilə yanaşı, mövcud məktəblər üçün əlavə tədris korpuslarının tikintisi geniş vüsət alıb. Son illərdə 2000-ə yaxın məktəb üçün əlavə korpus inşa olunmuşdur. Təkcə 2011-ci ildə Bakıda 60-dan çox məktəbin binası əsaslı təmir edilib. 2012-ci ildə 81 məktəbin binası təmir olunmuş, yeni korpuslar tikilmişdir. Bu il ərzində isə 120 məktəbdə yenidənqurma işlərinin aparılması nəzərdə tutulmuşdur ki, indi bu proses uğurla aparılır. Yasamal rayonundakı 31 saylı orta ümumtəhsil məktəbində aparılan əsaslı təmir və yenidənqurma işləri də bu sırada mühüm yer tutur.

Dövlətimizin başçısına məlumat verildi ki, ötən əsrin əvvəllərində tikilən bu təhsil ocağı 1936-cı ildə oğlanlar üçün ixtisaslaşdırılmış məktəb kimi fəaliyyət göstərmişdir. 1941–45-ci illərdə təxliyə hospitalına çevrilən məktəb Böyük Vətən müharibəsi başa çatdıqdan sonra yenidən öz qapılarını şagirdlərin üzünə açıb. Uzun illər ərzində əsaslı təmir olunmayan məktəbdə yaranan vəziyyət yenidənqurma işlərinin aparılmasını

*zərurətə çevirmişdi. Azərbaycan Prezidentinin diqqət və qayğısı sayəsində digər təhsil ocaqlarında olduğu kimi, bu məktəbdə də görülən yenidənqurma işləri artıq başa çatıb. Dördmərtəbəli, ümumi sahəsi 4000 kvadratmetr olan 650 şagird yerlik məktəbdə tədris üçün bütün zəruri baza yaradılıb.*

*Bildirildi ki, tədrisin bir növbədə aparılacağı məktəbdə bütün siniflər yüksək səviyyədə təmir olunmuş və onların hamısı tədris avadanlığı, o cümlədən əyani vəsaitlərlə təchiz edilmişdir. 3 fənn laboratoriyasından başqa, yaradılan 2 informatika sinfində şagirdlərin informasiya texnologiyalarına yiyələnmələri üçün hər cür şərait yaradılıb.*

*Onu da qeyd edək ki, digər məktəblərdə olduğu kimi, bu təhsil ocağında da siniflərin istilik sistemi ilə təchiz olunmasına xüsusi diqqət göstərilib. Bundan əlavə, məktəbdəki idman zalı da yenidən qurulmuş, burada şagirdlərin idmanla məşğul olmaları üçün zəruri avadanlıq quraşdırılıb. Akt zalında isə məktəb həyatı ilə bağlı tədbirlərin keçirilməsi üçün bütün imkanlar vardır. Gələcəkdə məktəbin ətrafında geniş abadlıq işlərinin davam etdirilməsi nəzərdə tutulur və bu çərçivədə idman meydançasının, həmçinin akt zalının daha da genişləndirilməsi planlaşdırılır.*

*Məktəbdə yaradılan şəraitlə tanış olan prezident İlham Əliyev tapşırıq və tövsiyələrini verdi.*

# İTALİYA RESPUBLİKASININ BAŞ NAZİRİ ENRİKO LETTANIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*11 avqust 2013-cü il*

*Avqustun 11-də Azərbaycan Respublikasına rəsmi səfərə gələn İtaliya Respublikasının Baş naziri Enriko Lettanın rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə raport verdi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliyanın Baş naziri Enriko Lettanı qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi İtaliyanın Baş nazirinə raport verdi.*

*İtaliyanın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Prezident İlham Əliyev və İtaliyanın Baş naziri Enriko Letta Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*İtaliyanın Baş naziri Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri İtaliyanın Baş naziri Enriko Lettaya, İtaliya nümayəndə heyətinin üzvləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İtaliyanın Baş naziri Enriko Lettanın qarşısından keçdi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İtaliyanın Baş naziri Enriko Letta rəsmi foto çəkdirdilər.*

## İTALİYA RESPUBLİKASININ BAŞ NAZİRİ ENRİKO LETTA İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Prezident sarayı*

*11 avqust 2013-cü il*

*Rəsmi qarşılanma mərasimindən sonra avqustun 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İtaliya Respublikasının Baş naziri  Enriko Lettanın təkbətək görüşü olmuşdur.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, energetika, mədəniyyət, humanitar və digər sahələrdə uğurlu inkişafından dərin məmnunluq ifadə olundu. Əlaqələrimizin bundan sonra da genişlənməsi üçün yaxşı imkanların olduğu qeyd edildi və əməkdaşlığımızın möhkəmlənəcəyinə əminlik bildirildi.*

*İtaliya Respublikasının Baş naziri Enriko Lettanın Azərbaycana rəsmi səfərinin ölkələrimiz arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi baxımından əhəmiyyəti vurğulandı.*

*Görüşdə ikitərəfli, regional və beynəlxalq məsələlər barədə fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 avqust 2013-cü il*

*Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İtaliya Respublikasının Baş naziri Enriko Lettanın avqustun 11-də nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İ l h a m Ə l i y e v:** Hörmətli cənab Baş nazir, əziz qonaqlar, sizi bir daha Azərbaycanda salamlayıram! Sizi görməyimə çox şadam. Biz uğurla inkişaf edən ikitərəfli münasibətlərimizə dair vacib məsələlər ətrafında fikir mübadiləsi aparmaq üçün gözəl imkan əldə etdik. Əlbəttə, Sizin ölkəmizə rəsmi səfəriniz dövlətlərimiz arasında əlaqələrin yüksək səviyyəsindən xəbər verir. Gündəliyimiz çox genişdir və müxtəlif sahələri əhatə edir. Gündəlikdə duran bütün məsələlər üzrə uğurla irəliləyirik. Bunlar siyasi, iqtisadi, enerji sahələridir.

İtaliya və Azərbaycan son illər ərzində çox sıx tərəfdaşlığı inkişaf etdirməyə nail olublar. Şübhəsiz ki, qarşıdakı illərdə bu tərəfdaşlıq daha da inkişaf edəcək və çox yüksək səviyyəyə çatacaqdır. Bu gün də qeyd etdiyimiz kimi, biz yaxşı anlayırıq ki, münasibətlərimizi daha da yüksək səviyyəyə qaldırmalıyıq. Sizin ölkəmizə səfərinizi çox yüksək qiymətləndiririk. Bu, dostluğun gözəl əlamətidir və eyni zamanda, ikitərəfli münasibətlərimizin vacib məsələlərini nəzərdən keçirmək üçün gözəl fürsətdir. Bir daha xoş gəlmisiniz!

**E n r i k o L e t t a:** Təşəkkür edirəm, cənab Prezident. Sizin səmimi qonaqpərvərliyinizi yüksək dəyərləndiririk. Burada olmaq fürsəti və Sizinlə, hökumətinizlə ikitərəfli əməkdaşlığın möhkəmləndirilməsinə dair müzakirələr aparmaq bizim üçün

çox əhəmiyyətlidir. Bu gözəl fürsət TAP boru kəmərinə dair qərarın verilməsindən sonra yarandı. Bu qərar İtaliya və Avropanın böyük bir hissəsi üçün çox vacibdir. Fürsətdən istifadə edərək, bu qərarın qəbul olunması sayəsində bu gün bizim ikitərəfli münasibətlərimizin və təkcə enerji sahəsi ilə məhdudlaşmayan əməkdaşlığımızın gücləndirilməsinin necə vacib olduğunu qeyd etmək istərdim. Lakin biz enerji sahəsində əməkdaşlıqdan yararlanaraq əlaqələrimizi iqtisadi və siyasi sahələrdə də gücləndirir, daha da yüksək səviyyəyə qaldırırıq. Bizim Əfqanıstandakı hərbçilərimiz arasında da yaxşı əməkdaşlıq mövcuddur. Əlbəttə, biz iqtisadi əməkdaşlığımızda daha mühüm irəliləyişlər əldə etmək istərdik. İtaliyanın İşəgötürənlər Konfederasiyasının və İnşaatçılar Assosiasiyasının yüksək səviyyəli nümayəndə heyəti noyabrın əvvəlində Bakıya səfər edəcəkdir. Onların səfərinin məqsədi bizim əməkdaşlığımızı daha da genişləndirməkdir.

*Son illərdə ölkəmizdə iqtisadiyyatın bütün sahələrində, o cümlədən enerji sahəsində qazanılan uğurlar bir daha təsdiqləyir ki, Azərbaycan sürətli iqtisadi inkişaf yolundadır. Enerji sahəsində əməkdaşlıq həm də Azərbaycanı beynəlxalq aləmdə etibarlı tərəfdaşa çevirib və güclü iqtisadi potensial ölkəmizin Avropanın qaz təchizatında oynadığı rola da öz töhfəsini verir. Bu baxımdan Azərbaycan dünyanın aparıcı iqtisadiyyatlarından birinə malik olan İtaliya ilə əlaqələri də inkişaf etdirir. Bunu İtaliya Respublikasının Baş naziri Enriko Lettanın avqustun 11-də Bakıya rəsmi səfəri də təsdiqlədi.*

*Səfər zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İtaliya Respublikasının Baş naziri Enriko Lettanın enerji sahəsində əməkdaşlığa dair Birgə Bəyannaməsi qəbul olundu.*

*Bəyannamədə «Şahdəniz»in ikinci fazası çərçivəsində çıxarılacaq Azərbaycan qazının Trans–Adriatik və Trans–Anadolu təbii qaz boru kəmərləri ilə Avropaya çatdırılmasına dair «Şahdəniz» konsorsiumunun qəbul etdiyi qərarın önəmi qeyd olunmuşdur. Bəyannamədə Azərbaycanın İtaliyanın əsas neft*

*təchizatçılarından biri olduğu vurğulanaraq ölkəmizin, həmçinin qaz sektorunda da İtaliya üçün önəmli tərəfdaşlardan biri olacağına əminlik ifadə edilmişdir.*

*Məlum olduğu kimi, Azərbaycan ilə İtaliya arasında əlaqələr müxtəlif sahələrdə sürətlə inkişaf edir. Bu baxımdan Bəyannamədə iqtisadi sahədə əməkdaşlığın daha da genişləndirilməsi ilə bağlı məsələlər öz əksini tapıb.*

*Sənəddə Azərbaycan ilə İtaliya arasında ikitərəfli əlaqələrin yüksək səviyyədə inkişafından məmnunluq bildirilmişdir. Bu əlaqələrin neft-qaz, bərpa olunan enerji, neft-kimya və digər sahələrdə bundan sonra da genişləndirilməsi üçün müvafiq addımların atılacağı vurğulandı.*

*Bəyannamədə ölkələrimizin enerji sektorunda institusional əməkdaşlıq və təcrübə mübadiləsinin həyata keçirilməsi barədə əldə olunmuş razılığın əhəmiyyəti də qeyd olunmuşdur. Sənəddə eyni zamanda, Azərbaycan və İtaliyanın sənaye sahəsini təmsil edən nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin həyata keçirilməsi nəzərdə tutulub. İqtisadiyyatın digər sahələrində də əməkdaşlığın bundan sonra da inkişaf etdirilməsi ilə bağlı məsələlər öz əksini tapıb.*

*Bəyannamədə, həmçinin ikitərəfli iqtisadi əlaqələrin sürətləndirilməsi üçün hökumətlərarası iqtisadi əməkdaşlıq komissiyasının fəaliyyətinin önəmi qeyd edilib.*

## İTALİYA RESPUBLİKASININ BAŞ NAZİRİ ENRİKO LETTA İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLAR

*Prezident sarayı*

*11 avqust 2013-cü il*

*Nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş başa çatdıqdan sonra avqustun 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İtaliya Respublikasının Baş naziri Enriko Lettanın mətbuat konfransı olmuşdur.*

*Prezident İlham Əliyev və İtaliyanın Baş naziri Enriko Letta əvvəlcə bəyanatlarla çıxış etdilər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Baş nazir!

Xanımlar və cənablar!

Sizi Azərbaycanda salamlayıram. Ümid edirəm ki, səfəriniz yaddaqalan olacaqdır. Bu, tarixi bir səfərdir. İtaliyanın Baş naziri ilk dəfə olaraq Azərbaycana səfər edir. Biz Sizi Azərbaycanda salamlayırıq. Sizin səfərinizə böyük önəm veririk. Bu, ikitərəfli münasibətlərimizin əhəmiyyətini təsdiq edən bir səfərdir. Bu, ikitərəfli münasibətlərimizin müxtəlif aspektlərini müzakirə etmək üçün çox gözəl fürsətdir.

Münasibətlərimiz çox uğurla inkişaf edir. Yaxşı siyasi əməkdaşlığımız vardır və bu səfər məhz onun bariz nümunəsidir. Biz beynəlxalq təşkilatlar çərçivəsində çox fəal əməkdaşlıq edirik. Sıx siyasi təmaslar da əlaqələrimizin şaxələndirilməsində və bütün sahələri əhatə etməsində çox vacibdir. Qeyd edə bilərəm ki, İtaliya bizim əsas ticarət tərəfdaşımızdır.

Təbii ki, bu, ilk olaraq, neft sahəsi ilə bağlıdır. Ancaq ümid edirəm ki, bu səfər və apardığımız müzakirələr nəticəsində biz ticarət əlaqələrimizi də şaxələndirmiş olacağıq.

Biz İtaliya şirkətlərini Azərbaycana dəvət edirik ki, burada sərmayəçi və podratçı qismində iştirak etsinlər. Böyük bir nümayəndə heyəti Azərbaycana səfərə gələcək və müxtəlif layihələri müzakirə edəcəkdir. Biz ölkələrimiz arasında enerji əməkdaşlığını müzakirə etmişik. Bu, münasibətlərimizdə yeni səhifə açacaqdır. Bu, təkcə ikitərəfli münasibətlərimiz deyil, Azərbaycanın Avropa İttifaqı ilə də əlaqələrinin yeni səhifəsi olacaq.

Azərbaycan Avropa İttifaqının enerji təhlükəsizliyini təmin edir. Biz Avropa İttifaqının timsalında yeni bazarlar tapmışıq. Bizim çox böyük ehtiyatlarımız vardır. Biz artıq yeni bazarlar müəyyənləşdirmişik və uzunmüddətli əlaqələri təşviq edəcəyik. Bu ilin iyun ayında «Trans–Adriatik» qaz kəməri marşrutu layihəsinin seçimi ilə bağlı çox mühüm bir hadisə olmuşdur. Bu çox ədalətli rəqabət şəraitində həyata keçirilmiş seçim olmuşdur. Burada investorlar üçün ən cəlbedici olan layihə seçilmişdir.

Enerji təhlükəsizliyi ölkələr üçün çox vacib məsələdir. Bu mənada Azərbaycan çox gözəl ölkədir. Bizim böyük sərvətlərimiz, böyük bazarlarımız vardır. Biz tranzit ölkə kimi də rəqabəti artırmış oluruq və ölkələrimiz arasında əlaqələri təşviq edirik.

Azərbaycan Avropanın bir sıra proqramlarında yaxından iştirak edir. Avropa institutları ilə əlaqələrimiz də mühüm əhəmiyyət kəsb edən bir məsələdir. Bu mənada mən İtaliyanın Baş nazirinə xüsusi təşəkkürümü bildirirəm ki, Azərbaycanın Avropa institutları və NATO ilə əməkdaşlığına dəstək verir.

Biz enerji ilə bərabər, regional məsələləri də müzakirə etmişik. Mən cənab Baş nazirə Ermənistan tərəfindən torpaqlarımızın işğal edilməsi məsələsi, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesi ilə bağlı fikirlərimi çatdırdım. Bir sıra qətnamələrə və qərarlara baxmayaraq, hələ də məsələ öz həllini

tapmamışdır. Burada təbii ki, beynəlxalq hüquq prinsipi və Azərbaycanın ərazi bütövlüyü əsas məsələdir. Bu məsələnin həlli regional sülh və tərəfdaşlığı təşviq edəcəkdir.

Biz bu regionda çox mühüm ölkəyik. Xəzər hövzəsində yerləşən mühüm ölkəyik. Avropa ilə daha yaxın münasibətlərimiz nəticəsində biz daha səmərəli nəticələr əldə edəcəyik. Mən əminəm ki, cənab Baş nazir, Sizin səfəriniz bizim əlaqələrə müsbət təkan verəcək və müxtəlif sahələrdə əlaqələrimizin inkişafına xidmət edəcəkdir. Təbii ki, İtaliya mədəniyyət sahəsində Azərbaycanda çox məşhur bir ölkədir. Ümidvaram ki, biz də fürsətdən istifadə edərək, İtaliya ictimaiyyətinə Azərbaycanı təqdim edəcəyik. Bu səbəbdən, cənab Baş nazir, Sizə təşəkkür edirəm ki, ölkəmizə səfərə gəlmisiniz. Qarşıdakı illərdə çox səmərəli əməkdaşlıq edəcəyimizə əminəm.

### İtaliyanın Baş naziri Enriko Lettanın bəyanatı

Cənab Prezident!

Mənim üçün burada olmaq böyük şərəfdir. Bizim üçün bu səfərin nə dərəcədə əhəmiyyətli olduğunu Siz çox gözəl bilirsiniz. Mən ölkəmin ilk Baş naziriyəm ki, Azərbaycana, Bakıya səfər edirəm. Bu bir daha onun göstəricisidir ki, bizim müzakirələrimiz və TAP layihəsinin seçilməsi nə dərəcədə əhəmiyyətli olmuşdur.

Zənnimcə, bu layihə İtaliyanın enerji gələcəyində mühüm bir amil olacaqdır. Bu təkcə İtaliyanın deyil, regionun gələcəyi üçün də müstəsna əhəmiyyətə malik layihədir. Bu, böyük bir enerji çərçivəsini dəyişmiş olacaq bir layihədir. Biz yaxşı əməkdaşlıq edərək, yunan və alban hökumətləri ilə sıx təmaslar yaratmışıq. Təbii ki, Türkiyə də burada unudulmamalıdır. Əminik ki, bu cür razılaşmalar birgə səmərəli əməkdaşlığımızı təşviq edəcəkdir. Ən başlıcası, biz bu məsələdə vaxt itirməməliyik və tezliklə bu layihənin icrasına başlanılmalıdır.

Cənab Prezident, Sizə və Azərbaycana dərin təşəkkürümü bildirirəm ki, bu seçimi etmisiniz. TAP layihəsinin seçimi kommersiya prinsiplərinə əsaslanmış seçim olmuşdur. Amma çox vacib bir məsələdir. Zənnimcə, bu layihə ölkələrimiz arasında iqtisadi əlaqələri daha yüksək səviyyəyə qaldıracaqdır.

Bu fürsətdən istifadə edərək, İtaliya ictimaiyyətinə müraciət edərək, bildirməliyəm ki, Azərbaycan bizim ölkə və onun gələcəyi üçün nə dərəcədə əhəmiyyətli bir tərəfdaşdır. Bizim bu layihələrdə yaxından iştirakımız iqtisadi əlaqələrimizi daha da yüksək səviyyəyə qaldıracaqdır.

Biz birgə qrup yaradacağıq. İtaliyanın aparıcı şirkətlərinin nümayəndələri noyabrda Azərbaycana səfər edəcəklər. Bu, İtaliyanın Tikinti Şirkətləri Assosiasiyası, habelə Ağır Sənaye Avadanlığı Federasiyasının nümayəndələri Azərbaycana səfər edəcək, burada müxtəlif imkanlar axtaracaqlar. Zənnimcə, bu da təmasların fəallığının bir göstəricisi olacaqdır.

Biz Birgə Bəyannaməmizdə də qeyd etdik ki, bu fəallıq artırılmalıdır. Cari ilin sonunda İqtisadi Komissiyanın iclası keçiriləcəkdir. Bu çox vacib bir məsələdir. Həmçinin əməkdaşlığımızın mədəniyyət sahəsi də diqqətdən yayınmamalıdır. Biz İtaliya–Azərbaycan mülki cəmiyyət forumu yaradacağıq. Bu forum ictimaiyyət arasında təmasları təşviq edəcəkdir.

Cənab Prezident artıq qeyd etdi, biz Dağlıq Qarabağ münaqişəsinin həllini də müzakirə etmişik. Biz hesab edirik ki, bu məsələdə status-kvo qəbuledilməzdir. Uzun sürən münaqişənin həlli regionda sülh və təhlükəsizliyin təmin edilməsinə tarixi töhfə olacaqdır.

İtaliya Minsk qrupunun fəaliyyətini dəstəkləyir və biz hesab edirik ki, münaqişənin həlli üçün bu format ən fəaldır. Mən bir daha qeyd etmək istərdim ki, münaqişənin uzun müddət həll olunmaması heç bir tərəfin xeyrinə deyildir.

Bundan əlavə, Azərbaycanın «Expo–2015» sərgisində iştirakı ilə bağlı razılığını xüsusi qeyd etmək istərdim. Bu sərgi Milanda keçiriləcəkdir. Orada müxtəlif mühüm mövzular müzakirə ediləcəkdir. Azərbaycana təşəkkür etmək istərdim ki,

sərgidə iştirak edəcəkdir. Bu, Avropa İttifaqı üzrə keçirilən bir sərgidir. Bu, artıq 30 il müddətində ənənəvi keçirilən bir tədbirdir. Ona görə də, cənab Prezident, təşəkkür edirəm ki, bu seçimi etmisiniz.

Ümid edirəm ki, tezliklə – noyabrda Sizinlə Vilnüsdə görüşəcəyik. Fürsətdən istifadə edərək, cənab Prezidenti İtaliyada görməyə çox şad olardım. 2015-ci ildə Sizi həmin sərgi ilə yaxından tanış olmağa dəvət edirəm. Bugünkü görüşümüzün davamı olaraq orada da müxtəlif mövzuları müzakirə edərik.

Bizim şirkətlər və istehsalçılar tezliklə Azərbaycana səfərə gəlib müvafiq razılaşmalar imzalayacaqlar ki, bu da 2 ölkə arasında çox vacib olan iqtisadi sahəni inkişaf etdirəcəkdir. Enerji İtaliya üçün çox mühüm bir məsələdir. Biz külli miqdarda vəsaitimizi enerji məsələsinə yönəldirik. Biz bu mənada artıq fərqli bir vəziyyətin yaranmasının tərəfdarıyıq. Ona görə də biz çox şadıq ki, Azərbaycan TAP ilə bağlı seçimini etmişdir. Çox təşəkkür edirəm.

* * *

*Sonra jurnalistlərin sualları cavablandırıldı.*

**S u a l** *(«1news» informasiya agentliyinin direktoru Rəhman Hacıyev):* **Cənab Baş nazir, sualım Sizədir. Siz qeyd etdiniz ki, Ermənistanın Azərbaycana qarşı təcavüzü artıq 20 ildir davam edir. Bildiyiniz kimi, bizim ərazilərimizin 20 faizi Ermənistan qoşunları tərəfindən işğal edilmişdir. 1 milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Dağlıq Qarabağ münaqişəsi bu gün regionun əməkdaşlığı üçün böyük əngəldir və Avropanın təhlükəsizlik sisteminə mühüm təhdiddir. BMT Təhlükəsizlik Şurası bununla bağlı 4 qətnamə qəbul etmişdir. Bütün qətnamələr Azərbaycan torpaqlarının qeyd-şərtsiz azad olunmasını tələb etmişdir. Bu günədək Ermənistan bu qətnamələrə və digər sənədlərə məhəl qoymur. Necə düşünürsünüz, bütün bu qətnamələr nəyə görə hələ də icra olunmamışdır?**

**E n r i k o L e t t a**: Bir neçə dəqiqə əvvəl mən cənab Prezidentə bu barədə danışdım. Mən gənc bir tələbə idim. Dağlıq Qarabağ münaqişəsi başlayanda universitetdə oxuyurdum, beynəlxalq münasibətlər üzrə təhsil alırdım. Ona görə də mən bu problemlə tanışam. Münaqişə 20 ildən çoxdur davam edir. Bu da çox uzun bir müddətdir. Mən çox gözəl anlayıram ki, bu münaqişənin bundan sonra da belə səmərəsiz davam etməsi nə dərəcədə qorxunc bir fikirdir. İtaliya bu münaqişənin beynəlxalq praktikaya uyğun həlli istiqamətində səylərini əsirgəməyəcəkdir. Biz hesab edirik ki, Dağlıq Qarabağ münaqişəsinin həlli beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənən bir həll olmalıdır. Ənənəvi olaraq biz bu münaqişəyə böyük diqqət yetirmişik. Bizim diplomatlarımız bu məsələni diqqət mərkəzində saxlamışlar və ənənəvi olaraq müxtəlif təkliflər irəli sürülmüş və nəzərdən keçirilmişdir. Gələn il Avropa İttifaqına İtaliya sədrlik edəcəkdir. Bu bizim üçün böyük bir məsuliyyətdir. Sizi əmin etmək istərdim ki, biz bu münaqişənin beynəlxalq səviyyədə həllinə nail olmaq üçün əlimizdən gələni edəcəyik.

**S u a l** *(«Azad Azərbaycan» telekanalı, Ceyhun Əliyev)*: **Cənab Prezident, ölkələrimiz arasında səmərəli əməkdaşlıq mövcuddur. İqtisadi əlaqələrimizin genişləndirilməsi baxımından hansı əlavə tədbirlər görülə bilər?**

**İ l h a m Ə l i y e v:** Mən cənab Baş nazirlə bu məsələni müzakirə etdim. Biz düşünürük ki, burada şaxələndirmə vacib rol oynayır. Enerji sahəsi münasibətlərimizdə mühüm rol oynayır. Xüsusilə TAP layihəsinin icrası baxımından da bu belədir. Hesab edirəm ki, bizim qeyri-enerji sektorunda da daha böyük potensialımız vardır. Bu, ölkələrimiz və hökumətlərimiz üçün prioritet bir məsələdir. Bu bizim iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafı üçün çox mühüm məsələdir. İtaliya kimi bir tərəfdaş bizə kömək edə bilər ki, biz şaxələndirmə layihələrini uğurla icra edək. Biz İtaliya iş adamlarından ibarət nümayəndə heyətinin Azərbaycana səfərini gözləyirik, eyni zamanda, hökumətlərarası komissiyanın iclası

olacaqdır. Burada əməkdaşlıq üçün yaxşı sahələr müəyyən oluna bilər. Biz bu gün tikinti, turizm, kənd təsərrüfatı, yeni sənaye parklarının yaradılması məsələlərini müzakirə etdik. Bildiyiniz kimi, bu bizim üçün vacib məsələdir. İtaliya şirkətlərinin Azərbaycandakı infrastruktur layihələrində iştirakı məsələsini müzakirə etmişik.

Əminəm ki, biz TAP layihəsini icra etdikcə və enerji sektorunda əməkdaşlığımızı gücləndirdikcə diqqəti qeyri-neft sektoruna yönəldəcəyik, ticarət əlaqələrimizi şaxələndirəcəyik və ölkələrimiz, xalqlarımız arasında təmasları daha da gücləndirəcəyik.

**S u a l** (*italiyalı jurnalist):* **Cənab Baş nazir, dünən çox təhlükəli bir amillərlə üzləşdik. Bu, qeyri-qanuni miqrasiya məsələsidir. Təkcə media deyil, siyasətçilər də qeyd edirlər ki, müxtəlif ölkələrdə də belə bir mövqelər bildirilir: qanunsuz miqrasiya məsələsi böyük bir problemə çevrilir. Bu, kontinental mahiyyətə malik olan bir problemdir. Bununla bağlı fikrinizi eşitmək istərdik.**

**E n r i k o  L e t t a:** Həqiqətən də mən Kataniyada faciə nəticəsində vəfat etmiş insanların ailələrinə öz başsağlığımı çatdırmaq istərdim. Burada İtaliya sahillərinə gəlmiş əmək miqrantlarından söhbət gedir. Bəli, Malta hökuməti bizimlə bərabər olaraq bu məsələnin həllində, bu qurbanların taleyinin müəyyən edilməsində yaxından iştirak edir. Biz çalışırıq ki, bu insanların çətinliyini qarşılaya bilək.

İtaliya Avropanın tərkib hissəsidir və bizim də bir növ, mən deyərdim, qonaqpərvərliklə bağlı müəyyən statusumuz vardır. Amma bizim qanunlarımız və prinsiplərimiz də vardır ki, bunlar təmin edilməlidir. Bizim sahillərimizə gəlmiş əmək miqrantları ilə bağlı bir prinsipial mövqemiz vardır. Bizim mövqemiz dəyişmir. Hərdən biz sərt tədbirlər görməli oluruq. Bu gün Aralıq dənizində miqrasiya axını çox mühüm bir məsələdir. Bu məsələ bizim prinsip və qanunlarımız çərçivəsində həll edilməsə, böyük problemlər yaranacaqdır. Bu gün planetin müxtəlif yerlərində də miqrasiya ilə bağlı həmin problemlər

yaşanır. Bu, demək olar ki, müxtəlif ölkələrdə vəziyyəti alt-üst edir. 10 gün bundan öncə bununla bağlı bizim hökumət səviyyəsində xüsusi toplantımız olmuşdur və həmin insanların hər bir şeylə təmin edilməsindən danışmışıq.

Məsələn, Azərbaycanın bu baxımdan böyük nailiyyətləri vardır. Azərbaycan kimi tərəfdaşlar da bizə kömək etsələr, biz bu cür böyük maneələri, xüsusilə də qanunsuz miqrasiya kimi problemi həll edə bilərik. Bu bizim daxili siyasət üçün çox mühüm məsələdir və həm də beynəlxalq səviyyədə belə bir problem mövcuddur. Ona görə də İtaliya öz mövqeyinə sadiq qalsa, biz bu məsələdə əhəmiyyətli dərəcədə irəliləyiş əldə edə bilərik və miqrasiya məsələsini həll etmiş olarıq.

Bu bizim tərəfdaşlarımız üçün də böyük bir kömək olar. Aralıq dənizi üzrə miqrasiya çox mühüm məsələdir. Burada Avropa üzrə vahid təşəbbüslərdən söhbət gedir. Müxtəlif sahələrdə də vahid bir mövqe nümayiş etdirilməlidir. Digər məsələlər kimi, burada da vahid bir mövqe olmalıdır.

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*11 avqust 2013-cü il*

*Avqustun 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından ölkəmizdə rəsmi səfərdə olan İtaliya Respublikasının Baş naziri Enriko Lettanın şərəfinə rəsmi ziyafət verilmişdir.*

**İ l h a m Ə l i y e v:** Cənab Baş nazir!

Əziz dostlar, əziz qonaqlar!

Bir daha sizi Azərbaycanda salamlayıram. Səfəriniz doğrudan da tarixidir. O bizim münasibətlərimizin tarixinə İtaliya Baş nazirinin ilk səfəri kimi düşəcəkdir. Bu çox vacib və mühümdür, əməkdaşlığın və dostluğun yaxşı əlamətidir. Eyni zamanda, bu gün apardığımız müzakirələr nöqteyi-nəzərindən səfəriniz çox əhəmiyyətlidir. Biz ikitərəfli əlaqələrin, regional əməkdaşlığın bir çox sahələrinə toxunduq. Müzakirələrimizi indi nahar zamanı da davam etdirəcəyik.

Ölkələrimiz arasında dostcasına, çox sabit, gözlənilən, qarşılıqlı dəstəyə, anlaşmaya və hörmətə əsaslanan münasibətlərin inkişafından məmnunluq ifadə etmək istərdim. Bu gün müzakirə etdiyimiz kimi, bu münasibətlər Avropa İttifaqı–Azərbaycan əlaqələri üçün də mühümdür. Avropa İttifaqı–Azərbaycan münasibətlərinə verdiyi dəstəyə görə ölkənizə minnətdarıq və ümid edirəm ki, qarşıdakı aylarda və illərdə bizi çoxlu yeniliklər gözləyir. Əminəm ki, səfərdən sonra biz iqtisadi sahədə daha fəal əməkdaşlığın şahidi olacağıq, çünki enerji layihələri bizim ölkələri daha da əlaqələndirəcək və əlaqələrimiz davamlı inkişaf edərək, xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

**E n r i k o  L e t t a:** Cənab Prezident, məndə belə bir hiss vardır ki, bu gün İtaliya ilə Azərbaycan arasında münasibətlər dəyişir. Mən bunu məmnuniyyətlə qeyd edirəm. Bu gün biz münasibətlərimizin əsasını qoyuruq və bu da əlaqələrimizin gələcəyi üçün çox əhəmiyyətlidir. Bu bizim üçün çox əhəmiyyətlidir. Bizim gördüyümüz işlərə marağımız böyükdür və bu, gələcəkdə də belə olacaqdır. Gələcək əməkdaşlığımız enerji sahəsindən başlayacaq və əminəm ki, əlaqələrimiz enerji ilə yanaşı, müxtəlif nikbin və konkret sahələri də əhatə edəcəkdir. Düşünürəm ki, bizim indi ikitərəfli gündəliyimiz vardır və biz gündəliyimizə əsasən müəyyən etdik ki, ölkələrimiz ilk növbədə, enerji və əlbəttə, iqtisadi, eləcə də siyasi və mədəniyyət sahələrində birlikdə çalışmağa hazırdır. Sizin 2015-ci ildə tərəfimizdən keçiriləcək sərgidə iştirakla bağlı verdiyiniz qərar güclü iradə və dostluğun çox əhəmiyyətli göstəricisidir. Əlbəttə, mən çox şadam ki, gələcəkdə italiyalılar Azərbaycanı daha yaxşı tanıyacaqlar. Mənim bu gün buraya səfərim italyanlara Azərbaycanın necə bir ölkə olduğunu, bizim tərəfdaşlığımızın necə bir strateji tərəfdaşlıq olduğunu anlamağa kömək edəcəkdir. Bilirəm ki, ölkələr arasındakı strateji əlaqələr hökumətlər və təşkilatların işləməsini tələb edir. Onu da bilirəm ki, şəxsi münasibətlər də buna öz töhfəsini verəcəkdir. Əminəm ki, bu gün müzakirə etdiyimiz məsələlər və onların həlli yolları, eləcə də hərbi, NATO, Əfqanıstan və digər mühüm sahələrdə əməkdaşlıqla bağlı fikirlərimiz mühüm əhəmiyyət kəsb edir. Avropa İttifaqının bir hissəsi olaraq biz Azərbaycanın dostuyuq. Biz məsələlərin müsbət həllini tapmağa çalışacağıq. Biz yenidən Vilnüsdə görüşəcəyik və ümid edirəm ki, Vilnüs toplantısı yeni nailiyyətlərin əldə olunmasına imkan verəcəkdir.

## SABUNÇU–ZABRAT–MAŞTAĞA–BUZOVNA AVTOMOBİL YOLUNUN ZABRAT–BUZOVNA SAHƏSİNİN ƏSASLI ŞƏKİLDƏ YENİDƏN QURULMASI İŞLƏRİ İLƏ TANIŞLIQ

*12 avqust 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 12-də paytaxtın ümumi uzunluğu 20 kilometr olan Sabunçu–Zabrat–Maştağa–Buzovna avtomobil yolunun Zabrat–Buzovna sahəsinin əsaslı şəkildə yenidən qurulması işləri ilə tanış olmuşdur.*

*Dövlət başçısının göstərişi ilə Bakı və Bakıətrafı qəsəbələrin inkişafı daim diqqət mərkəzində saxlanılır. Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş «Bakı şəhərinin qəsəbələrinin 2006–2007-ci illər üzrə sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Proqramı»nın davamı olan 2011–2013-cü illəri əhatə edən Dövlət Proqramında yol infrastrukturunun daha da müasirləşdirilməsi nəzərdə tutulur. Bakı və ətraf qəsəbələrin yollarının ən müasir səviyyədə inşası, yolötürücülərin, körpü, tunel, yeraltı və yerüstü piyada keçidlərinin tikintisi ardıcıl olaraq həyata keçirilir.*

*Nəqliyyat naziri Ziya Məmmədov Sabunçu–Zabrat–Maştağa–Buzovna avtomobil yolunun Zabrat–Buzovna sahəsinin yenidən qurulması layihəsi əsasında yolun əsas göstəriciləri barədə dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, yolun 11 kilometrlik hissəsi 6 cərgəli, 9 kilometrlik hissəsi isə 4 cərgəlidir. Yolun Sabunçu–Zabrat sahəsinin yenidən qurulması 2012-ci ildə, 14 kilometrlik Zabrat–Maştağa–Buzovna sahəsinin yenidən qurulması işləri isə 2012–2013-cü illərdə həyata keçirilib.*

*Müasir tələblər səviyyəsində yenidən qurulan bu yol Sabunçu, Zabrat, Maştağa, Nardaran, Buzovna, Zuğulba, Bilgəh qəsəbələrini bir-biriləri ilə, ən başlıcası isə bu qəsəbələri Azadlıq meydanı – Aeroport–Bilgəh magistral yolu ilə birbaşa birləşdirməklə, 140 mindən çox əhalinin rahat gediş-gəlişini təmin edəcəkdir.*

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİNİN AZƏRBAYCANA SƏFƏRİ

*Prezident sarayı*

*13 avqust 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 13-də ölkəmizə səfərə gələn Rusiya Federasiyasının Prezidenti Vladimir Putini qarşılamışdır.*

*Sonra Azərbaycan və Rusiya prezidentləri arasında təkbətək görüş oldu.*

**İ l h a m Ə l i y e v:** Hörmətli Vladimir Vladimiroviç! Sizi görməyə çox şadam! Azərbaycana xoş gəlmisiniz! Əminəm ki, səfəriniz münasibətlərimizə əlavə impuls verəcəkdir. Əlaqələrimiz çox dinamik, müsbət və uğurla inkişaf edir. Münasibətlərimiz bir çox sahələri əhatə edir. Bu gün həm gündəlikdə duran ikitərəfli münasibətləri, həm də regional məsələləri müzakirə etmək imkanımız olacaqdır. Gündəliyimiz kifayət qədər genişdir. İqtisadiyyatda gözlədiyimizdən də çox yaxşı nəticələr vardır. Ənənəvi olaraq humanitar sahədə də yaxşı nəticələr və perspektivlər mövcuddur. Başqa sözlə, münasibətlərimiz çox uğurla inkişaf edir. Sizin səfərinizin əlaqələrimizin inkişafında, əlbəttə ki, xüsusi yeri vardır. Əminəm ki, səfərdən sonra əlaqələrimizin müsbət dinamikası davam edəcəkdir. Bir daha Sizi ürəkdən salamlayıram. Xoş gəlmisiniz!

**V l a d i m i r P u t i n:** İlham Heydər oğlu! Dəvətə görə dərin təşəkkür edirəm! Həqiqətən, ölkələrimiz arasında münasibətlər kifayət qədər uğurla inkişaf edir. Dünya iqtisadiyyatındakı çətin vəziyyətə baxmayaraq, ötən il əmtəə mübadiləsinin artımı 48 faizdən çox olub – təqribən 50 faiz. Bu

bizim üçün rekordlardan biridir. Rusiya Azərbaycan ilə ticari-iqtisadi əlaqələrdə liderlərdəndir və 2-ci yeri tutur, ticarət dövriyyəsi artır. Həm Rusiya, həm Azərbaycan tərəfindən ticarət dövriyyəsinin strukturu kifayət qədər sanballıdır. Əlaqələrimiz bir çox sahələr üzrə inkişaf edir. Burada tam əminliklə demək olar ki, bu əlaqələr şaxələndirilmiş xarakter daşıyır və təşəbbüslərin çoxluğu, o cümlədən Azərbaycan tərəfindən humanitar sahənin inkişafına yönələn təşəbbüslər sevindiricidir. Mən bilirəm ki, burada Sizin şəxsi təşəbbüsləriniz də vardır. Biz bu gün hamısını müzakirə edəcəyik. Mən əminəm ki, bugünkü görüşümüz münasibətlərimizin inkişafına kömək edəcəkdir. Mənimlə buraya böyük komanda – əməkdaşlığımızın istiqamətləri üzrə aparıcı nazirlər gəlib. Odur ki, işimiz məzmunlu, böyük, maraqlı və əhəmiyyətli olacaqdır.

Çox sağ olun!

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Prezident sarayı*

*13 avqust 2013-cü il*

*Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyası Prezidenti Vladimir Putinin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İ l h a m Ə l i y e v:** Hörmətli Vladimir Vladimiroviç!

Hörmətli qonaqlar!

Bir daha sizi Azərbaycanda ürəkdən salamlamaq istəyirəm! Xoş gəlmisiniz! Sizin səfəriniz bizim üçün böyük əhəmiyyət kəsb edir. Bu gün artıq danışıqlarda qarşılıqlı maraq doğuran məsələlərin geniş spektri üzrə fikir mübadiləsi apardıq.

Münasibətlərimizin gündəliyi çox genişdir. Əməkdaşlıq çoxplanlı və çoxtərəflidir, demək olar ki, bütün sahələri əhatə edir. İqtisadi əlaqələr, humanitar sahə, nəqliyyat, regional təhlükəsizlik və bütün məsələlər üzrə mövqelərimiz oxşardır. Əlbəttə ki, ikitərəfli münasibətlər və regional siyasətin mühüm məsələlərini Sizinlə müzakirə etmək imkanı çox vacibdir. Çox şadam ki, Sizi böyük və möhtərəm nümayəndə heyəti müşayiət edir. Nümayəndə heyətinin belə tərkibdə olmasının özü sübut edir ki, bizim önəm verdiyimiz məsələlər böyük əhəmiyyət kəsb edir. Əminəm ki, bu səfər ölkələrimiz arasında gələcək dostluq münasibətlərinə bütün istiqamətlərdə təkan verəcək, ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdıracaqdır. Bir daha xoş gəlmisiniz!

**V l a d i m i r P u t i n:** İlham Heydər oğlu, dəvətə görə çox sağ olun! Rusiya–Azərbaycan münasibətlərinin inkişafına göstərdiyiniz diqqətə görə təşəkkür edirəm! Mən əsas məsələ,

humanitar istiqamətlər barədə daha çox danışmaq istərdim. İndicə kiçik tərkibdə danışarkən biz bu məsələyə lazımi diqqət yetirdik. Mən bir daha qeyd etmək istərdim ki, Azərbaycanda rus dilinin inkişafına və tədrisinə lazımi diqqət göstərilir, rusdilli məktəblər və Rusiyanın ali təhsil müəssisələrinin filialları da fəal işləyir. Bu, mühüm məsələdir. Çünki bu, bütün digər istiqamətlərdə iş üçün şərait yaradır.

Bütün digər məsələlərlə bağlı bizdə yüksəliş göz qabağındadır. Biz artıq qeyd etmişik ki, dünya iqtisadiyyatındakı çətinliklərə baxmayaraq, əmtəə dövriyyəmiz artır. Keçən il, demək olar ki, 50 faiz, yəni 48 faizdən çox artıb. Bu bizim qarşılıqlı fəaliyyətimizin çox gözəl göstəricisi, potensialıdır. Həqiqətən də Rusiya nümayəndə heyətinin tərkibində xeyli nazirlər vardır, onların çoxu əsas aparıcı nazirliklərin və idarələrin nümayəndələridir. Mən ümid edirəm ki, biz bu gün belə geniş tərkibdə əməkdaşlığımızı daha da intensivləşdirmək üçün nələr etməli olduğumuzla bağlı fikir mübadiləsi aparacağıq. Əminəm ki, bütün bu işlər bizim gələcək fəaliyyətimiz üçün faydalı və perspektivli olacaqdır.

Çox sağ olun!

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Prezident sarayı*

*13 avqust 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşündən sonra Azərbaycan–Rusiya sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə «Neftyanaya kompaniya «Rosneft» Açıq Səhmdar Cəmiyyəti arasında əməkdaşlıq haqqında Saziş»i və «Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə «Neftyanaya kompaniya «Rosneft» Açıq Səhmdar Cəmiyyəti arasında neft nəqlinin əsas şərtləri»ni Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev və «Neftyanaya kompaniya «Rosneft» Açıq Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri İqor Seçin imzaladılar.*

*«Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi ilə Rusiya Federasiyası Mülki Müdafiə, Fövqəladə Hallar və Təbii Fəlakətlərin Nəticələrinin Aradan Qaldırılması Məsələləri üzrə Nazirliyi arasında 2013–2015-ci illər dövrü üçün kompleks əməkdaşlıq planı»nı Azərbaycan Respublikasının Fövqəladə Hallar naziri Kəmaləddin Heydərov və Rusiya Federasiyasının Mülki Müdafiə, Fövqəladə Hallar və Təbii Fəlakətlərin Nəticələrinin Aradan Qaldırılması Məsələləri üzrə naziri Vladimir Puçkov imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında Aviasiya axtarışı və xilasetmə sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycan Respublikasının Fövqəladə Hallar naziri Kəmaləddin Heydərov və Rusiya Federasiyasının Nəqliyyat naziri Maksim Sokolov imzaladılar.*

*«Rusiya–Azərbaycan dövlət sərhədindən «Samur» (Azərbaycan Respublikası) – «Yaraq-qazmalar» (Rusiya Federasiyası) buraxılış məntəqələri rayonunda Samur çayı üzərindən avtomobil körpüsü tikilməsi haqqında Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında Saziş»i Azərbaycan Respublikasının Nəqliyyat naziri Ziya Məmmədov və Rusiya Federasiyasının Nəqliyyat naziri Maksim Sokolov imzaladılar.*

*«2015-ci ilə qədər olan dövrdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında humanitar sahədə Əməkdaşlıq Proqramı»nı Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov və Rusiya Federasiyasının Xarici İşlər naziri Sergey Lavrov imzaladılar.*

# RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*Prezident sarayı*

*13 avqust 2013-cü il*

*Azərbaycan–Rusiya sənədlərinin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin bəyanatlarla çıxış etmişlər.*

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli Vladimir Vladimiroviç!

Hörmətli qonaqlar! Xanımlar və cənablar!

Rusiya prezidentini Azərbaycanda bir daha səmimi-qəlbdən salamlamaq istəyirəm. Bugünkü səfər bizim münasibətlərimizin nə dərəcədə dinamik, uğurlu inkişaf etdiyini, ölkələrimizin və xalqlarımızın amallarına nə dərəcədə uyğun olduğunu bir daha nümayiş etdirir.

Səfər çərçivəsində biz münasibətlərimizin çox geniş gündəliyini nəzərdən keçirdik, qarşılıqlı maraq doğuran bütün məsələləri müzakirə etdik və münasibətlərimizin gələcək inkişaf yollarını qeyd etdik.

Rusiya ilə Azərbaycan arasında münasibətlər dostluğa, mehriban qonşuluğa, xalqlarımızın tarixinə, onların ortaq taleyinə, bu gün isə həm də qarşılıqlı maraqlara, möhkəm bazaya əsaslanır.

Siyasi sahədə münasibətlərimizin necə inkişaf etməsindən çox razıyıq. Biz beynəlxalq təşkilatlarda dostlar, tərəfdaşlar kimi əməkdaşlıq edirik. Bu gün bu məsələyə xüsusi diqqət

yetirildi. Biz bir-birimizi beynəlxalq qurumlarda dəstəkləyirik və gələcəkdə də beynəlxalq təşkilatlarda qarşılıqlı dəstək siyasətini davam etdirəcəyik.

Bu gün biz regional problemləri də, ilk növbədə, regional təhlükəsizlik məsələlərini, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı məsələləri də müzakirə etdik.

Bildiyiniz kimi, Azərbaycan torpaqlarının işğalı 20 ildən çoxdur ki, davam edir. İşğal altında olan ərazi mahiyyət etibarilə həyat üçün yararsızdır. Dağıdıla biləcək nə varsa hamısı dağıdılmışdır. Ərazimizin 20 faizi işğal edilmişdir. Beynəlxalq təşkilatların qətnamələri yerinə yetirilmir. BMT Təhlükəsizlik Şurası erməni işğalçı qüvvələrinin bizim ərazidən çıxarılmasını tələb edən 4 qətnamə qəbul etmişdir, onlar kağız üzərində qalır. Ona görə də bu məsələnin tezliklə həll edilməsi regionun bütün ölkələrinin maraqlarına uyğundur.

Bu məsələnin həlli tarixi ədalətə, beynəlxalq hüquqa, beynəlxalq təşkilatların qərarlarına və qətnamələrinə əsaslanmalıdır. Rusiya ATƏT-in Minsk qrupunun həmsədri kimi, münaqişənin tənzimlənməsi məsələlərində mühüm rol oynayır. Bir daha qeyd etmək istəyirəm ki, münaqişənin tezliklə tənzimlənməsi regionda sabitliyə, müəyyənliyə və əməkdaşlığa gətirib çıxarar.

Biz ölkələrimiz arasında əmtəə dövriyyəsinin artmasını böyük məmnunluqla qeyd etdik. Dünyada iqtisadi və maliyyə böhranının davam etdiyi şəraitdə bu, xüsusilə xoşdur. Əmtəə dövriyyəsinin strukturu çox müsbətdir. Hərbi-texniki sahədə fəal əməkdaşlıq müşahidə olunur. Mətbuatda hərbi-texniki əməkdaşlığın həcmi barədə vaxtaşırı verilən məlumatlar heç də həmişə reallığı əks etdirmir. Deməliyəm ki, bu gün Rusiya ilə Azərbaycan arasında hərbi-texniki əməkdaşlığın həcmi 4 milyard dollarla ölçülür və bu göstərici artmaqdadır. Əminəm ki, gələcəkdə bu əməkdaşlıq fəal şəkildə davam edəcəkdir. Azərbaycan artıq haqlı olaraq dünyada ən yaxşı texnikadan biri

sayılan Rusiya texnikasının alıcıları olan aparıcı ölkələr sırasına daxildir.

Bu gün biz enerji təhlükəsizliyi ilə bağlı məsələləri ətraflı müzakirə etdik. Ölkələrimiz bu istiqamətdə elektroenergetika sahəsində çox fəal əməkdaşlıq edir. Neft-qaz əməliyyatları sahəsində mühüm sazişlər imzalanmışdır. Bu gün imzalanmış sazişlər Rusiyanın və Azərbaycanın dövlət strukturları arasında neft-qaz sahəsində əməkdaşlığın yeni səhifəsidir. Əminəm ki, bu əməkdaşlıq çox uğurlu və səmərəli olacaqdır.

Ölkələrimiz enerji resurslarının istehsalçıları və ixracatçılarıdır. Təbii ki, maraqlarımız üst-üstə düşür. Güman edirəm ki, regional energetika problemləri çərçivəsində çox şey bizim fəal qarşılıqlı əlaqələrimizdən, səylərimizi əlaqələndirməyimizdən asılı olacaqdır. Biz qəti surətdə əməkdaşlığı, iqtisadi və siyasi inkişafın bu mühüm istiqamətində Rusiya ilə qarşılıqlı əlaqələri möhkəmləndirmək əzmindəyik.

Bu gün nəqliyyat infrastrukturu barədə də saziş imzalandı. Bu istiqamətdə də fəal əməkdaşlıq edirik.

Hesab edirəm ki, humanitar sahədə Rusiya ilə Azərbaycan arasında münasibətlər nümunə ola bilər. Bir daha mətbuat nümayəndələrinin qarşısında bizim nə barədə danışdığımızı qeyd etməliyəm: Azərbaycanda tədrisin rus dilində həyata keçirildiyi 335 məktəb vardır. Bu məktəblərin 15-də tədris sırf rus dilindədir, bizim 27 universitetdə rus dilində tədris aparılır.

Tədrisin rus dilində olduğu orta, orta ixtisas və ali məktəblərdə təhsil alanların sayı 100 min nəfərdən çoxdur. Bu bizim rus dilinə, rus mədəniyyətinə, rus ədəbiyyatına münasibətimizin mühüm göstəricisidir. Azərbaycanda keçmişin bütün müsbət ənənələri qayğı ilə qorunub saxlanılır.

Əlbəttə, münasibətlərimizin bugünkü dinamik inkişafı humanitar sahədə yaxşı nəticələrə şərait yaradır. Humanitar sahədə əməkdaşlıq çox güman ki, bizim münasibətlərimizin – dostluğa, mehriban qonşuluğa, qarşılıqlı maraqlara, hörmətə, etimada söykənən, proqnozlaşdırıla bilən və sabit münasibətlərin əsasıdır.

Əlbəttə, Rusiya prezidentinin Azərbaycana səfəri bizim münasibətlərimizin yüksək səviyyədə olmasına dəlalət edir və ölkələrimiz arasında hərtərəfli münasibətlərin gələcək inkişafına güclü təkan verir.

Hörmətli Vladimir Vladimiroviç, bir daha xoş gəlmisiniz! Sizi ölkəmizdə görməyə həmişə şadıq.

## Rusiya prezidenti Vladimir Putinin bəyanatı

Çox sağ olun!

Hörmətli İlham Heydər oğlu!

Hörmətli həmkarlar, dostlar!

Çoxdandır ki, Azərbaycanda olmamışdım. Axırıncı dəfə 2006-cı ildə olmuşam. O gündən xeyli vaxt keçib. Azərbaycan sürətlə, əzmlə dəyişir, yüksək sürətlə inkişaf edən dinamik ölkəyə çevrilir. Azərbaycan iqtisadiyyatı inkişaf sürətinə görə dünyada ən yüksək göstəricilərdən birinə malikdir. Bu xoşdur. Biz dostlarımıza uğurlar arzulayırıq.

Azərbaycan Rusiyanın çoxdankı, ənənəvi və etibarlı tərəfdaşıdır. Biz Qafqaz regionunda, Xəzər regionunda, MDB çərçivəsində, aparıcı beynəlxalq strukturlarda sıx qarşılıqlı fəaliyyət göstəririk. Bu əməkdaşlığın əsası ölkələrimiz, dövlətlərimiz və xalqlarımız arasında möhkəm dostluq, qarşılıqlı hörmət ənənələridir.

Biz Rusiya ilə Azərbaycanın strateji tərəfdaşlığının mühüm istiqamətlərini ətraflı müzakirə etdik, onun gələcək inkişafına, ilk növbədə, ticari-iqtisadi sahədə inkişafa dair planlar cızdıq.

Bununla əlaqədar qeyd edə bilərəm ki, dünya iqtisadiyyatında məlum tənəzzülə baxmayaraq, bizim ticari münasibətlərimiz inkişaf edir, özü də uğurla inkişaf edir. Keçən il bu sahədə artım, müxtəlif hesablamalara görə 37 faizdən 47 faizə qədər olmuşdur. Bu, indiki dövrdə ölkələrimiz arasında münasibətlərdə aşkar görünən rekordlardan biridir.

Rusiya ənənəvi olaraq Azərbaycan ilə ticarət dövriyyəsində aparıcı yerlərdən birini tutur. Biz 2-ci yerdəyik. 1-ci yeri İtaliya

tutur. Lakin biz yaxşı bilirik ki, bu əsasən, İtaliya və Avropa bazarına karbohidrogen xammalı satışı hesabına yaranmışdır, Azərbaycan ilə Rusiya arasında ticarət dövriyyəsi isə qat-qat artıq dərəcədə tarazlaşmış, mütəxəssislərin təbirincə desək, nəcib xarakter daşıyır. Burada maşınlar, avadanlıq, ərzaq, bir sözlə, həm Azərbaycan iqtisadiyyatı üçün, həm də Rusiya Federasiyasının iqtisadiyyatı üçün həyati əhəmiyyətli məhsullardan söhbət gedir.

Bu cür yüksək göstəricilər əldə edilməsinə regionlararası və sərhədyanı intensiv əlaqələr çox kömək edir. Bunu demək kifayətdir ki, Rusiya Federasiyasının 70-dən çox regionu Azərbaycan ilə sıx işgüzar əlaqələr saxlayır.

Qeyd etməliyəm ki, Azərbaycanda 500-dən çox Rusiya şirkəti işləyir, onların fəaliyyəti sosial-iqtisadi inkişaf üçün ən mühüm sahələrin geniş spektrini əhatə edir – yanacaq-energetika kompleksi, avtomobil sənayesi, maliyyə, sığorta fəaliyyəti, səhiyyə. Yaxşı məlumdur ki, bunlar faktiki məişət səviyyəsidir, lakin əslində böyük iqtisadi əhəmiyyət kəsb edir. Hamı yaxşı bilir ki, Rusiyada kifayət qədər çoxlu Azərbaycan vətəndaşı işləyir, onların sayı 1 milyondan artıqdır, Rusiya vətəndaşlığı olan azərbaycanlıları da nəzərə alsaq bu, 2 milyondan çoxdur.

Rusiya və Azərbaycan energetika sahəsində iri beynəlxalq oyunçulardır. Bu istiqamətdə qarşılıqlı faydalı əməkdaşlıq da həyata keçiririk. İndi hamısını təkrarlamayacağam, bu sahədə işlərin həcmi çox böyükdür və getdikcə genişlənir. Siz indicə Rusiyanın «Rosneft» dövlət şirkəti ilə Azərbaycanın müvafiq tərəfdaşları arasında sazişlərin imzalanmasında iştirak etdiniz. Yanacaq-energetika kompleksi sahəsində kooperasiyanın yeni istiqamətləri və formatları mənimsənilir. Bildiyiniz kimi, mən bunu artıq demişəm, bu gün sazişlər imzalanmışdır, lakin onların 15 il, bəlkə də 20 il üçün perspektivi vardır. Yəni qarşıdakı uzun illər üçün əməkdaşlığa yaxşı baza hazırlanır. Dostluq və mehriban qonşuluq münasibətlərinin möhkəmlənməsində humanitar əlaqələr də xüsusi rol oynayır. İndiki səfər

çərçivəsində 2015-ci ilə qədər olan dövrdə bu sahədə dövlətlərarası əməkdaşlıq proqramı təsdiq edilmişdir. Biz oktyabrın 31-dən noyabrın 1-dək Bakıda keçiriləcək III Bakı Beynəlxalq Humanitar Forumuna hazırlıq məsələlərini müzakirə etdik. Əminliklə demək olar ki, 2011-ci ildən bəri nisbətən qısa dövr ərzində bu Forum ictimai həyatda çox böyük hadisəyə çevrilmişdir.

Danışıqlarda Xəzər regionu çərçivəsində problemlərin həllinə də böyük diqqət yetirdik. Biz bu regionun sülh, əməkdaşlıq regionu olmasında maraqlıyıq. Burada hələ həll edilməmiş problemlər çoxdur. Onlar təhlükəsizlik, sərhədlərin delimitasiyası, Xəzər dənizi sisteminin bioloji müxtəlifliyinin qorunub saxlanması və sair məsələlərə aiddir. Biz çox istəyirik ki, bütün bu məsələlər həll edilsin və təbii ki, bütün Xəzəryanı dövlətlərin maraqları nəzərə alınmaqla həll edilsin.

Səciyyəvi haldır ki, Rusiyanın Xəzər donanmasının gəmilər dəstəsinin Bakıya dostluq səfəri də bizim danışıqlarla eyni vaxta təsadüf edir. Bu dəstənin tərkibində «Dağıstan» raket gəmisi və «Volqodonsk» kiçik artilleriya gəmisi də vardır. İlin sonunda Azərbaycan dənizçiləri Həştərxana cavab səfəri etməyi planlaşdırırlar.

Təbii ki, danışıqların gedişində biz aktual beynəlxalq məsələlərə, o cümlədən Dağlıq Qarabağ probleminə də toxunduq. Vurğulamaq istəyirəm ki, bu münaqişə yalnız siyasi vasitələrlə tənzimlənə bilər və Rusiya münaqişənin tezliklə tənzimlənməsinə fəal kömək edir.

Son olaraq qeyd etmək istərdim ki, apardığımız danışıqlar ölkələrimiz arasında hərtərəfli əməkdaşlığı möhkəmləndirmək əzmində olduğumuzu bir daha nümayiş etdirdi.

Mən bütün azərbaycanlı dostlarımıza, həmkarlarımıza səmimiyyətə, qonaqpərvərliyə, bizim bugünkü görüşün işgüzar tərzdə keçməsinə və artıq qazanılmış nəticələrə görə bir daha təşəkkür edirəm.

Diqqətinizə görə çox sağ olun.

## DAĞÜSTÜ PARKLA TANIŞLIQ

*13 avqust 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin avqustun 13-ü axşam Dağüstü parkda olmuşlar.*

*Dövlət başçıları bu yaxınlarda yenidənqurmadan sonra istifadəyə verilən Dağüstü parkı gəzdilər.*

*Bu gün Bakıda yenidənqurma və abadlıq işləri sürətlə davam etdirilir. Nəticədə şəhər daha da gözəlləşir. Yenidən qurulan Dağüstü park da indi paytaxt sakinlərinin və şəhərimizin qonaqlarının sevimli istirahət məkanlarından birinə çevrilib. Bu parkdan paytaxtımıza və Bakı buxtasına ecazkar mənzərə açılır.*

*Azərbaycan prezidenti İlham Əliyev və Rusiya prezidenti Vladimir Putin Dağüstü parkdan Bakının mənzərəsini seyr etdilər.*

## «İÇƏRİŞƏHƏR» DÖVLƏT TARİX-MEMARLIQ QORUĞU İLƏ TANIŞLIQ

*13 avqust 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin avqustun 13-də «İçərişəhər» Dövlət Tarix-Memarlıq Qoruğunu gəzmişlər.*

*Burada şəhər sakinləri ilə görüşüb söhbət edən dövlət başçıları onlarla xatirə şəkli çəkdirdilər.*

*Elektromobillə gəzinti zamanı Rusiya dövlətinin başçısına məlumat verildi ki, Azərbaycan tarixinin və mədəniyyətinin incisi olan İçərişəhər dünya mədəni irsinin nadir abidələrindəndir. Tariximizin canlı əfsanəsi olan İçərişəhər, Dövlət Tarix-Memarlıq Qoruğuna daxil olan Qız qalası və Şirvanşahlar saray kompleksi YUNESKO-nun ümumdünya mədəni irs siyahısına daxil edilib.*

*Rusiya dövlətinin başçısının diqqətinə çatdırıldı ki, İçərişəhər ərazisində Azərbaycan alimləri arxeoloji qazıntılar aparmış və Azərbaycan tarixinə dair bir çox qiymətli maddi-mədəniyyət nümunələri aşkar etmişlər. İndi Azərbaycan muzeylərinin ən qiymətli eksponatları olan bu tapıntılar tariximizin qədim dövrlərinin öyrənilməsi üçün geniş imkanlar açır.*

*Prezident Vladimir Putin milli mətbəximizin nümunəsi olan təndir çörəyinə qonaq oldu. Dövlət başçısı təndir çörəyinin bişirilməsi qaydası ilə maraqlandı.*

*İçərişəhərlə tanışlıq prezident Vladimir Putində xoş təəssürat yaratdı.*

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*13 avqust 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından avqustun 13-də ölkəmizdə səfərdə olan Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin şərəfinə rəsmi ziyafət verilmişdir.*

**İ l h a m Ə l i y e v:** Hörmətli Vladimir Vladimiroviç!

Hörmətli qonaqlar, əziz dostlar!

Rusiya Prezidentinin Azərbaycana səfəri sona yaxınlaşır. Düşünürəm ki, əgər desəm səfər çox uğurlu, məhsuldar alındı, ümumi rəyi ifadə etmiş olaram. Biz ikitərəfli münasibətləri, bu münasibətlərin gələcək inkişafı məsələlərini müzakirə etdik. Nümayəndə heyətinin üzvləri yaxından ünsiyyət saxlamaq və həmçinin sahə xarakteri daşıyan məsələləri müzakirə etmək imkanı əldə etdilər. Bu gün mətbuat konfransı və rəsmi görüşlər zamanı xeyli fikirlər söylənilibdir. Biz Vladimir Vladimiroviçlə ikitərəfli münasibətlərin, regional problemlərin bir çox məsələləri, təhlükəsizlik məsələləri və ölkələrimiz arasında gələcək əməkdaşlıq ilə bağlı müfəssəl danışıqlar, geniş fikir mübadiləsi apardıq.

Səfər bizim münasibətlərin strateji və dostluq xarakterini bir daha təsdiq etdi. Biz dost, qonşu ölkələrik, Xəzər, Qafqaz regionunda yerləşən ölkələrik. Əlbəttə ki, buna görə də Xəzər, Qafqaz problemi bizim münasibətlərimizdə xüsusi yer tutur. Eləcə də regionumuzda sabitlik uğurlu qarşılıqlı fəaliyyətdən, əməkdaşlıqdan, səylərimizin əlaqələndirilməsindən asılıdır.

Biz dostuq, tərəfdaşıq. Bugünkü səfər bunu bir daha təsdiq etdi. İmzalanan sənədlər də münasibətlərin inamla hərtərəfli və uğurlu inkişaf etməsinə xidmət göstərəcəkdir.

Səfərin rəsmi məqamlarından başqa, bizim Vladimir Vladimiroviçlə ikitərəfli münasibətlərin bütün məsələləri üzrə canlı, dostcasına söhbətlərimiz oldu. Biz ikitərəfli münasibətlərin mühüm məsələləri ətrafında səmimi, dostcasına fikir mübadiləsi apardıq. Rusiya Prezidentinin Azərbaycana səfəri özlüyündə əlamətdar hadisədir. Səfərin zəngin və məhsuldar keçməsi isə gələcəkdə öz nəticələrini göstərəcəkdir. Bütün bunların bizim münasibətlərimizə təsir göstərməsi isə daha mühüm hadisədir.

Bu gün xeyli söz deyilib, daha sizi yormaq istəmirəm. Mən bir daha Vladimir Vladimiroviçə Azərbaycana səfərə dəvəti qəbul edib ölkəmizə gəldiyinə, aparılan danışıqlara, fikir mübadilələrinə görə minnətdarlığımı bildirmək istəyirəm.

Rusiya nümayəndə heyətinin bütün üzvlərinə fəal işlərinə görə minnətdarlığımı bildirmək istəyirəm. Rusiya xalqına, Rusiya dövlətinə ən xoş arzularımı bildirirəm. Rusiya Prezidentinə cansağlığı, uğurlar arzulayıram.

**Vladimir Putin**: Hörmətli Azərbaycan Prezidenti!

Hörmətli dostlar, həmkarlar, bütün deyilənləri təkrar etməyəcəyəm. Yalnız qeyd etmək istəyirəm ki, Azərbaycan ilə Rusiyanı çoxillik, hətta, demək olar ki, çoxəsrlik münasibətlər birləşdirir. Bizim xalqlarımız həmişə yaxın olublar. Təkcə ticarət etməmişik, biz uzun illər vahid bir dövlətin tərkibində yaşamışıq. Təbii ki, bütün bunlar bizim milli xarakterimizdə, mədəniyyətimizdə əks olunubdur. Bu, qarşılıqlı əlaqələr, qarşılıqlı tamamlama, qarşılıqlı inkişaf deməkdir. Bir qədər bundan əvvəl biz özümüzün kiçik, lakin xeyli səmərəli və müasir gəmilərimizin birində olduq, təəccüblə öyrəndim ki, həmin gəmilərdən birinin kapitanı milliyyətcə azərbaycanlıdır. Bunu heç özüm də bilmirdim. Bu gəmi isə Rusiya donanmasının ən müasir gəmilərindən biridir. Demək olar bütün sahələrdə belədir.

İçərişəhərə getmişdik, orada Novqoroddan olan ruslar dayanmışdılar. Onlar mənə və Prezidentə yaxınlaşaraq, burada özlərini necə hiss etdiklərini danışdılar. Yeri gəlmişkən,

Azərbaycan Prezidentini və hörmətli həmkarlar, sizin hamınızı Bakının gözəlləşməsi münasibətilə təbrik edirəm. Əlbəttə ki, bu, müasir, inkişaf edən, maraqlı və öz siması olan bir şəhərdir. Son illər Azərbaycan özü də belə bir dövlətə çevrilmişdir. Əmin olduğumu bildirmək istəyirəm ki, şübhəsiz, bizim bugünkü söhbətlərimiz, səfərimiz son dərəcə etimadlı oldu. Eləcə də, bizim xalqlarımızın, ölkələrimizin münasibətlərinin tarixi gələcəyi yüksələn xətlə inkişaf edəcəkdir.

Əlbəttə, bizim necə işləyəcəyimizdən çox şey asılı olacaqdır. Hələ çox məsələləri həll etmək lazımdır. Bizə keçmişdən qalan çox çətin, ilk baxışda hətta həlli mümkün olmayan problemlər vardır. Əgər xoş məram, istək olsa, əgər ölkələrimiz qarşısında, xalqlarımızın gələcəyi qarşısında məsuliyyət olsa, şübhəsiz ki, bütün məsələlərin həlli tapılacaqdır.

Mən sabiq prezident Heydər Əliyevin buna necə münasibət bəslədiyini bilirəm. Onunla məni xoş şəxsi münasibətlər bağlayırdı. Bu insan bütün Sovet İttifaqının və əlbəttə ki, müasir Azərbaycanın dirçəlişinə, inkişafına böyük töhfələr vermişdi. Fəaliyyətdə olan indiki Prezident həmin xətti, eləcə də Rusiya–Azərbaycan münasibətlərinin inkişafına yönələn xətti davam etdirir.

İcazə verin, badələrimizi Rusiya–Azərbaycan münasibətlərinin və Azərbaycan Prezidentinin şərəfinə qaldıraq.

## İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SUSİLO BAMBANQ YUDHOYONOYA

Hörmətli cənab Prezident!

İndoneziya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı Azərbaycan xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycanla İndoneziya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İndoneziya xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 avqust 2013-cü il*

# İSMAYILLI RAYONUNA SƏFƏR

*14 avqust 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 14-də İsmayıllı rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə İsmayıllı şəhərinin mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstəsi qoydu.*

*İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Mirdamət Sadıqov prezident İlham Əliyevə ulu ondərin adını daşıyan Mədəniyyət və istirahət parkında yaradılan şərait barədə məlumat verdi. Bildirildi ki, burada sakinlərin istirahəti üçün hər cür şərait yaradılıb. Bu istirahət mərkəzində qısa müddətdə böyük abadlıq-quruculuq işləri görülüb, fəvvarələr quraşdırılıb, yaşıllıq salınıb.*

*Prezident İlham Əliyev parkda yaradılmış şəraitdən razılığını bildirdi.*

## Yeni avtovağzalın açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 14-də İsmayıllıda yeni avtovağzalın açılışı mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısı avtovağzalın rəmzi açılışını bildirən lenti kəsdi, burada yaradılmış şəraitlə tanış oldu.*

*Azərbaycanda həyata keçirilən siyasətin əsas hədəflərindən biri ölkəmizin hər yerində yol-nəqliyyat sisteminin müasirləşdirilməsidir. Bu sırada yeni yaradılan avtovağzalların da xüsusi əhəmiyyəti vardır. Avtovağzalların yaradılması həm də bölgələrin inkişafına töhfə verir. Müasir səviyyədə inşa edilən bu nəqliyyat obyektlərinin sırasına daha biri əlavə olunub. İsmayıllı şəhərində tikilən yeni avtovağzal da ən müasir tələblər səviyyəsindədir.*

*Məlumat verildi ki, avtovağzalın tikintisinə 2013-cü ilin martında başlanılmışdır. Ümumi ərazisi 0,26 hektar, tikinti ərazisi isə 282 kvadratmetr olan avtovağzalda sərnişinlərin rahatlığını təmin etmək üçün 48 nəfərlik 4 perron inşa edilib. Perronlarda hərəkət cədvəlini göstərən elektron məlumat tabloları quraşdırılıb. Bundan başqa, burada ümumi sahəsi 137 kvadratmetr olan gözləmə zalı, ictimai-iaşə obyekti, həkim otağı yaradılıb. Avtovağzalın həyətində avtobuslara texniki xidmətin göstərilməsi üçün açıq bokslar inşa edilib.*

*Bildirildi ki, avtovağzal Bakı şəhərinə, Şamaxı, Qəbələ, Oğuz, Şəki, Qax, Zaqatala, Balakən rayonlarına gedən sərnişinlərə xidmət göstərəcəkdir. Avtovağzalın istifadəyə verilməsi ilə 22 nəfər işlə təmin olunub.*

*Dövlətimizin başçısı əhaliyə xidmət göstərəcək yeni taksilərə və avtobuslara baxdı.*

*Prezident İlham Əliyev avtovağzalda yaradılmış şəraiti yüksək qiymətləndirdi.*

# İSMAYILLI ŞƏHƏRİNƏ İÇMƏLİ SUYUN VERİLMƏSİ MƏRASİMİ

*14 avqust 2013-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 14-də İsmayıllı şəhərinə içməli suyun verilməsi mərasimində iştirak etmişdir.*

**İ l h a m  Ə l i y e v:** Bu gün gözəl tədbirdir. Biz İsmayıllıya içməli suyun verilməsini qeyd edirik. Bu münasibətlə sizi təbrik edirəm. Çox vacib layihədir, böyük layihədir.

Su insan üçün əsas məsələdir. Şadam ki, İsmayıllıda da içməli su və kanalizasiya layihəsi icra edilir. Biz indi suyun verilməsini qeyd edəcəyik və bundan sonra İsmayıllı şəhərinin təmiz, keyfiyyətli, içməli su ilə təminatı artıq həll olunacaqdır.

Digər infrastruktur layihələri də icra edilir. Qazlaşdırma da uğurla aparılmışdır. Şəhər tamamilə qazlaşdırılıb, kəndlərdə də qazlaşdırma gedir. Əsas infrastruktur layihələri bunlardır və bunları biz həll edirik. Şadam ki, İsmayıllıda bu istiqamətdə işlər yaxşı gedir. Rayon inkişafdadır, böyük dəyişikliklər vardır. Əminəm ki, rayon bundan sonra da bu templə inkişaf edəcək, rayonda mövcud olan bütün məsələlər öz həllini tapacaq və artıq tapmaqdadır.

İnfrastruktur layihələri, insanların işlə təmin edilməsi məsələləri həll edilir. Bu gün yeni Tikiş fabrikinin açılışını qeyd edəcəyik. Rayonun kompleks şəkildə inkişafı ilə bağlı konkret tədbirlər planı vardır. Yeni rəhbərlik işə çox böyük fəallıqla və çox böyük həvəslə işə başlamışdır. Yeni rəhbərlik təyin olunanda qarşıya bir neçə vəzifə qoyulmuşdu. İlk növbədə, rayonun sosial-iqtisadi inkişafını sürətləndirməli idik və artıq biz bunu görürük. İnsanları narahat edən problemlər öz həllini tapmalı idi. İnsanlara diqqət, qayğı göstərilməlidir. Mənim icra başçıları qarşısında qoyduğum əsas məsələlər bunlardır. Hər bir

vəzifə sahibi, hər bir rəhbər işçi ilk növbədə, insanlara qulluq etməlidir, onların qayğıları ilə yaşamalıdır, insanların rahat yaşaması üçün əlindən gələni etməlidir. Bu bizim siyasətimizdir. Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Bax, bu layihə də sırf sosial xarakter daşıyır. Buraya qoyulan investisiyalar çox böyük investisiyalardır. Qazlaşdırma, su xətləri, kanalizasiya, yollar, sosial obyektlərin tikintisi böyük vəsait tələb edir. Bu vəsaiti Azərbaycan dövləti büdcə hesabına ödəyir ki, insanların rahat yaşaması üçün daha da yaxşı imkanlar yaransın.

Sosial siyasət əsas məsələdir. Sosial siyasət təkcə sosial obyektlərin tikintisi ilə məhdudlaşmır. Sosial siyasət o deməkdir ki, siyasətimizin mərkəzində insan olmalıdır. Bu da var, bunu biz təmin edirik. Biz öz iqtisadi gücümüzü sosial sahəyə yönəldirik və bu məsələlərə kompleks şəkildə yanaşırıq. Məktəb, xəstəxana tikintisi. İsmayıllıda da xəstəxana tikilir və yaxın zamanlarda istifadəyə veriləcəkdir. Su layihələri və digər sosial məsələlər. Əlbəttə, yeni rəhbərlik qarşısında bir vəzifə də qoyulmuşdur ki, biz İsmayıllının müasir şəhərə çevrilməsinə nail olmalıyıq. Burada böyük quruculuq, abadlıq işləri aparılır, yollar genişlənir, gözəl binalar tikilir. Bu hələ görülən işlərin birinci mərhələsidir. Əminəm ki, bu yüksək templər saxlanılacaq və yaxın zamanlarda İsmayıllı ölkəmizin qabaqcıl rayonlarından birinə çevriləcəkdir. Buna nail olmaq üçün bütün imkanları, gözəl potensial, rayonun öz potensialı, böyük imkanları vardır. Burada zəhmətkeş, vətənpərvər insanlar yaşayır, dövlət qayğısı var, dövlət vəsaiti ayrılır, özəl sektor da fəal iştirak edir.

Bu yanaşma ölkəmizdə son illərdə əldə edilən uğurların əsas şərtidir. Dövlət investisiyaları, sahibkarlığın dəstəyi və özəl qurumların həm biznes, həm də sosial sahələrə göstərdiyi diqqət yeni bir ab-hava yaradır. Əminəm ki, bundan sonra İsmayıllıda yalnız inkişaf olacaqdır, böyük nailiyyətlər olacaqdır, insanlar rahat yaşayacaqlar və öz işi ilə, öz zəhməti ilə dövlətçiliyimizi möhkəmləndirəcəklər.

İsmayıllını müasir turizm mərkəzinə çevirmək üçün imkanlar vardır – gözəl təbiəti, iqlimi, Bakıya yaxınlığı. Bütün bu əsas məsələlər, infrastruktur layihələrinin artıq icra edilməsi, yəni bu fürsət əldən verilməməlidir. İsmayıllı doğrudan da ən qabaqcıl rayona çevrilməlidir. Buna imkanlar vardır. Azərbaycan dövləti buna nail olmaq üçün öz səylərini göstərir. Yerli icra orqanları yeni prinsiplər əsasında işləyirlər və bilirəm ki, bu, əhali tərəfindən də dəstəklənir. Bütün ictimaiyyət, fəallar bir amal ətrafında birləşməlidir ki, rayonda işlər daha da sürətlə getsin, ölkəmiz daha da güclənsin və Azərbaycanın dövlət müstəqilliyi daha da möhkəmlənsin.

Bax, bu layihə son illər ərzində atılmış addımların nəticəsidir və bir daha demək istəyirəm ki, içməli su layihəsi insanların sağlamlığı üçün əsas şərtdir. Bunu biz edirik və bundan sonra da belə gözəl layihələrin sayı artacaqdır. Sizi bir daha bu gözəl hadisə münasibətilə təbrik edirəm.

**A y d ı n Ə z i z o v** *(Talıstan kənd tam orta məktəbinin direktoru):* Möhtərəm cənab Prezident!

İsmayıllı ictimaiyyəti adından Sizi salamlayıram. İsmayıllıya xoş gəlmisiniz! Bu gün ölkəmizin hər yerində böyük infrastruktur layihələri həyata keçirilir. Elə gün, elə həftə, elə ay olmur ki, Siz ayrı-ayrı bölgələrdə su, işıq, qaz, yol açılışlarında olmayasınız. İnsanların problemlərini Siz sistemli həll edirsiniz. Bu sistemliliyi biz görür, mətbuatdan oxuyuruq. Mən Əməkdar müəlliməm. Şagirdlərimə də bunu başa salıram ki, həyata keçirilən bu layihələr bu günlük, sabahlıq, birisi günlük deyildir. Bu, 100 illəri əhatə edəcəkdir. Bu gün Sizin açdığınız bu möhtəşəm su layihəsi təkcə bizim indiki nəsli yox, gələcək nəsilləri də əhatə edəcəkdir. Şəhərimizin 25 min sakini bu təmiz sudan, bulaq suyundan istifadə edəcəkdir. Bu, böyük nailiyyətdir. Bu böyük neməti Siz bizə bəxş edirsiniz, cənab Prezident. Buna görə Sizə böyük minnətdarlığımızı, əhalinin böyük dualarını çatdırırıq. Hər bir sakin Sizin gördüyünüz bu işləri dəstəkləyir. Bu işlər bu gün İsmayıllıda böyük ruh yüksəkliyi yaratmışdır.

Möhtərəm cənab Prezident! Biz ziyalılar müşahidə edir, görürük ki, bütün bölgələrdə, bütün yerlərdə böyük işlər, böyük struktur dəyişiklikləri aparırsınız. Bunlar hamısı insanın rifahına xidmət edir, insanların daha yaxşı yaşamasına, onların həyatını, rifahını düzgün qurmasına köklənmişdir. Bu gün İsmayıllıda da o qədər layihələr həyata keçirilir ki, bunların məğzində, mənasında bir şey durur – insan amili, onun həyat tərzinin yüksəlməsi. Siz həmişə vurğulayırsınız ki, mən istəyirəm insanlar yaxşı yaşasın, onların geniş imkanları olsun və biz buna çalışacağıq. Bax, bu gün Sizin qarşıya qoyduğunuz məqsədlər İsmayıllıda da öz bəhrəsini verir. Biz bunun şahidləriyik və qədirbilən ismayıllılılar bunu heç zaman unutmayacaq və həmişə bu görüşləri böyük ehtiramla yad edəcəklər.

Hörmətli cənab Prezident! Salınan parklar, geniş xiyabanlar, yollar, işıqlandırılmış küçələrimiz, əzəmətli qalalarımız bizim xoşbəxt sabahımızdan, Sizin uğurlu siyasətinizdən, Azərbaycanın sabahının bugünkündən də yaxşı olacağından xəbər verir.

Cənab Prezident, biz bütün bunlarla fəxr edirik. Fəxr edirik ki, Azərbaycan indi dünyanın ən inkişaf etmiş qüdrətli dövlətlərindən biridir. Bir çox dövlətlərin çatışmazlıqlara, böhranlara məruz qaldığı bir dövrdə Azərbaycan daha sürətlə inkişaf edir, əhalisinin səviyyəsi ildən-ilə daha da yüksəlir. Bütün bunlar Sizin əməyinizin nəticəsidir. İndi Azərbaycanda dünyanın ən böyük tədbirləri keçirilir. Hətta bölgələrimizdə belə, tədbirlər keçirilir. Çünki bölgələr inkişaf edir, artıq paytaxt səviyyəsinə çatıb. İsmayıllı da, inşallah, paytaxt səviyyəsinə çatmaq ərəfəsindədir. Bugünkü işlərin canlanması, əhalimizdə olan ruh yüksəkliyi bizə bunu deməyə əsas verir.

Cənab Prezident, ulu öndərimiz Sizə özü qədər inandığını demişdi. Biz ziyalılar, biz ismayıllılılar Sizə özümüzdən də artıq inanırıq, etibar edirik. Gələcəyimizi yalnız Sizə etibar edirik. Xoşbəxt gələcəyimizi yalnız Sizin siyasətinizdə görürük. Bu, sınanmış siyasətdir. Bu, xalqa söykənən siyasətdir. Bu siyasəti apardığınıza görə Sizə dərin minnətdarlığımızı, dərin

ehtiramımızı bildirirəm. Güclü, qüdrətli Azərbaycan naminə görəcəyiniz işlərdə Allah Sizə daim yar olsun, Allah Sizi qorusun! Sağ olun!

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun! Dediyiniz xoş sözlərə görə sizə minnətdaram. Mən çalışacağam ki, bundan sonra da xalqın etimadını doğruldum. Çünki hələ görüləsi işlər çoxdur. Doğrudan da bizim gözəlləşən şəhərlərimiz, abadlaşan kəndlərimiz bugünkü reallıqdır.

Dünyanın bir çox ölkələrində böhran yaşanır. Artıq 4-5 ildir ki, bəzi ölkələr bu böhrandan çıxa bilmir. Böhran həm iqtisadi tənəzzülə, həm də sosial proqramların dayandırılmasına gətirib çıxarır, iş yerləri ləğv edilir. Amma Azərbaycanda biz bunun tamamilə əksini görürük. Azərbaycan inkişafdadır. İndi bütün iqtisadi göstəricilər ən yüksək səviyyədədir.

Bu ilin 6 ayının yekunlarına görə qeyri-neft sektorumuz 11 faiz artmışdır. Ümumi iqtisadiyyatımız 5 faiz artmışdır. İş yerləri açılmışdır. O cümlədən bölgələrdə quruculuq işləri görülmüş, infrastruktur layihələri həyata keçirilmişdir. Azərbaycanda bir dənə də olsun sosial infrastruktur layihəsi dayandırılmamışdır. Bax, bu su layihələri doğrudan da böyük vəsait tələb edən layihələrdir.

Yaxşı xatırlayıram ki, hələ bir neçə il bundan əvvəl bu layihələri icra etmək, xaricdən kreditlər almaq üçün bizdə müəyyən çətinliklər yaranmışdı. Yəni o vaxt beynəlxalq maliyyə qurumları kreditlərin ayrılmasına o qədər də maraq göstərmirdi. Xüsusilə sosial layihələrə ki, bu layihələrə qoyulan vəsait heç vaxt qayıtmayacaqdır.

Ancaq bu gün iqtisadi islahatlar nəticəsində biz elə bir güclü iqtisadi baza yaratmışıq ki, nəinki xaricdən kredit almağa ehtiyacımız yoxdur, özümüz də bəzi ölkələrə kreditlər veririk. Beynəlxalq maliyyə qurumlarına kreditlər veririk. Bu da iqtisadi, siyasi cəhətdən bizim maraqlarımızı təmin edir.

Azərbaycan bölgənin lider dövlətidir. Bunu artıq bütün beynəlxalq aləm də etiraf edir. Azərbaycan dünya miqyasında böyük nüfuza malikdir, dünyanın ən mötəbər qurumu olan

BMT Təhlükəsizlik Şurasının üzvüdür, iqtisadi islahatlar sahəsində nümunə göstərən ölkədir. Bilirəm ki, Azərbaycanın bölgələrində aparılan islahatlar və regional inkişaf proqramları ilə bağlı təcrübə başqa ölkələrdə də öyrənilir. Biz buna necə nail ola bilmişik?! Biz bölgələri necə canlandıra bilmişik?!

Hələ görüləsi işlər çoxdur. Elə rayonlar vardır ki, orada işlər çox yaxşı gedir. Elə rayonlar vardır ki, bir qədər zəif gedir. Ona görə mən də çalışıram ki, bütün rayonlarda mütəmadi qaydada olum və işlərin nə yerdə olduğunu öz gözümlə görüm.

Bəzi hallarda yerli icra orqanlarının nümayəndələri öz vəzifə borclarını yerinə yetirə bilmirlər. Bəzi hallarda özlərini apara bilmirlər. Onların özləri, onların yaxınları insanları incidirlər, qıcıqlandırırlar, yersiz hərəkətlər edirlər və özlərini təvazökar aparmırlar. Belə olan halda, əlbəttə ki, ciddi tədbirlər görülür və görüləcəkdir.

Bütün vəzifəli şəxslər qarşısında qoyduğum əsas tələbləri mən qeyd etdim. Bir daha demək istəyirəm – mütləq Vətənə sədaqət, xalqa sədaqət, xalqa xidmət etmək lazımdır. Hər bir vəzifə sahibi bilməlidir ki, o, xalqa xidmət etmək üçün bu vəzifəni tutub, o cümlədən də mən. Bu vəzifəni mən ancaq xalqa xidmət etmək üçün icra edirəm. Hər bir vəzifəli şəxs öz məsuliyyətini dərk etməlidir, Vətən üçün, xalq üçün çalışmalıdır. Əgər hər bir yerdə, hər bir səviyyədə bu prinsiplər tam üstünlük təşkil etsə, onda ölkəmiz daha da sürətlə qabağa gedəcəkdir.

Əldə edilmiş uğurlar heç bir yerdə təkrarlana bilməz. Biz son ilin statistikasını, görülən işləri götürsək görərik ki, iqtisadi sahədə, bütün başqa sahələrdə Azərbaycan qədər inkişaf edən ikinci dövlət yoxdur. Ancaq bu bizi kifayətləndirməməlidir. Biz daha da böyük işlər görməliyik və görə də bilərik. Çünki zəhmətkeş xalqımız, xalqla iqtidar arasında birlik, dövlət siyasəti vardır. Bu siyasətin mərkəzində vətəndaşdır, Azərbaycan vətəndaşıdır. Gözəl ölkəmiz, gözəl təbiətimiz, təbii sərvətlərimiz, artıq gözəl infrastrukturumuz vardır. Bundan sonra Azərbaycan daha da sürətlə qabağa getməlidir.

Bölgələrin inkişafı gələcəkdə ölkəmizin ümumi inkişafını təmin edəcəkdir. Çünki hələ ki, iqtisadiyyatımızın əsas hissəsi təbii ehtiyatlardır. Ancaq 10 ildən, 20 ildən sonra, bəlkə də ondan da tez bir vaxtda iqtisadiyyatımızın əsas hissəsi qeyri-neft sektoru olacaqdır. Artıq bu proses başlamışdır. İqtisadiyyatımızın əsas hissəsi indi qeyri-neft sektorunda yaranır. Ancaq gələcəkdə qeyri-neft sektorunun payı daha da artmalıdır. Ona görə hər bir bölgədə iş yerləri – kənd təsərrüfatı, yüngül sənaye, infrastruktur layihələri – hər bir kənddə, hər bir şəhərdə problemlər həll olunmalıdır. Belə olan halda ölkədə bütün problemlər həll olunacaqdır.

Azərbaycanın bugünkü reallıqları bir daha müstəqilliyimizin üstünlüklərini göstərir. Tarixdə Azərbaycan heç vaxt bu qədər güclü olmamışdır. Bunun başlıca səbəbi müstəqil olmağımızdır. Müstəqillik ən böyük sərvətdir. Hər bir vətəndaş müstəqilliyi qorumalıdır, öz işi ilə müstəqilliyimizə töhfə verməlidir. Elə etməliyik ki, bundan sonra Azərbaycan daim inkişaf yolu ilə getsin. Əminəm ki, İsmayıllıda da bütün bu işlərə böyük dəstək vardır. Vətəndaşlar bütün bu məsələləri yaxşı dərk edirlər və öz işləri ilə rayonu da, ölkəmizi də gücləndirəcəklər. Bir daha sizi təbrik edirəm.

*«Meliorasiya və Su Təsərrüfatı» Açıq Səhmdar Cəmiyyətinin (ASC) sədri Əhməd Əhmədzadə prezident İlham Əliyevə milli su təchizatı və kanalizasiya xidmətləri üzrə ikinci layihə çərçivəsində görülən işlər barədə məlumat verdi. Bildirildi ki, İsmayıllı rayonunda sifarişçisi «Meliorasiya və Su Təsərrüfatı» ASC olan su təchizatı və kanalizasiya şəbəkəsi, çirkab sutəmizləyici qurğunun tikinti və yenidənqurma işləri bu sahədə böyük təcrübəsi olan şirkətlər tərəfindən həyata keçirilir. İsmayıllı şəhərinin əhalisinin sayının 2030-cu ilədək 28 min nəfərdən çox olacağı nəzərə alınaraq, rayon mərkəzini içməli su ilə təmin etmək məqsədi ilə layihədə su mənbəyi kimi, rayonun Qız qalası ərazisində yerləşən Ax-ox çayının məcraaltı suları nəzərdə tutulub. Həmin ərazidə sugötürücü qurğunun, həmçinin diametri 355 millimetr, uzunluğu 11 kilometr olan magistral su*

*xəttinin tikintisi başa çatdırılıb. Magistral su xətti üzərində su anbarı, xlorlama binası və təzyiqazaldıcı anbar tikilib.*

* * *

*Prezident İlham Əliyev İsmayıllı şəhərinə içməli suyun verilməsini bildirən düyməni basdı.*

*Layihə çərçivəsində İsmayıllı şəhərində əhalinin gün ərzində adambaşına 180 litr fasiləsiz içməli su ilə təmin olunması nəzərdə tutulub. Bundan başqa, 4 su anbarı inşa edilib. Həmçinin 31 min nəfər əhaliyə xidmət edə biləcək çirkab sutəmizləyici qurğunun daha müasir qurğu ilə əvəz olunması üçün layihədə müvafiq dəyişikliklər edilib. Qurğunun tikinti işləri davam etdirilir.*

*Prezident İlham Əliyev layihənin uğurla tamamlanması ilə bağlı tapşırıqlarını verdi.*

## İSMAYILLI RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*14 avqust 2013-cü il*

**İ l h a m Ə l i y e v:** Su təminatı necə idi, gündə neçə saat su verilirdi?

**S a k i n:** 2 saat.

**İ l h a m Ə l i y e v:** 2 saat, yığıb saxlayırdınız. Amma indi neçə saat olacaq?

**Ə h m ə d Ə h m ə d z a d ə:** 24 saat. Cənab Prezident, bizə 64 litr su lazım idi, amma mənbədə 100 litrdən artıq su var.

**İ l h a m Ə l i y e v:** Yəni çoxdur.

**Ə h m ə d Ə h m ə d z a d ə:** Bəli, cənab Prezident, çoxdur.

**İ l h a m Ə l i y e v:** Həm də keyfiyyətli sudur.

**Ə h m ə d Ə h m ə d z a d ə:** Dağ çayının bulaq sularıdır.

**İ l h a m Ə l i y e v:** Çox yaxşı. Qazlaşma da tam həll olunub. Normal təzyiqlə verilir.

**S a k i n l ə r:** Bəli, korluğumuz yoxdur.

**İ l h a m Ə l i y e v:** Daha hansı işlər görülməlidir?

**M i r d a m ə t S a d ı q o v** *(İcra hakimiyyətinin başçısı):* Çox sağ olun, cənab Prezident, Siz İsmayıllıda iş yerlərinin açılması, infrastrukturun yaradılması barədə tapşırıq vermişdiniz. Bu gün İsmayıllıda Tikiş fabrikinin, yeni kollecin açılışına görə Sizə təşəkkür edirik. İsmayıllı camaatı bunu çoxdan gözləyirdi. Həm də kollecimiz regional olacaq. Ətraf rayonları da mütəxəssislərlə təmin edəcəyik. Kənd təsərrüfatının inkişafı ilə bağlı Sizə məruzə etdim. Həm də yeni aqroparkın yaradılması ilə bağlı layihələrə biz də qoşulmağa hazırıq. Əlbəttə, Sizin razılığınız olarsa. «Kür» kompüter zavodunun İsmayıllı filialında Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin texniki servis şöbəsi fəaliyyət göstərir.

Gələcəkdə imkan olarsa xarici ölkələrlə danışıb velosiped zavodu açmağı planlaşdırırıq. Azərbaycanda velosiped zavoduna böyük ehtiyac vardır.

**İ l h a m Ə l i y e v:** Çox yaxşı. Biz indi Bakıda velosiped zolaqları yaradırıq. İndi Yeni bulvar ərazisində bir neçə zolaq vardır. Bilirəm ki, səhər-axşam həm uşaqlar, həm də ki, bəzi hallarda yaşlı insanlar da velosiped sürürlər. Çox yaxşı idmandır. Burada da baxın, fikirləşin, şəhərsalma ilə bağlı indi kompleks plan hazırlanır. Yəqin ki, burada da velosiped zolaqları olmalıdır. Bu bizdə əvvəllər çox da yayılmamışdır. Amma bu həm gözəl idman növüdür, həm də nəqliyyat vasitəsidir. İndi bir neçə ölkədə bundan istifadə edirlər.

**M i r d a m ə t S a d ı q o v:** İsmayıllıda həm də böyük maldarlıq və südçülük kompleksi tikilir. Allah qoysa, Sizi açılışına dəvət edəcəyik.

**İ l h a m Ə l i y e v:** Elə mən də soruşmaq istəyirdim, çünki ətraf rayonlarda böyük komplekslər tikilibdir.

**M i r d a m ə t S a d ı q o v:** Onların təcrübəsinə, tikiliş qaydasına baxdıq.

**İ l h a m Ə l i y e v:** Həm südçülük, həm heyvandarlıq?

**M i r d a m ə t S a d ı q o v:** Bəli, kənd camaatını orada iş yeri ilə təmin etmək üçün biz yeri bir az da geniş götürdük. Buradan 20 kilometr aralı Keyvəndi kəndi vardır. Orada həm İqtisadi İnkişaf Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun, həm də digər dövlət kreditləri hesabına 1500 başlıq böyük bir kompleks tikilir. Təxminən dekabr ayında hazır olacaqdır.

**İ l h a m Ə l i y e v:** Böyük kompleksdir. Buna hələ ehtiyac vardır. Çünki biz bir neçə il əvvəl qarşıya özümüzü əsas ərzaq məhsulları ilə tam təmin etmək vəzifəsini qoymuşuq. Biz bir çox pozisiyalar üzrə təminata 100 faiz çatmışıq. Amma südçülükdə hələ ki, özümüzü 73 faiz təmin edirik. Ona görə südçülük inkişaf etməlidir ki, yaxın 3-4 ilə biz daha xaricdən süd almayaq. Özü də bizdə süd də, yem də, su da keyfiyyətlidir.

## Tikiş fabrikinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 14-də İsmayıllı rayonuna səfəri çərçivəsində İsmayıllı Tikiş fabrikinin açılışında iştirak etmişdir.*

*Ölkədə sahibkarlığın, qeyri-neft sektorunun inkişafına göstərilən diqqət və qayğı sayəsində yeni istehsal müəssisələri yaradılır və iş yerləri açılır. Bu, paytaxt Bakı ilə yanaşı, regionlarda da özünü aydın büruzə verir. Son dövrlərdə İsmayıllıda iş adamlarına yaradılan şərait, onlara göstərilən diqqət nəticəsində yeni inşa olunan müəssisələrdən biri də İsmayıllı Tikiş fabrikidir. Burada ən yüksək səviyyədə məhsul istehsal etməyə imkan verən avadanlıqlar quraşdırılıb. Bu tədbirlər ilk növbədə, əhalinin məşğulluğunun artırılması istiqamətində atılan mühüm addımlar sırasında böyük əhəmiyyətə malikdir. Bölgələrdə yeni istehsal sahələrinin yaradılması həm də ümumilikdə ölkə iqtisadiyyatının inkişafına öz töhfəsini verir. Beləliklə, prezident İlham Əliyevin qeyri-neft sektorunun inkişafını qarşıya əsas hədəflərdən biri kimi qoyması bu sahədə mühüm nailiyyətlərin əldə edilməsi ilə nəticələnib. Təqdirəlayiq haldır ki, bu məsələdə paytaxt Bakı ilə yanaşı, bölgələrin da çəkisi ilbəil artır.*

*Fabrikin inzibati binasının foyesində ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin dövləti fəaliyyətlərini, iqtisadiyyatın inkişafı istiqamətində gördükləri işləri və müxtəlif dövrlərdə İsmayıllıya səfərlərini əks etdirən fotolardan ibarət stend yaradılıb. Sərgi salonunda müəssisənin məhsulları nümayiş etdirilir, inzibati otaqlarda yüksək şərait yaradılıb. Fabrikin işçiləri tədris otağının və yeməkxananın xidmətlərindən istifadə edəcəklər.*

*Dövlətimizin başçısına məlumat verildi ki, müəssisədə Yaponiya, Çin, Rusiya, Almaniya və Türkiyə istehsalı olan ən müasir avadanlıqlar quraşdırılıb. Müəssisənin yaradılması İsmayıllıda məşğulluğun artırılmasına mühüm töhfədir. Fabrikin*

*həyatində geniş abadlıq-quruculuq işləri görülüb yaşıllıq zolağı salınıb.*

*Dövlətimizin başçısı fabrikin kollektivi ilə söhbət etdi*

**İ l h a m  Ə l i y e v:** Necəsiniz? İşlər necə gedir, necə işləyirsiniz?

**İ ş ç i l ə r:** Çox sağ olun, bu şəraitə görə minnətdarıq.

**İ l h a m  Ə l i y e v:** Biz qadınlar üçün də iş yerləri yaradırıq. Bu həm ölkə üçün lazımdır, həm iş yerləridir, həm də ki, qadınların işə cəlb edilməsi məsələləri öz həllini tapır. Hər halda, iş yerlərinin açılması, belə gözəl, müasir şəraitdə bu işlərin təşkili sevindirici haldır. Sizi təbrik edirəm.

**T i k i ş ç i  q a d ı n:** Cənab Prezident, rayonumuzda qadınlar üçün bu gözəl şəraiti, bu Tikiş fabrikini yaratdığınıza görə Sizə ürəkdən minnətdarlığımızı bildiririk. Allah Sizi qorusun! Amin!

**D i g ə r  t i k i ş ç i  q a d ı n:** Cənab Prezident, biz keçən əsrin 90-cı illərinin əvvəllərində çörək növbələrini də görmüşük. Bugünkü gözəl, xoşbəxt həyatı yaşadığımıza görə, göydə Allaha, yerdə Sizə ürəkdən minnətdarıq. Sizə uzun ömür, cansağlığı, bundan da gözəl nailiyyətlər, uğurlar arzulayırıq. Amin!

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun! İsmayıllıda işlər yaxşı gedir. Yeni rəhbərlik də çox fəal başlayıb. Artıq biz içməli su layihəsini də həll etdik. İndi şəhərə içməli su veriləcəkdir. Digər layihələr, iş yerləri, sosial obyektlər, avtovağzal, ondan sonra gedəcəyik elektrik stansiyasının açılışına. İsmayıllıda işlər kompleks şəkildə və sürətlə gedir. Belə iş yerlərinin açılması da onu göstərir ki, rayon dinamikanı artıq əldə saxlaya bilib.

**İ ş ç i l ə r:** Sizin rəhbərliyiniz sayəsində, cənab Prezident.

**İ l h a m  Ə l i y e v:** Sizə yeni uğurlar, cansağlığı arzulayıram!

## İvanovka–Hacıhətəmli–Mollaisaqlı avtomobil yolunun açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 14-də İsmayıllıda İvanovka–Hacıhətəmli–Mollaisaqlı avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə yolun texniki-iqtisadi göstəricilərini əks etdirən stendlərə və videofilmə baxdı.*

*Məlumat verildi ki, son dövrlərdə paytaxtla yanaşı, bölgələrdə də yol-nəqliyyat infrastrukturunun müasirləşdirilməsi istiqamətində görülən işlərin miqyası artıb. Bu gün respublika əhəmiyyətli yollarla bərabər, rayon və kənddaxili yollar müasir səviyyədə inşa edilir. Yeni inşa olunan belə yollardan biri də İvanovka–Hacıhətəmli–Mollaisaqlı avtomobil yoludur. Yol ən müasir səviyyədə qısa müddətdə inşa olunub.*

*Bu yolun tikintisi üçün Azərbaycan Prezidentinin 2012-ci il 16 mart tarixli Sərəncamına əsasən Prezidentin ehtiyat fondundan ilkin olaraq 3 milyon manat vəsait ayrılmışdır. İvanovka–Hacıhətəmli–Mollaisaqlı avtomobil yolu 6 min nəfərin yaşadığı 7 məntəqəni birləşdirir. Nazirlər Kabinetinin 2012-ci il 30 dekabr tarixli Sərəncamı ilə yolun tikintisi üçün əlavə olaraq 5,5 milyon manat vəsait ayrılıb. Bu layihənin ümumi dəyəri 8 milyon 526 min manatdır. Layihəyə əsasən, 29,5 kilometr uzunluğunda yol çəkilmiş, 18 yerdə beton suötürücülər tikilmiş, yolboyu yol-hərəkət nişanları quraşdırılmışdır. Yolun başlanğıcında 3 dayanacaq əsaslı təmir edilmiş, kəndlərdə 10 yeni dayanacaq tikilmişdir. Yolun İvanovka kəndindən keçən hissəsində piyadaların təhlükəsiz hərəkəti üçün səkilər salınıb. Bu yolun istifadəyə verilməsi nəqliyyat vasitələrinin rahat və maneəsiz hərəkət etməsinə geniş imkanlar yaratmaqla yanaşı, həm də sərnişinlərin təhlükəsizliyi baxımından olduqca önəmlidir.*

*Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

*Dövlətimizin başçısı yeni yolda avtomobili idarə etdi.*

## «İsmayıllı-1» Su-Elektrik Stansiyasının açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 14-də İsmayıllı rayonunun Sumağallı kəndi yaxınlığında inşa edilən «İsmayıllı-1» Su-Elektrik Stansiyasının açılışında iştirak etmişdir.*

*«Azərenerji» ASC-nin prezidenti Etibar Pirverdiyev dövlətimizin başçısına məlumat verdi ki, «İsmayıllı-1» Su-Elektrik Stansiyası alternativ enerji mənbələrindən səmərəli istifadə edilməsi proqramı çərçivəsində inşa olunan obyektlərdən biridir. Kiçik su-elektrik stansiyalarının tikintisi elektrik enerjisinin istehsalında yanacağa qənaət etməklə yanaşı, həm də ətraf mühitə heç bir zərər yetirmir.*

*Prezident İlham Əliyevə stansiyanın inşası, fəaliyyəti və layihənin əsas komponentləri barədə də məlumat verildi. Bildirildi ki, stansiyanın tikintisinə 2011-ci ildə başlanılıb. Əsas və köməkçi avadanlığın təchizatı, eləcə də bütün tikinti-quraşdırma işləri «Azenco» şirkəti tərəfindən həyata keçirilib. Stansiyanın tikintisində 100 nəfər çalışıb. Tikinti işləri zamanı burada suqəbuledici quraşdırılmış, hər birinin uzunluğu 2115 metr, diametri isə 800 millimetr olan 3 boru çəkilmiş, stansiya binası inşa edilmişdir.*

*Stansiyanın binasının foyesində ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin Azərbaycanda energetika sahəsinin inkişafına göstərdikləri diqqəti, həmçinin bu sferanın müasirləşdirilməsi istiqamətində həyata keçirdikləri layihələri əks etdirən fotolardan ibarət stend yaradılıb. Binada nəzarət, mühafizə və idarəetmə sistemləri quraşdırılıb.*

*Prezident İlham Əliyev idarəetmə mərkəzindən stansiyanı işə saldı.*

*Diqqətə çatdırıldı ki, bu stansiyanın ümumi layihə gücü 1600 kilovat olan 3 hidroturbin və 3 hidrogeneratordan iba-*

rətdir. Burada 10 və 0,4 kilovoltluq yarımstansiya və elektrik ötürücü xətlər çəkilib. Stansiyanın aşağı byefindən çıxan təmizlənmiş su tikilməkdə olan «İsmayıllı-2» Su-Elektrik Stansiyasına daxil olacaqdır. Beləliklə, yekunda İsmayıllı Su-Elektrik Stansiyası ümumi gücü 3200 kilovat olan kiçik su-elektrik stansiyaları silsiləsini təşkil edəcəkdir. Bu layihə olduqca səmərəli və əhəmiyyətlidir. Belə ki, İsmayıllı rayonunun Sumağallı kəndi yaxınlığında inşa edilən derivasiya tipli su-elektrik stansiyası ildə 8 milyon kilovat-saat ekoloji cəhətdən təmiz elektrik enerjisi istehsal etmək imkanına malikdir. Su-elektrik stansiyasında 12 nəfər daimi işlə təmin ediləcəkdir. Stansiyanın ərazisində abadlıq-quruculuq işləri görülmüş, müasir işıqlandırma sistemi quraşdırılmışdır.

Azərbaycan Prezidenti yaradılmış şəraitdən razılığını bildirdi, tapşırıqlarını verdi.

## QƏBƏLƏ RAYONUNA SƏFƏR

*14 avqust 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 14-də İsmayıllıya səfərini başa çatdıraraq Qəbələ rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı Qəbələ şəhərindəki Heydər Əliyev parkında ümummilli liderin abidəsinin önünə gül dəstəsi qoydu.*

*Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev məlumat verdi ki, Heydər Əliyev parkı son illər sakinlərin ən çox üz tutduqları məkanlardan biridir. Burada yerli əhalinin, eləcə də qonaqların mənalı istirahətini təşkil etmək üçün hər cür şərait yaradılıb.*

### «Aqro Kompleks Qəbələ» MMC-nin aqrar-sənaye kompleksinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 14-də Qəbələyə səfəri çərçivəsində «Aqro Kompleks Qəbələ» MMC-nin aqrar-sənaye kompleksinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə kompleksin sərgisi ilə tanış oldu. Sonra prezident İlham Əliyev kompleksin inzibati binasında müəssisənin maketinə baxdı.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, müəssisə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının həyata keçirilməsinin bəhrəsidir. Qəbələ rayonunun Vəndam kəndində yaradılan aqrar-sənaye kompleksinin ümumi sahəsi 26 hektardır. Müəssisəyə südlük və ətlik istiqamətli heyvandarlıq kompleksləri, müasir suvarma sisteminin tətbiqinə əsaslanan əkinçilik təsərrüfatı və aqroservis daxildir.*

*Diqqətə çatdırıldı ki, kompleksin ümumi dəyəri 25 milyon manatdır. Bu layihənin də inşasında dövlətin güzəştli kredit-*

lərindən istifadə olunub. Sahibkarlığa Kömək Milli Fondu tərəfindən kompleksin inşasına 14 milyon manat güzəştli kredit verilib. Heyvandarlıq komplekslərində dünyada kənd təsərrüfatı texnikası istehsalında aparıcı müəssisələrdən olan Almaniyanın «GEA» şirkətinin tam avtomatlaşdırılmış havalandırma, suvarma, qidalandırma, istilik sistemləri və digər ferma avadanlığı quraşdırılıb. 1000 başlıq südlük heyvandarlıq kompleksində «Simmental» cinsindən olan südlük-damazlıq inəklər bəslənilir. İnəklərdən gündə orta hesabla 25 litrədək 4-4,5 faiz yüksək yağlılıq göstəricilərinə malik süd alınır. İlkin olaraq kompleksə Almaniyadan 805 baş «Simmental» cinsindən olan südlük-ətlik cins heyvanlar gətirilib. Gətirilən heyvanlar artıq yerli iqlimə tam olaraq uyğunlaşmışdır. Əlavə cins heyvanların gətirilməsi ilə bağlı artıq müqavilələr imzalanıb. Heyvanların yaxın vaxtlarda gətirilməsi nəzərdə tutulur.

Prezident İlham Əliyev sağım prosesinə baxdı. Bildirildi ki, sağım sahəsi bir sağım dövründə 28 baş inək tutumlu «Karusel» tipli avadanlıq, soyutma sistemləri və digər köməkçi avadanlıqla təchiz edilib. Bu avadanlıq hər bir sağmal inək üzrə sağılan südün həcminin, yağlılıq dərəcəsinin və digər keyfiyyət göstəricilərinin ayrı-ayrılıqda qeydiyyatının aparılmasına imkan verir.

Qeyd edildi ki, 1000 başlıq ətlik istiqamətli heyvandarlıq kompleksində «Simmental» cinsindən olan ətlik heyvanlar saxlanılır. Bu cins heyvanların çəkiləri gündə orta hesabla 1,4–1,6 kiloqram artır və onlar 65–70 faiz dəyərli zülallar, vitaminlər və mineral maddələrlə zəngin ətvermə qabiliyyətinə malikdirlər. Kompleksin fasiləsiz xammal bazasının təmin edilməsi məqsədi ilə Qəbələ rayonunda 1050 hektar ərazidə yem təsərrüfatı yaradılıb. Təsərrüfatda növbəli əkin sisteminin tətbiq edilməsi nəticəsində kompleksin yem təchizatı tam olaraq ödənilir. Əkin, biçin və bütün aqrotexniki işlərin aparılması üçün Almaniyanın «Class» və Hollandiyanın «New Holland» kimi qabaqcıl şirkətlərinin istehsalı olan 17 adda 55-ə yaxın müasir kənd təsərrüfatı texnikası və aqreqatlardan ibarət aqroservis

*yaradılıb. Aqroservis traktor, kombayn, pnevmatik və sadə toxum səpmə aqreqatları, piper, kultivator, vərdənə, diskli mala, dərmançiləmə, gübrəsəpən və digər ən müasir aqreqatlarla təchiz edilib. Görülən bütün işlər hesabına məhsuldarlıq göstəriciləri təxminən 2 dəfəyədək artırılıb. Gələcəkdə aqrar-sənaye kompleksində müasir avadanlıqlarla təchiz edilmiş Ət emalı fabrikinin yaradılması nəzərdə tutulur ki, bu da bütün gigiyenik normalar gözlənilməklə, heyvanların kəsilməsindən ət məhsullarının qablaşdırılmasına və istehlakçılara çatdırılmasınadək bütün prosesi əhatə edəcəkdir. Bu layihələrin həyata keçirilməsi respublika əhalisinin keyfiyyətli süd və ət məhsullarına olan tələbatının təmin edilməsi ilə yanaşı, onların ixracını da genişləndirəcəkdir. Aqrar-sənaye kompleksində 200-dən çox insan daimi işlə təmin olunub.*

*Prezident İlham Əliyev kompleksdə yaradılmış şəraiti yüksək qiymətləndirdi, tapşırıq və tövsiyələrini verdi.*

# QƏBƏLƏDƏ HEYDƏR ƏLİYEV KONQRES MƏRKƏZİNİN AÇILIŞINDA RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*14 avqust 2013-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 14-də Qəbələyə səfəri çərçivəsində Heydər Əliyev Konqres Mərkəzinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə Qəbələ* rayon *ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

**İ l h a m Ə l i y e v**: Xoş gördük! Qəbələdə açılışlar davam edir. Hər dəfə Qəbələdə olarkən yeni obyektlərin, istirahət zonalarının, sosial obyektlərin açılışında iştirak edirəm. Bu gün də Qəbələdə Heydər Əliyev Konqres Mərkəzinin açılışını qeyd edirik. Bu çox əlamətdar hadisədir. Bu Konqres Mərkəzi ulu öndər Heydər Əliyevin adını daşıyır. Heydər Əliyev müstəqil Azərbaycanın banisidir, onun qurucusudur. Məhz onun fəaliyyəti nəticəsində bu gün Azərbaycan uğurla inkişaf edir. Onun zəhməti və fəaliyyəti nəticəsində Azərbaycan ötən əsrin 90-cı illərinin əvvəllərində o ağır vəziyyətdən şərəflə çıxa bilmişdir, inkişaf yoluna qədəm qoymuşdur. Biz isə onun yolunu davam etdiririk.

Azərbaycan bu gün ən sürətlə inkişaf edən ölkələrin sırasındadır. Həm ölkəmizin iqtisadiyyatı, siyasi potensialı, eyni zamanda, bölgələri inkişaf edir. Qəbələdə belə möhtəşəm binaların, sarayların yaradılması onu göstərir ki, Azərbaycan, sözün əsl mənasında, müasir dövlətdir, güclü dövlətdir. Bizim bölgələrimiz də paytaxtdan geri qalmamalıdır. Mən bu vəzifəni bir neçə il bundan əvvəl qarşıya qoymuşam ki, bütün şəhərlər

gərək inkişaf etsin və bölgələrdə şərait böyük şəhərlərdə olan şəraitə uyğun olsun.

Qəbələdə, ümumiyyətlə, son illər ərzində böyük quruculuq, inkişaf işləri gedir. Siz bunun şahidisiniz, bu işlərin iştirakçılarısınız. Bu gün böyük aqrokompleksin fəaliyyəti ilə tanış olmuşam. Bu gün yeni hotelin açılışı da gözlənilir. Artıq bir neçə beşulduzlu hotel fəaliyyət göstərir. Bu hotellərin fəaliyyəti, beynəlxalq aeroportun tikilməsi Qəbələni beynəlxalq mərkəzə çevirir. Dünyada indi Qəbələ haqqında kifayət qədər geniş məlumatlar var. Burada keçirilən beynəlxalq tədbirlər, siyasi, mədəni tədbirlər Qəbələnin şöhrətini bütün dünyaya yayır. Burada ənənəvi musiqi festivalı keçirilir. Bu yaxınlarda növbəti festival keçirilmişdir. Dünyanın aparıcı musiqiçiləri, ifaçılar, bəstəkarlar Qəbələyə toplaşırlar. Qəbələnin və Azərbaycanın mədəni həyatına bu festivalın fəaliyyəti böyük töhfədir.

Bu günlərdə isə Qəbələdə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşü keçiriləcək. Bu zirvə görüşünün Qəbələdə keçirilməsi vacib məsələdir. Keçən dəfə Azərbaycanda bu zirvə görüşü 2009-cu ildə Naxçıvanda keçirilmişdir. Naxçıvan da, Qəbələ də Azərbaycanın qədim diyarıdır. Bu şəhərlərin böyük tarixi vardır. Bu dəfə yenə də növbə Azərbaycana çatanda mən qərar qəbul etdim ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının növbəti zirvə görüşü Qəbələdə keçirilsin. Həm qonaqlar Azərbaycanla daha da geniş şəkildə tanış olacaqlar, həm Qəbələ üçün bu tədbirin keçirilməsi əhəmiyyət daşıyır. Bir də ki, burada istənilən beynəlxalq tədbirin keçirilməsi üçün imkanlar vardır. Belə möhtəşəm konqres zalları heç də hər bir ölkədə tikilmir. Aeroport, bir neçə 5 ulduzlu hotel, digər hotellər, turizm mərkəzləri, keçən dəfə burada olarkən Mədəniyyət Mərkəzinin açılması onu göstərir ki, doğrudan da burada çox böyük işlər görülür. Həm dövlət öz vəsaitini ayırır, bütün infrastruktur layihələri dövlət hesabına icra edilir, eyni zamanda, özəl qurumlar həm biznes sahəsinə, həm də ki, sosial obyektlərə investisiya qoyurlar. Bu çox

sevindiricidir. Çünki biznesin sosial məsuliyyətli məsələləri dünyada geniş müzakirə olunur. Bəzi ölkələrdə böyük bizneslə məşğul olanlar sosial məsələlərə o qədər də diqqət yetirmir. Azərbaycanda isə mənim tövsiyələrimlə biznes qurumları da öz sosial məsuliyyətini dərk edir və sosial məsələlərin həllinə də kömək göstərirlər. İndi Qəbələdə keçən illərdə görülmüş işləri siz məndən yaxşı bilirsiniz. Sadəcə olaraq, qeyd etmək istəyirəm ki, infrastruktur, sosial obyektlər, aeroport, yollar, qazlaşdırma, elektriklə təchizat, turizm kompleksləri – bütün bunlar düşünülmüş siyasətin nəticəsidir.

Qəbələ artıq beynəlxalq turizm mərkəzinə çevrilib. Burada dağ-xizək kurortu da yaradılır. Qəbələnin sənaye potensialı da artır. İş yerləri, yeni müəssisələr, zavodlar, fabriklər açılır. Bu fabriklər, zavodlar müxtəlif sahələri əhatə edir. Qəbələnin timsalında biz Azərbaycan bölgələrinin uğurlu inkişafını görürük. Burada görülən işlər yüksək qiymətə, təqdirə layiqdir. Mən bu işləri alqışlayıram. Əminəm ki, gələcəkdə də Qəbələ şəhəri, Qəbələ rayonu uğurla inkişaf edəcəkdir.

Sizə isə cansağlığı, xoşbəxtlik, yeni uğurlar arzulayıram.

**A r i f ə B a b a y e v a** *(rayon sakini):* Möhtərəm cənab Prezident! İcazə verin, Qəbələnin bütün sakinləri adından Sizi salamlayım və Sizə «Xoş gəlmisiniz!» – deyim. Bu gün Qəbələdə əlamətdar bir hadisə yaşanır, yeni Konqres Mərkəzi açılır. Azərbaycanın bütün bölgələrində yüksək beynəlxalq tədbirlərin keçirilməsi üçün belə bir möhtəşəm mərkəzin yaranması ölkəmizdə dövlət tədbirlərinin uğurla keçirilməsi istiqamətində atılmış növbəti addımdır. Öz tarixiliyini qoruyub saxlamaqla müasirləşən Qəbələ bu gün artıq yüksək beynəlxalq tədbirlərin keçirildiyi bir məkana çevrilmişdir. Heydər Əliyev Fondunun təşəbbüsü ilə son illərdə Qəbələdə keçirilən beynəlxalq musiqi festivalları Azərbaycanın, Cənubi Qafqazın mədəni həyatında mühüm rol oynamış və dünyanın mötəbər mədəniyyət tədbirləri sırasına daxil olmuşdur. Artıq Qəbələ ustad musiqiçilərin, sənətsevərlərin tanınmış və sevimli görüş yerinə çevrilib. Fürsətdən istifadə edərək, bütün bunlar üçün milli-mənəvi dəyər-

lərimizin, musiqi mədəniyyətimizin hamisi Mehriban xanım Əliyevaya təşəkkürümüzü və minnətdarlığımızı bildiririk. Sevindirici haldır ki, Qəbələ 2013-cü ildə MDB-nin mədəniyyət paytaxtı elan olunmuşdur. Azərbaycan bu gün sabitlik və tərəqqi məkanı olmaqla, bütün dünyada demokratik, hüquqi, dünyəvi bir dövlət kimi tanınır və inkişaf edir. Cənab Prezident, belə Azərbaycanımıza, Qəbələmizə görə çox sağ olun. Möhtərəm cənab Prezident, rayonumuzda nəhəng turizm kompleksləri, iri sənaye və istehsal müəssisələri, müasir informasiya-kommunikasiya texnologiyaları və avadanlıqları ilə təchiz olunmuş tədris mərkəzləri, səhiyyə ocaqları, idman obyektləri tikilir. Qəbələyə gələn hər bir qonaq gündən-günə gözəlləşən şəhərimizə böyük bir heyranlıqla baxır.

Cənab Prezident, biz doğma şəhərimizi heç bir zaman belə möhtəşəm, belə gözəl görməmişdik. Bunların hamısı son 10 ilin möcüzələridir. Növbəti illərdə inkişafımız necə olacaq, bunu artıq bizim uşaqlarımız da bilir. Bütün bunlar Sizin gərgin əməyinizin, diqqət və qayğınızın nəticəsidir. Bütün bunlara görə biz Sizə minnətdarıq, cənab Prezident!

Möhtərəm cənab Prezident, biz hər birimiz bilirik ki, Sizin amalınızın ana xətti qüdrətli Azərbaycan, müstəqillik, inkişaf və sosial rifahdır. Siz insanların bütün problemləri ilə maraqlanmaqla, onlara daim qayğı göstərməklə, hər bir azərbaycanlının prezidenti olduğunuzu zaman-zaman nümayiş etdirirsiniz. İstər iqtisadiyyatda, istər cəmiyyətin sosial həyatında elə bir sahə yoxdur ki, Sizin diqqətinizdən kənarda qalmış olsun. Çünki Sizi ilk növbədə, Azərbaycan vətəndaşının rifahı, onun normal yaşayışı, gənclərimizin hərtərəfli inkişafı, uşaqlarımızın yüksək səviyyədə təhsil alması düşündürür.

Möhtərəm cənab Prezident, biz qəbələlilər Sizin insanlara göstərdiyiniz diqqət və qayğını həmişə yüksək qiymətləndiririk və bu diqqətə, bu qayğıya layiq olmağa çalışırıq. Siz bizim bu günümüzün, övladlarımızın gələcəyinin, sülhün, əmin-amanlığın, torpaqlarımızın bütövlüyünün təminatçısısınız. Tanrı Sizi – bu günümüzün və gələcəyimizin prezidentini qorusun!

**İ l h a m Ə l i y e v:** Sağ olun, təşəkkür edirəm.

* * *

*Daha sonra dövlətimizin başçısı Mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Azərbaycanda mötəbər tədbirlərin keçirilməsi ölkəmizin beynəlxalq aləmdə nüfuzunu daha da artırır, respublikamızı mədəniyyətlərarası dialoqa töhfə verən məkan kimi tanıdır. Bu gün Azərbaycanda regionların sürətli inkişafı ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi strategiyanın prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin bariz göstəricisidir. Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində bu gün ölkəmizin bütün bölgələri kimi, Qəbələ də qədim və tarixi görkəmini saxlamaqla müasirləşir. Burada bir sıra yüksək səviyyəli mədəni-humanitar tədbirlər keçirilir. Son illər Qəbələdə dünya standartlarına cavab verən hotellər, yollar, beynəlxalq aeroport tikilib. Qəbələ artıq beynəlxalq tədbirlərin təşkil olunduğu şəhərlərin adları ilə bir sırada yer alır. Təsadüfi deyildir ki, MDB-nin üzv dövlətlərinin Humanitar Sahə üzrə Əməkdaşlıq Şurasının və təşkilata üzv ölkələrin Humanitar Əməkdaşlıq üzrə Dövlətlərarası Fondunun Aşqabadda keçirilən birgə iclasında qəbul edilən qərara əsasən 2013-cü ildə Qəbələ «MDB-nin mədəniyyət paytaxtı» elan olunub. Bu gün gözəl təbiəti və bənzərsizliyi ilə seçilən Qəbələ şəhərinin MDB-nin mədəniyyət paytaxtına çevrilməsində rayonun qədim tarixi də mühüm rol oynayır. Qəbələdə yeni inşa olunan Heydər Əliyev Konqres Mərkəzinin tikintisi isə bir məqamı təsdiqləyir ki, artıq burada istənilən beynəlxalq tədbiri keçirmək mümkündür. Konqres Mərkəzində beynəlxalq səviyyəli tədbirlərin keçirilməsi üçün geniş imkanlar yaradılıb.*

*Dövlətimizin başçısına məlumat verildi ki, 1200 yerlik Heydər Əliyev Konqres Mərkəzi Qəbələ şəhərində, Qaraçay çayının sahilində yerləşir və ərazisinin ümumi sahəsi 8,5 hektardır. Mərkəzin layihələndirmə və tikinti işlərinə 2012-ci ilin*

*mayından başlanılmış və bu ilin iyulunda başa çatdırılmışdır. Bina 3 mərtəbədən ibarətdir. Birinci mərtəbədə zallar, 350 yerlik restoran və inzibati otaqlar yerləşir. Mərkəzdə 6 qüllə və zalın üzərində diametri 20 metr, hündürlüyü isə zalın döşəmə səviyyəsindən 13 metr olan günbəz düzəldilib. İsveçrə istehsalı olan və səstənzimləmə xassələrinə malik materialdan istifadə olunaraq hazırlanan bu günbəz zalda akustikanın tənzimlənməsinə xidmət edir. Çoxfunksiyalı 1200 yerlik konfrans zalı isə ikinci mərtəbədədir.*

*Prezident İlham Əliyev konfrans zalı ilə tanış oldu.*

*Bundan başqa, burada 92 kvadratmetrlik səhnə, VİP və mühafizə otaqları, incəsənət ustaları və media işçiləri üçün otaqlar, geniş foye yerləşir. Konfrans zalı qısa müddətə başqa məqsədlər – konsert, iclas və s. üçün kresloların aşağı enməsi ilə müstəvi halına keçə bilir. Kreslolar İspaniyanın Barselona şəhərindəki «Figueras» şirkəti tərəfindən hazırlanıb. Zalın səhnə hissəsi qalxıb-enən platforma üzərində quraşdırılıb. Burada sinxron tərcümə üçün xüsusi avadanlıqla təchiz olunan 6 tərcüməçi kabinəsi, habelə müşahidə və zalın avtomatik idarəetmə məntəqəsi vardır. Konfrans zalında mükəmməl səsləndirmə sistemi quraşdırılmışdır ki, bu da tədbirin təyinatından asılı olaraq səsləndirməni həm konfranslar, həm də konsert-əyləncə tədbirləri üçün tənzimləməyə imkan verir. Mərkəzin 3-cü mərtəbəsində isə antresol hissə yerləşir. Binanın zirzəmisində ATS, yanğınsöndürmə otağı, anbar, avtomobillər üçün dayanacaq, media işçiləri üçün otaq və foye yerləşir. Binada 18 metrlik eskalator və liftlər quraşdırılıb. Konqres Mərkəzinin ərazisində 140 yerlik yeraltı qaraj tikilib. Qarajın üstündə Bayraq Meydanı və dekorativ yaşıllıq salınıb. Qaraj 2 hissədən ibarətdir. 1-ci hissədə minik avtomobilləri, 2-ci hissədə isə avtobuslar yerləşdiriləcəkdir. Binanın dam örtüyü və qüllələr Almaniyada istehsal edilmiş mis təbəqə ilə örtülüb. Həmçinin 9 ballıq seysmik normanın tələblərinə uyğun olaraq antiseysmik və deformasiya tikişləri və digər konstruktiv tədbirlər nəzərdə tutulub. Ərazidə istirahət üçün yerlər,*

terraslar və s. yaradılıb. Avtomobillərin maneəsiz hərəkətini təmin etmək üçün binaya 3 istiqamətdən giriş yolları çəkilib. Binanın önündə, çay üzərində eni 24 metr, uzunluğu 42 metr, yükgötürmə qabiliyyəti 100 tona qədər olan körpü tikilib. Qaraçay çayının obyektin ərazisindən axan hissəsinə sahil boyunca çay daşları düzülüb. Bina və binaətrafı ərazi tam elektron video nəzarətinə alınıb. Yanğına qarşı və yaşıllığın suvarılması üçün nəzərdə tutulan 2 yeraltı su hovuzu tikilib. Qaraj və konfrans zalı yanğına qarşı xüsusi sprinklerlərlə təchiz edilib. Bina müasir daxili və xarici mühafizə siqnalizasiya və yanğınsöndürmə sistemləri ilə təchiz edilib.

Qeyd olundu ki, ikinci mərhələ üçün nəzərdə tutulmuş göl və gölətrafı sahə yenidən qurulacaqdır. Bu sahə 3 hektar ərazini əhatə edir. Gölətrafı sahədə abadlaşdırma işləri, gölün suyunun bərpası, yaşıllaşdırma işləri yerinə yetiriləcəkdir. İri və xırda dekorativ ağaclar əkiləcək, fontanlar quraşdırılacaqdır.

Prezident İlham Əliyev görülmüş işlərdən razılığını bildirdi, tapşırıq və tövsiyələrini verdi.

## «Qafqaz Karvansaray» hotel-kompleksinin açılışı mərasimi

Azərbaycan prezidenti İlham Əliyev avqustun 14-də Qəbələdə «Qafqaz Karvansaray» hotel-kompleksinin açılışında iştirak etmişdir.

Dövlətimizin başçısı hotelin rəmzi açılışını bildirən lenti kəsdi. Məlumat verildi ki, təkcə Qəbələ rayonu deyil, bölgə üçün də əhəmiyyətli turizm obyekti olan bu kompleks mükəmməl infrastruktura malikdir. Kompleksin təchizatı da ən müasir standartlara uyğundur. Hotel 5 hektar sahədə inşa edilib. Tikinti işləri 2012-ci ilin mayında başlanılmış, bu ilin avqustunda başa çatdırılmışdır. Yüksək xidmətin göstəriləcəyi bu kompleks, nadir memarlıq incilərindən biridir.

Bildirildi ki, avanqard və modern arxitektura üslublarının sintezi əsasında inşa edilən binanın interyerinin tərtibatında

xaricdə hazırlanan mebel və aksessuarlardan istifadə olunub. Hoteldə qonaqların rahat istirahəti üçün hər cür şərait yaradılıb. Dünyanın inkişaf etmiş ölkələri sırasında mövqeyini daha da möhkəmləndirməyi qarşıya məqsəd qoyan Azərbaycan artıq ən mötəbər beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilib. Bundan başqa, qeyri-neft sektorunun inkişafına xüsusi diqqət yetirilən respublikamızda turizmin inkişafı da sürətlənir. Bu və digər reallıqlar ölkəmizdə hotel biznesinin genişləndirilməsini və keyfiyyətcə yeni mərhələyə qədəm qoymasını zəruri edir. Hazırda Azərbaycan dövləti bu baxımdan kompleks tədbirləri reallaşdırır. «Qafqaz Karvansaray» hotel-kompleksi də həmin istiqamətdə atılan əsaslı addımlardan biridir. Dördmərtəbəli kompleks ən müasir standartlar səviyyəsində inşa olunub. Hotelin zirzəmi hissəsində avtomobil qarajı, camaşırxana, hovuz və digər yardımçı otaqlar vardır. «Qafqaz Karvansaray» hotel-kompleksi 139 super otaq, 12 ailəvi otaq, 6 kral otağı və 2 əlillər üçün otaq olmaqla, 159 otaqdan ibarətdir. Hoteldə, həmçinin qapalı üzgüçülük hovuzu, kişi və qadınlar üçün bərbərxana və gözəllik salonları, iki türk hamamı, 2 buxar hamamı, 2 SPA, 2 trenajor zalı, bilyard və tennis zalları, 2 sauna və masaj otaqları vardır. Kompleksdə 150 nəfərlik restoran, iclas və konfranslar keçirmək üçün zallar və uşaqların istirahət otaqları fəaliyyət göstərir. Kompleksin ərazisi tam abadlaşdırılmış, yaşıllıq sahəsi salınmışdır.

«Qafqaz Karvansaray» hotelində 120 nəfərin daimi işlə təmin edilməsi nəzərdə tutulub. Mükəmməl infrastruktura malik kompleks ən müasir avadanlıqlarla təchiz edilib. Gözəl dizayn və interyeri ilə seçilən otaqlarda qonaqlara yüksək səviyyəli xidmət göstəriləcəkdir. Bildirildi ki, «Qafqaz Karvansaray» hotelinin istifadəyə verilməsi bölgəyə gələn turistlərin sayına da müsbət təsirini göstərəcəkdir.

Hotellə yaxından tanış olan prezident İlham Əliyev kollektivə uğurlar arzuladı.

## Yenidən qurulan Qaraməryəm–İsmayıllı–Şəki avtomobil yolunun Qəbələ–Oğuz hissəsinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 14-də yenidən qurulan Qaraməryəm–İsmayıllı–Şəki avtomobil yolunun Qəbələ–Oğuz hissəsinin açılışında iştirak etmişdir.*

*Nəqliyyat naziri Ziya Məmmədov dövlətimizin başçısına məlumat verdi ki, Qaraməryəm–İsmayıllı–Şəki avtomobil yolu Böyük Qafqaz sıra dağlarının cənub ətəyində yerləşir və respublikanın ən böyük turizm marşrutlarından olan yolun bir hissəsidir. Uzunluğu 42 kilometr olan yolun 20 kilometri Qəbələ rayonunun, 22 kilometri isə Oğuz rayonunun ərazisinə düşür. Sifarişçi Nəqliyyat Nazirliyi, podratçı isə «Polad Yol Yapı» şirkətidir. Tikintisinə 2012-ci ilin may ayında başlanılan Qaraməryəm–İsmayıllı–Şəki avtomobil yolunun Qəbələ–Oğuz sahəsinin 75–95 kilometrlik hissəsi əsaslı sürətdə yenidən qurulub. Yolda tikinti işləri zamanı 7 dəmir-beton körpü əsaslı təmir edilib. Bundan başqa, yol ərazisində 13 su keçidi və 7 avtobus dayanacağı, həmçinin 1 yol qovşağı da tikilib. Qaraməryəm–İsmayıllı–Şəki avtomobil yolunun Qəbələ–Oğuz hissəsi 5 yaşayış məntəqəsini – Zarağan, Kiçik Pirəli, Mirzəbəyli, Zərgərli kəndlərini və Nic qəsəbəsini əhatə edir.*

*Qeyd olundu ki, avtomobil yolu respublikamızın şimal-qərb rayonları ilə nəqliyyat əlaqəsinin yaxşılaşdırılmasında, həmçinin iqtisadiyyatın və turizmin inkişafında mühüm əhəmiyyət kəsb edir.*

*Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

## OĞUZ PAYONUNA SƏFƏR

*14 avqust 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 14-də Qəbələdən Oğuz rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı Oğuz şəhərinin mərkəzindəki Heydər Əliyev parkında ümummilli liderin abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Oğuz Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Qurbanov Heydər Əliyev parkında aparılan quruculuq və abadlıq işləri barədə dövlətimizin başçısına məlumat verdi.*

### Heydər Əliyev Mərkəzində tikinti işlərinin gedişi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 14-də Oğuzda inşa edilən Heydər Əliyev Mərkəzində tikinti işlərinin gedişi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısı Mərkəzin maketinə və layihəsini əks etdirən filmə baxdı. Məlumat verildi ki, Mərkəzin tikintisinə 2013-cü ilin mayında başlanılmışdır. Orijinal layihə əsasında tikilən Mərkəzdə inşaat işləri sürətlə davam etdirilir. Üçmərtəbəli binanın ümumi sahəsi 7 min 500 kvadratmetrdir. Binanın zirzəmisində avtomobil dayanacağı, yeməkxana və texniki avadanlıq üçün otaqlar fəaliyyət göstərəcəkdir. Mərkəzdə ümummilli liderin möhtəşəm büstü ucaldılacaqdır. Yeni Mərkəzin yaradılması Oğuzda ulu öndərin zəngin irsinin təbliğində və öyrənilməsində mühüm rol oynayacaqdır.*

*Dövlətimizin başçısı Mərkəzin tikintisini əks etdirən sxemlər və fotolarla tanış oldu. Tikinti işlərinin 2014-cü ilin sonunadək*

*başa çatdırılması və Mərkəzdə 25–30 nəfərin daimi işlə təmin olunması nəzərdə tutulur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Oğuzda ulu öndərin adını daşıyan prospektdə inşa edilən Heydər Əliyev Mərkəzi şəhərin görünüşünü daha da zənginləşdirəcəkdir.*

*Prezident İlham Əliyev Mərkəzdə tikinti işlərinin gedişi ilə tanışlıqdan sonra müvafiq tapşırıq və tövsiyələrini verdi.*

# OĞUZ ŞƏHƏRİNƏ İÇMƏLİ SUYUN VERİLMƏSİ MƏRASİMİNDƏ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*14 avqust 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 14-də Oğuz şəhərinə içməli suyun verilməsi mərasimində iştirak etmişdir.*

*Əvvəlcə dövlətimizin başçısı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

**İ l h a m  Ə l i y e v:** Bu gün gözəl gündür. Gözəl tədbir keçirilir, bu gün Oğuz şəhərinin içməli su ilə təminatı həll olunur. Bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Əminəm ki, bu layihə Oğuz əhalisinin rahat yaşaması üçün növbəti töhfə olacaqdır.

İçməli su, kanalizasiya layihələri ölkəmizdə müxtəlif yerlərdə icra edilir və son aylar ərzində bu iş daha da geniş vüsət almışdır. Biz keçən həftə Kürdəmirdə, bu gün isə İsmayıllıda içməli su layihələrinin açılışını qeyd etmişik, indi isə Oğuzda qeyd edirik. Bundan sonrakı aylarda hələ ki, içməli su ilə tam şəkildə təmin olunmayan başqa bölgələrdə də bu layihələr icra ediləcəkdir. Biz vətəndaşları içməli su ilə təmin edəcəyik. İnsanların sağlamlığı, rahat yaşaması üçün çox vacib layihələrdir. Bilirəm ki, Oğuz rayonunda içməli su, kanalizasiya problemi uzun illərdir insanları narahat edirdi. Biz bu məsələni birdəfəlik həll etmişik və bundan sonra Oğuzda içməli su problemi olmayacaqdır.

Kəndlərdə də su xətləri çəkilir. Mənə verilən məlumata görə, bir neçə kənddə artıq içməli su problemi həll edilmişdir. Gələcəkdə Azərbaycanda bu problem tamamilə aradan qaldırılmalıdır. Bu, böyük layihələrdir, böyük vəsait, texniki

peşəkarlıq tələb edən layihələrdir. Ancaq Azərbaycan dövləti güclü dövlətdir. Bu layihələrin icra edilməsi onu göstərir ki, biz istənilən məsələni həll edə bilərik və regionların sosial-iqtisadi inkişafı artıq reallıqdır. Hər bir yerdə, hər bir bölgədə, hər bir şəhərdə infrastruktur layihələri icra edilir, insanların rahat yaşaması üçün işlər görülür, iş yerləri açılır.

Mən Oğuzda dəfələrlə olmuşam, bundan əvvəlki səfərlərimdə müxtəlif açılışlarda iştirak etmişəm. Yadımdadır, xəstəxananın, Olimpiya Kompleksinin açılışını bərabər qeyd etmişdik. Keçən dəfə burada olarkən böyük parkın açılışını qeyd etdik. Bu gün su layihəsi artıq istifadəyə verilir, Heydər Əliyev Mərkəzi tikilir, yaxın zamanlarda yəqin ki, bir daha görüşəcəyik. Yəni biz Oğuz rayonunun timsalında Azərbaycanın dinamik inkişafını görürük – sosial obyektlər tikilir, eyni zamanda, iş yerləri açılır. Səfərlərimin birində Qlükoza zavodunun açılışında da iştirak etmişdim və zavodun gələcək fəaliyyəti ilə bağlı göstərişlər də verilmişdir. Yəni Oğuzda sənaye, iş yerləri layihələri icra edilir, sosial obyektlər – indi uşaq bağçası açılacaqdır – su layihələri, qazlaşdırma artıq şəhərdə həll olunubdur, təbii qaz var, kəndlərdə də bu xətlər çəkilir. Bax, budur bizim yanaşmamız. Hər bir bölgədə bu layihələr icra edilir, icra ediləcəkdir. Elə etməliyik ki, insanları narahat edən bir dənə də olsun məsələ qalmasın. O cümlədən kənd yollarının, körpülərin tikintisi. Burada kənd yollarının tikintisinə vəsait ayrılmışdır, körpü tikilmişdir. İndi buraya gələrkən Qəbələ–Oğuz yolunun rəsmi açılışını qeyd etdik, artıq bu yol neçə vaxtdır ki, istifadədədir, çox rahat, gözəl yoldur. Ondan sonra Şəki–Qax yolu açılışa hazırdır. Bu yol da məsafəni təxminən 2 dəfə qısaldır və yol şimal–qərb sərhədimizə qədər uzanır. İnsanlar Bakıdan ta Balakənə qədər rahat yoldan istifadə edirlər, lazım olan yerlərdə yol genişlənib. Yəni onu demək istəyirəm ki, bütün infrastruktur layihələri icra edilir – su, kanalizasiya, elektrik enerjisi, qazlaşdırma, kənd yolları, məktəblər, xəstəxanalar, Olimpiya Kompleksi, mədəniyyət obyektləri. Bundan artıq nə ola bilər?! İş yerləri açılır. Dinamik inkişaf

budur. Azərbaycanın reallıqları bundan ibarətdir. Biz bütün dövrlərdə, müstəqilliyin son 20 ili ərzində inamla irəliyə gedirik, öz gücümüzü artırırıq, iqtisadiyyatımızı gücləndiririk. Bizim çox ciddi sosial siyasətimiz vardır. Bax, bu layihə sosial siyasətin əlamətidir.

Bir daha sizi bu gözəl hadisə münasibətilə, deyə bilərəm ki, tarixi hadisə münasibətilə təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik və yeni uğurlar arzulayıram.

**İ r a d ə M ə m m ə d o v a** *(Mərkəzi Xəstəxananın həkimi):* Möhtərəm Prezident, Sizi oğuzlular adından salamlayıram. Oğuza xoş gəlmisiniz!

Bu gün bizim üçün çox əlamətdar bir gündür. Oğuzda yeni su xətti istifadəyə verilir. Suyun insan üçün necə əvəzedilməz bir nemət olduğunu biz hamımız yaxşı bilirik, bir həkim kimi, mən də bilirəm. Kanalizasiya sistemi şəhərimizdə heç olmamışdır. Amma açılışında bizə şərəf verərək, bizi qürurlandıraraq Sizin iştirak etdiyiniz bu su xətti vasitəsilə Oğuz və ona yaxın kəndlər təmiz içməli su ilə təmin ediləcəkdir. Kanalizasiya sisteminin yaradılması nəticəsində şəhərimiz daha müasir bir şəhərə çevriləcəkdir. Bunlar bizə Sizin töhfənizdir, Sizin hədiyyənizdir. Oğuzlular adından ürəkdən Sizə bir daha təşəkkürümü bildirirəm.

Möhtərəm cənab Prezident, respublikamızda gedən quruculuq, yaradıcılıq, abadlıq işləri hamımızın gözü qarşısındadır. Biz hər gün yeni-yeni obyektlərin, körpülərin, yolların, bir həkim kimi deyirəm, diaqnostika mərkəzlərinin, yeni-yeni məktəblərin, turizm mərkəzlərinin, idman komplekslərinin açılışının şahidi oluruq. Bu işlər Oğuzdan da yan keçməmişdir. Sizin qayğınız, xüsusi diqqətiniz nəticəsində qısa bir müddət ərzində Oğuz o qədər dəyişmişdir ki, təzə gələn qonaqlar buranı tanımırlar. Yollar abadlaşmış, işıqlanmış, yeni idman kompleksi, yeni xəstəxana kompleksi tikilib istifadəyə verilmişdir. Xəstəxanamız hər cür müasir avadanlıqla təmin edilmiş, məktəblər tikilmiş, parklar açılmış, yollarımız abadlaşmışdır.

Bu gün daha əlamətdar bir gündür. Bu gün Oğuzda yeni bağçanın da açılışı olacaqdır. Yəqin ki, möhtərəm Prezidentimiz bu açılışda iştirak etməklə, bizi bir daha şərəfləndirəcəkdir. Bizə göstərdiyiniz bu qayğıya görə Sizə, Sizin xanımınıza – Mehriban xanım Əliyevaya həm bir qadın, həm də bir həkim kimi, təşəkkür edirəm. O da bizim həmkarımızdır.

Möhtərəm Prezident, regionlarımız gündən-günə çiçəklənir, inkişaf edir. Məlumdur ki, iqtisadiyyatın ən gəlirli sahələrindən biri də turizmdir. Özünüz də gördüyünüz kimi, Allah-Taala bizə belə füsunkar təbiət verib. Ancaq yalnız təbiət kifayət deyil, Sizin qayğınız, diqqətiniz, bu abadlaşma nəticəsində Oğuz turizm sahəsində gözəl bir mərkəzə çevrilir. Təbii ki, bütün sahələrdə olduğu kimi, bu sahədə də mütəxəssislərə ehtiyac vardır.

Mən bu səadəti, ümumiyyətlə, ağlıma gətirməzdim, Sizinlə üzbəüz dayanmaq, öz arzumu bildirmək. Mən Sizə öz ailəm adından xüsusi təşəkkür etmək istəyirəm. Sizin gənclərə olan atalıq qayğınız nəticəsində mənim qızıma da Dövlət Proqramı çərçivəsində dövlət təqaüdü verilmiş və o, Böyük Britaniyada məhz turizm sahəsində magistratura keçərək ixtisaslı bir kadr kimi, respublikamıza qayıtmışdır. Bizim ailəmizin sevincini sözlə ifadə etmək çətindir. Mən buna görə Sizə ürəkdən təşəkkür edirəm.

**İlham Əliyev:** Sağ olun.

**İradə Məmmədova:** Möhtərəm cənab Prezident, məhz Sizin səyləriniz, gecə-gündüz işləməyiniz nəticəsində – televizorda da göstərmişlər ki, respublikamızda ən çox işləyən şəxs Prezidentimiz və onun xanımıdır – Azərbaycan qüdrətli dövlətə çevrilmişdir. Bölgədə isə 1-ci dövlətik. Bu Sizin xalqımıza olan töhfənizdir, bizim xoşbəxt, firavan gələcəyimiz üçün çalışmağınızın nəticəsidir. Sizə təşəkkür edirik, Sizinlə qürur duyuruq. Belə bir Prezidentimiz olduğu üçün çox xoşbəxtik. Oğuzlular həmişə Sizinlə olmuşdur və əmin ola bilərsiniz ki, həmişə Sizi dəstəkləyəcəklər. Azərbaycanımızın çiçəklənməsi yolunda Sizə böyük nailiyyətlər arzu edirik,

yolunuz açıq olsun, Ulu Tanrı həmişə Sizi qorusun! Çox sağ olun!

**İ l h a m Ə l i y e v:** Sağ olun, təşəkkür edirəm. Oğuzda doğrudan da son illər ərzində əsaslı dəyişikliklər baş vermişdir. Mən ilk dəfə Oğuza 2005-ci ildə gələndə vəziyyət tam başqa idi. Oğuz rayonu çox böyük inkişaf yolu keçmişdir. Azərbaycanda, o cümlədən Oğuz rayonunda bütün işlər ardıcıllıqla aparılır. Sürətli iqtisadi inkişafı təmin etmək üçün ilk növbədə, ilkin şərtlər lazımdır – infrastruktur, yol, işıq, qaz. Bunlar olmadan heç bir inkişafdan söhbət gedə bilməz və biz bütün bu problemləri ardıcıllıqla həll edə bilmişik. İndi bütün infrastruktur layihələri yüksək səviyyədə həll olunubdur.

Gələcəkdə Oğuz rayonunun potensialından maksimum dərəcədə istifadə etmək üçün buranın təbiətini və təbii şəraitini nəzərə almaqla, müxtəlif istiqamətlər üzrə inkişaf planı da icra edilməlidir. Çünki burada infrastruktur var, yollar çəkilib, qaz xətləri, işıq xətləri, içməli su, kanalizasiya, xəstəxana, Olimpiya Mərkəzi, digər ictimai yerlər, parklar salınır. Buranın gələcək inkişafı yəqin ki, turizmlə, kənd təsərrüfatının və sənayenin inkişafı ilə bağlı olmalıdır. Bax, bu 3 istiqamət üzrə burada bundan sonra da işlər gedəcəkdir. Əminəm ki, bütün bu əsas infrastruktur layihələri icra olunandan sonra buraya özəl sektordan da investisiyalar çox qoyulacaqdır.

Əvvəlki dövrlərdə mən burada hotelin açılışında da iştirak etmişdim. Bu imkanlar da var. İndi gözəl yol çəkilibdir, Bakıdan buraya çox rahat gəlmək olur. Qəbələdə bildiyiniz kimi, beynəlxalq aeroport fəaliyyət göstərir və beynəlxalq uçuşlar artıq icra edilir. Aeroportdan Oğuza qədər təqribən yarım saatlıq yoldur. Yəni hesab etmək olar ki, Oğuzun da beynəlxalq aeroportu var. Əminəm ki, gələcəkdə bu zonaya – Oğuza, Şamaxıya, Qəbələyə, Şəkiyə və digər rayonlara gələnlərin sayı artacaqdır.

Daxili turizm hazırda daha çox artır. Bu da çox gözəl göstəricidir. Çünki insanların imkanları artır ki, onlar öz ölkəsində gedib istirahət edirlər. Xarici turizm də artır, müxtəlif

beynəlxalq tədbirlərin keçirilməsi, musiqi festivalları, siyasi tədbirlər, bax, sabahdan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşü Qəbələdə keçiriləcəkdir. Bax, bu zonanı turizm mərkəzinə – nəinki Azərbaycanın, bölgənin və gələcəkdə dünyanın turizm mərkəzlərindən birinə çevirmək üçün bütün ilkin şərtlər vardır.

Əlbəttə ki, kənd təsərrüfatının inkişafını qeyd etmək olar. Burada bu inkişaf üçün gözəl potensial vardır. Digər sahələr də vardır ki, Oğuz rayonunun inkişafına xidmət göstərə bilər və uzunmüddətli gələcəyimizi təmin edə bilər. Dövlət investisiyaları da qoyulacaqdır. Çünki baxmayaraq ki, əsas infrastruktur layihələri başa çatıb, hələ görüləsi işlər çoxdur. Kənd yerlərində görüləsi işlər çoxdur, uşaq bağçaları çatışmır, hələ qəzalı vəziyyətdə olan məktəblər yəqin ki, Oğuz rayonunda da, başqa yerlərdə də vardır. Bu işlər də ardıcıllıqla öz həllini tapacaqdır. Beləliklə, ölkəmizin dinamik inkişafı bundan sonra da təmin ediləcəkdir. Gələn ilin əvvəlində regional inkişaf üzrə 3-cü Dövlət Proqramı qəbul olunmalıdır. Proqramda növbəti 5 il üçün konkret vəzifələr, konkret layihələr göstəriləcəkdir. Yəqin ki, Oğuz rayonundan da artıq İqtisadi İnkişaf Nazirliyinə və Prezident Administrasiyasına təkliflər verilmişdir. Bu təkliflər əsasında Oğuz rayonunun gələcək 5 il ərzindəki inkişafı ilə bağlı konkret, adbaad tədbirlər göstəriləcəkdir.

Mən əminəm ki, gələcəkdə Oğuza hələ çox səfər edəcəyəm. Çünki burada açılışa hazır olacaq obyektlər çoxalacaq – həm müəssisələr, həm gözəl Heydər Əliyev Mərkəzi, həm digər obyektlər. Sizinlə hələ çox görüşəcəyik. Bir daha sizi ürəkdən təbrik edirəm və Sizə cansağlığı arzulayıram.

* * *

*Sonra prezident İlham Əliyev Oğuz şəhərinin su təchizatının yenidən qurulması və kanalizasiya sistemlərinin yaradılması layihəsinə, sxemlərə baxdı.*

*Ərazilərin Bərpası və Yenidən Qurulması üzrə Dövlət Agentliyinin direktoru Əli Məmmədov bildirdi ki, Azərbaycan*

Prezidentinin sərəncamı ilə təsdiq olunmuş Tədbirlər Planına əsasən Oğuz şəhərinə içməli su xəttinin çəkilməsi nəzərdə tutulub. Layihənin icrası Ərazilərin Bərpası və Yenidən Qurulması üzrə Dövlət Agentliyinə tapşırılıb. Layihə üzrə işlərə 2010-cu ilin noyabrında başlanılıb. Yeni içməli su təchizatı sistemi Oğuz şəhərini, həmçinin Bayan, Kərimli, Qumlaq, Şirvanlı, Tayıflı və Xalxalqışlaq kəndlərini əhatə edəcəkdir. Layihəyə əsasən şəhərin 9 min, kəndlərin isə 11 minə qədər əhalisinin su ilə fasiləsiz təmin olunması nəzərdə tutulub. Su tələbatı saniyədə 47 litrdən bir qədər çox olmalı idi. Hazırda isə Sazur və Almalıq su mənbələri hesabına faktiki təchizat saniyədə 103 litrdir. Tikintisi başa çatdırılan su mənbələrinin potensialı 50 min insanın suya olan tələbatını tam ödəyəcəkdir. Bu isə 2031-ci ildə Oğuz rayonunun əhalisinin içməli su ilə tam təmin olunması deməkdir. Laboratoriya araşdırmaları indiki mərhələdə suyun keyfiyyətinin həm beynəlxalq, həm də yerli standartlara tam uyğunluğunu təsdiqləmişdir.

Bildirildi ki, Oğuz şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması ilə bağlı işlər 3 mərhələdə aparılır. Birinci mərhələdə Sazur və Almalıq su mənbələrindən magistral boru xətti, su anbarları, xlorlama təsərrüfatı, laboratoriya və digər struktur obyektlərinin tikintisi başa çatdırılıb. Suqəbuledici qurğular meydançasında tikilən keçid məntəqəsi, suqəbuledici kamera, xlorlama və laboratoriya binaları avadanlıqla təchiz edilib. Hər birinin həcmi 1000 kubmetr olan 2 yeni su anbarı tikilib. Bundan başqa, həcmi 200 kubmetr olan su anbarı bərpa edilib.

İkinci mərhələdə şəhərin 3 zonasında su anbarları sahəsi yaradılıb. Hər birinin həcmi 250 kubmetr olan 6 su anbarı, həmçinin şəhərin su və kanalizasiya şəbəkələri inşa olunub. Şəhərdə bütün abonentlərin su sayğacı ilə təmin edilməsi nəzərdə tutulub.

Üçüncü mərhələ çərçivəsində gün ərzində məhsuldarlığı 2500 kubmetr olacaq çirkab sutəmizləyici qurğular kompleksinin tikintisi və texnoloji sistemlərin quraşdırılması işləri aparılır. Kanalizasiya sisteminin potensialı Oğuz şəhərini və Bayan

*kəndini əhatə edir. Çirkab sutəmizləyici qurğular kompleksinin bu ilin sonunda istismara verilməsi planlaşdırılır.*

*Dövlətimizin başçısı mərasim iştirakçıları ilə söhbət etdi.*

*Görülən işlərlə tanış olan prezident İlham Əliyev şəhərə içməli suyun verilməsini bildirən düyməni basdı.*

**2 saylı Körpələr evi-uşaq bağçasının açılışı mərasimi**

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 14-də Oğuz rayonuna səfəri çərçivəsində dövlət vəsaiti hesabına tikilən 2 saylı Körpələr evi-uşaq bağçasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı 2 saylı körpələr evi-uşaq bağçasının rəmzi açılışını bildirən lenti kəsdi. Uşaqların keyfiyyətli təhsil və dünya standartlarına cavab verən tibbi xidmətlərlə təmin edilməsi, hərtərəfli qayğı ilə əhatə olunması, onlar üçün zəruri şəraitin yaradılması, böyüməkdə olan nəslin layiqli vətəndaş kimi formalaşması Azərbaycanda dövlət uşaq siyasətinin başlıca prinsiplərindəndir. Heydər Əliyev Fondu da həmin istiqamətdə vacib layihələr həyata keçirir. Bu istiqamətdə müvafiq dövlət proqramlarının qəbul edilməsi və həyata keçirilməsi davamlı xarakter daşıyır. Bakıda və regionlarda körpələr evləri, uşaq bağçaları, əyləncə mərkəzləri tikilir, internat və orta məktəblər əsaslı şəkildə yenidən qurulur. Respublikamızın bütün bölgələrində olduğu kimi, Oğuz şəhərində də yeni inşa olunan uşaq bağçası bu sahədə aparılan islahatların növbəti əyani nümunəsidir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, burada genişmiqyaslı tikinti-abadlıq işləri aparılıb, uşaqların asudə vaxtlarının səmərəli təşkili üçün lazımi şərait yaradılmışdır. Binanın foyesi və otaqlarında ümummilli lider Heydər Əliyevin, prezident İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın uşaqlara qayğısını əks etdirən fotolara geniş yer verilib. Körpələr evi-uşaq bağçasının ərazisində əyləncə qurğuları quraşdırılıb və müxtəlif guşələr yaradılıb. Müasirliyi*

*ilə seçilən yeni uşaq bağçasının binası sürətlə inkişaf edən Oğuz şəhərinə əlavə yaraşıq verir.*

*Azərbaycan Prezidentinə məlumat verildi ki, Körpələr evi-uşaq bağçası binasının inşasına 2012-ci ildə başlanılıb. İkimərtəbəli binanın ümumi sahəsi 1510 kvadratmetrdir. Körpələr evi-uşaq bağçasında 26 nəfərin daimi işlə təmin olunması nəzərdə tutulub. Burada uşaqların mənalı istirahəti, onların dünyagörüşünün və hazırlıq səviyyələrinin artırılması üçün hər cür şərait yaradılıb. Uşaqların istirahət otaqlarında müxtəlif nağıl və cizgi filmlərinin əsas səhnələrinin böyük fotoları yer alıb.*

*Prezident İlham Əliyev Körpələr evi-uşaq bağçasında yaradılan şəraitdən razılığını bildirdi, müvafiq tapşırıqlarını verdi.*

## ŞƏKİ RAYONUNA SƏFƏR

*14 avqust 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 14-də Oğuza səfərini başa çatdıraraq Şəkiyə gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Şəki şəhərinin mərkəzindəki abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

*Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov prezident İlham Əliyevə ulu öndər Heydər Əliyevin abidəsinin ətrafında aparılan abadlıq-quruculuq işləri barədə məlumat verdi. Bildirildi ki, son dövrlərdə bu ərazidə abadlıq işləri aparılıb, yaşıllıq zolağı daha da genişləndirilib.*

### Aşağı Küngüt–Aydınbulaq avtomobil yolunun açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 14-də Şəkidə Aşağı Küngüt–Aydınbulaq avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı bu avtomobil yolunun bərpadan əvvəlki və sonrakı görüntülərini əks etdirən stendlərə baxdı və sonra yolun rəmzi açılışını bildirən lenti kəsdi. Azərbaycan Prezidentinə yolun texniki-iqtisadi göstəriciləri barədə məlumat verildi. Bildirildi ki, 8 min nəfər əhalinin yaşadığı 8 məntəqəni – Aşağı Küngüt, Çapağan, Çolaqlı, Fazıl, İbrahimkənd, Cəfərabad, Əliyar və Aydınbulaq kəndlərini birləşdirən yolun yenidən qurulmasına böyük ehtiyac var idi.*

*Ümumi uzunluğu 30 kilometr, hərəkət hissəsinin eni 6 metr olan avtomobil yolunun yenidən qurulmasına 2012-ci ilin*

*dekabrında başlanılmışdır. Prezident İlham Əliyevin ölkəmizin avtomobil yollarının yenidən qurulması ilə bağlı verdiyi tapşırıqlar əsasında inşa olunan bu yolun mühüm əhəmiyyəti vardır. Çünki bu yol həm də bir sıra rayonlararası magistral avtomobil yollarına birləşir.*

*Diqqətə çatdırıldı ki, layihənin ümumi smeta dəyəri 8 milyon 200 min manatdır. Yol boyunca körpü, bir sıra keçid, su keçidləri və 8 avtomobil dayanacağı tikilib. Yüksək standartlara uyğun inşa olunmuş yolun yenidən qurulması yük və sərnişin avtomobillərinin hərəkətindəki maneələri aradan qaldırmış, sakinlərin rahat gediş-gəlişini təmin etmişdir.*

*Dövlətimizin başçısı yeni yolda avtomobili idarə etdi.*

## Sabit Rəhman adına Şəki Dövlət Dram Teatrının binasında aparılan əsaslı təmir və yenidənqurma işlərinin gedişi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 14-də Sabit Rəhman adına Şəki Dövlət Dram Teatrının binasında aparılan əsaslı təmir və yenidənqurma işlərinin gedişi ilə tanış olmuşdur.*

*Son illərdə milli mədəniyyətimizin inkişafı dövlət siyasətinin prioritetlərindən birinə çevrilib. Prezident İlham Əliyevin sərəncam və göstərişləri əsasında indi ölkəmizin bütün tarixi abidələri, sənət ocaqları əsaslı şəkildə yenidən qurulur. Buna uyğun olaraq Şəki Dövlət Dram Teatrının binası da əsaslı təmir edilir.*

*Dövlətimizin başçısı teatrın həyatində Şəki ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

## ŞƏKİ ŞƏHƏR İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*14 avqust 2013-cü il*

Yenidən Şəkidə olmağımdan çox şadam. Artıq hər il Şəkiyə gəlirəm, burada gedən işlərlə tanış oluram. Görürəm ki, Şəkidə işlər yaxşı gedir. Bu gün buraya gəlməzdən əvvəl kənd yolunun açılışını qeyd etdik. Bu da çox gözəl hadisədir. Kəndlərə gedən bütün yollar indi abad olmalıdır. Bu məqsədlə həm dövlət büdcəsindən, həm Prezidentin ehtiyat fondundan mütəmadi qaydada vəsait ayrılır. Bütün bölgələrdə, o cümlədən Şəki rayonunda kənd yollarının tikintisi gedir. Həm şəhər gözəlləşir, abadlaşır, həm də kəndlərdə işlər gedir. Bir sözlə, son illərdə Şəkinin dinamik inkişafı çox sevindirici haldır.

Əvvəlki səfərlərimdə sizinlə bərabər müxtəlif açılışlarda iştirak etmişdik. Artıq bu dəfə Dram Teatrının təmiri ilə tanış olacağıq. Keçən dəfə Şəkidə olarkən bu teatra baxış proqramda yox idi. Sonra yoldaşlar məsləhət gördülər.

**Y a q u b  M a h m u d o v** *(AMEA-nın Tarix İnstitutunun direktoru, Milli Məclisin deputatı):* Cənab Prezident, hamımız təşəkkür edirik. Proqramdan çıxdınız, gəldiniz M.F.Axundzadənin vətəninə layiq təzə bir teatr açdınız. Sizə eşq olsun! Hamımız minnətdarıq.

**İ l h a m  Ə l i y e v:** Sağ olun! Yəni əslində proqram şərti xarakter daşıyır və lazımi işlər görülməlidir. Şəkinin mədəni həyatının daha da dolğun şəkildə təmin edilməsi üçün, əlbəttə ki, teatra yeni həyat verilməli idi. Tanış olduğum mənzərə çox acınacaqlı idi. Hətta mən soruşdum ki, artistlər burada tamaşaları necə səhnəyə qoyurlar? Amma hazırda gördüyüm bu gözəl işlər məni sevindirir. İçəridə də gedən işlərlə tanış

olacağam və gələn ayın sonuna qədər teatr istifadəyə veriləcəkdir.

Şəki teatrının çox böyük ənənələri vardır. Azərbaycanda tanınır. Mən xatırlayıram ki, ötən əsrin 80-ci illərində Moskvada oxuyarkən, mən Şəki teatrının tamaşasında olmuşdum. O da özlüyündə bir göstərici idi. Çünki Sovet İttifaqının paytaxtında – Moskvada bu teatrın tamaşalarının təqdim edilməsi, əlbəttə ki, teatrın potensialından xəbər verirdi. Yəni ənənələr var və siz də bu ənənələri qoruyursunuz.

Əlbəttə, teatrın binasının təmiri hesab edirəm ki, çox vacib məsələdir. Şəki teatrı üçün gözəl bina olmalıdır. Bu bina da indi, bundan sonra 50 il, bəlkə ondan da çox xidmət göstərəcəkdir. Bu teatrın təmiri, bərpası hesab edirəm ki, son illər Azərbaycanda bu sahədə görülən işlərin əlamətidir. Bildiyiniz kimi, Bakı şəhərində bütün teatrlar, bütün muzeylər əsaslı təmir edilibdir. Yeni muzeylər, teatrlar tikilib açılır, o cümlədən bölgələrdə. Yəni Azərbaycanın mədəni həyatı bütün dövrlərdə çox zəngin idi və xalqımız üçün çox vacib idi. Bu gün də belədir, humanitar sahəyə, mədəniyyət sahəsinə çox böyük diqqət göstərilir. Təsadüfi deyil ki, Azərbaycanda bu istiqamətdə görülən işlər beynəlxalq birlik tərəfindən də qiymətləndirilir. Azərbaycanda – Bakıda, başqa yerlərdə musiqi festivallarının, beynəlxalq muğam müsabiqəsinin, beynəlxalq mədəniyyətlərarası dialoq forumlarının keçirilməsi humanitar sahənin nə qədər vacib olduğunu göstərir. Əlbəttə, teatr sənətinin Azərbaycanda çox böyük tarixi vardır. Müsəlman aləmində ilk teatr, ilk opera məhz Azərbaycanda yaranmışdır. Bu bizim böyük sərvətimizdir. Biz bunu qorumalıyıq və gələcək nəsillər üçün saxlamalıyıq. Çünki hər bir ölkənin inkişafı təkcə iqtisadi göstəricilərlə ölçülmür. Azərbaycanın mədəni həyatı kifayət qədər zəngindir.

Bizim, ümumiyyətlə, çox zəngin mədəniyyətimiz vardır. Şəkinin də Azərbaycan tarixində, Azərbaycan mədəniyyətinin inkişafında xüsusi yeri vardır. Şəki Azərbaycanda və deyə bilərəm ki, bölgədə və dünyada öz gözəlliyi ilə seçilən bir

şəhərdir. Burada, əlbəttə ki, təbiət və memarlıq, qədim və tarixi binalar, Şəkinin şəhərsalma qaydaları gözəl bir mənzərə, bir vəhdət yaradır. Təsadüfi deyil ki, Şəkinin mədəniyyəti ilə maraqlananların sayı getdikcə artır. Həm daxili turizm artır, həm də xaricdən gələn qonaqların sayı. Burada artıq yeni gözəl mehmanxanalar yaranmaqdadır. Gözəl şərait yaradılır. Yəni Şəkinin Azərbaycan tarixində öz layiqli yeri vardır. Əlbəttə ki, Xan sarayı Azərbaycan mədəniyyətinin dəyəridir və onun böyük sərvətidir.

Bu gün biz həm də «Şəki Xanlarının evi»nin təmirdən sonra istifadəyə verilməsini qeyd edəcəyik. Bu da çox əlamətdar hadisədir ki, Şəkinin tarixi və zəngin mədəniyyəti qorunsun, saxlanılsın, gələcək nəsillərə ötürülsün və Şəki dünya miqyasında tanınan bir şəhərə çevrilsin. Şəki buna layiqdir. Həm tarix, mədəniyyət, özünəməxsus həyat tərzi, həm mətbəx – bütün bu amillər Şəkinin gözəl xüsusiyyətləridir. Siz şəkililər bunu məndən yaxşı bilirsiniz. Amma onu da bilirsiniz ki, Azərbaycanın, demək olar ki, bütün yerlərində Şəkiyə çox böyük hörmət və maraq vardır. İstərdim ki, Azərbaycanın bütün vətəndaşları vaxt tapıb Şəkiyə səfər etsinlər. İndi şərait yaxşılaşır, yollar da çəkilir və nəqliyyat vasitələri müasirləşdirilir. Ona görə də daxili və xarici turizm inkişaf edəcək. Biz gərək gələcəkdə Şəkidə beynəlxalq tədbirlərin sayını da artıraq. Əlbəttə ki, görülən işlərin arasında teatrın öz yeri vardır.

Əvvəlki səfərlərimdə digər açılışlarda bərabər iştirak etmişik. Keçən dəfə şəhər xəstəxanasının açılışını qeyd etdik. Olimpiya Mərkəzi, digər obyektlər, tarixi obyektlər bərpa olunub. Bir daha demək istəyirəm ki, bu teatr da böyük ənənələrə malikdir. Əminəm ki, bu ənənələr bundan sonra da yaşayacaq. Bir daha sizi salamlayıram və təbrik edirəm.

**Hikmət Nəbili** *(Sabit Rəhman adına Şəki Dövlət Dram Teatrının direktoru):* Möhtərəm Prezidentimiz, icazə verin, Şəki ictimaiyyətinin və Şəki Dövlət Dram Teatrının

kollektivi adından Sizə şəkisayağı deyim: «Xoş gəlmisouz, səfa gətirmisouz, qədəmləriniz mübarək olsun, uğurlu olsun!»

Son dövrlərdə Şəkidə gedən iqtisadi inkişaf, yenidənqurma danılmaz faktlardır. Yəni Şəki son dövrlərdə çox sürətlə inkişaf edir. Əlbəttə ki, bunların hamısı Sizin sayənizdədir. Sizin diqqətinizin, qayğınızın sayəsində bu gün Şəki, sözün əsl mənasında, intibah dövrünü yaşayır.

Siz ötən dəfə teatra gələndə dediniz ki, bizim tamaşamız Sizin çox xoşunuza gəlmişdi. Mən həmin sözdən qürurlanıb demək istəyirəm ki, çox sağ olun, bizim tamaşamızı heç vaxt yadınızdan çıxarmamısınız. Mən istəyirəm heç kəsin bilmədiyi, heç kəsin xəbəri olmadığı bir əhvalatı Sizə danışım. Rəhmətlik baş rejissorumuz Hüseynağa Atakişiyevi Moskva qastrolu zamanı telefona çağırırlar. O da gedib telefonun dəstəyini götürür. Səs gəlir: «Hüseynağa, xoş gəlmisiniz Moskvaya, səfa gətirmisiniz!». Hüseynağa müəllim deyirdi ki, yerimdə qurudum qaldım. Bu insanın bu qədər işi-gücü olan vaxtı haradan bildi ki, biz Moskvaya qastrola gəlmişik?! Dəstəkdən yenə səs eşidildi: «İşləriniz necə gedir, teatrda tamaşalarınızı qəbul edirlərmi?». Cavab verdim ki, çox sağ olun, Heydər Əliyeviç, hər şey öz qaydasındadır, hər şey normaldır. Ulu öndər deyir: «Məndən uşaqlara salam söyləyin. Siz ürəkli, cəsarətli olun. Mən qəzetlərdə, «Veçernyaya Moskva» qəzetində Sizin qastrol tamaşanız haqqında yazıları izləyirəm».

Yəni bu gün Şəkidə bu teatrın təmir olunması, əlbəttə, bizim ulu öndərimizin, yəni dühamızın qoyub getdiyi izdir. Bu gün Siz onu çox gözəl davam etdirirsiniz. Buna görə də Sizə çoxlu-çoxlu, o qədər təşəkkür etmək istəyirəm ki, bilmirəm haradan başlayım. Siz var olasınız, sağ olasınız!

Şəki son vaxtlar festivallar, yubileylər şəhərinə çevrilibdir. Bu yaxınlarda «İpək yolu» musiqi festivalı keçirildi. Mirzə Fətəli Axundzadənin 200 illik, Şəkinin 2700 illik yubileyləri qeyd olundu. Xan sarayının 250 illik yubileyi keçirildi. Bunlar üçün də Sizə «çox sağ olun» – deyirəm. Mən hələ o qədər «sağ ol» deyəcəyəm ki.

Tərəqqi, inkişaf göz qabağındadır. Bu inkişaf təkcə Şəkidə deyil, respublikamızın hər yerində gedir. Şəki gündən-günə gözəlləşir. Hətta bir müddət şəhərimizdə olmayan insanlar Şəkiyə dönəndə təəccüblənirlər: «Bu bina nə vaxt tikildi?» Yəni indi Şəkidə inkişaf çox dinamik gedir. Mən yalnız bir şeyi deyə bilərəm ki, Siz 2011-ci ildə buraya gəlib baxandan sonra teatrımızın təmiri barədə sərəncam verdiniz. İnana bilməzdik ki, belə az bir müddətdə bizim bu cür gözəl teatr binamız olsun.

**İlham Əliyev:** Belə də olmalıdır.

**Hikmət Nəbili:** Buna görə də Sizə bir daha «sağ olun» – deyirəm, bir daha təşəkkürümü bildirirəm.

Möhtərəm Prezidentimiz, əmin olun ki, bütün Azərbaycan xalqı və Şəki camaatı Sizə inanır, etibar edir.

**İlham Əliyev:** Çox sağ olun. Bildiyiniz kimi, Şəkinin inkişafı ilə bağlı bir müddət əvvəl xüsusi sərəncam imzalanmışdır. O sərəncamda Şəkinin tarixi əks olunur. Sərəncamın nə üçün verildiyi də orada əks olunur. Əlbəttə, Azərbaycanın hər bir şəhəri, hər bir yaşayış məntəqəsi bizim üçün əzizdir, doğmadır. Ancaq Azərbaycanın tarixi mərkəzləri vardır. Azərbaycanda bir neçə böyük tarixi mərkəz vardır ki, biz onların tarixini həm bilməliyik, həm də qorumalıyıq və inkişaf etdirməliyik. O cümlədən onların arasında Şəkinin də xüsusi yeri vardır. Burada xanlıq olubdur. Burada xanlar olublar və gözəl binalar tikiblər. Belə tarixi mərkəzlərin inkişafı xüsusi diqqət tələb edir. Xüsusilə Şəkinin yenidən qurulması, müasirləşməsi, abadlaşması çox böyük ustalıqla və dəqiqliklə aparılmalıdır ki, şəhərin tarixi siması silinməsin. Yəni pozulmasın, ona bir zərrə qədər zərər dəyməsin. Ona görə Şəkinin gələcək inkişaf planı ilə bağlı mənə vaxtaşırı məruzələr edilir. Mənim də tövsiyələrim, hesab edirəm ki, siz də razılaşarsınız, ondan ibarətdir ki, tarix qorunmalıdır. Şəkinin tarixi o qədər zəngindir ki, bu tarixə nəyisə əlavə etməyə ehtiyac yoxdur. Yəni bu tarix qorunmalıdır. Əlbəttə, yeni binaların tikilməsi də lazımdır. Çünki hər bir şəhərdə olduğu kimi, burada da yeni binalar tikilməlidir. Qədimi üslubda

tikilməlidir ki, Şəkinin özünəməxsus simasına ziyan vurmasın. Ona görə burada gedən quruculuq işləri geniş ictimai müzakirələrə də səbəb olur. İctimaiyyət bu işlərdə iştirak edir. Xüsusilə ziyalılar, deputatlar iştirak etməlidirlər. Şəkinin gələcək inkişafı ilə bağlı konkret planlar var. Yeni böyük binaların, Heydər Əliyev Mərkəzinin, icra hakimiyyətinin binalarının inşasına başlanılıbdır, yeni yerlər müəyyən edilibdir. Bu yerlər bir qədər kənarda yerləşir. Elə də olmalıdır. Amma görürəm, şəhərin tarixi mərkəzində, bax, bu bərpa işləri çox böyük zövqlə və həssaslıqla aparılır ki, Şəkinin nadir şəhərsalma ansamblını qoruyaq. Biz də bunu bərabər edəcəyik.

**Y a q u b M a h m u d o v:** Mən cənab Prezidentə hamımızın adından xüsusi minnətdarlığımı bildirmək istəyirəm. Xüsusilə ona görə ki, cənab Prezident Azərbaycanda tarixi şəhərlərin dirçəlməsi konsepsiyasına Şəkidən başlayıbdır. Şəkini bütövlükdə tarixi şəhər kimi dirçəltmək işini Azəraycan Prezidenti, dünyanın böyük dövlət xadimi, bizim sevimli İlham Əliyevimiz başlayıbdır. Mən ona Sizin hamınızın adından dərin minnətdarlığımı bildirirəm. Hamımız minnətdarlığımızı bildiririk ki, doğrudan da Şəki son zamanlara qədər bir dalana dirənmişdi. Bura elə bil ki, nəzərdən salınmışdı, cənab Prezident. Mən çox açıq demək istəyirəm. Siz o buzu tamam sındırdınız.

**İ l h a m Ə l i y e v:** Sizin məktubunuzun əsasında.

**Y a q u b M a h m u d o v:** Var olun, çox sağ olun. Şəkiyə 4-5 dəfə gəlmisiniz, neçə sərəncam verilibdir. İndi Şəki bütövlükdə intibah dövrünü yaşayır. Mən bir tarixçi olaraq demək istəyirəm ki, gələcək Azərbaycan tarixində Azərbaycan tarixinin qurucu prezident dövrü – «qurucu İlham dövrü» yazılacaqdır. O, İlham Əliyevlə bağlıdır. Çünki Azərbaycanın hər yerindəki inkişaf, quruculuq, abadlıq işləri İlham Əliyevin adı ilə bağlıdır. Xüsusilə tarixin dirçəldilməsi bizim Prezidentimizlə bağlıdır.

Prezidentimiz bu gözəl ab-havanı, tarixi, gözəlliyi, dağları, ahəngi çox dəqiq qeyd etdi. Ona möhkəm cansağlığı arzu

edirik. O bu tarixi şəhərin dirçəldilməsinə qol qoydu. Tez-tez buraya gəldi, neçə-neçə sərəncam verdi. Arzu edək ki, Prezidentimiz bu şəhəri gələcəkdə YUNESKO-nun siyahısına saldırsın.

**İ l h a m  Ə l i y e v:** Ola bilər.

**Y a q u b  M a h m u d o v:** Bizim Xan sarayı nadir abidədir. Cənab Prezident bunu hər yerdə deyir. Bir dənə də mismar işlənməmişdir. Bura dövlətçilik mərkəzidir. Şimal-qərbi Azərbaycanda Şəki olmasa, bu torpaqlar burada qalmazdı. Şəki buranı qoruyub saxlayıb. Ona görə də Prezidentimiz bir tarixçi kimi, bu tarixi şəhəri sevir, buraya bütün gücünü qoyur. Cənab Prezident, Şəkinin 2700 illiyini də keçirdik.

2004-cü ildən Prezident Tarix İnstitutunu mənə etibar edib. Dəqiq deyə bilərəm ki, bütün tariximiz Prezidentin sayəsində dirçəlir. Bütün yazılan əsərlərimiz Prezidentin tapşırığı, tövsiyəsi ilə yazılır. Azərbaycanın yeni tarixi işlənilir. Bu quruculuq, Azərbaycanın yeniləşmə, dirçəlmə tarixi Prezidentimizin adı ilə bağlıdır. Bura da artıq Sizin adınızla bağlıdır. Bura da Mirzə Fətəli Axundzadəyə layiq bir teatr oldu. Şəhərdə çatışmayan iş bu idi. Bunu da Siz etdiniz. Azərbaycanda ən böyük körpünü Şin çayı üzərində prezident İlham Əliyev saldırdı. Qaxdan, bizim o kəndlərdən buraya bir arayış üçün 2 saata gəlirdilər. İndi isə 15 dəqiqəyə. Belə nəhəng körpünü mən Amerikada Key West adalarına gedəndə görmüşəm. Onu Siz burada yaratdınız. Ona görə də var olun, sağ olun. Azərbaycan Sizin arxanızdadır. Bu bölgə də, Şəki də həmişə Sizin yanınızdadır, Sizin arxanızdadır. Bu evlərin hər birində Sizin adınız hörmətlə çəkilir. Sizin arxanızdayıq, cənab Prezident.

**İ l h a m  Ə l i y e v:** Sağ olun, Yaqub müəllim.

**Y a q u b  M a h m u d o v:** Sizə eşq olsun!

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun!

* * *

*Görülən işlərlə tanış olan Azərbaycan Prezidenti binanın təmirdən əvvəlki vəziyyətini əks etdirən fotolara baxdı.Məlumat verildi ki, qədim Şəkinin də Azərbaycanda teatrın təşəkkül tapmasında və inkişafında özünəməxsus payı vardır. Şəkidə peşəkar teatr 130 və Sabit Rəhman adına Şəki Dövlət Dram Teatrı 30 illik yaradıcılıq yolu keçmişdir. 1973-cü ildə İpəkçilərin Mədəniyyət sarayı kimi fəaliyyətə başlayan bina 2 ildən sonra Sabit Rəhman adına Dövlət Dram Teatrının kollektivinin ixtiyarına verilib. Teatr binasının uzun müddət əsaslı təmir olunmaması kollektivin fəaliyyətinə də təsirsiz ötüşməmişdi. Azərbaycan Prezidentinin Şəkinin inkişafı məqsədilə 2011-ci ilin sentyabrında imzaladığı sərəncama uyğun olaraq yenidən qurulan teatr binası müasir standartlara cavab verən səviyyəyə çatdırılacaqdır. Üçmərtəbəli binanın əsaslı təmirinə 2012-ci ilin martında başlanılıb.*

*Prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, əsaslı təmirdən sonra binanın tamaşa zalı 299 yerlik olacaqdır. Tamaşalarda istifadə ediləcək dekorasiyaların quraşdırılmasının sürətləndirilməsi məqsədilə səhnə fırlanan şəkildə düzəldiləcəkdir. Binanın sahəsi 4000 kvadratmetrdən 5000 kvadratmetrədək artırılıb. Təmirdən əvvəl teatr binasında 78 xidməti otaq var idisə, hazırda onların sayı 86-dır. Binada aktyorların məşqi üçün kiçik səhnə və qrim otaqları vardır. 4 korpusdan ibarət Şəki Dövlət Dram Teatrının binasının həyətyanı sahəsində də geniş abadlıq işləri görülüb.*

*Yenidənqurma işləri ilə tanış olan prezident İlham Əliyev kollektivə uğurlar arzuladı.*

### «Şəki Xanlarının evi»nin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 14-də Şəkiyə səfəri çərçivəsində «Şəki Xanlarının evi»nin açılışında iştirak etmişdir.*

*Son illərdə ölkədə mədəniyyət sahəsi də yüksək səviyyədə dövlət qayğısı ilə əhatə olunub. Prezident İlham Əliyev və*

xanımı Mehriban Əliyeva regionlara səfərləri zamanı mədəniyyət obyektləri ilə yaxından tanış oldular. Dövlətimizin başçısı lazım gəldikdə onların yenidən qurulması ilə bağlı tapşırıqlarını verdi. Xatırladaq ki, 2006-cı il aprel ayının 13-də prezident İlham Əliyevin Şəkiyə səfəri zamanı uzun illər ərzində əsaslı təmir edilməyən və yararsız vəziyyətə düşmüş «Şəki Xanlarının evi»nin təmir edilməsi barədə dövlətimizin başçısının tapşırığına əsasən XVIII əsrə aid bu tikili yenidən qurulub. Dövlətimizin başçısı binanın, Heydər Əliyev və M.F.Axundzadə prospektlərinin bərpadan əvvəlki və sonrakı görüntülərini əks etdirən stendlərə baxdı. Bina ilə tanış olan prezident İlham Əliyevə məlumat verildi ki, «Şəki Xanlarının evi»nin bərpası işlərinə 2012-ci ilin noyabrında başlanılıb. 6 otaqdan, 4 dəhlizdən və 2 eyvandan ibarət bina çiy kərpicdən tikilmiş, pəncərələri şəbəkə üsulu ilə düzəldilmişdir. Ərazisi 700 kvadratmetr olan binanın yenidən qurulması Mədəniyyət və Turizm Nazirliyinin sifarişi əsasında aparılıb. Otaqlardan biri xüsusi rəsmlərlə bəzədilib və qonaq otağı kimi nəzərdə tutulub.

Diqqətə çatdırıldı ki, XVIII əsrə aid olan «Şəki Xanlarının evi» tarixi abidə ilk dəfədir təmir edilir. Bərpa işləri həyata keçirilərkən binanın tarixi görkəmi saxlanılıb. İkimərtəbəli binanın əsas otağında milli ornamentlərə uyğun olaraq Azərbaycan tarixini əks etdirən şəkillər və tarixən bu ərazilərdə yaşayan xalqların nümayəndələrinin portretləri əks olunub. Mədəniyyət və Turizm Nazirliyinin əmrinə əsasən «Şəki Xanlarının evi» abidə-muzey kimi fəaliyyət göstərəcəkdir. Sonra abidənin hər bir otağı öz təyinatına uyğun olaraq eksponatlarla təmin ediləcəkdir. Ümumilikdə Şəkidə 84 dünya və yerli əhəmiyyətli memarlıq abidəsi vardır. «Şəki Xanlarının evi» isə Yuxarı Baş Dövlət Tarix-Memarlıq Qoruğunun tərkibində fəaliyyət göstərir. Həmin qoruqda «Şəki Xanlarının evi» ilə yanaşı, qeydiyyatdan keçən 25 abidə vardır.

Prezident İlham Əliyev görülən işlərdən razılığını bildirdi.

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ABDULLAH GÜLÜN AZƏRBAYCANA SƏFƏRİ

*Qəbələ*

*15 avqust 2013-cü il*

*Türkiyə Respublikasının Prezidenti Abdullah Gül Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III Zirvə toplantısında iştirak etmək üçün avqustun 15-də Azərbaycana səfərə gəlmişdir.*

*Qəbələ Beynəlxalq Aeroportunda Türkiyə prezidenti Abdullah Gülü Azərbaycanın İqtisadi İnkişaf naziri Şahin Mustafayev və digər rəsmi şəxslər qarşıladılar.*

*Türkiyə dövlətinin başçısı onun şərəfinə düzülmüş Fəxri qarovul dəstəsinin önündən keçdi.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ABDULLAH GÜL İLƏ GÖRÜŞ

*Qəbələ*

*15 avqust 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 15-də Qəbələdəki Prezident iqamətgahında ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının Prezidenti Abdullah Gül ilə görüşmüşdür.*

*Görüşdə Qəbələdə keçiriləcək Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III Zirvə toplantısının əhəmiyyətindən danışıldı. Bu tədbirin dost və qardaş ölkələr olan türkdilli dövlətlərin siyasi, iqtisadi, humanitar və digər sahələrdə ikitərəfli və çoxtərəfli əməkdaşlığına töhfə verəcəyi bildirildi.*

*Prezident İlham Əliyev və prezident Abdullah Gül Azərbaycan ilə Türkiyə arasında ikitərəfli münasibətlərin, o cümlədən enerji sahəsində əməkdaşlığın inkişafından məmnunluq ifadə etdilər.*

*Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı vəziyyətin müzakirə edildiyi görüşdə bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## QIRĞIZ RESPUBLİKASININ PREZİDENTİ ALMAZBEK ATAMBAYEVİN AZƏRBAYCANA SƏFƏRİ

*Qəbələ*

*15 avqust 2013-cü il*

*Qırğız Respublikasının Prezidenti Almazbek Atambayev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III Zirvə toplantısında iştirak etmək üçün avqustun 15-də Azərbaycan Respublikasına səfərə gəlmişdir.*

*Qəbələ Beynəlxalq Aeroportunda prezident Almazbek Atambayevi Azərbaycanın İqtisadi İnkişaf naziri Şahin Mustafayev və digər rəsmi şəxslər qarşıladılar.*

*Qırğız dövlətinin başçısı onun şərəfinə düzülmüş Fəxri qarovul dəstəsinin önündən keçdi.*

## QIRĞIZ RESPUBLİKASININ PREZİDENTİ ALMAZBEK ATAMBAYEV İLƏ GÖRÜŞ

*Qəbələ*

*15 avqust 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 15-də Qəbələdəki Prezident iqamətgahında ölkəmizdə səfərdə olan Qırğız Respublikasının Prezidenti Almazbek Atambayev ilə görüşmüşdür.*

*Görüşdə Qəbələdə keçiriləcək Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III Zirvə toplantısının əhəmiyyəti vurğulandı. Bu tədbirin ölkələrimiz arasında siyasi, iqtisadi, humanitar, mədəni sahələrdə əməkdaşlığa təkan verəcəyi qeyd olundu. Azərbaycan ilə Qırğızıstan arasında ikitərəfli əlaqələrin inkişafının vurğulandığı görüşdə nəqliyyat sahəsində əməkdaşlığın yaxşı perspektivlərinin olduğu bildirildi.*

*Söhbət zamanı müxtəlif sahələrə dair geniş fikir mübadiləsi aparıldı.*

## TÜRKDİLLİ DÖVLƏTLƏRİN ƏMƏKDAŞLIQ ŞURASININ III ZİRVƏ TOPLANTISI ÇƏRÇİVƏSİNDƏ KEÇİRİLƏN KONSERTDƏ İŞTİRAK

*Qəbələ*

*15 avqust 2013-cü il*

*Qəbələdəki Mədəniyyət sarayında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III Zirvə toplantısı çərçivəsində avqustun 15-də konsert proqramı təşkil edilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Abdullah Gül və Qırğız Respublikasının Prezidenti Almazbek Atambayev konsertdə olmuşlar.*

*Konsertdən əvvəl Azərbaycan prezidenti İlham Əliyevə, Türkiyə prezidenti Abdullah Gülə və Qırğız prezidenti Almazbek Atambayevə Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un yaradılmasının 20-ci ildönümü münasibətilə xatirə hədiyyələri təqdim olundu.*

*Sonra Azərbaycan, Türkiyə və Qırğız prezidentləri qısa söhbət etdilər.*

*Salona toplaşanlar dövlət başçıları İlham Əliyevi, Abdullah Gülü və Almazbek Atambayevi hərarətlə qarşıladılar.*

*Konsertdə Xalq artisti Teymur Göyçayevin dirijorluğu ilə Qara Qarayev adına Dövlət kamera orkestrinin ifasında türkdilli xalqların musiqiləri səsləndi.*

*Hazırda türkdilli ölkələr arasında mədəniyyət məsələlərinə böyük diqqət göstərilir. Bu sahədə əməkdaşlıq bütün türkdilli dövlətlər arasında prioritet elan edilib. Təsadüfi deyildir ki, türkdilli ölkələrin dövlət başçılarının zirvə toplantılarında*

*mədəniyyət sahəsində əməkdaşlığın perspektivləri mütəmadi olaraq vurğulanır. Bu prosesə türkdilli dövlətlərin ortaq təşkilatı olan TÜRKSOY da öz töhfəsini verir. Təşkilatın xətti ilə hər il türkdilli ölkələrin müxtəlif şəhərlərində reallaşan tədbirlər xalqlarımız arasında mədəni telləri daha da möhkəmləndirir. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası da türkdilli ölkələr arasında əlaqələrin daha da genişləndirilməsi işinə layiqli töhfələr verir.*

**ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏMİD KƏRZAİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı Azərbaycan xalqı adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan–Əfqanıstan əlaqələri, dostluq və əməkdaşlıq münasibətlərimiz bundan sonra da xalqlarımızın mənafelərinə uyğun olaraq inkişaf edəcək və genişlənəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Əfqanıstan xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 avqust 2013-cü il*

## QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN AZƏRBAYCANA SƏFƏRİ

*Qəbələ*

*16 avqust 2013-cü il*

*Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III Zirvə toplantısında iştirak etmək üçün avqustun 16-da Azərbaycana səfərə gəlmişdir.*

*Qəbələ Beynəlxalq Aeroportunda Qazaxıstan prezidenti Nursultan Nazarbayevi Azərbaycanın İqtisadi İnkişaf naziri Şahin Mustafayev və digər rəsmi şəxslər qarşıladılar.*

*Qazaxıstan dövlətinin başçısı onun şərəfinə düzülmüş Fəxri qarovul dəstəsinin önündən keçdi.*

## QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ NURSULTAN NAZARBAYEV İLƏ GÖRÜŞ

*Qəbələ*

*16 avqust 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 16-da Qəbələdəki Prezident iqamətgahında ölkəmizdə səfərdə olan Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev ilə görüşmüşdür.*

*Görüşdə Qazaxıstan prezidenti Nursultan Nazarbayev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III Zirvə toplantısına dəvətə görə Azərbaycan prezidenti İlham Əliyevə təşəkkürünü bildirdi. Nursultan Nazarbayev Azərbaycanın əldə etdiyi nailiyyətləri qeyd edərək, ölkəmizin beynəlxalq aləmdə nüfuz qazandığını və qardaş Qazaxıstanın Azərbaycanın uğurlarına sevindiyini vurğuladı. Nursultan Nazarbayev ölkəmizə budəfəki gəlişi zamanı Azərbaycanda böyük inkişafın şahidi olduğunu bildirdi.*

*Prezident İlham Əliyev Qazaxıstanın müxtəlif sahələrdə uğurlar qazandığını qeyd etdi. Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin bir çox sahələrdə inkişaf etdiyini vurğulayaraq, enerji-nəqliyyat potensialının hər iki ölkənin daha da inkişaf etməsində rolundan danışdı.*

*Görüşdə Qəbələdə keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III Zirvə toplantısının ölkələrimiz və xalqlarımız arasında əlaqələrin daha da möhkəmləndirilməsi baxımından əhəmiyyəti vurğulandı, Azərbaycan ilə Qazaxıstanın iqtisadi, o cümlədən nəqliyyat, kənd təsərrüfatı sahələrində əməkdaşlığının, Azərbaycanın Qazaxıstana məhsul ixracının genişləndirilməsi imkanları ətrafında fikir mübadiləsi aparıldı.*

# TÜRKDİLLİ DÖVLƏTLƏRİN ƏMƏKDAŞLIQ ŞURASININ III ZİRVƏ TOPLANTISINDA İŞTİRAK

*Qəbələ*

*16 avqust 2013-cü il*

*Avqustun 16-da Qəbələdə Heydər Əliyev Konqres Mərkəzində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) III Zirvə toplantısı keçirilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) III Zirvə toplantısında iştirak etmək üçün Qəbələdə səfərdə olan Qazaxıstan prezidenti Nursultan Nazarbayevi, Türkiyə prezidenti Abdullah Gülü, Qırğız prezidenti Almazbek Atambayevi və Türkmənistan Nazirlər Kabineti Sədrinin müavini Sapardurdu Toyliyevi qarşıladı.*

*Dövlət başçıları rəsmi foto çəkdirdilər.*

*Ötən il sammitin keçirildiyi Qırğızıstanın prezidenti Almazbek Atambayev Qəbələ zirvə görüşünün yüksək səviyyədə təşkilinə görə prezident İlham Əliyevə minnətdarlıq etdi. O, qarşıdakı fəaliyyət dövründə də təşkilatın bir çox uğurlara nail olacağına əminliyini ifadə etdi və növbəti il üçün Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrliyin Azərbaycana keçdiyini dedi.*

*Sonra dövlətimizin başçısı İlham Əliyev çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Sağ olun, hörmətli Almazbek Şarşenoviç!

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrliyin növbəti il üçün Azərbaycan Respublikasına ötürülməsi ilə əlaqədar Sizə təşəkkürümü bildirirəm.

Hörmətli dövlət başçıları, hörmətli xanımlar və cənablar, əziz dostlar, mən sizin hamınızı Azərbaycanda səmimiyyətlə salamlayıram!

İlk növbədə, Qırğız Respublikasına və şəxsən prezident Atambayevə keçən il ərzində Əməkdaşlıq Şurasına uğurlu sədrlik etdiyi üçün minnətdarlığımı bildirmək istəyirəm. Hesab edirəm ki, keçən il ərzində bizim əməkdaşlığımız daha da dərinləşdi. Qırğızıstanın uğurlu rəhbərliyi Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının fəaliyyətinə güclü təkan vermişdir. Əminəm ki, bundan sonrakı illərdə də əməkdaşlığımız dərinləşəcək, genişlənəcək və yeni pilləyə qalxacaqdır. Mən bütün qonaqları Azərbaycanın qədim şəhəri olan Qəbələdə səmimiyyətlə salamlayıram.

Xatırlayıram ki, ötən dəfə zirvə görüşü digər qədim Azərbaycan şəhərində – Naxçıvanda keçirilmişdi. Bu zirvə görüşlərinin müxtəlif şəhərlərdə keçirilməsi bir növ tanışlıq xarakteri daşıyır, eyni zamanda, xalqlarımız, ölkələrimiz arasındakı birliyi daha da möhkəmləndirir. Dünyada türk aləmi güclənir, türk aləmi böyük coğrafiyanı əhatə edir. Əlbəttə ki, bizim xalqlarımız bir-birini daha da yaxından tanımalı və əməkdaşlıq daha da sürətlə aparılmalıdır.

Böyük qürur hissi ilə deyə bilərəm ki, ötən dəfə zirvə görüşü Azərbaycanda – Naxçıvanda keçiriləndə türkdilli dövlətlərin əməkdaşlığı üçün yeni format yaradılmışdı. Bu formatın artıq Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası çərçivəsində təşkili əməkdaşlığımızın yeni mərhələsidir. Artıq üçüncü zirvə görüşü keçirilir. Əminəm ki, bu zirvə görüşləri bundan sonra da mütəmadi qaydada keçiriləcəkdir.

Bizim xalqlarımızı ortaq tarix, mədəniyyət, müştərək dəyərlər birləşdirir. Əsrlər boyu bizim xalqlarımız bir-biri ilə sıx əlaqədə olmuşdur, əməkdaşlıq etmişik, bir yerdə yaşamışıq, bir-birimizə dayaq, arxa olmuşuq. Bu gün isə müstəqil dövlətlər kimi, biz bütün məsələlərdə bir yerdəyik, bir yerdə olmalıyıq. Hesab edirəm ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının başlıca vəzifəsi xalqlar və ölkələr arasındakı birliyi daha da möhkəmləndirməkdir.

Biz ikitərəfli formatda çox uğurlu fəaliyyət göstəririk. İqtisadi sahədə gözəl əməkdaşlıq aparılır, beynəlxalq aləmdə, beynəlxalq təşkilatlarda ölkələrimiz daim bir-birinə dəstək, arxa olur və bu da təbiidir. Çünki qardaş xalqlar bir-birinin yanında olmalıdırlar. BMT, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təşkilatlarda biz bir çox hallarda vahid mövqedən çıxış edirik. Əlbəttə ki, bu bizim gücümüzü daha da artırır, bizi gücləndirir.

Bu gün biz öz işimizi bir neçə əsas istiqamət üzrə aparacağıq. Bir neçə vacib məsələ müzakirə ediləcəkdir. Əlbəttə ki, ölkələrimizin uğurlu inkişafı üçün əsas məsələ regional təhlükəsizlik məsələləridir. Ölkələrimiz regional təhlükəsizlik məsələlərinə öz töhfəsini verir. Bu çox vacib məsələdir. Çünki bizim xalqlarımız sülh, əmin-amanlıq, sabitlik şəraitində yaşayırlar. Biz elə etməliyik ki, yaşadığımız bölgədə sülh, əmin-amanlıq daim təmin edilsin. Əfsuslar olsun ki, Azərbaycan uzun illərdir erməni işğalından əziyyət çəkir. Azərbaycan torpaqlarının 20 faizi işğal altındadır. Beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyümüz pozulubdur. Xalqımıza qarşı etnik təmizləmə siyasəti aparılıb və bütün beynəlxalq hüquq normaları kobudcasına pozulubdur.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə ədalətli, beynəlxalq hüquq normaları əsasında həll edilməsi həm bu ədalətsizliyə son qoyacaq, həm də regional təhlükəsizliyə töhfə olacaqdır. Bu münaqişə beynəlxalq hüquq normaları əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bu gün qəbul olunacaq Birgə

Bəyannamədə məhz bu prinsiplər öz əksini tapıbdır və buna görə öz həmkarlarıma minnətdarlığımı bildirmək istəyirəm.

Dünən biz mədəniyyətimizin bir hissəsini əks etdirən gözəl konsertdə də bərabər idik. Bu əslində türk mədəniyyətinin birliyi, dostluğu konserti idi. Bizim mədəniyyətimiz bir-birinə çox bağlıdır. Bizim köklərimiz də, bayramlarımız da eynidir, dillərimiz də bir-birinə oxşayır. Yəni humanitar sahə əməkdaşlığımız üçün əsasdır. Əgər bu olmasaydı, yəqin ki, əməkdaşlıq bu dərəcədə inkişaf etməzdi. Ona görə də humanitar sahədə aparılan işlərə çox böyük diqqət göstərilməlidir. Mən TÜRKSOY-un fəaliyyətini xüsusi vurğulamaq istəyirəm. TÜRKSOY nəinki türkdilli dövlətlərdə, bütün türk diyarlarında fəal iş aparır və beləliklə, türk dünyasının birləşməsinə xidmət göstərir. Mən çox şadam ki, Azərbaycan tərəfindən irəli sürülmüş təşəbbüs də artıq reallaşır. Türk Mədəniyyətinə Dəstək və Türk İrsinin Qorunması Fondunun tezliklə yaradılması çox önəmli hadisə olacaqdır.

Ölkələrimizin iqtisadi sahədə potensialı ildən-ilə artır və bizim ölkələr bir-biri ilə sıx əməkdaşlıq edir. Müxtəlif iqtisadi layihələr icra edilir. Deyə bilərəm ki, iqtisadi və infrastruktur layihələrinin uğurlu inkişafı üçün Azərbaycan öz tərəfindən səylərini göstərməkdədir və bölgədə nəhəng infrastruktur layihələrinin yaradılması məhz Azərbaycandan başlanmışdır. Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisi artıq beynəlxalq enerji və ondan sonra nəqliyyat dəhlizinin açılmasına xidmət göstərmişdir. Tarixdə ilk dəfə olaraq Xəzər dənizi Aralıq dənizi ilə birləşdi və bu tarixi hadisə özlüyündə böyük bir nailiyyət idi. Eyni zamanda, digər mühüm layihələrin icrasına gətirib çıxarmışdır və bu gün nəqliyyat və energetika sektorlarındakı işləri bir-birindən ayırmaq mümkün deyildir. Qədim İpək yolunun bərpası artıq reallıqdır. Biz bu İpək yolunu zənginləşdiririk, yeni infrastruktur layihələri ilə təkmilləşdiririk.

Neft-qaz sektorundakı əməkdaşlıq ölkələrimizi birləşdirir, bizim ölkələrdə həm təbii sərvətlər var, həm inkişaf etmiş infrastruktur və həm də gözəl ixrac yolları mövcuddur. Bu

səylərin birləşməsi, əlbəttə ki, türk dünyasının güclənməsinə gətirib çıxaracaqdır. Azərbaycan artıq bizim qardaşlarımız üçün, Xəzərin şərq sahilində yerləşən ölkələr üçün tranzit ölkə kimi, öz rolunu oynayır. Bu da mühüm məsələdir. Yəni bu layihələr xalqlarımızı, iqtisadiyyatlarımızı birləşdirir.

Neft-qaz sektorundakı əməkdaşlıq çoxşaxəli əməkdaşlıqdır. Burada bütün ölkələr uğurla fəaliyyət göstərir, uğurla əməkdaşlıq edir. Əlbəttə ki, bu gün gündəlikdə olan məsələlərdən biri də nəqliyyat infrastrukturunun təkmilləşməsidir. Bu istiqamətdə müştərək səylərlə böyük işlər görülmüşdür, həm ikitərəfli formatda, həm üçtərəfli formatda. Müxtəlif nəqliyyat layihələrinin icrası, əlbəttə ki, böyük vəsait tələb edir. Ancaq bizim ölkələrimizdə iqtisadi inkişaf çox sürətlidir və ölkələrimizin maliyyə durumu da yaxşıdır. Belə olan halda biz gələcəkdə də böyük nəqliyyat layihələrinə mütləq vəsait ayırmalıyıq. Onların içində Avropanı Asiya ilə birləşdirən Bakı–Tbilisi–Qars dəmir yolunu xüsusilə qeyd etmək istəyirəm. Bu dəmir yolu vasitəsilə qitələr birləşəcək, ölkələrimiz tranzit ölkələrə çevriləcəkdir. Bu dəmir yolu bundan sonra yüzilliklər ərzində xalqlarımıza xidmət edəcək. Bu, böyük geosiyasi, geoiqtisadi və əməkdaşlıq layihəsidir. Əminəm ki, biz yaxın zamanlarda bu layihənin istifadəyə verilməsini qeyd edəcəyik və beləliklə, tarixi İpək yolunu bərpa etmiş olacağıq.

Əməkdaşlıq Şurasına üzv ölkələrdə böyük nəqliyyat layihələri icra edilir və bu layihələr hər bir ölkə üçün çox böyük əhəmiyyət kəsb edir. Bu layihələr birlikdə bölgənin yeni nəqliyyat xəritəsini təşkil edir.

Bu gün bizim ölkələrimiz uğurla və inamla inkişaf edir. Bu gün dünyanın müxtəlif yerlərində, o cümlədən əfsuslar olsun ki, islam dünyasında proseslər müxtəlif istiqamətdə gedir, qarşıdurmalar, vətəndaş müharibələri, digər xoşagəlməz hallar baş verir. Bizim diyarlarımızda, türk diyarında isə sabitlik, inkişaf hökm sürür. Bu, böyük nailiyyətdir, böyük sərvətdir. Xüsusilə nəzərə alsaq ki, dünyada hələ də maliyyə və iqtisadi böhran davam edir, bizim ölkələrimizin uğurlu inkişafı,

ölkələrdə mövcud olan sabitlik və tərəqqi hesab edirəm ki, xalqlarımızın böyük nailiyyətidir, dövlətlərimizin böyük sərvətidir. Biz bu sərvəti qorumalıyıq, birgə səylərlə qorumalıyıq, inkişaf etdirməliyik. XXI əsr türk dünyasının əsri olmalıdır. Bizim ölkələrimizin potensialı, birgə fəaliyyəti, Əməkdaşlıq Şurası kimi çox önəmli əməkdaşlıq formatı vardır. Biz bütün müsbət meyilləri gücləndirməliyik. Hesab edirəm ki, bugünkü zirvə görüşü bu amallara xidmət edir, zirvə görüşünün çox gözəl nəticələri olacaqdır.

İndi isə təklif edirəm ki, biz gündəliyi qəbul edək. Gündəlik qarşınızdadır. Əgər başqa təklif yoxdursa, gündəlik qəbul olunur.

İndi isə hörmətli dövlət başçılarını və nümayəndə heyətlərinin rəhbərlərini çıxış etməyə dəvət edirəm. Söz verilir Qazaxıstan Respublikasının Prezidenti cənab Nursultan Nazarbayevə.

## Qazaxıstan prezidenti Nursultan Nazarbayevin çıxışı

Hörmətli xanımlar və cənablar!

Mən Şuranın fəaliyyətinin bu günü və gələcəyi barədə fikirlərimi sizinlə bölüşmək istəyirəm. Əvvələn, Türk Şurasının nüfuzunu yüksəltmək, onun bir təşkilat kimi, institusional əsasının formalaşması üçün hər cür səy göstərilməlidir. Bunun üçün bəzi mühüm sənədlərin ratifikasiyasının başa çatdırılmasını sürətləndirmək lazımdır. Türk Şurasının əsas işçi orqanı olan Katibliyin fəaliyyəti bizim üçün çox vacibdir. Bu iş təşkilatın ilk baş katibi Xəlil Akıncının əməyi sayəsində reallaşır. Biz türkdilli dövlətlər arasında əməkdaşlıq yaradılmasında onun fəaliyyətini yüksək qiymətləndiririk.

İkincisi, qardaş xalqlar və qonşu ölkələr arasında qarşılıqlı faydalı iqtisadi əməkdaşlığı möhkəmlətmək lazımdır. Bu gün 6 müstəqil türkdilli dövlətin ümumi daxili məhsulunun həcmi 1 trilyon 150 milyard dollara çatır. Bununla belə, ölkələrimiz arasında əmtəə dövriyyəsinin həcmi bizim potensiala uyğun

deyildir. Məsələn, 2012-ci il üçün olan məlumatlara görə, Qazaxıstanın türkdilli dövlətlərlə ticarətinin həcmi cəmi 8 milyard dollar olmuşdur. Bu bizim əmtəə dövriyyəsinin cəmi 6 faizi deməkdir.

Keçən ilin axırlarında Qazaxıstan 2050-ci ilə qədər olan dövr üçün inkişaf strategiyasını qəbul etmişdir. Biz dünyanın ən çox inkişaf etmiş 30 ölkəsi sırasına daxil olmaq vəzifəsini qarşıya qoymuşuq. Bu çox böyük, ambisiyalı hədəfdir. Bizdə bunun üçün hər cür imkan vardır. Ölkədə sürətli sənayeləşdirmə proqramı üzrə sistemli iş aparılır. Təkcə son il yarım ərzində ümumi məbləği 14 milyard dollara yaxın olan 560 layihə həyata keçirilmişdir. Bunun sayəsində 60 mindən çox yeni iş yeri yaradılmışdır. İlk 5 il üçün nəzərdə tutulan işləri tamamlamışıq və qarşıdakı 5 ildə bu işlər davam etdiriləcəkdir.

Biz yeni enerji mənbələrindən istifadə edilməsi, «yaşıl iqtisadiyyat»ın inkişafı məsələlərinə əhəmiyyət veririk. Bildiyiniz kimi, Astanada «Ekspo–2017» beynəlxalq sərgisinin keçirilməsi planlaşdırılır. Bu, xüsusi əhəmiyyətə malik tədbirdir. Əminəm ki, bu genişmiqyaslı tədbirdə bütün türkdilli dövlətlər fəal iştirak edəcəklər. Bunun sayəsində bizim hamımız üçün əhəmiyyətli olan bir istiqamətin – turizmin inkişafına imkan yaranır. Bu sahədə təcrübə mübadiləsi etmək, mütəxəssisləri birlikdə hazırlamaq, ümumi marşrutun istiqamətlərini müəyyən etmək lazımdır. Bu məqsədlə Katiblik çərçivəsində turizmin inkişafına dair işçi qrup yaratmağı təklif edirəm.

Üçüncüsü, Türk Şurasının üzvü olan dövlətlər arasında kommunikasiyaların inkişafına diqqət yetirmək lazımdır. Nəqliyyat və kommunikasiyalar bizim iqtisadi qüdrətimizin inkişafının əsası olmalıdır. Təsadüfi deyildir ki, bizim bu görüşümüz həmin mövzuya həsr edilmişdir. 2020-ci ilə qədər Qazaxıstan ərazisindən tranzit daşımaların həcmini 2 dəfə, 2050-ci ilə qədər 10 dəfə artırmağı planlaşdırırıq. Gələcəkdə ölkə ərazisi ilə yükdaşımaların həcmini ildə 50 milyon tona çatdırmaq planlaşdırılır. Bunun üçün zəruri işlər aparılır.

2011-ci ildə Rusiya, Çin və Almaniya ilə birlikdə Qazaxıstan ərazisindən keçməklə Çindən Almaniyaya gedən «Çuntsin–Duysburq» konteyner qatarı işə salınmışdır. Bu məsafə dəniz yolu ilə müqayisədə 2 dəfə qısadır. Gələcəkdə bizim regiondan keçməklə Avropanı Sakit okeanla birləşdirən yeni hava yollarının açılması, dəniz, avtomobil və dəmir yolları tikintisi, boru kəmərləri çəkilməsi planlaşdırılır.

Çin ilə əmtəə dövriyyəsinin həcmi 30 milyard dollara çatır. Çin sərhədində bizim «Şərq qapıları» – «Xorqos» sərhədyanı əməkdaşlıq mərkəzi fəaliyyət göstərir. Aktau dəniz limanının genişləndirilməsi üzrə layihələr bu sərhəd vasitəsilə reallaşır. Bu layihələr bizim Xəzər regionuna, daha sonra Rusiya və Avropaya çıxmağımıza imkan verən «Qərb qapıları» funksiyasını yerinə yetirir. Beləliklə, ölkələrimiz Qazaxıstan ərazisindən keçməklə Avropaya gedən yollardan istifadə edə biləcəklər. Gələcəkdə Çinin Sarı dəniz sahilindəki Lyanyunqan limanında terminal infrastrukturu yaradılacaqdır. Türkiyə, Azərbaycan və Qazaxıstanın dəniz limanları arasında əməkdaşlığın inkişafı sayəsində biz Xəzər dənizinin nəqliyyat potensialını artırmaq imkanı əldə etmişik. Bununla əlaqədar biz nəqliyyat və kommunikasiya nazirlərinin birinci görüşünün keçirilməsini dəstəkləyirik. Bildiyimiz kimi, həmin görüş yaxın vaxtlarda olmuşdur və yaxşı qərar gözləyirik.

2015-ci ildə biz Qazaxıstandan keçən 2700 kilometr uzunluğunda «Qərbi Avropa–Qərbi Çin» qitələrarası avtomobil yolu dəhlizinin açılışını planlaşdırırıq. Cari ilin may ayında biz Qazaxıstan–Türkmənistan–İran dəmir yolunun Qazaxıstan–Türkmənistan hissəsini rəsmən tamamlamışıq. Gələn il İran öz ərazisində işləri tamamlayanda biz Bəndər–Abbas limanına çata biləcəyik. Bakı–Tbilisi–Qars dəmir yolunun tezliklə istifadəyə verilməsini gözləyirik. Bundan əvvəl bizim nəqliyyat nazirləri və dövlət başçıları bütün zəruri məsələləri həll etməlidirlər. Müxtəlif maneələr var, onları aradan qaldırmaq lazımdır. Bu marşrut bizim üçün çox vacibdir. TRASEKA beynəlxalq nəqliyyat dəhlizi çərçivəsində konteyner tipli multimodal

nəqliyyat qatarı layihəsi də böyük əhəmiyyət kəsb edir. Bu məqsədlə biz Aktauda yeni liman üçün şərait yaratmalıyıq. Gələcəkdə qarşılıqlı əmtəə dövriyyəsini artırmaq üçün gömrük sahəsində əlaqələri fəallaşdırmaq lazımdır. Bunun üçün beynəlxalq standartlı mütərəqqi texnologiyalardan səmərəli istifadə etmək vacibdir.

Dördüncüsü, təhsil, elm və mədəniyyət sahələrində qardaş ölkələr arasında əməkdaşlığı bundan sonra da inkişaf etdirmək lazımdır. Türk dünyasına xas olan tolerantlıq, humanizm, mənəviyyat kimi keyfiyyətləri geniş təbliğ etmək vacibdir. TÜRKSOY qurumunun, Türk Akademiyasının, Türk Mədəniyyəti və İrsi Fondunun işində fəal iştirak etməliyik. Türk Akademiyası bilik və təcrübə mübadiləsinin təmin edilməsində, türkoloqların birgə hazırlanması, türk irsinin öyrənilməsi üçün böyük imkanlara malikdir. Türk Şurasının Almatıda keçirilmiş I Zirvə görüşünün qərarına uyğun olaraq «Türk dünyası» adlı illik almanax buraxılır. Yəqin ki, siz onu almısınız. Akademiya tərəfindən hazırlanmış «Türk tərbiyə antologiyası» da böyük əhəmiyyətə malikdir. Bu il Türküstan şəhərində «Türk dünyası bu gün: real vəziyyət, inkişaf perspektivləri» adlı I Beynəlxalq simpozium keçiriləcəkdir. Ümid edirik ki, bu mühüm tədbirdə bütün türkdilli dövlətlərin alimləri fəal iştirak edəcəklər. TÜRKSOY təşkilatı türk xalqlarının mədəniyyətinin və incəsənətinin təbliğində mühüm rol oynayır. Bu il həmin təşkilatın yaradılmasının 20 illiyini qeyd edəcəyik.

Buna görə də, əziz dostlar, əziz qardaşlar, biz konkret iş görməliyik, iqtisadi əməkdaşlığı genişləndirməliyik, xalqlarımıza, bütün dünyaya göstərməliyik ki, biz faydalı iş aparırıq.

Əziz həmkarlar, hörmətli qardaşlar, bugünkü görüşdə biz bu təşkilatda sədrliyi qırğız dostlarımızdan azərbaycanlı qardaşlarımıza verdik. Bununla əlaqədar, Qırğız prezidenti Almazbek Atambayevə təşəkkürümüzü bildirir, Azərbaycan prezidenti İlham Əliyevə Şuranın fəaliyyətinin inkişafında uğurlar arzulayırıq. Uğurlar arzulayır və bu işi dəstəkləyirik. Qoy ölkələrimizin birliyi möhkəm, müstəqilliyimiz əbədi olsun!

Hamınıza səadət və əmin-amanlıq arzulayıram. Qoy türkdilli dövlətlər əlbir olsunlar!

## Qırğız prezidenti Almazbek Atambayevin çıxışı

Hörmətli həmkarlar!

Bizim tariximiz ortaqdır və inşallah, gələcəyimiz də ortaq olacaqdır. Nursultan Abişeviç Nazarbayev keçən il Bişkekdə dəstəklədiyi bir ideya – dəmir yolu ideyası barədə bu gün də danışdı. Əgər biz həmin ideyanı həyata keçirsək yaxşı olar. Çünki bu dəmir yolu Mərkəzi Asiyanı, Azərbaycanı və Türkiyəni birləşdirər. Əks istiqamətdə götürsək, Türkiyədən başlanan bu yol Azərbaycan, Qazaxıstan, Qırğızıstan ərazisindən keçərək, Çinin Kaşqar əyalətinə qədər davam edər. Orada da çoxlu qazax və qırğız yaşayır. Biz çox böyük iş görmüş olarıq. Onda xalqlarımız arasında əməkdaşlıq daha da güclənərdi. Bu çox yaxşı ideyadır. Əgər biz bu cür ideyaları, belə layihələri həyata keçirsək, bu bizim birliyimizin güclənməsinə şərait yaradacaqdır. Əgər biz bu yolları çəksək, xalqlarımız bir-birinə daha yaxın olacaq və gələcəyimiz ortaq olacaqdır.

Mənim fikrimcə, çoxlu müxtəlif layihələr başlayıb onları axıra çatdırmamaqdansa, kiçik, lakin güclü, çox mühüm layihələrə başlamaq yaxşıdır. Əgər biz hamımız səy göstərsək və bütün bu layihələri sona çatdırsaq, bu bizim gözəl ümumi gələcəyimizin rəhni olardı.

Nursultan Abişeviç ağsaqqal kimi, burada çox şeydən danışdı, mən onları təkrar etmək istəmirəm. Mən onun sözlərinə tamamilə şərikəm. Ümid edirik ki, bir gün gələcək, biz özümüz və ya uşaqlarımız bir-birimizlə tərcüməçilərsiz söhbət edəcəyik.

Mənim fikrimcə, bizim indi yaratdığımız türk dövlətləri birliyi gələcəkdə çox yaxşı nəticə verəcəkdir. Bu gün biz, türk xalqları bütün dünya üçün iqtisadi inkişaf nümunəsinə çevrilməkdə olan Türkiyə, Qazaxıstan, Azərbaycan ilə fəxr edirik. Sizin dövlətləriniz çox böyük uğurlara nail olmuşdur. Biz

bununla fəxr edirik və sevinirik. Arzum budur ki, sizin başçılıq etdiyiniz dövlətlər çiçəklənsin, inkişaf etsin, gələcəkdə daha yüksək nəticələrə nail olsunlar.

Ümid edirik ki, indi mənim dediyim dəmir yolu layihəsi kimi yaxşı layihələr gələcəkdə sona çatdırılacaqdır.

Allah bizə yar olsun! Hamınız sağ olun.

## Türkiyə prezidenti Abdullah Gülün çıxışı

Əziz qardaşlarım!

Hörmətli prezidentlər!

Dəyərli nazirlər!

Türk Şurasının qurucu anlaşması olan Naxçıvan Anlaşmasının imzalandığı Odlar Yurdu Azərbaycanın tarixi şəhərlərindən biri olan Qəbələdə olmaqdan çox böyük xoşbəxtlik və məmnunluq duyuram.

Tarixi Naxçıvan Zirvəsindən 4 il sonra bu dəfə Türk Şurasının III Zirvə toplantısına ev sahibliyi edən azərbaycanlı qardaşlarımıza və əziz qardaşım prezident Əliyevə təşəkkürlərimi, təbriklərimi çatdırıram.

Əziz qardaşım prezident Əliyevin müdrik rəhbərliyi ilə hər keçən gün önəmli addımlar atan Azərbaycanın bütün bölgələrində təmin olunan inkişafı görməkdən də qürur duyuruq. Bizləri bu möhtəşəm təbii gözəllikləri mükəmməl memarlıq fəaliyyətləri ilə zirvəyə qaldırdığınız Qəbələ şəhərində qonaq etdiyiniz üçün də təşəkkür edirəm. Həqiqətən, bu təbiət gözəlliklərinin içində eyni zamanda, gözəl vaxt keçiririk.

Türk Şurasının zirvə toplantıları qardaş xalqlarımızın ortaq arzusu olan birlik və bərabərliyimizin ən güclü göstəricisidir. Eyni çətir altında qəbul etdiyimiz qərarlar və verəcəyimiz mesajlar qardaş xalqlarımızın ortaq arzu və gözləntilərinə xidmət etməkdədir. Bu mənada 1992-ci ildə başlatdığımız zirvələr prosesinin təşkilati bir quruma qovuşmasında çox önəmli xidmətləri və töhfəsi olan dəyərli qardaşım cənab Nazarbayevə də çox təşəkkür edirəm. Onun həqiqətən, səmimi

səyləri təşkilatlanmanın təmin edilməsinə çox böyük töhfə verdi.

Keçən il keçirilən zirvə toplantısına ev sahibliyi edən dəyərli qardaşım Qırğız prezidenti cənab Atambayevə Türk Şurası çərçivəsində oynamaqda olduğu qurucu rol səbəbi ilə də çox təşəkkür edirəm. Digər tərəfdən, özbək və türkmən qardaşlarımızın ən qısa zamanda layiq olduqları yeri almalarına ümid edirəm. Bu gün Türkmənistan Baş nazirinin müavini olan qardaşımızın da aramızda olmasından xüsusi bir məmnunluq duyuram.

2009-cu ildə Naxçıvan Anlaşması ilə qurduğumuz Türk Şurası qısa zamanda təşkilati kimliyini gücləndirmişdir. Siz dəyərli qardaşlarımın yüksək siyasi iradəsi əsasında planlı və qətiyyətli fəaliyyət göstərən baş katib, səfir Akıncı və Katiblik əməkdaşlarını da təqdir edirəm.

Şübhəsiz ki, Türk Şurasının digər vahidlərinin – bir az əvvəl dəyərli qardaşım cənab Nazarbayevin də söylədiyi kimi, TürkPA, Türk Akademiyası, TÜRKSOY – bütün bunların da daim güclənərək inkişaf etməsi hamımızın ən böyük arzusudur.

Əziz qardaşlarım, «Türk dünyası» tarixi və dərin mənaya malik bir termindir. Ortaq əcdadlarımızın bizlərə miras qoyduqları dəyərlər və mədəniyyətin formalaşdırdığı şüur sadəcə, keçmişimizi, kimliyimizi, mənliyimizi müəyyənləşdirməmiş, gələcəyə istiqamətlənmiş təxəyyüllərimizi də yaratmaqdadır. Bu gün bizi eyni millətin mənsubu edən dəyərlər sadəcə, ortaq dilimiz, ortaq dinimiz, ortaq tariximiz, ortaq mədəniyyətimiz və ya ata yurdumuz deyil, parlaq bir gələcəyi hamımızın birlikdə inşa etmək arzu və iradəmizdir. Xalqlarımız arasındakı könül bərabərliyi heç bir zaman etnik, separatçı, davakar bir təmələ söykənməməkdədir. Əsasən türk dünyası böyük mədəniyyətin mühüm bir hissəsini təşkil etməkdədir. Türk dövlətləri olaraq öz aramızda sərgiləyəcəyimiz əməkdaşlıq və həmrəylik şübhəsiz Afro–Avrasiya bölgəsinin sülh, sabitlik və rifahına da töhfə verəcəkdir.

Ölkələrimiz arasında «altı dövlət–tək millət» şüarı ilə həyata keçirdiyimiz əməkdaşlıq bərabər, qarşılıqlı hörmət əsasında irəliləməyə davam edir. Bu qardaşlıq və əməldə birlik ruhu təməlində Prezident olaraq vəzifədə olduğum 6 ildə qardaş türk dövlətlərinə 19 dəfə səfər etdim. Eyni zamanda, Prezident qardaşlarım da ölkələrimizi ziyarət edərək, hamımız bir-birimizi şərəfləndirdik.

Prezidentlər səviyyəsində nümayiş etdirdiyimiz bu sıx əlaqələr, əlbəttə, digər əməkdaşlıq səfərlərinə də təkan vermişdir. Bu sahədə bir çox layihələr həyata keçirilmişdir. İstər regional sahədə, istər beynəlxalq platformalarda aramızdakı həmrəylik hər zaman nümunə olmuşdur. Bir-birimizi daim dəstəkləyərək hər yerdə güclü bir həmrəylik nümunəsi göstərməklə bir-birimizin uğurları digərlərimiz üçün də qürur mənbəyi olmuşdur.

Bu günümüzdə əməkdaşlığa və həmrəyliyə ehtiyac hər zaman olduğundan çoxdur. Üzləşdiyimiz problemlər və çətinliklərlə birgə mübarizə aparmaq və imkanlardan bərabər faydalanmaq ancaq güclərimizi birləşdirdikdə mümkün ola bilər. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası bu anlayışı bölüşən ölkələrimizin daha əhatəli əməkdaşlıq, həmrəylik, müzakirə mexanizminin bir nəticəsi olaraq yaranmışdır. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası çərçivəsində türk dünyasının böyük potensialını həyata keçirəcək mühüm layihələri reallaşdıracağımıza şübhə etmirəm.

Almatı Zirvəsində iqtisadi əməkdaşlıq, Bişkek Zirvəsində isə təhsil, elm və mədəniyyət əməkdaşlığı sahələrində müzakirələr aparmışdıq. Hər iki zirvədən sonra da bu sahələrdə önəmli addımlar atılmış, verdiyimiz təlimatlar istiqamətində dəyərli nazirlərimiz və bu işdə məsul olan şəxslər səmərəli işlər görmüşlər.

Dünyamızın qlobal gerçəkliklərində ölkələr və millətlər arasında əhatəli əməkdaşlıq və inteqrasiya üçün səmərəli nəqliyyat və rabitə əsas məsələlərdəndir. Türk dünyasının iqtisadi və mədəni sahədə inteqrasiyası ölkələrimiz arasında

nəqliyyat infrastrukturunu bir-birinə bağlayacaq layihələrin həyata keçirilməsi ilə sıx əlaqədardır. Bu səbəbdən Qəbələ Zirvəsi nəqliyyat sahəsində əməkdaşlıq olaraq müəyyən edilməsi son dərəcə uğurlu bir seçimdir. Ölkələrimiz Avropanı Qafqaz və Orta Asiyadan keçməklə Çin vasitəsilə Şərq və Şərqi Asiyaya bağlayacaq strateji bir xətt üstündə yerləşir. Türkiyə Şərq və Qərb arasındakı mövcud xətlərə alternativ və təhlükəsiz dəmir yolları marşrutları məsələsi üzərində çalışmaqdadır. Modern İpək yolu və ya Orta dəhliz adlandırılan bu layihənin ən mühüm hissəsi Azərbaycan ilə birgə həyata keçirdiyimiz Bakı–Tbilisi–Qars dəmir yolu layihəsidir. Bölgədəki vəziyyəti dəyişdirəcək bu böyük layihələr çərçivəsində işlər sürətlə davam edir. Bakı–Tbilisi–Qars dəmir yolu xətti Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv olan ölkələr arasında sürətli nəqliyyat imkanları yaradaraq iqtisadi və ticarət əlaqələrimizin inkişafına böyük töhfə verəcəkdir. Bakı–Tbilisi–Qars dəmir yolu layihəsinin ən qısa zamanda tamamlanması üçün böyük səylər göstərilir. Bu sahədə nəqliyyat nazirlərimiz tez-tez görüşürlər. Avqustun 15-də nəqliyyat nazirlərimiz son vəziyyət barədə məlumat verdilər. Bu layihənin davamı olan Bakı limanı ilə Qazaxıstanın Aktau və Türkmənistanın Türkmənbaşı limanları arasındakı mövcud gəmi nəqliyyatının inkişaf etdirilməsi layihəsinin sürətlə təkmilləşdirilməsi əhəmiyyətlidir.

Nəqliyyat nazirlərimiz iyulun əvvəllərində Bakıda təşkil edilən toplantı çərçivəsində imzalanan Bakı, Aktau və Samsun dəniz limanları arasında qardaş liman əlaqəsinin yaranmasına dair imzalanmış Anlaşma Memorandumu bu məsələdə önəmli bir addım olmuşdur. Hədəfimiz Türkmənbaşı limanını da bu çərçivəyə daxil etməkdir. Orta dəhlizin əsasını təşkil edən Bakı–Tbilisi–Qars dəmir yolunun başa çatması ilə Orta Asiyadan keçməklə Çindən Avropaya birbaşa əlaqə yaradılacaqdır. Bakı–Tbilisi–Qars layihəsi tezliklə başa çatacaqdır. Təxminən 4,5 milyard ABŞ dollarına başa gələcək Mərmərə layihəsinin isə cari ilin oktyabrında açılışı olacaqdır.

Qərbi Avropadan çıxan bir qatar birbaşa Xəzər sahillərinə, oradan da Aktau limanından keçməklə Şanxaya və Seula çatacaqdır. İngiltərədən Çinə birbaşa dəmir yolu əlaqəsi yaradacaq bu xəttin tikilməsi xalqlarımızın rifah səviyyəsini artıracaqdır. Bu həqiqətən, strateji əhəmiyyətə malik böyük bir layihə olacaqdır.

Əziz qardaşım hörmətli Nursultan Nazarbayev bu məsələlərə bir az əvvəl toxundu. Qazaxıstanın böyük maraq göstərdiyi bu layihəyə Qırğızıstanın da daxil edilməsi ilə bağlı məsələni müzakirə etdik.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələr olaraq əməkdaşlığımızı dəmir yolu xətləri ilə gücləndirmək imkanına malik olmağımıza şübhəm yoxdur. Hamının bu layihəyə marağı böyükdür. Zati-aliləri bu məsələdə böyük maraq nümayiş etdirir. Çindən gələcək hazır məhsullar da bu dəmir yolu vasitəsilə daşınacaqdır. Hətta yükün belə, hazır olduğunu deyə bilərik. İnşallah, Türkmənistanın da bu layihəyə qatılması ilə həqiqətən, ölkələrimiz arasında dəmir yolu xətlərilə əlaqələr yaranacaqdır.

Digər tərəfdən, ölkələrimiz arasındakı quru yol nəqliyyatı da çox önəmlidir. Quru yolla nəqliyyatın bütünlüklə sərbəstləşdirilməsi, çox önəmli olan gömrük keçidlərində əməliyyatların standartlaşması və lazımlı işlərin görülməsi böyük əhəmiyyət kəsb edir. Əgər biz gömrüklərimizi müasirləşdirməsək, o zaman dəmir yolunda, quru yolunda tıxaclar meydana gələr və dar boğazlar yaranar. Bunun üçün də gömrük məntəqələrimiz eyni, standart səviyyədə müasirləşdirilməlidir. Bunun iqtisadi və ticarət əməkdaşlığımızın inkişafında önəmli olduğunu düşünürəm. Xəzər dənizindəki limanın tutumu tez bir zamanda böyüdülməlidir. Çünki Türkmənistanda və Qazaxıstanda bu layihələr mövcuddur. Limanlar vasitəsilə dəniz nəqliyyat səfərlərinin başladılması bu sahədəki prioritetlərimizi təşkil etməlidir. Bütün bunlar konkret layihələrdir. Bunlar, həmçinin hamımıza həm tək-tək, həm də ümumi şəkildə xidmət edəcək layihələrdir.

Əziz qardaşlarım! Qlobal iqtisadi potensial mərkəzinin Atlantik okeandan Sakit okeana keçməsi danılmaz həqiqətdir. Bu vəziyyət təbiəti ilə türk dünyasının geoiqtisadi əhəmiyyətini də artırmışdır. Türkiyənin, Azərbaycanın, Türkmənistanın, Qırğızıstanın, Qazaxıstanın və Özbəkistanın iqtisadi və demoqrafik potensialı bütünlükdə 4,8 milyon kvadrat kilometrlik sahədə dünyada 7-ci, 140 milyon əhalisi ilə 9-cu, 1,5 trilyon ABŞ dolları dəyərində ümumi hasilatı ilə 13-cü yerdədir. Bu sıralamalarda türk dünyası qlobal ölçüdə sahib olduğu coğrafi və demoqrafik potensialdan aşağı bir iqtisadi göstəriciyə malikdir. Bu da iqtisadi inkişaf həmlələrimizi durmadan davam etdirməyimizin vacibliyinə işarə edir. Tarixə nəzər saldıqda türk dövlətlərinin güclü və təsirli olduğu dövrlərdə İpək yolunun dünya ticarətinin ana xətti olduğu müşahidə olunur.

Türk dünyası qlobal iqtisadiyyatdan və dünya ticarət yollarından kənarda qaldıqda isə siyasi və mədəniyyət sahəsinə təsiri azalmışdır. Bunları tarixi oxuyanlar bilirlər. Bu mənada «İpək yolu» türk dünyasının iqtisadi rifahının və siyasi təsirinin açarıdır. Ona görə İpək yolunu yenidən bərpa etmək strateji bir prioritet olmalıdır.

Müasir mənada İpək yolu isə tarixi İpək yolunun bu dəfə geniş nəqliyyat xətləri, enerji koridorları, təbii qaz boru kəmərləri ilə bərpası deməkdir. Müxtəlif layihələrlə türk dünyasını yenidən qlobal iqtisadiyyatın mərkəzi regionundan birinə çevrilməsi əsas prioritetimiz olmalıdır. Önümüzdəki bir neçə il ərzində reallaşdıracağımız layihələrlə bu sahədəki əhəmiyyətli bir mərhələni keçəcəyimizə inanıram. Siz dəyərli qardaşlarımın bu məsələdə dəstəyi bunun qarantıdır.

Hörmətli dövlət başçıları, dəyərli iştirakçılar! Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələr olaraq aramızdakı siyasi və diplomatik həmrəyliyi ən yüksək səviyyədə saxlamaq hamımızın marağındadır. Türk dünyasının prioritet xarici siyasət məsələlərinin önündə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi dayanır. Azərbaycan torpaqlarının 20

faizinin işğal altında olduğu mövcud vəziyyət qəbuledilməzdir. Münaqişənin ən qısa zamanda sülh yolu ilə və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunması üçün əlimizdən gələni əsirgəməyəcəyik. Bu qeyri-qanuni işğalın, qəsbkarlıq siyasətinin qarşısı alınanadək sizə dəstək vermək bizim qardaşlıq borcumuzdur. Azərbaycan bu günədək türk zirvələrinə ev sahibliyi etmişdir. Azərbaycanda keçiriləcək növbəti zirvənin Dağlıq Qarabağ münaqişəsi həll olunduqdan sonra Qarabağın gözəl şəhərlərinin birində təşkil edilməsi ən böyük arzumuzdur. Əminəm ki, oralar da belə gözəl yaşıllıqdır.

Əziz qardaşlarım, dəyərli Prezidentlər! Gələn il Türkiyədə keçirəcəyimiz Türk Dövlətləri Əməkdaşlıq Şurasının IV Zirvə toplantısında Türk dünyası ölkələrinin hamısının təmsil edilməsi ən böyük arzumuzdur. Bu istiqamətdə gələcək zirvədə Türkmənistanın, Özbəkistanın da iştirak etməsini gözləyəcəyik. Bu duyğu və düşüncələrlə siz dəyərli prezidentləri, nazirləri ürəkdən salamlayır, sizin vasitənizlə bütün qardaş xalqlarımıza xoşbəxtlik, rifah və əmin-amanlıq diləyirəm.

Hamınıza uğurlar arzu edirəm. Təşəkkür edirəm.

## Türkmənistan Nazirlər Kabineti Sədrinin müavini Sapardurdu Toyliyevin çıxışı

Cənab Sədr!

Zati-aliləri!

Xanımlar və cənablar!

İcazə verin, Sizə və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III Sammitinin bütün iştirakçılarına Türkmənistan prezidenti Qurbanqulu Berdıməhəmmədovun salamlarını və zirvə görüşünə dəvətə görə təşəkkürünü çatdırım, onun adından sizə uğurlar və firavanlıq arzulayım.

Bu mühüm və əhəmiyyətli tədbirdə çıxış etmək mənim üçün böyük şərəfdir. Bizi vahid irs birləşdirir, bu irsin köməyi ilə istər regionda, istərsə də bütün dünyada sülhün və sabitliyin

təmin edilməsi işində xalqlarımız arasında hərtərəfli əməkdaşlığı dərinləşdirmək mümkündür.

Müasir dilçilik elminin məlumatına görə, türk dillərində danışan insanların sayı 100 milyondan çoxdur. Dil birliyi, mənəvi birlik və güclü inteqrasiya bizi daha sıx birləşdirir və qarşılıqlı anlaşmanın genişlənməsinə şərait yaradır.

Hörmətli iclas iştirakçıları, müasir Türkmənistan dinamik inkişaf edən dövlətdir. Türkmənistan Prezidentinin fəaliyyət xətti ölkənin innovasiya və sənaye baxımından inkişafına, ictimai rifahın təməlinə çevrilməli olan rəqabətədavamlı iqtisadiyyatın yaradılmasına yönəlmişdir. Türkmənistan yeni texnologiyaları cəlb etməklə, innovasiyaları öyrənməklə, onları praktikada hərtərəfli tətbiq etməklə qabaqcıl dünya təcrübəsini fəal mənimsəyir.

Biz nisbətən qısa müddət ərzində öz iqtisadiyyatımızı dünya standartlarına uyğunlaşdırmağa, neytrallıq, qarşılıqlı faydalı əməkdaşlıq və humanizm prinsiplərinə əsaslanan əlverişli beynəlxalq münasibətlər sistemi yaratmağa nail olmuşuq.

Türkmənistan dünya sivilizasiyasına çox qiymətli töhfələr vermiş mədəni irsə malik olan türk dünyasının ayrılmaz hissəsidir. Müasir mərhələdə bizim mədəniyyətlərin inkişafı, mədəni irsin nəsildən-nəslə ötürülməsi bizim sivilizasiyanın yenilənməsinin davamı olub, onun sarsılmazlığını təmin edir.

Məsələn, bizim xalqların birləşməsinin rəmzi olan böyük İpək yolunun əhəmiyyəti zaman keçdikcə daha da artır, özü də təkcə ona görə yox ki, o, müasir formatda bərpa olunur, həm də ona görə ki, bizim şüurumuzda tariximizin, mədəniyyətimizin ümumiliyi təsəvvürü yaranır.

Ümumi mədəni sərvətin qorunub saxlanması, öyrənilməsi və populyarlaşması amillərindən biri də humanitar əlaqələrdir. Türkmənistan zəngin beynəlxalq əməkdaşlıq təcrübəsinə malikdir. Bu əməkdaşlığın əhatə dairəsinin genişliyi məhz türkdilli ölkələrlə əməkdaşlıqda təzahür edir. Türk xalqlarının ümumi bayramı olan Novruz şənliklərinin hər il birlikdə qeyd edilməsi bizim xalqlarımızın vəhdətinə sübutdur. Qədim

türkmən torpağında Novruzun möhtəşəm bayram kimi qeyd olunmasını xüsusi vurğulamaq istərdim. Bu tədbir regionda sülh və həmrəylik yaradılmasını qarşıya məqsəd qoymuş xalqlarımız arasında möhkəm tarixi, mədəni əlaqələrə daha bir sübutdur.

Mədəni-humanitar əməkdaşlıq barədə danışarkən Türkmənistanın elmi, mədəni tədbirlərində türkdilli xalqların nümayəndələrinin fəal iştirakını qeyd etmək zəruridir. İl ərzində mədəniyyət günləri, elmi konfranslar, sərgilər və görüşlər keçirilir. Klassiklərin ədəbi və fəlsəfi irsi öyrənilir və tərcümə edilir. Məsələn, türkmən poeziyasının klassikləri Mollanepesin, Əndəlibin onlarla əsəri Azərbaycan dilinə tərcümə olunmuş və nəşr edilmişdir. Böyük türkmən şairi Məhtumqulunun 290 illiyinin qeyd edilməsi ərəfəsində Azərbaycanda və Türkiyədə bu klassikin yaradıcılığına həsr edilmiş poeziya günləri keçirilmişdir. Bu ilin may ayında biz Türkmənistan Prezidentinin qazax dilində nəşr edilmiş «Türkmənistanın dərman bitkiləri» kitabının Astanada keçirilmiş təqdimatında iştirak etdik.

Ölkələrimiz arasında elmi əməkdaşlıq ilbəil fəallaşır. Türkmənistan türkdilli ölkələrin, demək olar ki, hamısı ilə elmi əməkdaşlıq haqqında sazişlər imzalamışdır. Bu gün həmin münasibətlər elmi təşkilatların və alimlərin əlaqələrinin yüksək intensivliyi ilə səciyyələnir. 2013-cü il mayın 30-da Türkmənistan hökuməti ilə Türkiyənin Əməkdaşlıq və Əlaqələndirmə Agentliyi (Türk İşbirliği ve Koordinasyon Ajansı – TİKA) arasında Sultan Alp Arslanın məzarının axtarışı və onun məqbərəsinin tikilməsi üzrə əməkdaşlıq haqqında protokol imzalanmışdır.

Son 1 ildə Azərbaycanın, Qazaxıstanın, Qırğızıstanın, Türkiyənin və Özbəkistanın elmi mərkəzlərinin və universitetlərinin yüzlərlə alimi bizim ölkədə keçirilən elmi tədbirlərdə iştirak etmişdir. Türkmənistanın gənc vətəndaşları Qazaxıstanın, Qırğızıstanın, Türkiyənin ali məktəblərində təhsil alır, qardaş xalqların mədəniyyəti və elmi ilə tanış olurlar.

Qardaş xalqların nümayəndələri də öz növbəsində Türkmənistanda təhsil alırlar. Əminik ki, ölkələrimizin elmi-texniki əlaqələrinin gələcək inkişafı, perspektivli innovasiya, elmi və texnoloji istiqamətlərin aşkar edilməsi çoxtərəfli münasibətlərin daha da genişlənməsinə və təkmilləşməsinə kömək edəcəkdir.

Hörmətli iclas iştirakçıları, qloballaşma, müasir çağırışlar şəraitində öz bənzərsiz qüvvəsini qoruyub saxlamış sivilizasiyamız gənc nəsli humanist dəyərlər ruhunda tərbiyə etməklə irəliləyir.

Əminəm ki, qonaqpərvər Azərbaycan torpağında bu görüşümüz real səmərə verəcək, dövlətlərimiz arasında inteqrasiya proseslərinin daha da inkişafına, xalqlarımızın qarşılıqlı mənəvi zənginləşməsinə və yaxınlaşmasına xidmət edəcəkdir.

Diqqətinizə görə sağ olun.

**Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Xəlil Akıncının çıxışı**

Hörmətli dövlət başçıları!

Hörmətli Türkmənistan Respublikası Nazirlər Kabineti Sədrinin müavini!

Hörmətli nazirlər, dəyərli tədbir iştirakçıları!

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III Zirvə toplantısı münasibətilə Qəbələdə çıxış etməkdən şərəf duyuram. 2011-ci ildə Almatı şəhərində keçirilən iqtisadi əməkdaşlıq əlaqələrinin müzakirə edildiyi I Zirvə toplantısından sonra ötən il elm, təhsil və mədəniyyət sahəsində əməkdaşlıq əlaqələrinin müzakirə edildiyi II Zirvə toplantısını təşkil etdik. Bu il isə beynəlxalq nəqliyyat məsələlərini müzakirə etdik.

Bişkek Zirvəsindən ötən 1 illik müddətdə Katiblik təlimatlarınızla verilən vəzifələri yerinə yetirmək üçün çalışmış, sıx əlaqələrə əsaslanan və nəticəyə köklənmiş əməkdaşlıq anlayışını həyata keçirməyə davam etmişdir.

Məqsəd üzv ölkələr arasında bir çox sahələrdə ikitərəfli formatda mövcud əməkdaşlığı əhatəli şəkildə çoxtərəfli əməkdaşlığa çevirməkdir. 3 ildir ki, həyata keçirdiyimiz metodla əvvəlcə əməkdaşlığımızın qarşısındakı maneələri ortadan qaldırmağa, sonra da bu əməkdaşlığın möhkəmlənməsi üçün vacib addımlar atmağa çalışırıq. Eyni zamanda, əlavə əməkdaşlıq sahələri də yaradırıq, bütün işlərimizi bir sənəddə toplayırıq. Bu üsul həyata keçirilərkən üzv ölkələrimizin mövcud qanunvericiliyinə zərər gəlməməsinə çalışırıq.

Çıxışımda qeyd edəcəyim məqamlar, geniş məlumatlar təqdim etdiyim 300 səhifədən çox olan illik fəaliyyət hesabatında vardır.

Bişkek və Qəbələ zirvələri arasında yeni başladılan əməkdaşlıq prosesləri də daxil olmaqla, 20-dən çox əsas toplantı təşkil edilmişdir. Ümumiyyətlə, müxtəlif şəhərlərdə təşkil olunmuş 100-dən çox tədbirin əksəriyyətində iştirak etmişəm. 1 il əvvəl təşkil edilən toplantının sayı 6 idi. Bu çərçivədə iqtisadiyyatla yanaşı, elm, təhsil və mədəniyyət sahələrində mövcud əməkdaşlıq prosesləri davam etdirilmişdir.

Müvafiq qurumlarımız olan TürkPA, Türk Akademiyası və TÜRKSOY ilə sıx əməkdaşlıq əlaqələri davam etdirilmişdir. Digər tərəfdən, Katiblik yaradılandan bəri ortaq mədəniyyətimizin inkişaf etdirilməsində və təbliğində böyük dəstəyi olan TÜRKSOY-un beynəlxalq razılaşma ilə davamlı statusa malik olması və işçilərinin hüquqlarının qorunması vacib məsələdir.

Bişkek Zirvəsindən bəri bir çox yeniliklər olmuşdur. Türk Universitetləri Birliyi qurulmuş, Ortaq Terminologiya Komitəsinin ilk toplantısı keçirilmişdir. Toplantıda verilən qərarlar sırasına 1926-cı ildə Bakıda keçirilən I Türkoloji Qurultayda razılaşdırılan əlifbaya əsaslanan bir latın əlifbasının elmi işlər üçün ortaq istifadə olunmasına təqdim edilməsi qərarı daxildir. Qəbul edilən ortaq terminlərlə birgə, həmin əlifba Katibliyin və müvafiq qurumların yazışmalarında hazırda istifadə edilməkdədir. Dünyada türk dilindəki yer adlarının

dəyişdirilməsi həqiqətini nəzərə alaraq ortaq türk dilində yer adlarının xəritəsinin Türk Akademiyasının dəstəyi ilə hazırlanması da komitənin gündəliyindədir.

Digər mühüm məqam isə üzv ölkələrin diasporları arasında başlanan əməkdaşlıq prosesidir. Diasporlarımız sayca çoxdur, səsləri ilə güclərini birləşdirdikləri halda onların səsi daha çox eşidiləcəkdir. Bu çərçivədə Bakıda və Ankarada təşkil edilən diaspor komitələri rəhbərlərinin toplantıları ilə yanaşı, türkdilli diasporların ortaq fəaliyyət strategiyası qəbul edilmişdir.

Bakıda iyunda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin diaspor təşkilatları rəhbərlərinin I Forumunda 50-yə yaxın ölkədən 600-dən çox diaspor nümayəndəsi iştirak etmişdir. Qarşıdakı dövrdə bu sahədə regional bir qurumun yaradılması planlaşdırılır.

Hörmətli dövlət başçıları! Təlimatlarınıza uyğun olaraq keçən ildən bu yana zirvənin də mövzusuna uyğun olaraq nəqliyyat və gömrük sahələrindəki səylərimizi artırdıq. Bu çərçivədə gömrük sərhədlərində gözləmə müddətlərinin azaldılması, «vahid pəncərə» sistemini yaymaq məqsədi ilə işlərimiz davam edir. Nəqliyyat sahəsində əməkdaşlıq çərçivəsində nəqliyyat nazirləri bu il Bakıda toplandı.

Toplantıda iştirak edən nəqliyyat nazirləri ortaq əməkdaşlıq protokolunu imzaladılar. Bu toplantıda ortaya çıxacaq problemlərin həll edilməsi üçün nazir müavinləri səviyyəsində əlaqələndirmə qurumunun yaradılması qərarlaşdırıldı.

Nəqliyyat və gömrük birgə əməkdaşlıq sahələridir. Beynəlxalq və ya regional səviyyədə üzv ölkələr tərəfindən həyata keçirilən İpək yolu, Karvansaray, Bakı–Tbilisi–Qars dəmir yolu, Mərmərə layihələrinin ən qısa zamanda bitməsi ortaq maraqlarımız üçün mühüm əhəmiyyət kəsb edir. Xəzərdən keçən nəqliyyatın inkişaf etdirilməsi üzv ölkələrimizi qlobal tranzit ticarət mərkəzinə çevirəcəkdir. Üzv ölkələrin qanunvericiliyinin bu sahəyə uyğun olaraq təkmilləşdirilməsinin təşviqi gündəliyimizdə duran məsələdir.

Son 2 zirvə toplantısı arasında xarici siyasətdə əməkdaşlıq məsələsi önə çəkilmişdir. Türkdilli dövlətlərin xarici işlər nazirləri Nyu-York və Qahirə şəhərlərində qeyri-rəsmi olaraq görüşmüşlər. Üzv ölkələrin xarici siyasət məsələlərində BMT Baş Assambleyasının iclasında eyni istiqamətdə səs verməsi, gözlənilən artım xarici siyasətdə yüksələn əməkdaşlığın bariz nümunəsidir.

Avqustun 15-də Qəbələdə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III Zirvə toplantısı çərçivəsində xarici işlər nazirləri arasındakı imzalanan əməkdaşlıq protokolu bu sahədə bu əlaqələrimizin inkişafına xidmət edəcəkdir. BMT Təhlükəsizlik Şurasında hər dönəmdə bir türk dövlətinin iştirak etməsi, Somalidəki Türkiyə səfirliyinə hücumun Azərbaycanın təşəbbüsü ilə BMT Təhlükəsizlik Şurasında pislənməsi kimi ortaq maraqlarımızın qorunması baxımından böyük əhəmiyyət kəsb edir. Üzv ölkələr arasındakı gömrük məsələlərinin müzakirəsinin ilk mərhələsinin apreldə Bakıda təşkil edilməsi də xarici siyasət sahəsində əməkdaşlığımızın genişlənməkdə olduğuna bir nümunədir. Toplantıdan sonra Əfqanıstan məsələsində ortaq mövqemiz Almatıda keçirilən «İstanbul prosesi» çərçivəsində nazirlər konfransında Qırğız Respublikasının Xarici İşlər naziri Erlan Abdıldayev tərəfindən səslənilmişdir.

Üçüncü tərəflərlə əməkdaşlığın genişləndirilməsi Katibliyin gündəliyində yer almaqdadır. Bu çərçivədə İqtisadi Əməkdaşlıq Təşkilatı nəzdində müşahidəçilik statusu əldə edilmişdir. İslam Əməkdaşlıq Təşkilatı nəzdində müşahidəçilik statusu üçün rəsmi müraciət olunmuşdur. Bununla birgə BMT-nin Baş Assambleyası nəzdində müşahidəçilik statusu əldə edilməsi istiqamətində təşəbbüsün müsbət nəticələnməsi üçün üzv ölkələrin dəstəyinin artırılmasına ehtiyac vardır.

Digər tərəfdən, Katiblik beynəlxalq müstəvidə bizi daha da güclü edəcək addım olaraq, Şuranın potensial üzvü ola biləcək Türkmənistan və Özbəkistanın da bütün Şura toplantılarına dəvət edilməsi və beləliklə, mövcud əməkdaşlıq prosesinə daxil olmalarının faydası olacaqdır. Həm nəqliyyat nazirləri, həm də

digər nazirlər təşkil etdikləri texniki niyyətli toplantılarına Türkmənistan və Özbəkistanın qatılması mövzusunda dövlət başçılarının təlimatlarını gözləyirlər. Bu məsələdə müsbət qərarlar verilmişdir.

Məlum olduğu kimi, üzv ölkələrin hər sahədəki mövcud dəstəkləri çalışmalarımızın əsasını təşkil etməkdədir. Səylərimizin davam etdirilməsi üçün 2012-ci ildə Bişkek Zirvəsində imzalanan Maliyyə Əsasları Anlaşması ilə yanaşı, Türk Mədəni İrs Fondu ilə Türk Akademiyasının qurucu anlaşmalarının bütün üzv ölkələrdə tamamlanmasına ehtiyac vardır.

Hörmətli dövlət başçıları! Paylanılan kitablardan görəcəyiniz kimi, Türk Akademiyası son 3 ildə önəmli əsərlər ortaya çıxarmışdır. Bununla yanaşı, Türk Akademiyasına məktəblərdə tədris olunacaq ortaq türk tarixi və ədəbiyyatı kitablarının yazılması tapşırığı verilmişdir. Beynəlxalq bir qurum olaraq fəaliyyət göstərə bilməsi istiqamətində müqavilənin təsdiq olunub icra edilməsi ilə Akademiyanın təsir gücü daha da artacaqdır. Katiblik olaraq Qəbələ Zirvəsindən sonrakı dövrdə də qurumu sürətli şəkildə inkişaf etdirərək gündəliyi müzakirə etmək üçün üzv ölkələrin müvafiq təşkilatları arasında əlaqələndirici vəzifəmizi davam etdirəcəyik. Bu çərçivədə hörmətli dövlət başçılarının Qəbələdə nəzərə çatdırdıqları yeni təlimatlarının həyata keçirilməsi üçün müvafiq işlər görəcəyik. Təhsil nazirlərini görüşdürəcəyik, məsləhət görüldükdə bu forumu keçirəcəyik, rəsmi xarici siyasət qurumları arasında yeni bir əməkdaşlıq prosesi başladacağıq, türk dünyası universitetləri arasında oyunlar təşkil edəcəyik, nazirlərin toplantılarını keçirəcəyik, üçüncü tərəflərlə əməkdaşlığı genişləndirəcəyik, turizm üzrə nazirləri görüşdürəcəyik. Gördüyümüz bütün işlər sənədləşdiriləcək, fəaliyyətlərimiz davam etdiriləcəkdir.

Fürsətdən istifadə edərək, bütün Katiblik əməkdaşlarına minnətdarlığımı bildirirəm. Üzv ölkələrin Katibliyə verdiyi dəstəyə görə minnətdarlığımı bildirirəm. Katiblik olaraq ikinci müddətə Zirvəyə sədrliyi başa çatan Qırğızıstan ilə bu vəzifəni yeni alan Azərbaycanı təbrik edirəm.

Bundan başqa, ev sahibi hörmətli cənab prezident İlham Əliyevə yüksək qonaqpərvərliyə görə təşəkkürümü bildirirəm.

Bu mərasimdə 2 Dövlət bayrağı dirəyini Türkmənistan və Özbəkistan üçün boş buraxdıq. Türkmənistan Respublikası Nazirlər Kabineti Sədrinin müavini Sapardurdu Toyliyevə bu Zirvə görüşündə iştirak etdiyi üçün minnətdarlığımı bildirirəm. Ona boş olan dirəyin Türkmənistan bayrağını gözlədiyini xatırlatmaq istəyirəm. Digər tərəfdən, avqustun 15-də keçirilən konsertlə TÜRKSOY-un 20-ci ildönümünü qeyd etdik. Bu münasibətlə TÜRKSOY-un baş katibi Düsen Kaseinovu və əməkdaşlarını türk dünyası ilə bağlı gördüyü işlərə görə təbrik edirəm. Bir az sonra Bəyannamə ilə yanaşı, prezidentlər tərəfindən imzalanacaq mənim vəzifə səlahiyyət müddətim haqqında qərara görə minnətdarlığımı bildirirəm.

* * *

*Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Abdullah Gül, Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev, Qırğız Respublikasının Prezidenti Almazbek Atambayev və Türkmənistan Nazirlər Kabineti Sədrinin müavini Sapardurdu Toyliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III Zirvə toplantısının Bəyannaməsini və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının dövlət başçıları Şurasının baş katibi, səfir Xəlil Akıncının səlahiyyət müddəti haqqında qərarı imzaladılar.*

*Azərbaycan prezidenti İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III Zirvə toplantısına yekun vurdu.*

## Azərbaycan prezidenti İlham Əliyevin yekun çıxışı

Hörmətli qonaqlar, artıq imzalanma mərasimi başa çatmışdır. Zirvə görüşümüz də başa çatır. Bir daha əziz qardaşlarımıza, nümayəndə heyətlərinin başçılarına Qəbələdə bu Zirvə görüşündə iştirak etdiklərinə görə dərin minnətdarlığımı bildirmək istəyirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, bu Zirvə görüşündən sonra aramızdakı əməkdaşlıq daha da artacaq və çox ciddi layihələr icra ediləcəkdir. Bu gün çıxışlarda səslənən dəyərli fikirlər əminəm ki, bizim işimizi zənginləşdirəcək və bu təkliflərin reallaşması əməkdaşlığın yeni pilləyə qalxmasına imkan yaradacaqdır. Səslənən təkliflərlə və ümumiyyətlə, gələcək fəaliyyətimizlə bağlı bir neçə məsələni qeyd etmək istərdim. İqtisadi sahədə əməkdaşlıq – bu barədə artıq danışıldı – böyük perspektivlərə malikdir. Bu gün ölkələrimizin iqtisadi inkişafı çox sürətlidir. Bir daha demək istərdim ki, iqtisadi və maliyyə böhranına baxmayaraq, bu gün ölkələrimiz iqtisadiyyatlarını inamla artırırlar. Azərbaycana gəldikdə, son 10 il ərzində Azərbaycan iqtisadiyyatı 3 dəfədən çox artmışdır və bu artım çox təsirli olmuşdur. İqtisadiyyatımız artıq çoxşaxəli, rəqabətqabiliyyətli iqtisadiyyatdır. Dünyanın ən mötəbər iqtisadi qurumu olan Dünya İqtisadi Forumunun – Davos Forumunun hesablamalarına görə Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətliliyinə görə dünyada 46-cı yerdədir.

Aparılan iqtisadi islahatlar, zəngin təbii resurslar ölkəmizin inkişafına xidmət göstərir. Ona görə iqtisadi sahədə əməkdaşlığın dərinləşməsi üçün yeni imkanlar vardır. Azərbaycan ölkə daxilində və xaricdə investisiya layihələrini icra edir. Hesab edirəm ki, ölkələrimiz arasında olan dostluq, qardaşlıq münasibətləri qarşılıqlı investisiyaların qoyuluşuna da xidmət göstərir. Hər halda, Azərbaycan bu istiqamətdə öz addımlarını atmaqdadır.

Bizi enerji və nəqliyyat dəhlizləri birləşdirir. Bu da böyük sərvətimizdir. Üzv ölkələrin böyük təbii sərvətləri, böyük coğrafiyası vardır. Bütün bu səylər artıq hər bir ölkənin inkişafını təmin edir.

Əlbəttə, enerji diplomatiyasının davam etdirilməsi və bu sahədə səylərimizin əlaqələndirilməsi hesab edirəm ki, zərurətdir və gələcək illərdə bu istiqamətdə biz işlərimizi davam etdirəcəyik.

Burada səslənən fikirlər arasında turizm sektorunda birgə fəaliyyət haqqında məsələlər qaldırıldı. Hesab edirəm ki, bu çox əhəmiyyətli bir sahədir. Xüsusilə Qəbələ kimi turizm mərkəzində bu istiqamətdə atılacaq addımlar haqqında fikir mübadiləsi çox dəyərlidir. Təklif edirəm ki, türk dünyasının turizm potensialı və türk dünyasının turizm mərkəzləri haqqında birgə səylərlə birgə sərgi də keçirilə bilər. Bu sərgi həm ölkələrimizdə, həm də başqa ölkələrdə keçirilə bilər. Yaxud da ki, bununla bərabər, mötəbər beynəlxalq sərgilərdə türk dünyası vahid bir təqdimatla çıxış edə bilər. Çünki ölkələrimizdə çox gözəl turizm imkanları vardır. Bizim ölkələri birləşdirən turizm potensialı güclənir. Qara dəniz, Aralıq dənizi, Xəzər dənizi, İssık-göl dünya miqyasında çox mötəbər turizm istiqamətləridir. Ölkələrimizdə təbiət çox gözəldir – təmiz hava, dağlar, meşələr, çaylar. Yəni birgə turizm təqdimatı hesab edirəm ki, həm birliyimizi əks etdirər və təqdim edər, həm də praktiki nöqteyi-nəzərdən ölkələrimizə turistlərin axınını gücləndirmiş olar.

Bu gün yeni informasiya-kommunikasiya texnologiyalarının inkişafı ilə bağlı təkliflər səslənmişdir. Azərbaycan bu istiqamətdə öz işlərini davam etdirir. Bu ilin əvvəlində ilk Azərbaycan telekommunikasiya peyki orbitə buraxılmışdır. Beləliklə, Azərbaycanda kosmik sənayenin inkişafına start verildi. Bu sahə təbii ki, humanitar sahə ilə bilavasitə bağlı olan bir sahədir. Çünki informasiya-kommunikasiya texnologiyaları bilikdir, savaddır, innovasiyadır və əlbəttə ki, humanitar sahənin inkişafı hər bir ölkə üçün çox önəmlidir. Ölkələrimizdə bilikli, savadlı gənc nəsil yetişir. Bu da ölkələrimizin gələcək

müstəqilliyini təmin edəcəkdir. Əgər biz dünya xəritəsinə nəzər salsaq görərik ki, inkişaf etmiş ölkələr ona görə inkişaf ediblər ki, orada elmi-texniki tərəqqi sürətlə getmişdir. Elmə, təhsilə qoyulan vəsait kifayət qədər olmuşdur. Bu istiqamətdə görülən işlər hər bir ölkənin gələcək inkişafını və müstəqilliyini gücləndirəcəkdir. Ona görə innovasiya, elm, təhsil sahələrində ölkələrimiz arasında kifayət qədər geniş əməkdaşlıq vardır və hesab edirəm ki, gələcək illərdə bu daim diqqət mərkəzində olmalıdır.

Təbii ki, gündəlikdə duran məsələlərdən biri də nəqliyyat məsələsidir və artıq burada biz hamımız həmfikirik. Burada bütün çıxışlarda nəqliyyatla bağlı məsələlər qeyd olundu. Biz yeni nəqliyyat infrastrukturunun yaradılması ilə türk dünyasını nəqliyyat şəbəkəsi ilə də birləşdiririk və eyni zamanda, ölkələrimiz üçün, gələcək üçün güclü bir nəqliyyat infrastrukturu yaradırıq. Əsrlər boyu bizim xalqlarımız bundan istifadə edəcək və bu, iqtisadi cəhətdən bizə əlavə fayda gətirəcəkdir.

Azərbaycanda bu istiqamətdə görülmüş işlər haqqında mən giriş sözümdə fikirlərimi bildirdim. Əlavə etmək istəyirəm ki, bu gün Azərbaycanda Xəzər dənizində tikilən liman bu bölgənin ən böyük dəniz limanı olacaqdır. Bunun yükqəbuletmə qabiliyyəti mərhələlər əsasında 10 milyon tondan 20 milyon tona çatacaqdır. Əlbəttə, Bakı–Tbilisi–Qars dəmir yolunun, Bakıda dəniz limanının istifadəyə verilməsi əlaqəli şəkildə aparılır və beləliklə, Xəzər dənizi ilə yüklərin daşınmasının artımına gətirib çıxaracaqdır.

Bu gün çıxışlarda xalqlarımıza xas olan tolerantlıq haqqında deyildi. Bu da çox önəmli məsələdir. Həqiqətən, bizim ölkələrimizdə yaşayan bütün xalqlar onların etnik, yaxud da ki, dini mənsubiyyətindən asılı olmayaraq bütün hüquqlardan istifadə edir, bir ailə kimi yaşayır, heç vaxt hər hansı bir xoşagəlməz hallar yaşanmır. Bu, böyük sərvətimizdir və biz çalışmalıyıq ki, türk dünyasını dünyaya eyni zamanda, tolerantlıq məkanı kimi təqdim edək. Biz Azərbaycanda bu istiqamətdə müxtəlif tədbirlər keçiririk. Bilirəm ki, digər qardaş

ölkələrdə də bu tədbirlər keçirilir. Xüsusilə, mən II Bakı Beynəlxalq Mədəniyyətlərarası Dialoq Forumunun fəaliyyətini qeyd etmək istəyirəm. Biz qardaşlarımızın gələcək forumlarda fəal iştirakını arzulayırıq. Çünki bu Forum artıq dünya çapında özünəməxsus yerini tuta bilmişdir.

Burada xalqlarımızın, ölkələrimizin gələcəyi ilə bağlı digər dəyərli fikirlər səslənmişdir. Xüsusilə, demoqrafik vəziyyətlə bağlı səslənən fikirlərə münasibətimi bildirmək istəyirəm. Bizim ölkələrimizdə demoqrafik vəziyyət çox müsbətdir, təbii artım baş verir. Dünyanın bir çox ölkələrində vəziyyət tam başqadır. Bu bizim böyük sərvətimizdir, bu günün və gələcəyin potensialıdır. Ancaq o da sirr deyil ki, demoqrafik vəziyyət o vaxt dinamikdir ki, iqtisadi inkişaf sürətlidir. Demoqrafik vəziyyət mütləq ciddi iqtisadi islahatlarla tamamlanmalıdır. Əgər bu olmasa, əgər iqtisadiyyat inkişaf etməsə, amma əhali artsa, o zaman bu, problemə çevrilə bilər. Əgər demoqrafik vəziyyət iqtisadiyyatla bərabər artsa, o zaman bu, böyük potensialdır, böyük gücdür. Gələcəkdə dünyada problemlərin həlli ölkələrin potensialı ilə, o cümlədən demoqrafik vəziyyətlə də bağlı olacaqdır.

Burada səslənən bir fikrə də öz münasibətimi bildirmək istəyirəm. Hesab edirəm ki, bu da çox dəyərli fikirdir və Azərbaycan bu istiqamətdə öz səylərini göstərir. Xaricdə yaşayan diaspor təşkilatlarımızın birgə fəaliyyəti çox önəmlidir. Biz Azərbaycanda və Türkiyədə vaxtaşırı Türkiyə–Azərbaycan diaspor təşkilatlarının toplantılarını keçiririk. Birgə qurultay da keçirilmişdir. Hesab edirəm ki, bu sahədə də səylərimizin birləşməsi faydalı olardı. Çünki bu gün xaricdə yaşayan, xalqlarımızı təmsil edən milyonlarla soydaşımız vardır. Onları təşkilatlandırmaq, bir araya gətirmək üçün hesab edirəm ki, gözəl imkanlar vardır. Ayrı-ayrılıqda diaspor təşkilatları fəaliyyət göstərir. Bir çox hallarda öz fəaliyyətlərini koordinasiya edirlər. Ancaq bu formatda – Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin diaspor təşkilatlarının birləş-

məsi də, hesab edirəm ki, hər cəhətdən bizim işimizi daha da gücləndirər.

Bir sözlə, əziz dostlar, hörmətli dövlət başçıları, bugünkü Zirvə görüşü, əminəm ki, növbəti uğurlu mərhələ olacaqdır. Azərbaycan bu gündən Şuraya sədrliyi öz üzərinə götürür. Sizi əmin etmək istəyirəm ki, biz var gücümüzlə işləyəcəyik ki, növbəti 1 il ərzində təşkilatımız daha da güclənsin və qarşıda duran bütün vəzifələr uğurla icra edilsin. Bir daha sizə dərin hörmət və ehtiramımı bildirirəm. Sağ olun.

* * *

*Həmin gün Qəbələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III Zirvə toplantısında iştirak edən dövlət başçılarının şərəfinə ziyafət verildi.*

## QAX RAYONUNA SƏFƏR

*16 avqust 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 16-da Qax rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Qax Rayon İcra Hakimiyyətinin başçısı Musa Şəkiliyev prezident İlham Əliyevə abidə ətrafında görülmüş abadlıq-quruculuq və tikinti işləri barədə məlumat verdi.*

### Yenidən qurulan Şəki–Qax–Zaqatala avtomobil yolunun Şəki–Qax hissəsinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 16-da yenidən qurulan Şəki–Qax–Zaqatala avtomobil yolunun Şəki–Qax hissəsinin açılışında iştirak etmişdir.*

*Son 10 ildə Azərbaycanın yol-nəqliyyat infrastrukturunda əsaslı dəyişikliklər baş verib. Ölkə ərazisindən keçən beynəlxalq əhəmiyyətli magistrallar müasir standartlar səviyyəsində tamamilə yenidən qurulub. Paytaxtın və rayon mərkəzlərinin küçə və yolları abadlaşdırılıb. Prezident İlham Əliyevin sərəncam və göstərişlərinə əsasən indi əsas diqqət regionlarda kənd və qəsəbələri birləşdirən avtomobil yollarının təmirinə yönəldilib. Bu proses ölkəmizin bütün regionlarında olduğu kimi, Qaxda da geniş vüsət alıb. Şəki–Qax–Zaqatala avtomobil yolu da tamamilə yenidən qurulub.*

*Dövlətimizin başçısı yolun texniki-iqtisadi göstəricilərini əks etdirən stendlərə baxdı.*

*Məlumat verildi ki, avtomobil yolunun yenidən qurulması işlərinə 2010-cu ildə başlanılıb. İkizolaqlı yolun uzunluğu 35 ki-*

*lometr, hərəkət hissəsinin eni 7, torpaq yatağının eni 12, asfalt-beton örtüyünün eni isə 8 metrdir. Yolun 26 kilometri Şəki rayonunun, 9 kilometri Qax rayonunun ərazisinə düşür.*

*Yolun keçdiyi Kürmük çayı üzərində nəhəng körpü də inşa olunub. 4 aşırımdan ibarət körpü Şəki şəhəri, Qax və Zaqatala rayonlarına avtomobillərin və piyadaların rahat və maneəsiz hərəkətini təmin etməklə yanaşı, gözəl görünüşü ilə diqqəti cəlb edir. İnşaat işləri zamanı yüksək keyfiyyətli tikinti materiallarından istifadə edilib. Körpünün inşasına 2012-ci ilin yanvarında başlanılıb. Körpüdə avtomobillərin hərəkət hissəsi 11,5, piyadaların hərəkət hissəsi isə 1,5 metrdir. Körpünün çay səviyyəsindən hündürlüyü 8 metrdir. Rayonun bir çox yaşayış məntəqələrini birləşdirən yolları qısaldan və rahatlaşdıran bu körpü ölkənin yol-nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi, xüsusilə də dövlətimizin başçısının regionların sosial-iqtisadi inkişafına göstərdiyi qayğının ardıcıl və davamlı xarakterinə daha bir sübutdur. Ümumiyyətlə, yolboyu 21 körpü vardır.*

*Diqqətə çatdırıldı ki, Şəki–Qax avtomobil yolu respublikanın ən böyük turizm marşrutlarından biridir. Avtomobil yolu Şəki şəhərini Qax istiqamətində Kiş çayı üzərindəki körpüdən başlayaraq Qorağan–Qax–Zaqatala avtomobil yolunun 14-cü kilometri ilə birləşdirir. Avtomobil yolu Şəki və Qax şəhərləri arasında nəqliyyat əlaqəsinin yaxşılaşmasına, hazırda istifadə olunan 77 kilometr məsafənin 42 kilometr qısalmasına imkan verəcəkdir. Bu yol Şəki rayonunun 28 mindən çox əhalisi olan 21 yaşayış məntəqəsini, Qax rayonunun 2 mindən artıq əhalisi olan 6 məntəqəsini birləşdirir.*

*Azərbaycan prezidenti İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

*Dövlətimizin başçısı görülmüş işlərdən razılığını bildirdi, tapşırıq və tövsiyələrini verdi.*

## Olimpiya İdman Kompleksinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 16-da Qaxda Olimpiya İdman Kompleksinin açılışında iştirak etmişdir.*

*Bu gün Azərbaycan dünyada həm də güclü idman ənənələri ilə tanınır. Çünki idmanın inkişafı ölkəmizdə dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Son illərdə paytaxtla yanaşı, regionlarda da inşa olunan nəhəng idman kompleksləri Azərbayacanın idman potensialının nümayişi, gənclərin bu sahəyə meylinin artması ilə nəticələnib. Bütün bunlar dövlət başçısının idmanın inkişafına göstərdiyi diqqət və qayğısının bariz nümunəsidir. Prezident İlham Əliyev dəfələrlə bəyan etmişdir ki, Azərbaycanda dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi, idmanın inkişafı, bu sahənin maddi-texniki bazasının möhkəmləndirilməsi daim diqqətdə saxlanılacaqdır. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın da idmançılara diqqəti idman ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir. Azərbaycan Gimnastika Federasiyasının prezidenti kimi, Mehriban xanım Əliyevanın uğurlu fəaliyyəti bu sahədə ölkəmizin böyük nailiyyətlər qazanması ilə müşayiət olunur. İdman hərəkatının geniş vüsət aldığı Azərbaycanda olimpiya idman komplekslərinin, ixtisaslaşmış idman obyektlərinin inşası davamlı xarakter almışdır. Bu sırada Qax Olimpiya İdman Kompleksi də mühüm əhəmiyyəti ilə seçilir. Regionun ən böyük olimpiya idman komplekslərindən olan bu idman mərkəzində bir çox yarışların, təlim-məşq toplantılarının və digər tədbirlərin keçirilməsi üçün hər cür şərait vardır.*

*Dövlətimizin başçısı kompleksin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Kompleksin təməli 2008-ci il sentyabrın 19-da prezident İlham Əliyevin iştirakı ilə qoyulub. Burada ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin Qaxa səfərlərin-*

*dən və idmanın inkişafına göstərdikləri qayğıdan bəhs edən fotoguşələr yaradılıb.*

*Gənclər və İdman naziri Azad Rəhimov bildirdi ki, son illərdə Qaxda idmanın müxtəlif növlərinin inkişafına xüsusi diqqətin göstərilməsi, xüsusilə də bu cür qurğunun istifadəyə verilməsi rayonda gənclərin idmana olan maraq və həvəslərini daha da artırmışdır. Məlumat verildi ki, Qax Olimpiya İdman Kompleksinin ümumi tikinti sahəsi 9 min 220 kvadratmetr, tikintialtı sahəsi 6 min 498 kvadratmetr, yaşıllaşdırma sahəsi isə 8 min kvadratmetrdir. Layihəyə əsasən ümumi sahəsi 3 min 655 kvadratmetr olan universal idman zalı binasında tamaşaçı yerlərinin sayı 480-dir. Burada 2 soyunub-geyinmə, məşqçi və digər otaqlar vardır. İnzibati binanın birinci mərtəbəsində gənclərin informasiya mərkəzi, məlumat-qeydiyyat bölməsi, 40 nəfərlik kafe, həkim və inventar, eləcə də texniki otaqlar fəaliyyət göstərir. İkinci mərtəbədə şahmat otağı, trenajor zalları, bilyard və stolüstü tennis otağı yaradılıb. Universal idman zalında Danimarkanın «Junkers» firmasının istehsalı olan xüsusi döşəmə salınıb. Kompleksdə müasir standartlara uyğun 410 yerlik üzgüçülük hovuzu da yaradılıb. İkinci mərtəbədə, həmçinin idmançılar üçün istirahət otaqları vardır.*

*Diqqətə çatdırıldı ki, kompleksin ərazisində ikimərtəbəli 5 kottec inşa edilib. Müasir mebel və avadanlıqlarla təchiz olunan hər bir kottec 4 otaqdan ibarətdir.*

*Məlumat verildi ki, kompleksdə süni ot örtüklü futbol stadionu da tikilib. Stadionda üstüörtülü 1000 tamaşaçı yerlik tribuna inşa edilib, məşqçi və hakim otaqları yaradılıb, müasir işıqlandırma sistemi quraşdırılıb. Bundan əlavə, kompleksin ərazisində basketbol, voleybol və tennis meydançaları vardır.*

*Olimpiya İdman Kompleksi ilə tanış olan prezident İlham Əliyev rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

## QAX RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*16 avqust 2013-cü il*

Qax rayonunda çox əlamətdar bir gündür. Biz gözəl Olimpiya İdman Kompleksinin açılışına toplaşmışıq. İndi tanış oldum, görürəm ki, bütün imkanlar vardır. Gənclər, uşaqlar idmanla məşğul olacaqlar, yaşlı nəslin nümayəndələri də istifadə etməlidirlər, bütün şərait vardır. Bilirəm ki, Olimpiya Kompleksinin tikintisi Qax sakinlərinin çoxdankı arzusu idi və artıq bu arzu reallaşıb. Əminəm ki, burada məşğul olacaq idmançılar Azərbaycanın idman şöhrətini yüksəklərə qaldıracaqlar. Gələcək olimpiya, dünya çempionları burada yetişəcək və beləliklə, Azərbaycan idmanı inkişaf edəcəkdir.

Belə komplekslərin tikintisi idmanın kütləviliyini təmin edir. Əlbəttə, çempionlar da, rekordlar da lazımdır. Ancaq ilk növbədə, gənclər gərək idmanla məşğul olsunlar ki, sağlam olsunlar və sağlam həyat tərzi sürsünlər. Buna görə ölkəmizin müxtəlif yerlərində belə komplekslər tikilir. Artıq Azərbaycanın regionlarında 39 Olimpiya Mərkəzi vardır. Beləliklə, Qaxda da idmanla gözəl şəraitdə məşğul olmaq üçün bütün imkanlar vardır. Bu gün mən digər tədbirlərdə də iştirak edəcəyəm. Bu tədbirlər də rayonun ümumi inkişafını göstərir. Rayonda turizmin potensialı çox böyükdür. Bu potensialdan səmərəli istifadə etmək üçün, əlbəttə ki, kompleks tədbirlər lazımdır. Bu gün Şəki–Qax avtomobil yolunun açılışını da qeyd etdik. Bu yol insanların rahatlığı üçün tikilmişdir. Məsafə xeyli dərəcədə qısalır. Beləliklə, turizmin inkişafı, Bakı ilə Qax arasındakı məsafəni azaltmaq üçün çox gözəl imkanlar vardır. Bu, böyük investisiya layihəsidir və tamamilə yeni bir yol çəkilmişdir. Beləliklə, Qaxa gediş-gəliş daha da rahat olacaqdır. Yolun

açılışında növbəti təklif də verildi ki, biz Qax–Zaqatala yolunu da çəkək. Bu imkanlar vardır. Onu da biz yəqin ki, gələn ilin investisiya proqramına salacağıq.

Keçən dəfə burada olarkən yeni hotelin açılışında iştirak etmişdim. Bu gün Konfrans Mərkəzi açılır. Bu da çox əlamətdar hadisədir. İndi Azərbaycanda bütün bölgələrdə beynəlxalq konfranslar keçirilir. Bax, bu gün Qəbələdə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III Zirvə görüşü keçirilmişdir. Yüzlərlə qonaq gəlmişdir – dövlət başçıları, nümayəndə heyətinin üzvləri. Azərbaycanın gözəl bölgəsində belə bir tədbir keçirilmişdir. Vaxt gələcək Qaxdakı Konfrans Mərkəzində də beynəlxalq tədbirlər keçiriləcəkdir. Bunu etmək üçün ilk növbədə, şərait lazımdır – infrastruktur, yol və xidmət sektoru.

Qaxın çox gözəl təbiəti, gözəl iqlimi vardır. Əlbəttə ki, bunlar turizmin inkişafı üçün böyük potensialdır. Bütün bu şimal-qərb zonasının turizm imkanları çox genişdir. Əminəm ki, gələcəkdə bu istiqamətdə daha da böyük işlər görüləcəkdir. Nəzərə almalıyıq ki, Qaxın əsas infrastruktur layihələri də öz həllini tapmaqdadır. Bu gün içməli su layihəsinin istifadəyə verilməsini qeyd edəcəyik. Yəqin ki, bütün başqa rayonlarda olduğu kimi, Qaxda da içməli su problemi insanları narahat edirdi. Son 1 həftə ərzində bir neçə şəhərdə içməli su layihələri həyata keçirildi – Kürdəmirdə, İsmayıllıda, Oğuzda, bu gün isə Qax rayonunda. Yəni 2 həftə ərzində 4 şəhərin onilliklər boyu yığılıb qalmış problemi öz həllini tapıb. Bu problemin həlli də Azərbaycan dövlətinin gücünü göstərir, Azərbaycan hökumətinin sosial siyasətini əks etdirir. Çünki mən həmişə qeyd edirəm ki, bu layihələrə qoyulan vəsait sırf sosial xarakter daşıyır. Azərbaycanın artan iqtisadi gücü, maliyyə imkanları, ümumiyyətlə, ölkəmizdə gedən inkişaf bizə imkan verir ki, bu layihələri icra edək.

İçməli su layihəsi deyə bilərəm ki, infrastruktur layihələri arasında ən vacib məsələdir. İçməli su həyat deməkdir, sağlamlıq deməkdir. Qaxa verilən içməli su bütün yüksək standartlara cavab verir. Xatırlayıram ki, keçən dəfə Qaxda olarkən

biz bu böyük layihənin təməl daşını qoymuşduq. O vaxt demişdim ki, biz bu layihənin istifadəyə verilməsini bərabər qeyd edəcəyik. Çünki ölkəmizin inkişafı və infrastruktur layihələrinin həyata keçirilməsi üçün içməli su məsələləri ən vacib yer tutur.

Bu gün Qaxda Heydər Əliyev Mərkəzinin açılışını da qeyd edəcəyik. Bu da çox önəmli hadisədir. Əvvəlki illərdə burada olarkən biz Qaxın müasirləşməsi və eyni zamanda, qədim tarixin qorunması layihələrini müzakirə etmişik. İçəribazar küçəsi gözəl küçədir və həm rayon sakinləri, həm qonaqlar üçün çox böyük maraq kəsb edən bir layihədir. O vaxt mən tövsiyə etmişdim ki, bizim qədim şəhərlərimizdə qədim tarixi bərpa etmək üçün təşəbbüslər irəli sürülsün. İçəribazar layihəsi o təşəbbüslərin sırasındadır. Çünki tarixdə belə yerlər olub və o küçəboyu yerləşən binalar qədim binalardır. Onlar qorunur, bərpa olunur, turistlər üçün maraq doğurur.

Rayon mərkəzinin abadlaşması prosesi də çox uğurla gedir. Mən xatırlayıram, ilk dəfə Qaxda olarkən mənzərə tam başqa idi. Son dəfə olanda gördüm ki, hər yerdə abadlıq, quruculuq işləri gedir, ağaclar əkilir, yollar genişlənir, binalar bərpa olunur. Bu məni çox sevindirir və əminəm ki, sizi də. Çünki siz burada yaşayırsınız və sizin həyatınız burada keçir. Mən çox istəyirəm ki, Azərbaycan vətəndaşları yaşadıqları yerlərdən asılı olmayaraq, rahat yaşasınlar, xoşbəxt olsunlar. Bütün lazımi şərait olsun. Çalışırıq ki, bunları yaradaq – yollar, su xətləri, qazlaşdırma, sosial obyektlər, məktəblər.

Azərbaycan dövləti daim öz vətəndaşının maraqlarının keşiyindədir. Bunu həyat göstərir. Üzləşdiyimiz təbii fəlakətlər də göstərir ki, fəlakətlər baş verdikdə Azərbaycan dövləti öz vətəndaşını darda qoymur, onun problemlərini həll edir. Deyə bilərəm, Azərbaycan dünyada nadir ölkələrdəndir ki, vətəndaşlar üçün dövlət hesabına evlər tikir. Zəlzələ zamanı, zəlzələdən sonra burada olarkən mən demişdim ki, dövlət daha yaxşı evlər, binalar tikəcəkdir və belə də oldu. Bu zonada – Zaqatalada, Qaxda, Balakəndə, Şəkidə zəlzələyə məruz qalmış

evlər təmir olunur. Demək olar ki, onların mütləq əksəriyyəti artıq yenidən tikilmişdir. Bu da Azərbaycan reallıqlarıdır.

Azərbaycan müasir dövlətdir, iqtisadiyyatımız bazar iqtisadiyyatı prinsipləri üzərində qurulub, biz sosial dövlətik. Sosial dövlət o deməkdir ki, insan amili, Azərbaycan vətəndaşı, onun maraqları, onun rifahı siyasətimizin mərkəzindədir. Belə gözəl obyektlərin tikintisi də bu məqsədi güdür. Əminəm ki, bu Olimpiya İdman Kompleksi qaxlıların xidmətində olacaqdır. Sizi bir daha salamlayıram və bu hadisə münasibətilə təbrik edirəm.

**R a m i l  M ə m m ə d l i** *(əlbəyaxa döyüş üzrə dünya çempionatının finalçısı):* Möhtərəm cənab Prezident! Qaxın ictimaiyyəti, gəncləri və idmançıları adından Sizi salamlayıram, rayonumuza «Xoş gəlmisiniz!» – deyirəm. Bu gün Qaxın gəncləri, idmançıları üçün tarixi bir gündür. Rayonumuzda möhtəşəm Olimpiya İdman Kompleksi istifadəyə verilir. Ümumiyyətlə, son 10 ildə ölkə həyatının bütün sahələrində olan inkişaf idmandan da yan keçməmişdir. Bu gün Azərbaycanımız dünyada idman dövləti kimi tanınır və idmançılarımız ölkəmizi beynəlxalq yarışlarda layiqincə təmsil edir, bayrağımızı ən uca zirvələrə qaldıraraq himnimizi səsləndirirlər. Mən idmanın əlbəyaxa döyüş növü ilə məşğul oluram və son 10 ildə dünyanın müxtəlif ölkələrində – İtaliyada, Macarıstanda, Rusiyada, Ukraynada keçirilən dünya çempionatlarında çıxış etmişəm. Dünya çempionu, dünya çempionatının mükafatçısı və finalçısı olmuşam. Bütün bunlar Sizin əməyinizdir, cənab Prezident. Bunlara nail olmaq üçün Siz kömək göstərmisiniz. Elə açılışını etdiyimiz bu Olimpiya İdman Kompleksində də gələcəyin Avropa, dünya və olimpiya çempionları yetişəcək və ən əsası odur ki, bu kompleks gənclərimizin sağlam ruhda böyüməsinə xidmət edəcəkdir. Bunun üçün Qaxın bütün gəncləri, bütün idmançıları adından Sizə dərin minnətdarlığımı bildirirəm.

Möhtərəm cənab Prezident, ölkəmizin hər yerində tikinti-quruculuq işləri gedir və bu quruculuq işləri Qax rayonundan da yan keçməmişdir. Bu gün rayonumuz gündən-günə gözəlləşir,

böyüyür, abadlaşır. Qaxın bütün yaşayış məntəqələrində tikinti-quruculuq işləri aparılır, əhalinin sosial problemləri həll olunur, heç bir sakinimiz diqqətdən kənarda qalmır. Elə iştirakınızla rayonumuzda yeni su-kanalizasiya sisteminin yeni layihə əsasında qurulması buna əyani sübutdur.

Cənab Prezident, Siz ən ağır günümüzdə belə, bizi diqqətdən kənarda qoymursunuz. Bölgəmizdə baş verən zəlzələdən dərhal sonra Sizin rayona gəlişiniz, zərərçəkən vətəndaşlarla görüşləriniz onlarda psixoloji gərginliyi, qorxu hissini tamamilə aradan qaldırdı və onlar arxalarında güclü dövlətin və onun qayğıkeş rəhbərinin dayandığına bir daha əmin oldular.

Möhtərəm cənab Prezident, Siz hər bir Azərbaycan vətəndaşının, o cümlədən hər bir qaxlının layiqli həyat yaşaması üçün gözəl şərait yaratmısınız. Məhz bunun nəticəsidir ki, bu gün ölkədə Vətənini sevən sağlam gənclik yetişir. Mən bu gənclərin və idmançıların adından Sizə demək istəyirəm: Bu sağlam gənclik bu gününü, sabahını və gələcəyini yalnız və yalnız Sizə bağlayır. Sizə möhkəm idman sağlamlığı arzulayır, işlərinizdə uğurlar diləyirik.

**İ l h a m  Ə l i y e v:** Sağ ol. Uğurlarınız bizi daim sevindirir. Azərbaycan artıq dünyada idman ölkəsi kimi tanınır və bütün beynəlxalq yarışlarda bizim bayrağımız qaldırılır. Bu yaxınlarda Universiadada – tələbə idmançılar arasındakı beynəlxalq yarışda idmançılarımız 15-ci yerə layiq görülmüşlər. Bu yarışlarda 200-ə yaxın ölkə iştirak etmişdir. 16 medal qazanmışıq. Olimpiya oyunlarında da Azərbaycan ən qabaqcıl ölkələr sırasındadır. İdman, əlbəttə ki, sağlamlıqdır. İdman vətənpərvərlik hisslərini də gücləndirir, gənclərimiz vətənpərvərlik ruhunda tərbiyə alırlar və almalıdırlar. Bizim idman uğurlarımızı təmin edən idmançıların böyük əksəriyyəti müstəqillik dövründə doğulmuşlar, müstəqillik dövründə formalaşmışlar. Müstəqilliyin üstünlüklərini hər bir Azərbaycan vətəndaşı görür. Bu reallıqdır.

Mən keçən dəfə qeyd etmişəm, dəfələrlə demişəm və bir daha deyirəm ki, Azərbaycan tarixdə heç vaxt, heç bir tarixi

mərhələdə bu qədər güclü, bu qədər azad, bu qədər müstəqil olmamışdır. Müxtəlif tarixi dövrlərdə bizim dövlətçiliyimiz də olub, digər rəmzlərimiz, dövlət atributları da olub. Ancaq bugünkü müstəqillik mütləq müstəqillikdir. Bu müstəqillik ən böyük sərvətimizdir, ən böyük nemətimizdir. Gənclər də məhz bu ruhda tərbiyə almalıdır. Çünki gələcəkdə ölkəmizin taleyi onlardan asılı olacaqdır. Onların biliyindən, vətənpərvərliyindən, Vətənə sədaqətindən asılı olacaqdır. Bizim nəsil, yaşlı nəsil, orta nəsil elə nümunə göstərməlidir ki, gənclər bu nümunəni götürüb gələcəkdə, bax, bu yolla getsinlər – müstəqillik yolu ilə. Bir də ki, müstəqillik dövründə istər beynəlxalq aləmdə, istər iqtisadi sahədə o qədər böyük uğurlar əldə edilib ki, hər bir vətəndaş haqlı olaraq qürur hissi keçirir.

Bütün bölgələrdə, bütün rayonlarda inkişaf gedir. Mən dəfələrlə bölgələrdə oluram. Bu, son 10 il ərzində Qax rayonuna mənim 6-cı səfərimdir. Çalışıram ki, hər bir rayonda bir neçə dəfə olum. Ona görə ki, həm işlərə nəzarət olmalıdır, həm də görülən işlərlə tanış olmalıyam. Bir də ki, mənim səfərlərim, hesab edirəm ki, rayonda yaşayanlar üçün mühüm əhəmiyyət kəsb edir. Onlar da görürlər ki, diqqətdən kənarda qalmırlar. Onlar daim diqqət mərkəzindədirlər. Hər bir yerdə inkişaf, quruculuq, abadlıq vardır. Artıq bu meyillər o qədər güclüdür ki, indi rayonlar arasında sağlam rəqabət aparılır. Mən də bunun tərəfdarıyam. Hər dəfə hər yerdə deyirəm ki, çalışın ən qabaqcıl yerlərə çıxın. Deyə bilərəm ki, Qaxda aparılan quruculuq-abadlıq işləri rayonu ön plana çəkibdir. Siz də bunu bilirsiniz. Bu da sizin xidmətinizdir, zəhmətinizdir.

Əlbəttə ki, dövlət büdcəsindən bundan sonra da lazımi vəsait ayrılacaq. Hesab edirəm ki, yaxın gələcəkdə əsas infrastruktur layihələri tam şəkildə başa çatacaqdır. Su, kanalizasiya layihəsi artıq başa çatmışdır. Qazlaşdırma da gedir. Ondan sonra kənd yollarının tikintisi, iş yerlərinin açılması. Hələ ki, məktəb tikintisinə ehtiyac vardır. Qəzalı vəziyyətdə məktəblər yəqin ki, Qax rayonunda da vardır. Gələn il qəbul ediləcək regionların sosial-iqtisadi inkişafı üzrə 3-cü Dövlət Proqramı növbəti illər

ərzində əsas sənəd olacaqdır. Növbəti beşillik inkişaf proqramı da, demək olar ki, hazırdır. Gələn ilin əvvəlində qəbul ediləcəkdir. Bu proqram 2014–2018-ci illəri əhatə edəcəkdir. O proqramda hər rayonun, o cümlədən Qax rayonunun qalan problemləri də öz həllini tapacaqdır. Biz də yəqin ki, sizlərlə bundan sonra tez-tez görüşəcəyik. Çünki burada hələ açılışlar çox olacaqdır. Bir daha sizi salamlayıram.

## Heydər Əliyev Mərkəzinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 16-da Qaxa səfəri çərçivəsində Heydər Əliyev Mərkəzinin açılışında iştirak etmişdir.*

*Ölkəmizin hər yerində olduğu kimi, qaxlılar da ulu öndər Heydər Əliyevin xatirəsini əziz tuturlar. Şəhərdə yeni tikilən Heydər Əliyev Mərkəzi ümummilli liderin xatirəsinə dərin ehtiramın nümunəsidir. Mərkəzdə ulu öndərin həyata keçirdiyi müdrik siyasət nəticəsində müstəqilliyin ilk illərində ölkəmizdə vətəndaş müharibəsinin qarşısının alınması, iqtisadiyyatın ağır böhran vəziyyətindən çıxarılaraq inkişaf yoluna qədəm qoyması, Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun artırılması, qüdrətli ordu quruculuğu istiqamətində həyata keçirilən mühüm tədbirləri əks etdirən fotolara geniş yer verilib.*

*Dövlətimizin başçısı Mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi. Azərbaycan Prezidentinə məlumat verildi ki, milli memarlıq ənənələrini saxlamaqla, ən müasir üslubda tikilən Mərkəzin inşasına 2011-ci ilin noyabrında başlanılıb. Yerli inşaat materiallarının istifadə edildiyi tikinti işləri rayonun daxili imkanları hesabına həyata keçirilib. Foyedə ümummilli lider Heydər Əliyevin möhtəşəm abidəsi və məlumat-informasiya köşkü vardır.*

*Ümumi sahəsi 670 kvadratmetr olan əsas zal 4 hissəyə bölünüb. Lakin hərəkət edən arakəsmələr zalı bütöv şəklə salaraq 600 nəfərin iştirakı ilə konfrans keçirməyə imkan verir. Zalın yan divarları səkkizguşəli ornamentli şüşələrlə örtülüb,*

*xüsusi ekranlar və tablolarda ümummilli liderin həyat və fəaliyyətini əks etdirən fraqmentlər işıqlandırılıb. Zalın bir hissəsi 8 qatlı xüsusi elektron pərdə ilə kəsilərək kinozala çevrilib. Burada Azərbaycanın müasir tarixini, iqtisadi və sosial inkişafını əks etdirən filmlər nümayiş olunur.*

*Prezident İlham Əliyev zalda Qax rayonunun elektron xəritəsinə, eləcə də ulu öndərin xarici ölkələrə səfərlərini əks etdirən elektron lövhələrə baxdı.*

*Mərkəzdə xoreoqrafiya, milli və bal rəqsləri, sənət dərnəkləri fəaliyyət göstərəcəkdir. Burada, həmçinin ingilis, yapon və rus dilləri sinfi vardır. Mərkəzdə internet-kafe, elektron kitabxana, virtual otaqlar da yüksək standartlara cavab verir.*

*Prezident İlham Əliyev Heydər Əliyev Mərkəzində yaradılmış şəraiti yüksək qiymətləndirdi və Xatirə kitabına ürək sözlərini yazdı.*

## Su təchizatı və kanalizasiya sistemləri kompleksinin istifadəyə verilməsi mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev Qax şəhərinin su təchizatı və kanalizasiya sistemləri kompleksinin istifadəyə verilməsi mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısı Qax şəhərinin su təchizatı sistemlərinin baş planını və şəhərin 1 saylı su anbarının görüntülərini əks etdirən stendlərə baxdı.*

*«Qax şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması» layihəsi barədə məlumat verən «Azərsu» Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov bildirdi ki, kompleksin təməli dövlətimizin başçısının iştirakı ilə 2011-ci il noyabrın 17-də qoyulub.*

*Qeyd edildi ki, Qax şəhərinin su təchizatı sistemi XX əsrin 60-cı illərinin sonlarında yaradılıb. Yeni layihənin icrasına qədər şəhər sakinləri Kürmük və Qumçay çaylarının, həmçinin subartezian quyularının sularından istifadə edirdilər. Mövcud 25 kilometrlik magistral və 52 kilometrlik paylayıcı su xətləri*

istismara yararsız vəziyyətdə olduğundan əhalinin içməli su təchizatında fasilələr yaranırdı. Qax şəhərinin 13 min sakininin 9 mini mərkəzləşmiş qaydada gün ərzində 4–6 saat olmaqla, cədvəl əsasında içməli su ilə təchiz edilirdi. Mərkəzləşmiş su təchizatı sistemi olmayan yerlərdə isə əhali tələbatını fərdi qaydada ödəmək məcburiyyətində idi.

Layihəyə əsasən İlisu kəndinin yaxınlığındakı bulaqlardan Qax şəhərinə gətirilən su həm yeni qurulmuş, həm də mövcud şəbəkə vasitəsilə əhaliyə verilir. Bunun nəticəsidir ki, artıq şəhər yeni mənbədən 100 faiz fasiləsiz su ilə təmin olunur. Bulaq sularının toplanması məqsədilə ərazidə məhsuldarlığı saniyədə 80 litr olan suqəbuledici qurğu tikilmiş və buradan Qax şəhərinə qədər 6,7 kilometr uzunluğunda magistral su kəməri çəkilmişdir. Qax şəhərini fasiləsiz rejimdə içməli su ilə təmin etmək üçün hər birinin tutumu 1000 kubmetr olan 6 anbar tikilib. İnşası nəzərdə tutulan 119 kilometrlik şəhərdaxili su şəbəkəsinin 90 kilometrlik hissəsində işlər yekunlaşıb, 2 mindən artıq ünvan şəbəkəyə qoşulub. İçməli sudan istifadənin dəqiq uçotunun aparılması məqsədilə «smartkart» tipli sayğacların quraşdırılması da davam etdirilir və indiyədək 5,9 min abunəçinin 1500-ü sayğacla təmin olunub.

Diqqətə çatdırıldı ki, yeni layihə həyata keçirilənədək Qax şəhərində kanalizasiya şəbəkəsi, ümumiyyətlə, mövcud olmayıb. Layihəyə uyğun olaraq Qax şəhərində ilk dəfə kanalizasiya sistemi yaradılır. Bu məqsədlə 17 kilometr uzunluğunda kanalizasiya kollektoru inşa edilmiş, 89,5 kilometrlik kanalizasiya şəbəkəsinin 35 kilometrlik hissəsində işlər başa çatdırılmışdır. Yaranacaq tullantı suları şəhərin kənarında tikiləcək və məhsuldarlığı sutkada 8 min kubmetr olacaq çirkab sutəmizləyici qurğuya ötürüləcəkdir.

Bildirildi ki, «Qax şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi» 2035-ci ilə qədər perspektiv inkişaf nəzərə alınmaqla, Qax şəhərində 14 min nəfərin su təchizatı və kanalizasiya xidmətlərinin, Qaxbaş və

*Qaxingiloy kəndlərində isə 7,5 min nəfərin içməli su təchizatının yaxşılaşmasına hesablanıb.*

*Dövlətimizin başçısı Qax şəhərinə içməli suyun verilməsini bildirən düyməni basdı.*

*Sonra prezident İlham Əliyev «Azərsu» ASC-nin əməkdaşları və inşaatçılarla görüşdü.*

## «El Resort» hotelinin Konfrans Mərkəzinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev Qaxda «El Resort» hotelinin Konfrans Mərkəzinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı Konfrans Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsdi. Son illərdə respublikamızda turizm sektorunun inkişafına böyük diqqət göstərilir. Paytaxt Bakı ilə yanaşı, regionlarda da müasir turizm obyektlərinin inşası geniş vüsət alıb. Qax rayonunda da turizm potensialının inkişafı diqqət mərkəzində saxlanılır. Bu baxımdan 2011-ci il noyabrın 16-da prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilən «El Resort» hotel-kompleksi də mühüm əhəmiyyət daşıyır.*

*Məlumat verildi ki, Konfrans Mərkəzinin tikintisinə 2011-ci ildə başlanılmışdır. Müasir layihə əsasında tikilən mərkəzin ərazisi 3 min kvadratmetrdən çoxdur. Sahəsi 1080 kvadratmetr olan birinci mərtəbədəki sütunsuz böyük zalda 900 nəfərə xidmət göstərilə bilər. Zalda 4 böyük ekran və bunlara uyğun proyektorlar quraşdırılıb. Böyük zal, həmçinin ən müasir avadanlıqla təchiz edilib.*

*Konfrans Mərkəzinin mətbəxində quraşdırılmış avadanlıqlar İtaliyanın «Zanussi» firmasının istehsalıdır.*

*Mərkəzin ikinci mərtəbəsindəki zallarda da yüksək səviyyəli xidmətin göstərilməsi mümkündür. Zallar ən müasir mobil audio-video avadanlığı ilə təchiz edilib. Mərkəzin ərazisində 100 avtomobillik dayanacaq inşa olunub. Konfrans Mərkəzində bütün infrastruktur ən müasir səviyyədə qurulub.*

*Prezident İlham Əliyev Konfrans Mərkəzi ilə tanışlıqdan sonra «El Resort» hotelinin tikintisi davam etdirilən «Şimal» blokunun sxemlərinə və fotostendlərinə baxdı.*

*Məlumat verildi ki, beşmərtəbəli binanın tikintisinə 2012-ci ilin noyabr ayında başlanılıb və işlərin 2013-cü ilin sonunda yekunlaşdırılması planlaşdırılıb. Kompleksin ümumi ərazisi 2,7 hektar, tikinti sahəsi isə 2000 kvadratmetrdir. «Şimal» blokunun birinci mərtəbəsində boulinq mərkəzi, bar, 120 yerlik kafe, 240 yerlik restoran fəaliyyət göstərəcəkdir. Binada 82 nömrə olacaqdır. Yeni kompleksdə 60 nəfərin işlə təmin olunması nəzərdə tutulub.*

*Tikinti işlərinin gedişi ilə tanışlıqdan sonra prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.*

## BALAKƏN RAYONUNA SƏFƏR

*17 avqust 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 17-də Balakən rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

*Balakən Rayon İcra Hakimiyyətinin başçısı İslam Rzayev prezident İlham Əliyevə abidənin yerləşdiyi Heydər Əliyev parkında yaradılan şərait barədə məlumat verdi. Bildirildi ki, parkda geniş abadlıq-quruculuq işləri aparılıb, yaşıllıq zolağı salınıb. Ümumi sahəsi 22 hektar olan bu park indi Balakən sakinlərinin və qonaqların ən sevimli istirahət məkanlarından biridir.*

### Balakən Rayon Mədəniyyət Mərkəzinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 17-də Balakən Rayon Mədəniyyət Mərkəzinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi. Son illər Azərbaycanda mədəniyyətin inkişafına göstərilən qayğı daha da artmış, bu sahədə çalışanların iş şəraitini günün tələbləri səviyyəsinə çatdırmaq üçün məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Mədəniyyətin və incəsənətin inkişafına diqqət yeni mədəniyyət ocaqlarının inşasında da özünü büruzə verir. Bu tədbirlər paytaxtla yanaşı, regionlarda da geniş vüsət alıb. Son dövrlərdə bölgələrdə müasir tipli yeni mədəniyyət infrastrukturu yaradılmış, çoxlu sayda mədəniyyət obyektləri tikilib istifadəyə verilmişdir. Balakəndə inşa olunan Mədəniyyət Mərkəzi də bu sırada mühüm yer tutur.*

Dövlətimizin başçısına məlumat verildi ki, mərkəzin tikintisinə 2012-ci ilin iyulunda başlanılmışdır. İnşaat işləri yüksək səviyyədə aparılıb. Binanın ətrafında geniş abadlıq və yaşıllaşdırma işləri görülüb. Bunun nəticəsində mərkəzin binası rayonun gözəlliyini daha da artırıb.

Binanın foyesində ulu öndər Heydər Əliyevin, prezident İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın mədəniyyətin inkişafına diqqət və qayğılarını əks etdirən fotostend yaradılıb. İkimərtəbəli binanın ümumi sahəsi 3 min 244 kvadratmetrdir. Mərkəzin 260 yerlik tamaşa zalında müxtəlif mədəni tədbirlərin yüksək səviyyədə keçirilməsi üçün hər cür şərait yaradılıb. Mərkəzdə yeməkxana, texniki və xidməti otaqlar da vardır. Binanın ikinci mərtəbəsində isə müxtəlif dərnəklər fəaliyyət göstərəcəkdir. Burada rəsm zalı, heykəltəraşlıq, əmək, rəqs, musiqi dərnəkləri və müəllimlər otaqları vardır.

Mərkəzlə tanışlıqdan sonra dövlətimizin başçısı Balakən rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

## BALAKƏN RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*17 avqust 2013-cü il*

Sabahınız xeyir olsun. Sizi ürəkdən salamlayıram, Balakən Mədəniyyət Mərkəzinin açılışı münasibətilə təbrik edirəm. Çox gözəldir, Balakənə yaraşan bir mərkəzdir. Burada dərnəklər, böyük konsert zalı yaradılıbdır. Yəni burada rayonun müxtəlif tədbirləri keçiriləcək. Memarlıq baxımından da gözəl binadır, şəhərə əlavə yaraşıq verəcəkdir.

Mən artıq bir neçə dəfə Balakəndə səfərdə olmuşam və hər dəfə açılışlarda iştirak edirəm. Şadam ki, bu açılışların sayı artır. Balakənin son illər ərzində inkişafı məni və yəqin ki, sizi çox sevindirir. Çünki doğrudan da son illərdə böyük bir irəliləyiş olmuşdur. Balakəndə sosial problemlər öz həllini tapır. Keçən səfərlərimdə biz böyük xəstəxananın açılışını qeyd etmişdik. Burada Olimpiya Kompleksi, digər sosial obyektlər yaradılır. İnsanların istirahəti üçün gözəl imkanlar vardır. Deyə bilərəm ki, Azərbaycanın bölgələrində bəlkə də ən böyük istirahət parkı Balakəndədir. Çox gözəl, möhtəşəm parkdır. Həm böyük rəmzi məna daşıyır, eyni zamanda, insanların rahat istirahəti üçün də çox gözəl imkanlar vardır.

Balakəndə iqtisadi sahədə işlər yaxşı gedir, yeni müəssisələr, iş yerləri açılır. Bu da çox vacibdir. Çünki ölkəmizin uğurlu inkişafı üçün ilk növbədə, iqtisadiyyat inkişaf etməlidir. Deyə bilərəm ki, bu istiqamətdə son illərdə bütün bölgələrdə nəticələr yaxşıdır, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının ikinci hissəsi başa çatır. Proqram artıqlaması ilə yerinə yetirilibdir və gələn ilin əvvəlindən üçüncü proqram icra edilməyə

başlayacaqdır. Beləliklə, növbəti 5 il ərzində bu günə qədər həll edilməmiş problemlər də öz həllini tapmalıdır.

Ancaq qeyd etməliyəm ki, Balakəndə əsas infrastruktur layihələrinin icrası başa çatır. Qazlaşdırma 95 faizə çatmışdır. Demək olar ki, bütün kəndlərdə də qaz xətləri çəkilib. Heç vaxt bu belə olmamışdır. İçməli su, kanalizasiya layihələrinin icrası da yəqin ki, gələn ilin sonuna qədər başa çatacaq və beləliklə, şəhər və ətraf kəndlər 24 saat təmiz içməli su ilə təmin ediləcək. Bu layihələr indi, demək olar ki, hər həftə istifadəyə verilir. 2 həftə ərzində Kürdəmirdə, İsmayıllıda, Oğuzda belə layihələr istifadəyə verilmişdir. Bu gün Zaqatalada içməli su layihəsi istifadəyə verilir. Balakəndə isə gələn il bu layihə artıq istifadəyə veriləcəkdir.

Yəni sosial infrastruktur, digər layihələr icra edilir və biz növbəti illərdə yəqin ki, daha çox kənd yollarının bərpasına diqqət verməliyik. Bu proses də başlamış, ölkəmizdə geniş vüsət almışdır. Ancaq bildiyiniz kimi, bu çox böyük vəsait tələb edən layihələrdir və zamana da ehtiyac vardır. Çünki kənd yollarımızın əksəriyyəti yararsız vəziyyətdə idi. Son illərdə bu sahəyə çox böyük vəsait ayrılır və çalışırıq ki, hər bir rayonda heç olmasa 1 və ya 2 böyük layihə icra edilsin. Ona görə hər bir rayonun kənd yollarının tam şəkildə bərpası bir qədər vaxt tələb edəcəkdir. Ancaq hesab edirəm ki, növbəti 5 il ərzində, bəlkə də ondan da tez bütün kənd yolları qurulacaq, tikiləcəkdir. Yəni qarşıya belə bir vəzifə qoyulubdur. Bütövlükdə deyə bilərəm ki, hər bir sahədə biz maksimum hədəfləri seçirik və o hədəflərə çatmaq üçün ardıcıl siyasət aparırıq. Hər bir rayonun öz proqramları, öz inkişaf dinamikası vardır. Balakəndə bu dinamika çox müsbətdir.

Burada iqtisadi inkişaf, sosial məsələlərin həlli, gözəllik, abadlıq işləri məni sevindirir. Əlbəttə, Balakən çoxmillətli diyardır. Bu bizim böyük sərvətimizdir. Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkədir və deyə bilərəm ki, artıq Azərbaycan dünya miqyasında tolerantlıq mərkəzi kimi tanınır. Azərbaycanda müxtəlif beynəlxalq tədbirlər keçirilir. Bu tədbirlər böyük dərəcədə diqqəti cəlb edir.

Tədbirlərin keçirilməsi özlüyündə vacib hadisədir. O konfranslarda, forumlarda səslənən fikirlər hesab edirəm ki, dünyada proseslərin müsbət istiqamətdə getməsinə xidmət göstərir. Əfsuslar olsun ki, müxtəlif yerlərdə – Avropada, Orta Şərqdə, müxtəlif bölgələrdə dini və milli dözümsüzlük hökm sürür. Bu, zəmanənin mənfi əlamətidir və bu proseslər kəskinləşir. Əfsuslar olsun ki, dünyada qarşıdurmaya aparan bəzi siyasətçilərin, siyasi qrupların fəaliyyəti fəlakətlərə gətirib çıxarır. Bunu biz indi izləyirik. Bu gün biz internet dövründə yaşayırıq, hər bir məlumatı televiziya vasitəsilə əldə etmək üçün bütün imkanlar vardır. Əlbəttə ki, bu bizi çox narahat edir və üzür. Çünki belə olmamalıdır. Bütün xalqlar, bütün dinlərin nümayəndələri sülh, qardaşlıq şəraitində yaşamalıdırlar. Bütün xalqlar bir-birinə hörmət əsasında yaşamalıdırlar. Yəni dünyada gedən proseslər, əlbəttə ki, bizi narahat etməlidir. Çünki biz təcrid edilmiş vəziyyətdə, adada yaşamırıq. Çalışırıq ki, Azərbaycanda yaradılmış müsbət təcrübə artıq hüdudlarımızın kənarına çıxsın və Azərbaycan təcrübəsi daha geniş şəkildə öyrənilsin, bizdə mövcud olan gözəl ab-hava və qardaşlıq iqlimi dünyaya, heç olmasa, bölgəyə yayılsın.

Ölkəmizə gəldikdə isə, Azərbaycanda milli məsələlər ən yüksək səviyyədə həll olunur. Bəlkə də bu barədə çox danışılmır. Buna ehtiyac da yoxdur. Ancaq cəmiyyətimizin inkişafı, cəmiyyətdə mövcud olan həyat tərzi, bizim milli dəyərlərimiz, ümumbəşəri dəyərlərin Azərbaycanda geniş şəkildə tətbiq edilməsi bu vacib sahədə də müsbət nəticələrə gətirib çıxarmışdır. Bu gün Azərbaycanın müxtəlif bölgələrində sülh, əmin-amanlıq, təhlükəsizlik hökm sürür. Bunun təməlində, əlbəttə ki, düşünülmüş siyasət və cəmiyyətin bu məsələlərə münasibəti dayanır. Çünki bu məsələlər təkcə dövlət siyasəti ilə tənzimlənə bilməz. Dövlət, əlbəttə ki, öz tərəfindən bütün lazımi tədbirləri görür, vəziyyətə nəzarət edir, çatışmayan bütün məsələləri həll etməyə çalışır və həll edir.

Ancaq bizim üstünlüyümüz ondan ibarətdir ki, Azərbaycan cəmiyyətində bu gözəl qardaşlıq ab-havası yaşanır və güclənir.

Bizim sərvətimiz bizim müxtəlifliyimizdədir, bizim sərvətimiz bizim birliyimizdədir. Azərbaycanda yaşayan hər bir xalqın, hər bir dinin nümayəndəsinin hüquqları lazımi şəkildə qorunur. Azərbaycan bizim vətənimizdir, biz hamımız Azərbaycan vətəndaşlarıyıq və milli müxtəliflik bir daha demək istəyirəm ki, bizim böyük sərvətimizdir. Bu, gözəl sözlər deyil, reallıqdır. Hər bir vətəndaş, xüsusilə çoxmillətli bölgələrdə yaşayan vətəndaşlar bu gözəl dinamikanı saxlamalıdırlar, bu reallıqları düzgün qiymətləndirməlidirlər və öz fəaliyyətləri ilə ümumi işimizə töhfə verməlidirlər.

Bir daha demək istəyirəm ki, bu gün Azərbaycan milli və dini problemlərin həlli işində nümunə ölkədir. Azərbaycanda keçirilən mötəbər beynəlxalq tədbirlər, bu tədbirlərdə səslənən fikirlər, o cümlədən dünya şöhrətli alimlərin, Nobel mükafatçılarının çıxışlarında səslənən fikirlər dediyim sözləri təsdiq edir. Biz dünyaya açığıq və eyni zamanda, öz milli dəyərlərimizi qoruyuruq. Biz ümumbəşəri dəyərləri bölüşürük, ancaq bizim üçün əsas milli dəyərlərdir, bizim dəyərlərimizdir. Bu dəyərlər üzərində müasir, müstəqil dövlət qurulmuşdur və bu dövlət gündən-günə güclənir. Dövlətin gücü bölgələrin gücündən qaynaqlanır. Regional inkişaf proqramlarının qəbul edilməsi məhz bu məqsədi güdürdü. Çünki əvvəlki Balakəni indiki Balakənlə müqayisə etmək mümkün deyil. Bundan əvvəl, demək olar ki, burada görüləsi işlər çox idi. Yadımdadır, ilk dəfə buraya gələrkən demişdim ki, əminəm, inkişaf olacaq və Azərbaycan dövləti bu bölgənin inkişafına öz dəstəyini verəcəkdir. Bu gün bu bölgə cənnətə çevrilib. Bakıdan başlayaraq Qobustan, Şamaxı, İsmayıllı, Qəbələ, Oğuz, Şəki, Qax, Zaqatala, Balakən – bütün bu zona canlanır, turizm mərkəzinə çevrilir, beynəlxalq tədbirlər, sammitlər keçirilir. Əlbəttə, bu Azərbaycanın inkişafını göstərir.

Hər bir bölgənin uğurlu inkişafı nəticədə ölkəmizin inkişafını təmin edir. O ki qaldı iqtisadi məsələlərə, iqtisadi islahatlar aparılır və bu ilin 7 ayının göstəriciləri də çox müsbətdir. İqtisadiyyat artır, qeyri-neft sektoru təxminən 11 faiz artmışdır.

Bu da dünyada rekord göstəricidir. Bütün maliyyə, iqtisadi böhranlar Azərbaycandan yan keçir. Ona görə yox ki, Azərbaycanı əhatə edə bilmir. Ona görə ki, Azərbaycanda bəzi başqa ölkələrdən fərqli olaraq düşünülmüş siyasət aparılır və heç vaxt lazımsız borclanma siyasəti aparılmır. Biz öz hesabımıza yaşayırıq, müstəqil yaşayırıq. Ölkəmiz gündən-günə güclənir və iqtisadi müstəqilliyi nəticəsində siyasi müstəqilliyini də təmin edir.

Bu gün Azərbaycan, sözün əsl mənasında, müstəqil dövlətdir. O dövlətdir ki, uğurla, inamla irəliyə gedir. Bizim üçün bütün hədəflər müəyyən edilibdir. Biz inkişaf etmiş ölkəyə çevrilməliyik və çevriləcəyik. Buna nail olmaq üçün, əlbəttə ki, hər bir vətəndaşın töhfəsi çox vacibdir. Balakənlilər həmişə olduğu kimi, Vətənə, dövlətə, dövlətçiliyə sadiqdirlər, öz işləri ilə bizim ümumi işimizə də təkan verirlər. Belə gözəl binaların yaradılması, əlbəttə ki, dediyim sözlərin sübutudur. Bir daha sizi təbrik edirəm və gələcək işlərinizdə uğurlar arzu edirəm.

**Səbuhi Alqayev** *(rayon sakini):* Möhtərəm cənab Prezident! Sizi rayon ictimaiyyəti və gənclərimiz adından salamlayıram. Balakənə xoş gəlmisiniz! Bu gün rayonumuzun həyatında olduqca əlamətdar bir gündür. Gözəl memarlıq üslubunda tikilmiş möhtəşəm Mədəniyyət sarayının açılışını etdiniz. Belə bir mərkəzin tikilməsi hər bir balakənlinin, xüsusən də biz gənclərin ürəyincədir. Çünki biz gənclər üçün burada hər cür şərait yaradılmışdır. Bildiyiniz kimi, Balakən çoxmillətli rayondur. Belə bir möhtəşəm Mədəniyyət Mərkəzinin tikilməsi çoxmillətli rayonumuzda yaşayan xalqların zəngin mədəni irsinin qorunmasına və inkişafına, burada fəaliyyət göstərəcək müxtəlif dərnəklər isə istedadlı və yaradıcı gənclərin mövcud potensialının üzə çıxarılmasına, əhalimizin mədəni istirahətinə xidmət edəcəkdir. Buna görə bütün rayon sakinləri və gənclərimiz adından Sizə dərin minnətdarlığımı bildirirəm, cənab Prezident. Sizin rəhbərliyinizlə ölkəmiz ağlasığmaz dərəcədə dəyişmiş, yeniləşmişdir. Azərbaycanımız qüdrətli, dünya miqyasında xüsusi

yeri olan bir dövlətə çevrilmişdir. Bu təkcə mənim deyil, bütün gənclərimizin, bütün ziyalılarımızın fikridir, cənab Prezident! Bu Sizin siyasətinizin nəticəsidir. Bu Sizin xalqa, Vətənə xidmətinizin bir nümunəsidir. Biz gənclər Sizdən nümunə götürürük, cənab Prezident. Sizi gənclər özünə lider seçiblər və Sizin arxanızca gedirlər. Çünki Sizin bir amalınız var, cənab Prezident, Azərbaycanımızı daha qüdrətli etmək, ölkəmizin xoşbəxt yaşayışını və firavan həyat tərzini təmin etmək!

Rayonumuzda keçirdiyiniz bütün görüşlərinizdə, o cümlədən respublikamızda keçirilən görüşlərdə Siz həmişə qeyd edirsiniz ki, ölkəmizin parlaq gələcəyi biz gənclərin əlindədir. Gənclərimiz isə bilikli və savadlı olmalıdırlar. Bunun üçün Siz biz gənclər üçün hər bir şərait yaratmısınız. Buna görə Sizə minnətdarıq, cənab Prezident. Bu gün minlərlə gəncimiz dövlət hesabına xarici ölkələrdə təhsil alır. Onlar ölkəmiz üçün lazım olan ixtisaslara və texnologiyalara yiyələnərək, yüksək hazırlıqlı mütəxəssis kimi, iqtisadiyyatımızın müxtəlif sahələrində çalışırlar. Bu gün biz gənclər də öz məsuliyyətimizi başa düşürük. Bilirik ki, yaxşı oxumalıyıq, əzmlə çalışmalıyıq.

Möhtərəm cənab Prezident, bildiyiniz kimi, təbiət gözlənilməz hadisələrlə biz insanları sınağa çəkir. 2012-ci ildə bölgəmizdə baş vermiş zəlzələ zamanı Siz bir daha hər bir azərbaycanlının Prezidenti olduğunuzu nümayiş etdirdiniz. Heç kəsi darda qoymadınız. Sizin rəhbərliyinizlə balakənlilər üçün yeni evlər tikildi, müasir məktəblər inşa edildi. Siz bizə yeni həyat bəxş etdiniz.

Möhtərəm cənab Prezident, biz gənclər Sizə güvənir, Sizə arxalanırıq, Sizinlə fəxr edirik, qürur duyuruq. Əmin ola bilərsiniz ki, həyata keçirəcəyiniz bütün işlərdə bütün balakənlilər, bütün Balakən gəncləri həmişə Sizinlə olacaqlar.

**İ l h a m  Ə l i y e v:** Sağ olun!

* * *

*Dövlətimizin başçısı bütün bölgələrimiz kimi, Balakənin inkişafı ilə bağlı tədbirlərin bundan sonra da davam etdiriləcəyini bildirdi.*

*Sakinlər də buna görə prezident İlham Əliyevə bir daha təşəkkürlərini çatdırdılar.*

## Yeni Azərbaycan Partiyası Balakən rayon təşkilatının inzibati binasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 17-də Yeni Azərbaycan Partiyası Balakən rayon təşkilatının inzibati binasının açılışı mərasimində iştirak etmişdir.*

*Azərbaycanın bugünkü sürətli inkişafında, ölkəmizin beynəlxalq nüfuzunun artmasında, bütün sahələrdə tərəqqisində aparıcı siyasi qüvvə olan Yeni Azərbaycan Partiyasının çox mühüm və davamlı rolu vardır. Yeni Azərbaycan Partiyası Vətənin tərəqqisinə, dövlətçiliyin möhkəm təməllər üzərində qurulmasına mühüm töhfələr verir. Bu gün partiyanın sıraları genişlənir və fəaliyyəti keyfiyyətcə yeni mərhələyə qədəm qoyur. Bu, Yeni Azərbaycan Partiyasının cəmiyyətdə qazandığı böyük nüfuzun nəticəsidir.*

*Ümumi amallar naminə göstərilən uğurlu fəaliyyətdə partiyanın rayon təşkilatlarının rolu danılmazdır. Bu gün Yeni Azərbaycan Partiyasının rayon təşkilatları üçün tikilən yeni inzibati binalar müasirliyi ilə diqqəti çəkir. Bu binalarda ən yüksək şərait yaradılır. Belə binalardan biri də Yeni Azərbaycan Partiyası Balakən rayon təşkilatının inzibati binasıdır.*

*Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi. Məlumat verildi ki, binanın inşasına 2013-cü ilin aprelində başlanılmışdır. Ətrafda geniş abadlıq-quruculuq işləri aparılmış, yaşıllıq salınmışdır. Tikinti işləri yüksək keyfiyyətlə görülmüş və qısa müddətdə başa çatdırılmışdır. İkimərtəbəli binanın ümumi sahəsi 1000 kvadratmetrə yaxındır. Foyedə Yeni Azərbaycan Partiyasının yaranma tarixini əks etdirən guşə yaradılıb. Burada Yeni Azərbaycan Partiyasının banisi,*

*ümummilli lider Heydər Əliyevin və partiyanın sədri, prezident İlham Əliyevin siyasi fəaliyyətləri ilə bağlı yaradılan fotostend də böyük maraq doğurur. Binadakı akt zalında da hər cür şərait vardır. Müasir akustika sistemi və digər zəruri avadanlıqla təchiz edilən 100 yerlik zalda istər partiyanın fəaliyyəti, istərsə də rayonun ictimai-siyasi həyatında baş verən əlamətdar hadisələrlə bağlı tədbirlər keçirmək mümkündür.*

*Diqqətə çatdırıldı ki, binada 15 nəfərlik konfrans zalı da vardır. Bütün inzibati otaqlarda yüksək şərait yaradılıb. Yeni Azərbaycan Partiyasının rayon təşkilatları üçün belə müasir binaların tikilməsi ilk növbədə, işçilərin yüksək səviyyədə fəaliyyət göstərməsinə geniş imkanlar açır.*

*Binanın eyvanından şəhəri seyr edən dövlətimizin başçısına Balakəndə görülmüş abadlıq-quruculuq işləri barədə məlumat verildi.*

*Prezident İlham Əliyev binada yaradılmış şəraiti yüksək qiymətləndirdi, tapşırıq və tövsiyələrini verdi.*

## Katex kəndində inşa olunan soyuducu anbar kompleksinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 17-də Balakənə səfəri çərçivəsində Katex kəndində inşa olunan soyuducu anbar kompleksinin açılışında iştirak etmişdir.*

*Son 10 ildə prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə qeyri-neft sektorunun inkişafı istiqamətində mühüm işlər görülüb. Respublikamızda sahibkarlığın inkişafına yüksək səviyyədə dövlət qayğısı göstərilir. Bunun nəticəsidir ki, indi bütün istiqamətlərdə, o cümlədən kənd təsərrüfatı sahəsində sahibkarlıq fəaliyyətilə məşğul olanların sayı artır. Bu, yeni soyuducu anbarların yaradılmasında da özünü göstərir. Belə soyuducu anbarlardan biri də Balakən rayonunun Katex kəndində inşa olunub.*

*Dövlətimizin başçısı Katex Soyuducu Anbar Kompleksinin texniki və texnoloji xarakteristikasının sxemini, kənd təsərrüfatı*

*məhsullarının saxlanmasının səmərəliliyini, rayonda illər üzrə meyvə və tərəvəz istehsalının dinamikasını əks etdirən stendlərə baxdı.*

*Bildirildi ki, kompleks bütün zəruri avadanlıqla təchiz edilərək, müasir səviyyədə yaradılıb. Belə layihələrin reallaşması qeyri-neft sektorunun inkişafına təkan verməklə yanaşı, həm də ərzaq təhlükəsizliyi baxımından mühüm əhəmiyyətə malikdir. Bu gün fermer-sahibkarlar və kənd təsərrüfatı istehsalçıları hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. Belə soyuducu anbar kompleksinin onların ixtiyarına verilməsi də bunun əyani təzahürüdür.*

*Diqqətə çatdırıldı ki, kompleksin inşasına 2011-ci ilin sentyabrında başlanılmışdır. Tikinti işləri ən müasir standartlara uyğun olaraq görülmüşdür. Sahəsi 1,36 hektar olan kompleksə 12 soyuducu kamera və inzibati bina daxildir. Kompleksdə quraşdırılan avadanlıq Almaniyanın və Hollandiyanın aparıcı şirkətlərinin istehsalıdır. Burada hər birinin tutumu 1417 kubmetr olan 12 saxlama kamerası vardır. Soyuducu kompleksin ümumi tutumu isə 17 min kubmetr və ya 4,5 min tondur. Burada Balakən rayonunun və ətraf rayonların fermerlərinin istehsal etdikləri meyvə və tərəvəzin uzun müddət və itkisiz saxlanılması nəzərdə tutulur. Bu kompleksin istifadəyə verilməsi ümumilikdə bölgədə meyvəçiliyin və tərəvəzçiliyin inkişafına təkan verəcəkdir.*

*Bildirildi ki, Katex kəndində kompleksə məxsus 50 hektar sahədə meyvə bağları da salınıb. Meyvə bağlarında xaricdən gətirilmiş alma sortları əkilib, damcı üsulu ilə suvarma sistemi qurulub. Həmin bağlardan tədarük edilən meyvə soyuducu anbar kompleksində saxlanılacaqdır. Bu obyektin istifadəyə verilməsi həm də rayonda yeni iş yerlərinin açılması istiqamətində görülən tədbirlərdən biridir. Yeni soyuducu anbar kompleksində ilkin olaraq 103 nəfər işlə təmin ediləcəkdir. Gələcəkdə işçilərin sayının artacağı nəzərdə tutulur.*

*Prezident İlham Əliyev soyuducu anbar kompleksini işə saldı və tapşırıqlarını verdi.*

## ZAQATALA RAYONUNA SƏFƏR

*17 avqust 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 17-də Balakənə səfərini başa çatdıraraq Zaqatalaya gəlmişdir.*

*Dövlətimizin başçısı Zaqataladakı Heydər Əliyev parkında xalqımızın ümummilli liderinin abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

*Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə məlumat verdi ki, Heydər Əliyev parkı son illərdə sakinlərin istirahət üçün ən çox üz tutduqları məkanlardan birinə çevrilib. Burada yerli əhali və eləcə də qonaqların istirahətinin təşkili üçün hər cür şərait vardır.*

### «Tumurcuq» uşaq bağçasının açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 17-də Zaqatala rayonuna səfəri çərçivəsində «Tumurcuq» uşaq bağçasının açılışında iştirak etmişdir.*

*Hazırda uşaqların keyfiyyətli təhsil və dünya standartlarına cavab verən tibbi xidmətlərlə təmin edilməsi, hərtərəfli qayğı ilə əhatə olunması, onlar üçün zəruri şəraitin yaradılması, böyüməkdə olan nəslin layiqli vətəndaş kimi formalaşması Azərbaycanda dövlət uşaq siyasətinin başlıca prinsiplərindəndir. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq körpələr evləri, uşaq bağçaları, internat və orta məktəblərin əsaslı şəkildə yenidən qurulması bu istiqamətdə aparılan işlərin ardıcıl xarakter aldığını göstərir. Uşaqlara qayğı və diqqət, gələcək nəslin fiziki və mənəvi cəhətdən sağlam böyüməsi Heydər Əliyev Fondunun fəaliy-*

*yətində də əsas yer tutur. Zaqatala rayonundakı «Tumurcuq» uşaq bağçası da Fondun dəstəyi ilə inşa edilib.*

*Dövlətimizin başçısı bağçanın rəmzi açılışını bildirən lenti kəsdi, burada yaradılan şəraitlə tanış oldu. Məlumat verildi ki, uşaq bağçası binasının inşasına ötən ilin mayında başlanılıb. Bağçanın ümumi sahəsi 785 kvadratmetr, həyətyanı sahəsi isə yarım hektardır. 100 yerlik bağçada 6 qrup fəaliyyət göstərəcəkdir. Burada tikinti işləri yüksək səviyyədə həyata keçirilib. Binanı daimi isti su ilə təchiz etmək üçün əlavə qazanxana inşa olunub. Burada yanğın əleyhinə xüsusi sistem, təhlükəsizlik kameraları quraşdırılıb.*

*Azərbaycan prezidenti bağçada yaradılmış şəraitdən razılığını bildirdi.*

## Heydər Əliyev Mərkəzinin binasında tikinti işlərinin gedişi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 17-də Zaqatalada Heydər Əliyev Mərkəzinin binasında tikinti işlərinin gedişi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Mərkəzin tikintisinə bu ilin aprelində başlanılmışdır. Ən müasir standartlar səviyyəsində inşa olunan Mərkəzin binasında muzey, 2 konfrans salonu, kinozal, internet-kitabxana, milli rəqs, heykəltəraşlıq, dizayn, xalq yaradıcılığı və fotostudiya, həmçinin dərnək otaqları və kafe yaradılacaqdır. Binada daş-hörgü işləri başa çatdırılıb. Hazırda dam örtüyü quraşdırılır və suvaq işləri görülür.*

*Binanın həyətində 2500 kvadratmetr əraziyə tamet plitə döşənəcək, 4700 kvadratmetr ərazidə isə yaşıllıq salınacaqdır. Burada, həmçinin fəvvarəli 3 hovuzun tikintisi nəzərdə tutulub. Mərkəzin binasında tikinti işlərinin 2014-cü ilin mayında başa çatdırılması planlaşdırılıb. Heydər Əliyev Mərkəzində 25–30 nəfər daimi işlə təmin olunacaqdır.*

*Prezident İlham Əliyev tikinti işlərinin yüksək səviyyədə həyata keçirilməsi ilə bağlı tapşırıq və tövsiyələrini verdi.*

## Zaqatala şəhərinin tarixi mərkəzinin yenidənqurma və bərpadan sonrakı vəziyyəti ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev Zaqatala şəhərinin tarixi mərkəzinin yenidənqurma və bərpadan sonrakı vəziyyəti ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, tarixi mərkəz adlanan ərazi 1850-ci illərdə salınan hazırkı Dədə Qorqud meydanını, Qala düzü pilləkənlərini, Heydər Əliyev prospekti və «28 May» küçəsinin bir hissəsi daxil olmaqla, təxminən 6,2 hektar ərazini əhatə edir.*

*Azərbaycan Prezidenti şəhərin tarixi mərkəzində aparılan yenidənqurma və bərpa işlərini, eləcə də Zaqatala qalasını əks etdirən stendlərə baxdı. Dövlətimizin başçısı Dədə Qorqud meydanını gəzdi. Bildirildi ki, burada yenidənqurma işlərinə 2012-ci ilin aprelində başlanılıb. Meydanda Dədə Qorqudun 2,5 metrlik heykəli ucaldılaraq memorial kompleks tikilib. Burada 6 bürc fəvvarəli 4 hovuz, 6 giriş-çıxış qapısı quraşdırılıb. Meydanda 1000-dən çox dekorativ ağac və gül kolu əkilib. Burada sakinlərin istirahəti üçün hər cür şərait yaradılıb. Tarixi mərkəzdə 50-dən çox fərdi evin, ictimai binanın və sahibkarlıq obyektinin dam örtüklərində və fasadlarında yenidənqurma işləri aparılıb. Heydər Əliyev prospekti əsaslı surətdə təmir olunub.*

*Bundan başqa, səkilərə və meydana 5 min kvadratmetrə qədər tamet plitə döşənmiş, 400 kvadratmetr sahədə isə yaşıllıq zolağı salınmışdır. Hazırda Heydər Əliyev prospektində, Dədə Qorqud meydanının ətrafında olan yaşayış və ictimai binaların fasadlarının tarixi görkəminin bərpası işləri davam etdirilir.*

*Dövlətimizin başçısı görülmüş işləri yüksək qiymətləndirdi, tapşırıq və tövsiyələrini verdi.*

# ŞƏHƏRƏ İÇMƏLİ SUYUN VERİLMƏSİ MƏRASİMİNDƏ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*17 avqust 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 17-də Zaqatala şəhərinə icməli suyun verilməsi mərasimində iştirak etmişdir.*

*Azərbaycan dövləti regionlarda əhalinin güzəranı və rifah halının yaxşılaşdırılması, sahibkarlığın daha da inkişafı üçün yeni imkanların yaradılması baxımından sosial problemlərin həllinə diqqəti artırır. Bu baxımdan ötən illərdə həyata keçirilən mühüm tədbirlərdən biri də ölkəmizdə su və kanalizasiya sistemlərinin təkmilləşdirilməsi və ya yenidən inşası ilə bağlıdır.*

*Dövlətimizin başçısı əvvəlcə Zaqatala rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

**İ l h a m  Ə l i y e v:** Bu gün biz Zaqatalanın su layihəsinin açılışını qeyd edirik. Təbrik edirəm sizi. Bununla da Zaqatalanın su problemləri tamamilə həll olunur. Mənə verilən məlumata görə artıq 24 saat təmiz içməli su verilməyə başlanılmışdır. Böyük layihədir, sosial məna daşıyır. Əlbəttə ki, bütün işlər insanların rahatlığı üçün görülür. Su layihələri indi ölkəmizin müxtəlif yerlərində icra edilir. Bu günlərdə biz bir neçə şəhərin su layihəsini istifadəyə vermişik. Proses davam edir. Növbə Zaqatalaya çatmışdır.

Bu layihənin icra edilməsi, əlbəttə ki, sakinlər üçün bir hədiyyədir. Yəqin ki, başqa yerlərdəki kimi, burada da su fasilələrlə verilirdi. Gündə bəlkə də bir neçə saat. Özü də o qədər də keyfiyyətli deyildi. Amma indi 24 saat keyfiyyətli su verilir. İndi görülən işləri bizə təqdim edəcəklər. Çox gözəl hadisədir. Çox böyük məna daşıyır. Sosial məna daşıyır. Eyni

zamanda, ölkəmizin ümumi inkişafını göstərir. Həmçinin mən bu gün Zaqatalanın yeni layihələri ilə də tanış oluram. Görürəm ki, quruculuq işləri aparılır. Binalar bərpa olunur. Binaların tarixi görkəmi qaytarılır. Bu park tamamilə yenidən qurulubdur. Gözəl istirahət zonasıdır.

Digər layihələr icra edilir. Şəhərin abadlaşdırılması prosesi gedir, tikinti gedir. Yəni burada hər cür sosial infrastruktur mövcuddur. İçməli su layihəsinin icrasından sonra qazlaşdırma olacaqdır. Hələ ki, lazımi səviyyədə deyildir. Biz çalışmalıyıq ki, Zaqatalanın qazlaşdırılmasını təqribən 90–95 faiz təmin edək. Yəqin ki, növbəti 1 il ərzində biz buna da nail ola biləcəyik. Kənd yollarının tikintisi gedir. Bu məqsədlər üçün vaxtaşırı vəsait ayrılır. Bundan sonra da ayıracağıq. Çünki bu layihələr hər bir şəhərdə, hər bir rayonda icra edilir. Ona görə də vəsait məsələsi vardır. Ancaq çalışırıq ki, hər bir rayonda heç olmasa 1-2 layihə tezliklə icra edilsin və sonra təbii ki, biz bu layihələrin geniş vüsət almasına nail olacağıq.

Zəlzələdən sonra burada bərpa işləri uğurla gedir, 20-yə yaxın məktəb yenidən tikilir. Bəziləri tikilib və yaxud da indi tikinti gedir. Binalar bərpa edilir. İndi mənə verilən məlumata görə, 3388 ev tikilibdir. Özü də 1 il ərzində. İnanılmaz bir nailiyyətdir. 1 ildə, demək olar ki, böyük bir qəsəbə, şəhər boyda işlər görülübdür bir rayonda. Özü də qonşu rayonlarda da bu işlər görülür – Balakəndə, Qaxda, Şəkidə. Düzdür, Zaqatala daha çox dağıntılara məruz qalmışdır. Ona görə də burada bu işlər gedir və əminəm ki, yaxın zamanlarda qalan evlər də ya təmir olunacaq, ya da yenidən tikiləcək ki, vətəndaşlar tezliklə yeni evlərə köçsünlər.

Əlbəttə ki, zəlzələ böyük təbii fəlakətdir. Xoşbəxtlikdən heç bir bədbəxt hadisə, heç bir faciə baş verməmişdir. Ancaq insanların evləri dağılmışdır və xatırlayıram, o vaxt burada olarkən demişdim ki, daha da gözəl evlər tikiləcək, geniş və möhkəm. Əvvəlki evlərin çoxu o qədər də keyfiyyətli olmayan materiallardan tikilmişdir. Amma indiki evlər möhkəmdir, artıq Allah eləməsin, zəlzələ baş verərsə, o evlərə heç bir xətər dəyməz.

Bu, Azərbaycan dövlətinin siyasətidir, öz vətəndaşına olan münasibətidir və bir daha göstərir ki, Azərbaycan sosial dövlətdir.

Sosial dövlət o deməkdir ki, dövlətin siyasətinin mərkəzində insan dayanır. Hər şey insanlar üçün, hər şey Azərbaycan vətəndaşları üçün olmalıdır və biz bunu Zaqatala rayonunun timsalında da görürük. Əvvəlki dövrlərdə buraya böyük investisiyalar qoyulmuşdur – Olimpiya Kompleksi, stadion, Diaqnostika Mərkəzi, digər layihələr. Bu gün Heydər Əliyev Mərkəzinin tikintisi ilə tanış oldum. Uşaq bağçası və nəhayət, içməli su layihəsi də icra edilir.

İçməli su layihəsi deyə bilərəm ki, insanların rahat yaşaması üçün infrastruktur layihələri arasında bəlkə də birinci yerdədir. Çünki su həyat, sağlamlıq deməkdir. Keyfiyyətli içməli su sağlam həyat deməkdir. Artıq Zaqatalanın içməli su ilə təminatı həll olunub. Bir neçə kənd də əhatə olunur və gələcəkdə başqa kəndlərdə də fərdi qaydada bu layihələr icra edilməlidir.

Mən artıq 6-cı dəfədir ki, Zaqataladayam. Hər dəfə burada olarkən hansısa bir yeniliyi görürəm. Keçən dəfə tarixi pillələnin ətrafında gəzirdik və icra başçısı da məlumat vermişdi ki, planlar vardır. O vaxt bərpa işləri gedirdi. İndi artıq tamamlanıb. Qala düzü kompleksi də tikilmişdir. Zaqatalanın tarixi binaları da bərpa olunacaqdır. Biz bu işlərə də diqqət verəcəyik. Çünki biz bu məsələlərə hərtərəfli yanaşırıq. Biz tariximizi, tarixi irsimizi qorumalıyıq.

Hər bir şəhər inkişaf etməlidir. Tarixi qorumaqla müasir şərait yaratmalıyıq və yaradırıq. Bakıda da belədir. Burada da belədir. Azərbaycanda bir çox şəhərlər var ki, orada çox zəngin tarixi irs və mədəniyyət vardır. Zaqatala da onların arasındadır. Ona görə də, bax, bu ətrafda yerləşən binaların qədim tarixi vardır.

Biz öz tariximizi bilirik, bilməliyik. Gənclər də bilməlidir. İndi isə yeni tarix yazılır – müstəqillik tarixi. Bu, xalqımızın həyatında bütün dövrlərdə ən şanlı tarixdir. Əsrlər boyu heç vaxt Azərbaycan xalqı bu qədər rahat yaşamamışdır, Azər-

baycan dövləti möhkəm olmamışdır. Bu müstəqillik əsl müstəqillikdir. Keçən əsrin əvvəllərində Azərbaycan 2 il müstəqil ölkə kimi yaşadı. Ancaq biz hamımız bilirik ki, o müstəqillik tam deyildi və ona görə müstəqilliyin ömrü uzun olmadı. 2 ildən sonra Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi. Ondan əvvəlki dövrlərdə də, tariximizin müxtəlif dövrlərində də dövlətçilik ənənələri olmuşdur. Onlar bizim üçün çox vacibdir. Amma bu qədər azad və müstəqil Azərbaycan heç vaxt olmamışdır. Bunu bilməliyik – biz də, gənc nəsil də bilməlidir. Bunu biz qorumalıyıq, möhkəmləndirməliyik. Hər bir şəhərin inkişafı, hər bir kəndin abadlaşdırılması müstəqillik binamıza möhkəm bir daş, möhkəm bir təməldir. Bu layihələr ancaq müstəqil Azərbaycanda reallaşa bilərdi. Çünki müstəqil Azərbaycan Azərbaycan xalqının dövlətidir və müstəqil Azərbaycanın siyasəti də insan amilinə hesablanıb. İnsan hər şeydən üstündür. Azərbaycan vətəndaşı, onun təhlükəsizliyi, rahat yaşaması, rifahı ön plandadır. Ona görə də bu gün doğrudan da çox əlamətdar bir gündür. Biz gözəl mərasimdə görüşürük. Amma mən əminəm ki, gələcəkdə belə açılışlar hələ çox olacaqdır. Biz hələ çox görüşəcəyik və bir yerdə bu gözəl yeniliklərə sevinəcəyik. Sizi təbrik edirəm.

**S a k i n l ə r:** Çox sağ olun!

**V ə f a  S ü l e y m a n o v a** *(rayon sakini, müəllimə):* Möhtərəm cənab Prezident! Sizi Zaqatalada salamlayır, bütün ictimaiyyətimiz adından Sizə «Xoş gəlmisiniz!» – deyirəm.

Bu gün rayonumuzda bayram sevinci, tarixi bir gün yaşanır. Tərəfinizdən şəhərimizə və ətraf 8 kəndimizə təmiz içməli su verilir. Hər zaman olduğu kimi, bu gün də Sizin yenə bizimlə birlikdə olmağınız sevincimizə bir daha sevinc qatır, cənab Prezident!

Su həyatdır, su sağlamlıq deməkdir. Bu gün Siz 48 min sakinimizə yeni həyat bəxş edirsiniz. Bu sadəcə, rəqəm deyildir, cənab Prezident! Biz sevinirik. Bu gün bütün zaqatalalılar, bütün ictimaiyyət sevinir. Hər evə çəkilən su xətti və hər bir

insan tərəfindən «Allah cənab Prezidentimizə su qədər ömür versin» alqışları Sizə olan sonsuz məhəbbətin təcəssümüdür.

Möhtərəm cənab Prezidentimiz! Bu gün bir ziyalı kimi, deyə bilərəm ki, Siz onillik fəaliyyətiniz dövründə respublikamızda sayı-hesabı olmayan irimiqyaslı layihələr həyata keçirmisiniz. Ölkəmizin enerjiyə, qaza, suya olan tələbatlarını bu gün də Siz təmin edirsiniz. Bayaq Siz söylədiniz ki, Zaqatalanın qaza olan tələbatı, bundan sonrakı tələbatı ödəniləcəkdir. Bütün bunlar Sizin sayənizdə, Sizin rəhbərliyiniz altında həyata keçirilir, cənab Prezident!

Bu gün bir zaqatalalı kimi, qəlbim qürur hissi ilə döyünür. Bu gün rayonumuzda aparılan abadlıq-quruculuq, tikinti işləri Zaqatalamızın simasını başdan-başa dəyişib bir cənnət məkanına çevirmişdir.

Möhtərəm cənab Prezident! Şəhərimizin tarixi mərkəzinin yenidən bərpası, küçələrimizin abadlaşması bizi çox sevindirir. Bu gün sakinlərimiz deyirlər ki, şəhərimizi, meydanımızı heç zaman belə gözəl, belə yaraşıqlı görməmişdik.

Möhtərəm cənab Prezident! Siz hər zaman bizimlə birlikdə, bizimlə bərabər olursunuz. Biz bunun şahidi olmuşuq. Ötən il zəlzələdən bir gün sonra – mayın 9-da rayonumuza gəldiniz, vəziyyətlə tanış oldunuz. Əhali ilə görüşüb ümidsiz insanlara ürək-dirək verdiniz. Onların arzu və istəklərini nəzərə alaraq tapşırıqlar verdiniz. Yenidən rayonumuza gəlib tapşırıqların icrası vəziyyəti ilə tanış oldunuz. O zaman Gözbarax kəndində uşaq bağçasının, 500 yerlik məktəbin açılışını etdiniz. Sakinlərə fərdi evlərin açarlarını təqdim etdiniz. O mənzillərdə yaradılmış şəraitlə tanış oldunuz, cənab Prezident!

Bütün bu işlər bu gün də sürətlə davam etdirilir. Bundan əlavə, minlərlə insana daha geniş, daha yaraşıqlı, daha möhkəm evlər, mənzillər bəxş etdiniz. O zaman zaqatalalıların gözündə qorxu, təlaş, sarsıntı duyulurdusa, bu gün o insanların üzlərində sevinc və təbəssüm, qəlblərində Sizə çox böyük məhəbbət hissi vardır, cənab Prezident. Biz bir daha əmin olduq ki, bu gün Azərbaycan xalqının arxasında qüdrətli bir dövlətimiz, Sizin

kimi müdrik bir Prezidentimiz vardır. Bütün zaqatalalılar adından Sizə «Çox sağ olun!» – deyirəm, cənab Prezident.

Bu gün doğma Azərbaycanımız Sizin rəhbərliyiniz altında gündən-günə qüdrətlənir, inkişaf edir. Siz bizim həmişəlik Prezidentimizsiniz. Biz açılan hər bir sabahımızı Sizinlə təsəvvür edirik, Sizinlə yaşayırıq, Sizinlə bağlayırıq, cənab Prezident! Biz bundan sonrakı gələcəyimizi də bugünkü kimi firavan, xoşbəxt görürük. Biz Sizə inanırıq, Sizə güvənirik, Tanrı Sizi qorusun, cənab Prezidentimiz!

**İ l h a m Ə l i y e v:** Çox sağ olun!

* * *

*Sonra prezident İlham Əliyev Zaqatala şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsini əks etdirən stendlərə baxdı.*

*Ərazilərin Bərpası və Yenidən Qurulması üzrə Dövlət Agentliyinin direktoru Əli Məmmədov Zaqatala şəhərinin su təchizatının yenidən qurulması və kanalizasiya sisteminin yaradılması layihəsinin icrası barədə prezident İlham Əliyevə məlumat verdi. Bildirildi ki, layihənin icrasına 2010-cu ilin noyabrında başlanılmış, birinci mərhələ üzrə işlər yerinə yetirilmişdir. İkinci və üçüncü mərhələlər üzrə işlər davam etdirilir.*

*Qeyd edildi ki, layihə əhalinin 2031-ci ilə qədər olan artım proqnozu nəzərə alınaraq işlənib. Rayonda icrada olan su təchizatı sisteminin yenidən qurulması nəticəsində Zaqatala şəhərinin 22 min, 7 kəndin isə 26 min nəfər əhalisinin gün ərzində suya olan tələbatı tam ödəniləcəkdir.*

*Bildirildi ki, tikintisi başa çatdırılan su mənbələrinin potensialı 75 min əhalinin suya olan tələbatını tam ödəyəcəkdir ki, bu da Zaqatala rayon əhalisinin 50 faizinin 2031-ci ildə içməli su ilə tam təmin edilməsi deməkdir. Laboratoriya araşdırmaları indiki mərhələdə suyun keyfiyyətinin həm beynəlxalq, həm də yerli standartlara tam uyğunluğunu təsdiq etmişdir.*

*Məlumat verildi ki, Zaqatala şəhərinin su təchizatının yenidən qurulması və kanalizasiya sisteminin yaradılması işləri 3 mərhələdə aparılır. Birinci mərhələdə Talaçay su mənbəyinin, magistral boru xətti, su anbarları, xlorlama təsərrüfatı, laboratoriya və digər struktur obyektlərinin tikintisi başa çatdırılıb. Bu mərhələdə 6,65 kilometr uzunluğunda magistral su xətti çəkilib. Suqəbuledici qurğular meydançasında keçid məntəqəsi, suqəbuledici kamera, xlorlama və laboratoriya binaları tikilərək avadanlıqla təchiz edilib. Bundan başqa, 1 yeni su anbarı tikilmiş, 1 anbar isə bərpa olunub. İkinci mərhələdə Zilbançay su mənbəyi inşa edilmiş və 5 kilometr uzunluğunda magistral su xətti çəkilmişdir. Şəhərin 2 zonasında su anbarları sahəsi yaradılmışdır. Bu sahələrdəki su anbarları bərpa edilmiş, 1 yeni su anbarı inşa olunub. Həmçinin şəhərin su və kanalizasiya şəbəkələri, kanalizasiya kollektor xətti, yerli Sukanal İdarəsinin istehsalat bazası tikilib. Bütün abonentlər su sayğaçları ilə təmin ediləcəkdir.*

*Üçüncü mərhələdə çirkab sutəmizləyici qurğular kompleksinin tikintisi və texnoloji sistemlərin quraşdırılması işləri aparılır. Məhsuldarlığı gün ərzində 10 min kubmetrə çatan çirkab sutəmizləyici qurğular kompleksinin potensialı Zaqatala şəhərini və 7 kəndi əhatə edir.*

*Prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, müasir texnologiyanın tətbiq olunduğu çirkab sutəmizləyici qurğular kompleksi 2014-cü ilin birinci rübündə istismara veriləcəkdir.*

*Stendlərlə tanışlıqdan sonra ölkə rəhbəri Zaqatala şəhərinə içməli suyun verilməsini bildirən düyməni basdı.*

## Bəhmətli kənd tam orta məktəbinin yeni binasının açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 17-də Zaqatala rayonuna səfəri çərçivəsində Ələddin Cavadov adına Bəhmətli kənd tam orta məktəbinin yeni binasının açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyevin ölkəmizdə təhsilin inkişafına göstərdiyi diqqət və qayğı bir daha təsdiqləyir ki, bu mühüm sahə dövlət siyasətinin prioritetləri sırasındadır. Bu proses təkcə paytaxtla məhdudlaşmır, bölgələri də əhatə edir. Son illərdə ölkəmizdə heç bir dövrdə olmayan qədər məktəb binası tikilmiş, bir çox məktəb binaları üçün yeni korpuslar inşa olunmuşdur. Məktəblərin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində mühüm işlər görülmüş, bütün orta təhsil ocaqlarında kompüter sinifləri yaradılmış, internetə qoşulmuşdur.*

*Heydər Əliyev Fondu da dövlət səviyyəsində həyata keçirilən bu fəaliyyət proqramına hərtərəfli dəstəyini əsirgəmir. Fondun təhsillə bağlı qarşıya qoyduğu əsas məqsəd Azərbaycanda bu sahənin ən yüksək standartlar səviyyəsində qurulmasıdır. Bu istiqamətdə Heydər Əliyev Fondunun həyata keçirdiyi «Yeniləşən Azərbaycana yeni məktəb» layihəsi xüsusi qeyd edilməlidir. Fondun bu kompleks proqramı təhsilin səviyyəsinə birbaşa təsir edən problemlərin həllinə – tədris prosesinin günün tələbləri səviyyəsində qurulmasına imkan verən müasir məktəb binalarının inşasına istiqamətlənib.*

*Heydər Əliyev Fondunun dəstəyi ilə tikilən təhsil müəssisələrindən biri də Zaqatala rayonunun Ələddin Cavadov adına Bəhmətli kənd tam orta məktəbidir.*

*Dövlətimizin başçısı məktəbin rəmzi açılışını bildirən lenti kəsdi. Azərbaycan Prezidentinə məlumat verildi ki, məktəbin köhnə binası 2012-ci il mayın 7-də Zaqatalada baş vermiş güclü zəlzələ nəticəsində qəzalı vəziyyətə düşdüyündən sökülmüşdü. Həmin il sentyabrın 9-da prezident İlham Əliyev Zaqatala rayonuna səfəri çərçivəsində məktəbin yeni binasının təməlini qoymuşdu. Tikinti işləri cari ilin avqustunda tam başa çatdırılıb.*

*Bildirildi ki, 600 şagird yerlik məktəb binasının korpusları iki və üçmərtəbəlidir. Müasir üslubda, xüsusi dizaynla inşa olunan binanın ümumi sahəsi 4520 kvadratmetrdir. Məktəbin həyatində ümummilli lider Heydər Əliyevin abidəsi qoyulub.*

*Həyətyanı sahə genişləndirilib və abadlaşdırılıb. Qeyd edildi ki, 480 şagirdin təhsil aldığı məktəbin binası 9 bal gücündə zəlzələyə davamlıdır. Məktəbin foyesində ulu öndər Heydər Əliyevin, prezident İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təhsilə göstərdikləri diqqət və qayğını əks etdirən fotostend yaradılıb. Bina müasir havalandırma sistemi ilə təchiz olunub.*

*Prezident İlham Əliyev informatika otağında yaradılan şəraitlə tanış oldu. Bildirildi ki, bütün kompüterlər internetə qoşulub. Məktəbin akt salonunda müxtəlif tədbirlərin keçirilməsi üçün hər cür şərait vardır. Şagirdlərin nəzəri bilikləri laboratoriyalarda tətbiq etmələri üçün də zəruri avadanlıq quraşdırılıb. Məktəbdəki inzibati otaqlar rahatlığı ilə diqqəti cəlb edir.*

*Təhsil ocağının idman zalı da müasirliyi ilə diqqəti cəlb edir. Kitabxanada 3 mindən çox vəsait toplanılıb. Məktəbin həyətyanı sahəsində yaşıllaşdırma işləri aparılıb, şagirdlərin asudə vaxtlarının səmərəli təşkili təmin olunub. Məktəbin açıq futbol, voleybol və basketbol meydançaları da vardır.*

*Prezident İlham Əliyev görülən işlərdən razılığını bildirdi, kollektivə uğurlar arzuladı.*

**MALİ RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İBRAHİM BUBAKAR KEYTAYA**

Hörmətli cənab Keyta!

Mali Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.

Ümidvaram ki, birgə səylərimizlə Azərbaycan Respublikası ilə Mali Respublikası arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin daha da inkişafına və genişlənməsinə nail olacağıq.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Mali xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 avqust 2013-cü il*

**UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VİKTOR YANUKOVİÇƏ**

Hörmətli Viktor Fyodoroviç!

Ukraynanın milli bayramı – Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi və ən xoş arzularımı qəbul edin.

Bu gün dost Ukrayna dövlətçiliyin və suverenliyin möhkəmlənməsi, sosial-iqtisadi və humanitar sahələrdə dərin dəyişikliklər həyata keçirilməsi yolu ilə inamla irəliləyir. Ölkənin beynəlxalq nüfuzu artır.

Əminəm ki, Azərbaycan–Ukrayna dövlətlərarası münasibətləri, bizim strateji tərəfdaşlığımız və hərtərəfli əməkdaşlığımız dost xalqlarımızın və ölkələrimizin mənafeləri naminə bundan sonra da sıx qarşılıqlı fəaliyyət və qarşılıqlı dəstək məcrasında inkişaf edəcəkdir.

Hörmətli Viktor Fyodoroviç, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, dost Ukrayna xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 avqust 2013-cü il*

**URUQVAY ŞƏRQ RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB XOSE MUXİKAYA**

Hörmətli cənab Prezident!

Uruqvay Şərq Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı Azərbaycan xalqı adından və şəxsən öz adımdan təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Uruqvay arasındakı münasibətlər ölkələrimizin və xalqlarımızın mənafelərinə uyğun olaraq inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Uruqvay xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 avqust 2013-cü il*

**MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NİKOLAYE TİMOFTİYƏ**

Hörmətli cənab Prezident!

Sizi və dost Moldova xalqını milli bayram – Müstəqillik Günü münasibətilə ürəkdən təbrik edirəm.

Əminəm ki, xalqlarımız arasında tarixən yaranmış mehriban dostluq münasibətləri bundan sonra da Azərbaycan–Moldova əməkdaşlığının və qarşılıqlı əlaqələrin hərtərəfli inkişafı üçün etibarlı təməl olacaqdır.

Hörmətli cənab Prezident, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, Moldova xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 avqust 2013-cü il*

## BUZOVNA QƏSƏBƏSİNDƏKİ 26 SAYLI ORTA MƏKTƏBİN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ, YENİ TƏDRİS KORPUSUNUN AÇILIŞI MƏRASİMİ

*28 avqust 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 28-də Xəzər rayonunun Buzovna qəsəbəsindəki 26 saylı orta məktəbin əsaslı təmir və yenidənqurma işlərindən sonrakı vəziyyəti ilə tanış olmuş, yeni tədris korpusunun açılışı mərasimində iştirak etmişdir.*

*Bakı şəhərinin və onun qəsəbələrinin sosial inkişafına dair Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlər planına uyğun olaraq paytaxtın orta ümumtəhsil məktəblərinin əsaslı təmir və yenidənqurma işləri davam etdirilir. Təmir işləri ilə yanaşı, ehtiyacı olan məktəblər üçün yeni sinif otaqları, tədris korpusları, idman və akt zalları, yeməkxanalar inşa olunur və lazımi avadanlıqla təchiz edilir, təhsil müəssisələrinin ərazilərində abadlıq işləri həyata keçirilir.*

*Dövlətimizin başçısı 26 saylı orta məktəbin təmirdən əvvəlki vəziyyətini əks etdirən fotolardan ibarət stendə baxdı.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov görülən işlərlə bağlı prezident İlham Əliyevə məlumat verərək bildirdi ki, 1969-cu ildə inşa olunan məktəbdə Dövlət Proqramına uyğun olaraq əsaslı təmir və yenidənqurma işləri ötən il başa çatdırılıb. Sinif otaqları, idman və iclas zalları tam təmir olunub, bütün elektrik və kommunikasiya xətləri dəyişdirilib.*

*Dövlətimizin başçısı sinif otaqlarına, idman və iclas zallarına baxdı, buradakı şəraitlə maraqlandı.*

*Sonra prezident İlham Əliyev məktəbin yeni inşa edilmiş* korpusunda *yaradılan şəraitlə yaxından* tanış oldu. Bildirildi ki, *məktəbdə şagird sıxlığı nəzərə alınaraq yeni tədris* korpusu *ən müasir* standartlara *uyğun şəkildə inşa* olunub. *40 sinif* otağından *ibarət yeni* korpusda tikinti *işləri qısa* vaxt *ərzində yüksək keyfiyyətlə həyata* keçirilib. Sinif otaqlarında *şagirdlərin yüksək səviyyəli təhsil almaları üçün lazımi şərait yaradılıb. Yeni* korpusda internet *şəbəkəsinə qoşulmuş 2 müasir* kompüter sinfi *də fəaliyyət* göstərir. *Diqqətə çatdırıldı ki, 2340 şagird yerlik məktəbdə dərslər əsasən birnövbəli* olacaqdır. *Məktəbin yeni inşa olunmuş tədris* korpusunda da *müasir* kommunikasiya sistemi *quraşdırılıb, dayanıqlı* elektrik enerjisi *ilə təmin* olunub.

**QIRĞIZ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ALMAZBEK ATAMBAYEVƏ**

Hörmətli Almazbek Şarşenoviç!

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizi və bütün Qırğız xalqını milli bayram – Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, dərin tarixi köklərə malik olan Azərbaycan–Qırğız münasibətləri xalqlarımızın və ölkələrimizin mənafeləri naminə bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Hörmətli Almazbek Şarşenoviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, Qırğız xalqına firavanlıq və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 avqust 2013-cü il*

## MALAYZİYANIN ALİ BAŞÇISI ƏLAHƏZRƏT ƏL-MUTASİMU BİLLAHİ MUHİBBUDDİN TUANKU ƏL-HAC ABDUL HALİM MUADZAM ŞAH İBNİ ƏL-MƏRHUM SULTAN BADLİŞAHA

Əlahəzrət!

Malayziyanın milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı Azərbaycan xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Malayziya münasibətləri və dostluq əlaqələri genişlənərək və inkişaf edərək, ölkələrimizin və xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Malayziya xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 avqust 2013-cü il*

**SLOVAKİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB İVAN QAŞPAROVİÇƏ**

Hörmətli cənab Prezident!

Slovakiya Respublikasının milli bayramı – Konstitusiya Günü münasibətilə Sizi və bütün xalqınızı Azərbaycan xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Slovakiya arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Slovakiya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 avqust 2013-cü il*

**ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB İSLAM KƏRİMOVA**

Hörmətli İslam Abduqəniyeviç!

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizi və Sizin simanızda Özbəkistan xalqını milli bayram – Müstəqillik Günü münasibətilə ürəkdən təbrik edirəm.

Sevindirici haldır ki, bu gün Özbəkistan ictimai-siyasi, sosial-iqtisadi və humanitar sahələrdə sanballı uğurlar qazanmışdır. Azərbaycan–Özbəkistan dövlətlərarası münasibətlərinin yüksək səviyyədə olması xüsusi məmnunluq doğurur. Ölkələrimiz arasında hərtərəfli əməkdaşlıq durmadan genişlənir, ənənəvi dostluq əlaqələri möhkəmlənir.

Əminəm ki, Azərbaycan ilə Özbəkistan arasında qarşılıqlı əlaqələrin və əməkdaşlığın daha da inkişaf etdirilməsinə yönəlmiş birgə səylərimiz bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Hörmətli İslam Abduqəniyeviç, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, Özbəkistan xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 avqust 2013-cü il*

## LYUBLYANA ŞƏHƏRİNİN MERİ ZORAN YANKOVİÇİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*29 avqust 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 29-da Lyublyana şəhərinin meri Zoran Yankoviç başda olmaqla, Sloveniyanın Müdafiə naziri Roman Yakiçin və İqtisadi İnkişaf və Texnologiyalar naziri Stanko Stepişnikin daxil olduğu nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Sloveniya Respublikasına səfərini məmnunluqla xatırlatdı. Prezident İlham Əliyev Sloveniya nümayəndə heyətinin Azərbaycana səfərinin uğurlu olacağına və bu səfərin ölkəmizlə yaxından tanış olmaq üçün yaxşı imkan yaradacağına ümidvar olduğunu bildirdi.*

*Lyublyana şəhərinin meri Zoran Yankoviç paytaxtımızda gedən sürətli inkişaf proseslərinin onlarda dərin təəssürat yaratdığını dedi. O, prezident İlham Əliyevin Sloveniyaya uğurlu səfərinin ölkələrimiz arasında əlaqələrin möhkəmləndirilməsi baxımından önəmini qeyd etdi.*

*Görüşdə Azərbaycan ilə Sloveniya arasında ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, ticarət, informasiya-kommunikasiya texnologiyaları, sərmayə qoyuluşu, turizm və digər sahələrdə daha da genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## SABİRABAD RAYONUNA SƏFƏR

*29 avqust 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 29-da Sabirabad rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Sabirabad şəhərinin mərkəzi meydanındakı abidəsi önünə gül dəstəsi qoydu.*

*Sabirabad Rayon İcra Hakimiyyətinin başçısı Nazim İsmayılov prezident İlham Əliyevə meydanda aparılan abadlıq işləri barədə məlumat verdi.*

*Bildirildi ki, tamamilə yenidən qurulan meydanın ərazisi 8,5 min kvadratmetrdir. Burada 4 fəvvarə quraşdırılmış, müasir işıqlandırma sistemi yaradılmışdır. Meydanın ərazisində Yeni Azərbaycan Partiyası Sabirabad rayon təşkilatı üçün inzibati bina inşa edilib, Rayon İcra Hakimiyyətinin, Mədəniyyət evinin və digər dövlət idarələrinin binalarının fasadları yenidən qurulub. Burada geniş yaşıllaşdırma işləri görülmüş, müxtəlif gül kolları və həmişəyaşıl ağaclar əkilmiş, oturacaqlar qoyulmuşdur.*

### Yeni Azərbaycan Partiyası Sabirabad rayon təşkilatının yeni inşa olunmuş inzibati binasının açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 29-da Yeni Azərbaycan Partiyası Sabirabad rayon təşkilatının yeni inşa olunmuş inzibati binasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi, burada yaradılmış şəraitlə tanış oldu.*

*Məlumat verildi ki, binanın inşasına 2012-ci ilin mayında başlanılıb. Tikinti işlərinin yüksək keyfiyyətlə və qısa müddətdə görülməsi üçün bütün qüvvələr səfərbər olunub. Orijinal layihəsi, özünəməxsus memarlıq üslubu ilə tikilmiş üçmərtəbəli bina şəhərin görkəminə əlavə rəng qatır. Ümumi sahəsi 900 kvadratmetr olan bina müasir inventar və avadanlıqla təchiz olunmuşdur.*

*Binanın foyesində xalqımızın ulu öndəri, Yeni Azərbaycan Partiyasının yaradıcısı Heydər Əliyevin büstü qoyulub. Burada ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin Yeni Azərbaycan Partiyası ilə bağlı fəaliyyətlərini əks etdirən fotolardan ibarət stendlər yaradılıb. Binanın 60 nəfərlik iclas zalında partiyanın fəaliyyəti ilə bağlı müxtəlif tədbirlər keçirmək mümkündür. İkinci mərtəbədəki inzibati otaqlarda da hər cür şərait vardır. Buradakı konfrans zalı, arxiv və digər otaqlar müasir səviyyədədir.*

*Qeyd edildi ki, Yeni Azərbaycan Partiyasının Sabirabad rayon təşkilatının 1993-cü il yanvarın 16-da 16 ilk ərazi təşkilatının iştirakı ilə təsis yığıncağı keçirilmişdir. Hazırda isə 88 ilk ərazi təşkilatı fəaliyyət göstərir. 7256 siyasi həmfikiri birləşdirən YAP Sabirabad rayon təşkilatının üzvləri rayonun ictimai-siyasi, sosial-iqtisadi həyatına mühüm töhfələr verir, aparılan abadlıq-quruculuq və yenidənqurma işlərində yaxından iştirak edirlər.*

*Yeni Azərbaycan Partiyası təşkilatları üçün belə müasir binaların tikilməsi ilk növbədə, işçilərin yüksək səviyyədə fəaliyyət göstərməsinə hesablanıb. Bu həm də respublikanın ağır günlərində ulu öndər Heydər Əliyev tərəfindən yaradılan, çətin və şərəfli yol keçən, ölkənin çiçəklənməsində mühüm xidmətləri olan Yeni Azərbaycan Partiyasına göstərilən diqqəti nümayiş etdirir.*

## M.Ə.Sabir adına 1 saylı tam orta məktəbin yeni binasında yaradılan şəraitlə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 29-da Sabirabada səfəri çərçivəsində rayon mərkəzinin Heydər Əliyev prospektində yerləşən 1200 şagird yerlik M.Ə.Sabir adına 1 saylı tam orta məktəbin yeni binasında yaradılan şəraitlə tanış olmuşdur.*

*Prezident İlham Əliyevin ölkədə təhsilin inkişafına göstərdiyi diqqət və qayğı bu mühüm sahənin dövlət siyasətinin prioritetləri sırasında olmasının bariz göstəricisidir. Bu proses təkcə paytaxtla məhdudlaşmır, bölgələri də əhatə edir. Ötən illərdə ölkəmizdə heç bir dövrdə olmayan qədər məktəb binası tikilib, yeni korpuslar inşa olunub. Bu dövrdə məktəblərin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində mühüm işlər görülmüş, bütün orta təhsil ocaqlarında kompüter sinifləri yaradılmış və internetlə təchiz edilmişdir. Dövlət səviyyəsində həyata keçirilən bu fəaliyyət proqramına Heydər Əliyev Fondu da hərtərəfli dəstəyini əsirgəmir. Həyata keçirilən kompleks proqramlar təhsilin səviyyəsinə birbaşa təsir edən problemlərin həllinə – tədris prosesinin günün tələbləri səviyyəsində qurulmasına imkan verən müasir məktəb binalarının inşasına istiqamətlənib. Belə təhsil ocaqlarından biri də M.Ə.Sabir adına 1 saylı tam orta məktəbdir.*

*Azərbaycan Prezidenti məktəbin köhnə binasının görüntülərini əks etdirən stendə baxdı.*

*Binanın birinci mərtəbəsində ulu öndər Heydər Əliyevin, prezident İlham Əliyevin, eləcə də Heydər Əliyev Fondunun ölkəmizdə təhsilin inkişafı ilə bağlı fəaliyyətlərini əks etdirən fotoguşələr yaradılıb.*

*Məktəbdə yaradılan şəraitlə tanışlıq zamanı dövlətimizin başçısına məlumat verildi ki, burada genişmiqyaslı tikinti-abadlıq işləri aparılmış, şagirdlərin keyfiyyətli təhsil almaları üçün lazımi şərait yaradılmışdır. Məktəbin binası 2010-cu ilin mayında Kür və Araz çaylarında baş vermiş təbii fəlakət zamanı qrunt sularının səviyyəsinin qalxması nəticəsində qəzalı vəziyyətə düşmüşdü. Məktəb binasının inşasına 2012-ci ilin mayında başlanılmışdır. Azərbaycan ədəbiyyatında özünəməx-*

*susluğu ilə seçilən Mirzə Ələkbər Sabirin adını daşıyan məktəbin həyatində ədibin abidəsi ucaldılıb. Ümumi sahəsi 9415 kvadratmetr olan 1200 şagird yerlik dördmərtəbəli təhsil ocağı 109 otaqdan ibarətdir ki, bunlardan 68-i sinif otağıdır. Burada 2 fizika, 2 kimya, 2 informatika və 1 biologiya kabineti yaradılmışdır. Birinci mərtəbədə müasir idman zalı, direktor və sinif otaqları, ikinci mərtəbədə müəllimlər, sinif otaqları və ümumi sahəsi 140 kvadratmetr olan yeməkxana yerləşir. Üçüncü mərtəbədə 280 nəfərlik iclas zalı, sinif otaqları və müəllimlər otağı vardır. Dördüncü mərtəbədə də müəllimlər otağı, müvafiq sinif otaqları yaradılmışdır. Məktəbin həyatində eni 22, uzunluğu 44 metr olan idman meydançası inşa edilib. Burada müasir idman qurğuları ilə təchiz edilmiş meydançalar da yaradılmışdır.*

*Prezident İlham Əliyev təhsil ocağında yaradılan şəraitdən razılığını bildirdi, müvafiq tapşırıqlarını verdi.*

## Heydər Əliyev Mərkəzinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 29-da Sabirabad rayonuna səfəri çərçivəsində Heydər Əliyev Mərkəzinin açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyevə əvvəlcə Mərkəzin yerləşdiyi Heydər Əliyev adına İstirahət parkında yaradılan şərait barədə məlumat verildi.*

*Bildirildi ki, yenidənqurma işləri çərçivəsində parkın ərazisi 1,5 hektar genişləndiriləərək 4 hektara çatdırılıb. Müasir səviyyədə qurulan parkda sakinlərin və qonaqların istirahəti üçün hər cür şərait vardır. Burada xüsusi 4 guşə tikilmiş, oturacaqlar qoyulmuş, diametri 42 metr olan musiqili fəvvarə yenidən qurulmuş, geniş yaşıllaşdırma işləri görülmüş, drenaj sistemi yaradılmışdır. Parkda 5 min nəfərlik konsert meydanı və attraksionların quraşdırıldığı sahə vardır.*

*Azərbaycan Prezidenti rayonda görülmüş işləri əks etdirən stendlərə baxdı.*

Sonra dövlətimizin başçısı Mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi. Heydər Əliyev Mərkəzinin binası orijinallığı ilə Sabirabad şəhərinin gözəlliyini daha da artırır. Bu Mərkəzin yaradılması ilk növbədə, sabirabadlıların ümummilli liderin xatirəsinə ehtiramını nümayiş etdirir.

Diqqətə çatdırıldı ki, Mərkəzin inşasına ötən ilin noyabrında başlanılıb. Binanın ümumi sahəsi 5,2 min kvadratmetrdir. Üçmərtəbəli binanın birinci mərtəbəsində internet-kafe və rəqs studiyası, konfrans zalı və müasir akustika sistemi ilə təchiz edilmiş 3D kinozalı fəaliyyət göstərir. İkinci mərtəbədə ümummilli lider Heydər Əliyevin büstü qoyulmuş, ulu öndərin Sabirabad və rayon sakinləri haqqında fikirlərinin əks olunduğu stendlər quraşdırılmışdır. Buradakı ekspozisiya zalında fotolar və ulu öndərin təhsili, fəaliyyəti ilə bağlı digər sənədlər böyük maraq doğurur. Binanın 1094 kvadratmetr sahəsi olan ekspozisiya zalında dahi şəxsiyyətin müxtəlif dövrlərdə çəkilmiş fotoları sərgilənir. Zalda müxtəlif bölmələrdə ümummilli liderin uşaqlıq, gənclik, tələbəlik, sovet dönəmi və müstəqillik illərində ölkəyə rəhbərlik etdiyi dövrlərdəki fotoları maraqla qarşılanır. «Heydər Əliyev və Sabirabad. 1970–1998-ci illər» bölməsində dahi rəhbərin bu rayona səfərlərini əks etdirən fotolar yer alıb. Bu fotolar bir daha sübut edir ki, ümummilli lider Azərbaycana rəhbərliyinin bütün dövrlərində Sabirabadın da inkişafına xüsusi diqqət göstərib. Ulu öndərin Sabirabada 15 dəfə səfər etməsi bunun bariz nümunəsidir. Ümummilli lider Heydər Əliyevin rayondakı müxtəlif obyektlərin açılışlarında iştirak etməsi, ictimaiyyət nümayəndələri, ziyalılar və zəhmətkeşlərlə görüşləri sabirabadlıların xatirində dərin izlər buraxmışdır.

Mərkəzdəki «Azərbaycan dövlətçiliyi tarixi kabineti» də diqqəti cəlb edir. Burada ən son elmi-texniki nailiyyətlərə əsaslanan sistem və avadanlıq quraşdırılmışdır.

Ekspozisiya zalında prezident İlham Əliyevin Sabirabada səfərləri və siyasi fəaliyyəti əks olunan fotoguşə də vardır.

Bildirildi ki, Mərkəzdə səyyar sərgi zalı fəaliyyət göstərəcəkdir. Burada rayonun rəssamları əsərlərini sərgiləyəcəklər.

*Mərkəzin 330 yerlik böyük akt zalında rayonun ictimai-siyasi həyatında baş verən mühüm hadisələr və əlamətdar günlərlə bağlı tədbirləri yüksək səviyyədə keçirmək üçün hərtərəfli imkan vardır. Zal bütün zəruri avadanlıqlarla təchiz edilib. Mərkəzdə dizayn, rəsm və şahmat otaqları, həmçinin elektron kitabxana, fotostudiya və linqafon sinfi də fəaliyyət göstərəcəkdir. Azərbaycan Prezidenti Mərkəzdə yaradılmış şəraitdən razılığını bildirdi.*

**Yenidən qurulan Hacıqabul–Bəhrəmtəpə avtomobil yolunun Hacıqabul–Sabirabad hissəsinin açılışı mərasimi**

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 29-da yenidən qurulan Hacıqabul–Bəhrəmtəpə avtomobil yolunun Hacıqabul–Sabirabad hissəsinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı Hacıqabul–Bəhrəmtəpə avtomobil yolunun, o cümlədən yolun Hacıqabul–Sabirabad hissəsinin sxemini, eləcə də tikintidən əvvəlki, tikinti işlərinin gedişini və hazırkı vəziyyətini əks etdirən stendlərə baxdı.Azərbaycan Prezidentinə Hacıqabul–Bəhrəmtəpə avtomobil yolunun yenidən qurulması layihəsi barədə məlumat verildi. Bildirildi ki, bu layihə üzrə Azərbaycan Respublikası Hökuməti ilə Dünya Bankı arasında 2009-cu il iyulun 28-də borc sazişi imzalanıb. Saziş Nazirlər Kabinetinin 2009-cu il 6 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir. Borc sazişində 112,5 kilometr uzunluğunda Hacıqabul–Bəhrəmtəpə avtomobil yolunun yenidən qurulması və bu yolun Kür çayı ilə kəsişməsində yeni körpünün tikintisi nəzərdə tutulmuşdur. Həmin layihə üzrə Nəqliyyat Nazirliyinin «Azəryolservis» Açıq Səhmdar Cəmiyyətində beynəlxalq rəqabətli tender keçirilmiş və Türkiyənin «Kolin» şirkəti ilə 2011-ci il mayın 17-də 196,96 milyon manat dəyərində podrat müqaviləsi imzalanmışdır. Tikintiyə texniki nəzarəti İtaliyanın «Engineering» firması həyata keçirir.*

*Qeyd edildi ki, yolun ümumi uzunluğu 50 kilometr olan Hacıqabul–Sabirabad hissəsinin tikintisi artıq başa çatdırılıb. Ümumi eni 15 metr olan yol ikizolaqlıdır. Yolun hər iki hərəkət hissəsinin və yol çiyninin eni 3,75 metrdir.*

*Diqqətə çatdırıldı ki, ümumilikdə müqavilə çərçivəsində yol üzərində 4 körpünün, 5 piyada keçidinin, 68 suötürücü borunun, 26 avtobus dayanacağının inşası nəzərdə tutulub.*

*Dövlətimizin başçısına yolun Sabirabad–Bəhrəmtəpə hissəsi barədə də ətraflı məlumat verildi. Bildirildi ki, uzunluğu 62,5 kilometr olan bu hissədə 7 körpüdən 3-də yenidənqurma işləri başa çatdırılıb, 3 körpüdə işlər 60 faiz tamamlanıb, 1 körpüdə isə tikinti-quraşdırma işləri başlanıb. Bu hissə üzrə tikinti-quraşdırma işlərinin dəyəri 110,06 milyon manatdır. Ümumilikdə yolun bu hissəsində işlərin 60 faizi yerinə yetirilib. Tikinti-quraşdırma işlərinin 2014-cü ilin mayında tamamlanması planlaşdırılır. Layihə üzrə yolun bu hissəsinin də ümumi eni 15 metrdir. Müqavilə çərçivəsində 7 körpünün, 1 piyada keçidinin, 112 suötürücü borunun və 28 avtobus dayanacağının inşası nəzərdə tutulub.Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

**Müasir istixana kompleksinin açılışı mərasimi**

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 29-da Sabirabadda müasir istixana kompleksinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Sabirabad rayonunun Kürkəndi kəndində inşa olunan kompleksin illik istehsal gücü 1,3 min tondur. Ərazisi 3,2 hektar olan istixana kompleksinin tikilməsinə 2,6 milyon manat investisiya qoyulmuşdur. Bu layihənin həyata keçirilməsinə sahibkarın vəsaiti ilə yanaşı, İqtisadi İnkişaf Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən də güzəştli kredit verilib. İstixana kompleksi Hollandiya, İtaliya və Türkiyənin texnologiyaları əsasında qurulmuş, tam avtomatlaşdırılmış iqlim-kontrol sistemləri, istilik-mühafizə pərdələri, havalandırma və suvarma sistemləri ilə təchiz edilmişdir. Müasir texnologiyaların tətbiqi nəticəsində istehsal prosesində enerji xərclərinə qənaət edilir ki, bu da yetişdirilən tərəvəz məhsullarının maya dəyərinin aşağı olmasına və bazara rəqabətədavamlı məhsul çıxarılmasına imkan verir. Kompleksdə ilkin olaraq faraş pomidor*

əkilməsinə başlanılmışdır. Yaxın zamanlarda 4 hektar sahəsi olan istixana və emal sahəsinin tikintisinə başlanılacaqdır.

Bildirildi ki, burada şitillərin tozlandırılması xüsusi işçi arılar vasitəsi ilə həyata keçirilir ki, nəticədə yüksək məhsuldarlıq əldə olunur. İstehsal prosesində yalnız orqanik gübrə və dərman preparatlarından istifadə olunur. Məhsulların itkisiz və qısa müddətdə istehlakçılara çatdırılması məqsədi ilə xüsusi nəqliyyat vasitələri alınmışdır. İstehsal olunan tərəvəz məhsullarının daxili bazarla yanaşı, xarici ölkələrə də ixracı nəzərdə tutulur. Kompleksdə məhsulların qablaşdırılması üçün istehsal olunan tərəvəzin keyfiyyətini itirmədən istehlakçılara çatdırılmasına imkan verir. Layihələrin icrası nəticəsində 55 nəfər yeni iş yerləri ilə təmin olunub.Sonra Azərbaycan Prezidenti kompleksin inkişaf planı və Sahibkarlığa Kömək Milli Fondu tərəfindən maliyyələşdirilmiş istixana komplekslərinə dair stendlərə baxdı.İqtisadi İnkişaf Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun icraçı direktoru Şirzad Abdullayev dövlətimizin başçısına tərəvəz istehsalı və istixana təsərrüfatları barədə məlumat verdi.

Qeyd edildi ki, ötən il 1,2 milyon ton tərəvəz, o cümlədən 472 min ton pomidor, 210 min tondan çox xiyar istehsal olunub. Tərəvəz üzrə özünütəminetmə səviyyəsi 100 faizdir. Ötən il tərəvəz ixracı 2003-cü ilə nisbətən 4,7 dəfə artaraq 55 min tona, o cümlədən faraş pomidor ixracı 36 min tona, xiyar ixracı isə 13 min tona çatmışdır. Eyni zamanda, dövlət tərəfindən 88 hektar ərazidə 148 istixanaya 52,3 milyon, o cümlədən 69 hektar ərazidə 27 müasir istixanaya 47,7 milyon manat güzəştli kredit verilmişdir. Dövlətin güzəştli kreditləri hesabına müasir istixana komplekslərinin yaradılması bundan sonra da davam etdiriləcəkdir.Bildirildi ki, Sahibkarlığa Kömək Milli Fondu tərəfindən Sabirabad rayonu üzrə 261 sahibkara 8,7 milyon manat güzəştli kredit verilib. Bu kreditlər hesabına 1228 yeni iş yerinin yaradılması nəzərdə tutulur.Dövlətimizin başçısı hazır məhsullara və gübrələrə baxdı.

*Prezident İlham Əliyev istixana kompleksinin işçiləri ilə söhbət etdi.*

**İ ş ç i :** Cənab Prezident, çox sağ olun ki, bizə bu cür şərait yaratmısınız. Bizə yollar çəkdirmisiniz, idman kompleksi tikdirmisiniz, xəstəxanalar açdırmısınız. Allah Sizə uzun ömür, cansağlığı versin. İşlərinizdə uğurlar arzulayırıq.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun.

**İ ş ç i:** Cənab Prezident, xoş gəlmisiniz! Mən bir şeyi xatırlatmaq istəyirəm, ulu öndərimiz həmişə deyərdi ki, Azərbaycan çox qüdrətli bir ölkə olacaqdır. Biz bu gün məhz Sizin rəhbərliyiniz altında bu fikirlərin reallığa çevrilməsinin canlı şahidiyik. Buna görə də çox sağ olun, minnətdarıq.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Sabirabadda çox işlər görülüb. Bildiyiniz kimi, Olimpiya İdman Kompleksi, digər vacib obyektlər tikilib. Onların içində, əlbəttə ki, sənaye müəssisələrinin yaradılması da xüsusi yer tutur. Həm sizin üçün iş yerləri yaradılır, həm yüksək maaş verilir. Eyni zamanda, görürəm ki, burada qadınlar işləyirlər. Qadınlar üçün də iş yerləri olmalıdır. Müasir texnologiya əsasında qurulmuş müəssisələrdə işləmək, əlbəttə ki, çox xoşdur.

Burada neçə nəfər işləyir?

**İ ş ç i :** 55 nəfər. İstixananın 4 hektar ərazisi istifadəyə veriləndən sonra 110 nəfərə çatacaqdır.

**İ l h a m Ə l i y e v:** Əksəriyyəti də qadınlardır. Bura hələ genişlənəcəkdir. Əlavə iş yerləri yaradılacaqdır. Siz bu kənddə yaşayırsınız?

**İ ş ç i:** Bəli, Bulaqlı kəndində.

**İ l h a m Ə l i y e v:** Əvvəllər işləyirdiniz?

**İ ş ç i:** Xeyr.

**İ l h a m Ə l i y e v:** Amma indi işləyirsiniz. Gözəl işdir. Şərait də yaxşıdır. Burada fəhlələrə yaxşı xidmət göstərilir. Maaş nə qədərdir?

**İ ş ç i:** 320 manat. Yeməyimizi də verirlər. Şəraitimiz yaxşıdır. Allah Sizə ömür versin.

**İ l h a m Ə l i y e v:** Sağ olun.

## KÜR ÇAYI ÜZƏRİNDƏ YENİ İNŞA OLUNMUŞ KÖRPÜNÜN AÇILIŞINDA SABİRABAD RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*29 avqust 2013-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 29-da Sabirabadda Kür çayı üzərində yeni inşa olunmuş körpünün açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

**İ l h a m Ə l i y e v:** Bu gün çox gözəl, əlamətdar gündür. Biz yenidən sizinlə görüşürük. Artıq bu gözəl körpünün açılışını bərabər qeyd edirik. Körpünün tikilməsi sakinlər tərəfindən irəli sürülmüş bir təklif idi. Yadımdadır ki, keçən dəfə – 2 il bundan əvvəl Sabirabadda olarkən belə bir müraciət olmuşdur. Dərhal göstəriş verildi. Bakıya qayıdan kimi ilk sərəncam imzalandı, vəsait ayrıldı. Ondan sonra əlavə vəsait də ayrıldı, körpünün tikintisi dövlət büdcəsinə, Dövlət İnvestisiya Proqramına salındı. Biz artıq körpünün açılışını qeyd edirik. Bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm.

Bu körpüdən 10 minlərlə insan istifadə edəcəkdir. Mənə verilən məlumata görə, bu körpü 16 kəndi birləşdirir. Körpünün tikintisi doğrudan da çox vacib idi. Bu körpünün tikintisi əslində Azərbaycanda xalqla iqtidar arasındakı birliyi təcəssüm etdirir. Çünki bizim bütün təşəbbüslərimiz, bütün işlər xalqın tələbi, xalqın xahişi ilə, yerlərdən olan təkliflər əsasında görülür. Bizim regional İnkişaf Proqramımızın əsas mənbəyi xalqdır. Proqramın əsas istiqaməti də Azərbaycan xalqına xidmət etməkdir. Hazırda 2-ci Dövlət Proqramı başa çatır. Proqram, demək olar ki, artıqlaması ilə icra edilir. Regionların sosial-iqtisadi inkişafı üzrə 3-cü Dövlət Proqramı hazırlanır,

gələn ilin əvvəlində qəbul ediləcəkdir. 3-cü proqram da yerlərdə verilən təkliflərin əsasında tərtib edilir. Çünki yerlərdə yaşayan sakinlər daha yaxşı bilirlər hansı işlər görülməlidir. Mənim rayonlara, o cümlədən Sabirabada səfərlərimin səbəbindən biri də ondan ibarətdir ki, özüm vəziyyətlə tanış olum, görüm hansı işlər görülməlidir, əlavə nə etmək lazımdır və bütün bu işləri biz görək.

Son illər ərzində Azərbaycanda onlarla, bəlkə də yüzdən çox körpü tikilmişdir. Körpü tikmək çox gözəl bir işdir. Körpü həyat verir, rahatlıq verir. Körpü inkişaf deməkdir. Son illərdə müxtəlif yerlərdə, hər bir bölgədə körpülər, yollar, tunellər tikilibdir. Bax, indi Bakıdan Sabirabada qədər rahat yolla gəlmək mümkündür. Bu yol bərbad vəziyyətdə idi. Hər dəfə mən Sabirabada gələndə təəssüf hissi ilə qeyd edirdim ki, yol bərbad vəziyyətdədir. Yolun tikintisi ilə bağlı göstərişlər verilmişdir. Artıq Sabirabada, Saatlıya qədər gözəl yol çəkilibdir. Sonra bu yol Horadizə qədər davam edəcəkdir. Bu, insanlara rahatlıq, inkişaf verəcəkdir. Həm də yolun tikintisi regionların inkişafına da bir təkandır.

Yol, körpü tikintisi, kənd yollarının inşası gedir. Bu zonada da kənd yolları tikilir. Əvvəllər də tikilmişdir, növbəti illərdə də tikiləcəkdir.

Çox işlər görülübdür. Sabirabad abadlaşır, gözəlləşir. Mən keçən dəfə 2 il bundan əvvəl olmuşam burada. Görürəm ki, çox böyük dəyişikliklər vardır. Gözəl binalar tikilir, köhnə binalar bərpa edilir, parklar salınır. Möhtəşəm Heydər Əliyev Mərkəzi tikilmişdir. İndi oradan gəlirəm. Ulu öndərin Sabirabada olan münasibətini siz yaxşı bilirsiniz. Ötən əsrin 70–80-ci illərində hər il Sabirabada gəlirdi, vəziyyətlə tanış olurdu. Sabirabadın o vaxtkı inkişafı ilə bağlı bütün istiqamətləri müəyyən etmişdir. 90-cı illərdə də olmuşdur. Mən də çalışıram bütün sahələrdə olduğu kimi, bu sahədə də onun siyasətini davam etdirim. Bu mənim Sabirabada 5-ci səfərimdir. Hər dəfə, xüsusilə son səfərimdən sonra görürəm ki, doğrudan da böyük dəyişikliklər baş verir.

Şəhər müasir görkəm alır, müasirləşir, abadlaşır, gözəl binalar, məktəblər, xəstəxana tikilir. Ancaq hələ görüləsi işlər çoxdur. Növbəti illərdə görüləsi işlər arasında xüsusi əhəmiyyət daşıyan su layihəsi olacaqdır. Bu ilin sonunda, ya da ki, gələn ilin əvvəlində Sabirabadın içməli su ilə təminatını təşkil etmək üçün böyük layihə başlanacaqdır. Hesab edirəm ki, biz çalışıb bu problemi 2014-cü ilin sonuna birdəfəlik həll edək. Buna böyük ehtiyac vardır. Bilirsiniz ki, şəhərə içməli su fasilələrlə verilir. Bəzi hallarda keyfiyyət də lazımi səviyyədə deyildir. Bu layihə də öz həllini tapacaqdır. Bu vaxta qədər çayboyu yerləşən kəndlərdə təmizləyici qurğular quraşdırılmışdır. Ancaq Sabirabadın su problemini əsaslı şəkildə həll etmək üçün yaxın zamanlarda böyük layihə icra edilməyə başlanacaqdır. Bu layihə 2035-ci ilə qədər hesablanıbdır. Yəni əhalinin artımını nəzərə alıb, 24 saat təmiz, keyfiyyətli içməli su veriləcəkdir.

Digər vacib layihə qazlaşdırma ilə bağlıdır. Biz bu layihəni də icra edəcəyik. Bax, ağsaqqal da razıdır. Bu layihə də tam şəkildə icra ediləcəkdir. Bütün kəndlərdə 100 faiz qaz təminatı təşkil ediləcəkdir. Mənə verilən məlumata görə hazırda şəhərin böyük hissəsi qazlaşdırılıb. Amma kəndlərdə qaz, demək olar ki, yoxdur, ya da ki, azdır, yaxud, keyfiyyət aşağıdır. Ona görə Dövlət Neft Şirkətinə müvafiq göstərişlər verilmişdir. Yaxın zamanlarda geniş qazlaşdırma işləri də aparılacaqdır. Bir daha demək istəyirəm ki, Sabirabad rayonunun bütün kəndlərində qazlaşdırma aparılacaqdır. Bu layihəni də biz icra edəcəyik.

Elektrik enerjisi ilə bağlı pilot layihə icra edilir. Bizdə əslində, elektrik enerjisi ilə bağlı, yəni generasiya ilə bağlı problem yoxdur.

Biz kifayət qədər yeni stansiyalar tikmişik. Sonuncu stansiya Şirvan şəhərində tikilmişdir. Ancaq ötürücü xətlər bəzi hallarda nasaz vəziyyətdədir və yaxud da ki, köhnəlibdir. Ona görə ötürücü xətlər və elektrik təsərrüfatı tamamilə yenidən qurulmalıdır. Son illərdə bu sahədə böyük işlər görülmüşdür. İşıqla bütünlükdə problem yoxdur. Kifayət qədər enerji vardır.

Ancaq elə edilməlidir ki, fasiləsiz olsun – 24 saat və ötürücü xətlərdə heç bir problem olmasın.

Kənd yolları da tikilir və tikiləcəkdir. Məktəblər tikilir. Amma kəndlərdə qəzalı məktəblər vardır. Sabirabad rayonunda 14 qəzalı məktəb vardır. Təmirsiz məktəblər də vardır. Bu problem də öz həllini tapacaqdır. Yəni əsas məsələ ondan ibarətdir ki, bütün mövcud problemlər öz həllini tapmalıdır. Biz bu problemləri bilirik və öz işimizi yerlərdən gələn məlumatlar əsasında görürük. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun maraqları, təhlükəsizliyi, rifahı və sağlamlığı dayanır. Biz insanların sağlamlığı, rifahı, təhlükəsizliyi üçün hər şeyi edirik və edəcəyik. Ölkəmiz sürətlə qabağa gedir. Hər bir bölgə qurulur, abadlaşır, bax, biz belə böyük işlər görürük.

Bütün bunların təməlində güclü iqtisadiyyat dayanır. Güclü iqtisadiyyatı da biz yaratmışıq. Bütün bunlar ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə neft strategiyasının icrası nəticəsində mümkün olmuşdur. Neftdən gələn gəlirləri biz insan kapitalına yönəldirik. Bir daha demək istəyirəm ki, hər şey Azərbaycan vətəndaşı üçün olmalıdır. Bunu edirik.

İqtisadiyyatımız isə güclüdür və güclənir. Dünyada böhran davam edir. Amma bizdə bu, hiss olunmur. Bəzi ölkələrdə maaşlar, pensiyalar kəsilir, iş yerləri ixtisara düşür. Amma bizdə maaşlar, pensiyalar artır, iş yerləri açılır. Budur bizim reallıqlarımız! Bu, böyük nailiyyətdir, böyük nemətdir. Gərək biz bu inkişafı gələcəkdə də təmin edək. Bunu etmək üçün həmişə olduğu kimi, xalqla iqtidar bir olmalıdır. Bax, bu birlik bizim bütün uğurlarımızı şərtləndirmişdir. Bizim gördüyümüz işlər konkret işlərdir. Körpülər, yollar, su, qaz xətləri, məktəblər, konkret işlərdir ki, insanlar bunu görür və istifadə edirlər.

Əminəm ki, gələcəkdə bizim görüşlərimiz hələ çox olacaqdır. Gələcəkdə Sabirabadda buna bənzər açılışlar gözlənilir. Mən də ulu öndərin siyasətini davam etdirərək çalışacağam ki, tez-tez Sabirabada gəlim.

**B ö y ü k a ğ a H ə m i d o v** *(Sabirabad Ziyalılar Cəmiyyətinin sədri):* Hörmətli cənab Prezident!

Bizim bu doğma diyara xoş gəlmisiniz! Sizin gəlişiniz bizim üçün toy-bayramdır. Bu gün bu körpüdən danışırıq. Bu bizim ulu öndərin diqqət mərkəzində duran yol, körpü məsələsidir. Yaxşı yadımdadır, 1978-ci il idi. Onda hər yerdə pambıq əkilirdi. Siz də gəlirdiniz, gənc vaxtınız idi. Gözəl müşavirələr keçirilirdi. Onda Şirvan zonasında bir müşavirə də bu Ulacalı kəndində keçirdik. Bərəni trosla çəkirdik. Onda bərəçi ilə görüşəndə dedi ki, zəhmətkeş əlidir, nə möhkəm əlin var. Dedim: «Yoldaş Əliyev, bu xətti çəkirəm, ona görə belədir». Əlini qoydu sinəsinə və dedi: «Məndən nə xahişin var, nə istəyirsən?» Dedim: «Bu üzdə 16 kənd vardır – o vaxt kolxozlar idi, 5 kolxoz vardı – xahiş edirəm bizə bir körpü salınsın. Canımız qurtarsın. Əhali bu bəladan qurtarsın». Dedi: «burada körpü tikiləcək». 1979-cu ildə Sürmə körpüsü tikilib istifadəyə verildi.

Cənab Prezident, körpü salmaq ulu öndərdən qalan ənənədir. Sizin dövrünüzdə 2 körpü salınıb. Biri burada salınıb, biri də Novruzlu körpüsü – Qasımbəyliyə gedəndə o körpüdən keçirsən. Ona görə də Allah Sizə uzun ömür, cansağlığı versin. Biz Sizə həmişə minnətdarıq. Sabirabadlılar Sizinlə həmişə fəxr edib.

İcazə versəniz, mən Sizdən bir xahiş də edərdim. Milli mədəniyyətimizin, səhiyyəmizin, təhsilimizin inkişafında Heydər Əliyev Fondunun prezidenti Mehriban xanımın böyük əməyi vardır. Bunu qiymətləndirməmək ən azı ədalətsizlik olar. Sizdən xahişimiz odur ki, sabirabadlılar adından bizim salamımızı ona çatdırasınız. Həm də Sizin hər ikinizə Azərbaycanın gözəl inkişafı yolunda uğurlar arzu edirik. Eşq olsun Prezidentimizə! Eşq olsun! Fəxr edirik Sizinlə! Sağ olun!

**F a z i l Q a s ı m o v** *(Cavad kənd sakini):* Cənab Prezident, o vaxt – 2 il öncə, Sizdən bu körpünün xahişini mən etmişdim.

**İ l h a m Ə l i y e v:** Siz etmişdiniz. Bəli, yadımdadır.

**F a z i l  Q a s ı m o v:** Allah Sizə ömür versin. Sizin sərəncamınızla bu körpü az müddətdə inşa olundu. İndi də Allaha şükür ki, Sizinlə bu gözəl körpünün açılışını edirik. Gözəl bəndlər də Sizin sərəncamınız ilə tikilib. Biz həmişə həyatda onun qorxusu ilə yaşayırdıq ki, Kür nə vaxt daşacaq, kimin evini aparacaq? Allah Sizə ömür versin, cansağlığı versin. Həyatda olan ən gözəl neməti Sizə Allah özü bəxş etsin! Yenə Sizə uzun ömür arzu edirəm.

**İ l h a m  Ə l i y e v:** Keçən dəfə burada elə daşqından sonra evlərin bərpası ilə tanış olurdum. O vaxt siz bu təklifi irəli sürdünüz, yadımdadır, məktəbin həyətində idi.

**F a z i l  Q a s ı m o v:** Qasımbəylidə Sizdən xahiş etdim.

**İ l h a m  Ə l i y e v:** Bəli, bu da bir daha onu göstərir ki, bax, bu təmasların çox böyük əhəmiyyəti vardır. Bölgələrdə olarkən çalışıram həmişə soruşum ki, əlavə nə etməliyik, nə lazımdır, narahat edən nədir? Biz bunu edək. Çünki doğrudan da indi Azərbaycan dövlətinin gücü çoxdur, böyükdür. Gücümüz var, maliyyə imkanlarımız da vardır. Sadəcə olaraq, dəqiqliklə bilməliyik ki, hansı məsələ öz həllini tapmalıdır. Hər bir vəzifəli şəxs gərək çalışsın ki, öz xalqına xidmət etsin. Biganə olmasın. Nə çatışmır, hər şey etmək mümkündür. Azərbaycan indi böyük uğurlara imza atıb. Səmaya peyk buraxmışıq, böyük işlər görürük. Hər şey etmək mümkündür. Sadəcə, gərək iradə və düzgün siyasət olsun.

**S a k i n l ə r:** Çox sağ olun!

**Ə h ə d  Ş ü k ü r o v** (*Mürsəlli kənd orta məktəbinin direktoru*): Cənab Prezident, Siz çətin günlərimizdə də həmişə bizə arxa, rəhbər, ağsaqqal olmusunuz, həmişə yanımızda olmusunuz. Təbii fəlakət nəticəsində rayonumuz çox çətin vəziyyətə düşmüşdü. Siz həmin anda xalqın yanında oldunuz. Sizin xüsusi tapşırığınız ilə xalq o çətin vəziyyətdən çıxdı. Sanki heç o problemlərlə üzləşməmişdi. Bütün bunlara görə mən Sizə uzun ömür, cansağlığı, işinizdə yeni-yeni müvəffəqiyyətlər arzulayıram.

Cənab Prezident, biz heç inkişaf etmiş ölkələrdə bu qayğını eşitməmişik, görməmişik. Bu yalnız bizim ölkəmizdədir. Xalqımız çətin vəziyyətə düşəndə Prezidenti yanındadır. Buna görə Sizə dərin minnətdarlığımı bildirirəm, həyatda uzun ömür, cansağlığı, işinizdə yeni-yeni müvəffəqiyyətlər arzu edirəm.

**İ l h a m Ə l i y e v:** Sağ olun!

**B ö y ü k a ğ a H ə m i d o v:** Əmin ola bilərsiniz ki, sabirabadlılar Sizin həmişə arxanızdadır. İnşallah, gözəl işlər görülür Sizin rəhbərliyinizlə.

**İ l h a m Ə l i y e v:** Mən deyə bilərəm ki, təbiət də bizi sınağa çəkir. Bax, bu zonada baş verən təbii fəlakət zamanı xoşbəxtlikdən heç bir bədbəxt hadisə, heç bir insan tələfatı olmamışdı. Keçən il şimal-qərb zonasında baş vermiş zəlzələ. O da çox ağır nəticələr vermişdi. Amma orada da bir nəfər də olsun həlak olmamışdı. Ancaq biz – Azərbaycan dövləti öz gücünə, öz vəsaiti hesabına bütün bu işlərin öhdəsindən gələ bildik. Dövlət hesabına minlərlə ev tikilmişdir, həm burada, həm Zaqatala–Balakən zonasında. Həm kompensasiya, həm evlərin tikintisini, yəni bütün bu işləri, bütün xərcləri dövlət öz üzərinə götürmüşdü. Mən deyə bilərəm ki, inkişaf etmiş ölkələrdə bu belə deyil. Orada hər kəs özü üçün ev tikir. Sonra bədbəxt hadisə baş verdikdə əgər ev sığortalıdırsa, gedir sığorta şirkətindən pulunu alır, sığortalı deyilsə, qalır bax, belə. Ancaq Azərbaycanda dövlət insanların maraqlarının keşiyindədir. Ona görə mən deyirəm ki, Azərbaycan dövləti sosial dövlətdir. Çünki siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır. Bu gün də belədir, gələcəkdə də belə olacaqdır. Bizim uğurlarımız çox olacaqdır.

**S a k i n l ə r**: İnşallah!

**B ö y ü k a ğ a H ə m i d o v:** Əməkhaqlarının artırılmasına görə çox sağ olun. Hamının ürəyincədir. Sizə uğurlar diləyirik! Sağ olun!

* * *

Sonra Azərbaycan Prezidenti körpünün sxemini əks etdirən stendə baxdı. Məlumat verildi ki, körpünün inşa edilməsi ətraf kəndlərdə yaşayan sakinlərin yol-nəqliyyat çətinliklərinin həllində çox mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Prezidentinin «Sabirabad rayonunun yol-nəqliyyat infrastrukturunun yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında» 2011-ci il 25 may tarixli Sərəncamına əsasən Kür çayının Cavad kəndi ərazisindən keçən hissəsində yeni körpünün tikintisi məqsədilə ilkin olaraq 2 milyon manat vəsait ayrılmışdı. Körpünün inşasına 2011-ci ilin iyulunda başlanılıb. Layihənin smeta dəyəri 8,9 milyon manatdır. Körpünün sifarişçisi Sabirabad Rayon İcra Hakimiyyətidir. Tikinti işləri «Gəncə Körpü Tikinti-2» ASC tərəfindən aparılıb.

Bildirildi ki, körpü Sabirabad şəhərini rayonun Şirvan düzündə yerləşən 16 və Kürdəmir rayonunun 3 kəndi ilə birləşdirir. 8 aşırımlı körpünün uzunluğu 153, ümumi eni 10,7 metr, ikizolaqlı hərəkət hissəsinin eni isə 8,4 metrdir. Yolötürücüsünün sağ və sol hissələrində piyadalar üçün eni 1,15 metr olan keçidlər tikilmişdir. Həmçinin körpünün ətrafında 5 hektar ərazidə yaşıllaşdırma işləri də aparılmışdır. Buradan Sabirabad rayonunun 32 mindən çox əhalinin yaşadığı 16 kəndinin sakinləri istifadə edir.

Dövlətimizin başçısı körpünün rəmzi açılışını bildirən lenti kəsdi.

## SAATLI RAYONUNA SƏFƏR

*29 avqust 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 29-da Sabirabada səfərini başa çatdıraraq Saatlı rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə ümummilli lider Heydər Əliyevin Saatlı şəhərinin mərkəzində ucaldılmış abidəsi önünə gül dəstəsi qoydu.*

*Saatlı Rayon İcra Hakimiyyətinin başçısı Siraqəddin Cabbarov prezident İlham Əliyevə məlumat verdi ki, abidənin yerləşdiyi Heydər Əliyev parkında genişmiqyaslı abadlıq işləri görülmüş, yeni yaşıllıq zolaqları salınmış, fəvvarələr quraşdırılmışdır. Ümumi sahəsi 5,6 hektar olan parkda rayon sakinlərinin və qonaqların istirahəti üçün hər cür şərait yaradılıb.*

### Bayraq Meydanı və Muzeyi ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 29-da Saatlıda Bayraq Meydanı və Muzeyi ilə tanış olmuşdur.*

*Məlumat verildi ki, Bayraq Meydanı Saatlı rayonundan olan şəhidlərin barelyeflərini əks etdirən «Şəhidlər» və «31 Mart – Azərbaycanlıların Soyqırımı» abidələrinin ərazisi ilə birləşdirilərək ümumi kompleks şəklində yaradılmaqla, 2 hektar sahəni əhatə edir. Bayraq Meydanının inşasına bu il mayın 10-da başlanılmış, qısa zamanda başa çatdırılmışdır.*

*Şəhərin giriş hissəsində yerləşən meydanda 82 metr hündürlüyündə bayraq dirəyi ucaldılmış, uzunluğu 24, eni 12 metr olan Dövlət bayrağı asılmışdır. Kompleksin ərazisində qurulan 2 metr hündürlüyündəki 4 postamentin üzərində Azərbaycanın metaldan tökülən xəritəsi, Dövlət gerbi, ulu öndər Heydər Əliyevin*

*dövlət müstəqilliyi barədə sözləri və Azərbaycanın Dövlət himninin mətni həkk olunub. Meydanın ətrafında orta əsrlərin memarlıq ənənələrinə uyğun qala tipli daş hasarlar, eləcə də tağşəkilli hasarlar hörülmüşdür. 3 qədim qala qapısı da meydana xüsusi gözəllik verir. Meydanda orta əsrlər Azərbaycan əsgərinin tökmə materiallardan 5 heykəli yaradılmışdır. Heykəllərdən 3-ü qala divarları üzərində, 2-si isə meydan ərazisində qoyulmuşdur.*

*Bildirildi ki, Bayraq Meydanının ərazisində abadlıq və yaşıllaşdırma işləri aparılmış, müasir işıqlandırma sistemi, 2 fəvvarə quraşdırılmışdır.*

*Prezident İlham Əliyev Bayraq Meydanının ərazisində yaradılan Bayraq Muzeyi ilə də tanış oldu.*

*Ümumi sahəsi 124 kvadratmetr olan Bayraq Muzeyinin aypara şəkilli binası sərgi və 2 köməkçi otaqdan ibarətdir. Muzeyin «Azərbaycanın tarixi dövlətləri» adlı bölməsi Manna dövlətindən başlayaraq Azərbaycan Xalq Cümhuriyyətinədək olan dövrü əhatə edir. Digər bölmədə Dədə Qorqud, Aristotel, Şah İsmayıl Xətai, Şeyx Məhəmməd Xiyabani, Hüseyn Cavid və Mikayıl Müşfiqin dövlət, dövlətçilik, bayraq haqqında kəlamları yer almışdır. Papirus formasında açılmış 5 hissədən ibarət bölmədə Azərbaycanda mövcud olmuş tarixi dövlətlər və onların rəhbərləri, dünya mədəniyyətinin inkişafına töhfə vermiş və beynəlxalq miqyasda tanınan mədəniyyət və incəsənət xadimlərimiz, ziyalılarımız, Azərbaycan xanları, Azərbaycan Xalq Cümhuriyyətinin generallarının rəsmləri yer almışdır. Ulu öndər Heydər Əliyevə həsr olunan bölmə isə «İstiqlal! Tam və mütləq Qələbə» adlanır. Muzeyin divarlarında, həmçinin ümummilli lider Heydər Əliyevin dövlətçiliyimizlə bağlı tarixi kəlamları, bayraq haqqında dediyi sözlər həkk edilmişdir.*

*Muzeyin sərgi otağında Azərbaycanın dövlətçilik tarixində və mədəniyyətində mühüm rol oynayan dahilərin, mütəfəkkirlərin, şairlərin də daxil olduğu 27 rəsm əsəri yağlı boya ilə divar üzərində işlənilib. Muzeydə, həmçinin 1918–1991-ci illərdə istifadə olunan Azərbaycan bayraqları, müstəqil Azərbaycanın ordenləri*

*və onlar haqqında məlumatları əks etdirən lövhə də vardır. Numizmatika bölməsində isə eramızdan əvvəl III əsrdən başlayaraq xanlıqlar dövrünədək istifadə edilən qədim sikkələr, XIX və XX əsrin nadir eksponatları, Səfəvi dövləti, Gəncə və Qarabağ xanlıqlarının bayraq ucluqları, XIX əsrə aid şəhərlərin gerbləri nümayiş olunur. Azərbaycan ərazisində mövcud olan qədim dövlətləri və eləcə də xanlıqlar dövrünün bayraqları muzeyin sərgi otağına xüsusi yaraşıq verir.*

*Bayraq Meydanı və Muzeylə tanışlıqdan sonra Azərbaycan Prezidenti tapşırıq və tövsiyələrini verdi.*

## Olimpiya İdman Kompleksinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 29-da Saatlı Olimpiya İdman Kompleksinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı kompleksin rəmzi açılışını bildirən lenti kəsdi. Məlumat verildi ki, Saatlı Olimpiya İdman Kompleksinin inşasına 2011-ci ilin dekabrında başlanılmışdır. Kompleksin tikintisi məqsədi ilə «Saatlı rayonunda Olimpiya İdman Kompleksinin və Gənclər Mərkəzinin tikintisi haqqında» Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Prezidentin ehtiyat fondundan ilkin olaraq 1 milyon manat, ötən il işlərin davam etdirilməsi üçün Nazirlər Kabinetinin sərəncamı ilə 2 milyon, 2013-cü ildə isə investisiya proqramına uyğun olaraq daha 5 milyon manat ayrılmışdır. Burada bir çox yarışların, təlim-məşq toplanışlarının və digər tədbirlərin keçirilməsi üçün hər cür şərait vardır.*

*Dövlətimizin başçısı kompleksin üzgüçülük zalı ilə tanış oldu. Bildirildi ki, burada Türkiyə istehsalı olan hovuz sistemi və «Gönka Klima» markalı xüsusi nəmalma qurğusu quraşdırılmışdır. 200 yerlik zalda 2 soyunub-geyinmə, duş otaqları vardır. Kompleksin ərazisində ikimərtəbəli 5 kottec inşa edilmişdir. Hər kottec 4 nömrədən ibarətdir.*

*Olimpiya İdman Kompleksinin ümumi zalının foyesində ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin Saatlıya*

*səfərlərindən və idmanın inkişafına göstərdikləri qayğıdan bəhs edən fotoguşələr yaradılmışdır.*

*Qeyd olundu ki, kompleksin tikintisi üçün 6 hektar torpaq sahəsi ayrılmış, layihə-smeta sənədləri «Sosial İnkişaf Layihə» Məhdud Məsuliyyətli Cəmiyyət tərəfindən hazırlanmışdır. Layihəyə əsasən ümumi sahəsi 3340 kvadratmetr olan universal idman zalında 432 oturacaq vardır. 400 tamaşaçı yarışları lojalardan izləyə biləcəkdir. Burada idmançılar üçün 2 soyunub-geyinmə, məşqçi və digər yardımçı otaqlar vardır. İnzibati hissənin birinci mərtəbəsində geniş vestibül, informasiya mərkəzi, məlumat-qeydiyyat hissəsi, istirahət otağı yerləşir. İkinci mərtəbədə trenajor zalı, kafe, müdiriyyət və işçi otaqları, konfrans zalı və güləş zalı vardır. Bu ilin sonunadək 900 yerlik açıq stadion, tennis kortu, basketbol meydançasının tikintisi yekunlaşacaqdır.*

## SAATLI RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*29 avqust 2013-cü il*

Sizi ürəkdən salamlayıram. Saatlıda Olimpiya Mərkəzi açılır, gözəl hadisədir. Bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Gözəl mərkəzdir və idmanla məşğul olmaq üçün bütün şərait vardır. Əminəm ki, gənclər bu mərkəzdən səmərəli şəkildə istifadə edəcəklər, uşaqlar gələcəklər. Burada idman bölmələri təşkil edilməlidir və rayon sakinləri də gəlməlidirlər ki, burada idmanla məşğul olmaq üçün bütün imkanlar vardır.

İdman sağlamlıq, sağlam həyat tərzi deməkdir. Biz Azərbaycanda idmanın kütləviliyini də təmin edə bilmişik. Çünki uşaqlar, gənclər kütləvi şəkildə idman bölmələrinə gedirlər, məşğul olurlar və sonra da ölkəmizi beynəlxalq yarışlarda ləyaqətlə təmsil edirlər. Bizim idmançılar böyük uğurlara imza atmışlar. Olimpiya oyunlarında böyük nailiyyətlər qazanmışıq. Bu yaxınlarda keçirilən Universiadada Azərbaycan komanda hesabında 16-cı yerə layiq görülmüşdür. Bu onu göstərir ki, gənc idmançılar, peşəkar idmançılar daim bizi sevindirir və Azərbaycan dünyada idman ölkəsi kimi tanınır.

Əlbəttə, buna nail olmaq üçün şərait olmalıdır. Bu məqsədlə bölgələrdə olimpiya idman kompleksləri tikilir və bu gün Saatlıda biz bu kompleksin açılışını qeyd edirik. Doğrudan da böyük hadisədir və hər dəfə Saatlıda olarkən biz hansısa bir obyektin açılışında iştirak edirik. Mən dəfələrlə Saatlı rayonunda olmuşam və görürəm ki, burada inkişaf var, abadlıq-quruculuq işləri aparılır, yollar çəkilir, binalar tikilir. Bu məni sevindirir. Çünki hər bir rayonun inkişafı ölkəmizin ümumi inkişafına bir töhfədir. Hər bir rayonun inkişafı burada

sakinlərin yaşayış şəraitini yaxşılaşdırır, yeni imkanlar, yeni iş yerləri, yeni müəssisələr açılır. Saatlı rayonunun inkişafı ilə bağlı müvafiq sərəncamlar verilmişdir, vəsait ayrılmışdır. Yenə də vəsait ayrılacaqdır ki, burada işlər daha da sürətlə getsin.

İndi Bakı ilə Saatlı arasında olan yolun tikintisi başa çatır. Yaxın həftələrdə qalan hissə də tikiləcəkdir və Saatlıdan Bakıya, digər bölgələrə rahat getmək mümkün olacaqdır. Bu yol bilirəm ki, sakinləri həmişə narahat edirdi və mən də dəfələrlə bu yolu gəlmişəm və görürəm ki, indi Sabirabada qədər çəkilən yol bütün standartlara cavab verir və artıq Saatlıya qədər qalan hissə də başa çatmaq üzrədir. Kənd yolları tikilir. Bu gün biz bir kənd yolunun açılışını qeyd etdik. Orada 10 minlərlə insan yaşayır və beləliklə, kənd yolları, magistral yollar, digər infrastruktur layihələri Saatlıda icra edilir.

Növbəti mərhələdə su layihəsi icra ediləcəkdir. Bilirəm ki, buna da böyük ehtiyac vardır. Əvvəlki illərdə bir neçə kənddə modul tipli təmizləyici qurğular quraşdırılmışdır. Ancaq Saatlı şəhərini davamlı içməli su ilə təmin etmək üçün bu ilin sonuna qədər işlər başlanmalıdır. Hesab edirəm ki, 1 il ərzində bu layihə də başa çatacaq və ondan sonra Saatlı şəhərini 24 saat keyfiyyətli içməli su ilə təmin etmək mümkün olacaqdır. Bu, böyük layihədir, böyük vəsait tələb edən layihədir. Ancaq Azərbaycan dövləti bunu edir və edəcəkdir. Çünki su həyat, sağlamlıq deməkdir və təmiz keyfiyyətli su sağlam həyat deməkdir.

Olimpiya Kompleksi, xəstəxana, içməli su layihəsi – bütün bunlar sosialyönümlü layihələrdir, insanların sağlamlığı üçün icra edilir, vəsait ayrılır. Dövlət İnvestisiya Proqramında vəsait nəzərdə tutulur ki, bölgələrdə sakinlər rahat yaşasınlar və bütün işlər ən yüksək standartlara uyğun görülsün.

Saatlıda qazlaşdırma layihəsi daha sürətlə icra edilməlidir. Əfsuslar olsun ki, şəhər hələ tam şəkildə qazlaşdırılmayıb. Bu, dözülməz bir haldır. İndi bizim əksər şəhərlərimizdə qazlaşdırma 100 faiz təmin edilibdir. Tezliklə müvafiq qurumlar Saatlıda qazlaşdırma işlərini həll etməlidirlər. İlk növbədə,

şəhər tam şəkildə qazlaşdırılmalıdır və Saatlının bütün kəndlərinə təbii qaz xətləri çəkilməlidir. Bu göstəriş verilmişdir və hesab edirəm ki, bu sözlərdən sonra müvafiq qurumlar bu işə daha da böyük məsuliyyətlə yanaşacaq, əsassız yubanmalara yol verilməyəcəkdir.

Beləliklə, bütün infrastruktur layihələrinin icrası nəticəsində tam yeni bir dövr başlanacaqdır. İnsanların rahatlığı, iş yerlərinin yaradılması üçün bütün lazımi addımlar atılır. Dövlət İnvestisiya Proqramında Saatlının inkişafı ilə bağlı müvafiq göstərişlər nəzərdə tutulubdur. Kənd təsərrüfatının inkişafı ilə bağlı əlavə tədbirlər görüləcəkdir. Mənə indi verilən məlumata görə, sizdə məhsuldarlıq da, taxıl yığımı da çox yüksəkdir, respublika üzrə olan rəqəmdən qat-qat üstündür. Çox gözəl göstəricidir. Kənd təsərrüfatı, heyvandarlıq, digər sahələr burada inkişaf etməlidir və inkişaf edəcəkdir. Bununla paralel olaraq, bütün sosial infrastruktur layihələri tam şəkildə öz həllini tapmalıdır. Bu istiqamətdə atılmış addımlar təqdirəlayiqdir – xəstəxana, Olimpiya Mərkəzi, yollar, digər infrastruktur layihələri – ancaq bununla bərabər, məktəblərdə də çox işlər görülməlidir. Saatlı rayonunda qəzalı məktəblər hələ var və onların da təmiri nəzərdə tutulur.

Bir sözlə, hər rayon üzrə, o cümlədən Saatlı üçün konkret tədbirlər planı vardır. 2-ci Dövlət regional inkişaf Proqramı bu ilin sonunda başa çatır və 3-cü proqram gələn il qəbul ediləcəkdir. Bu günə qədər həllini tapmayan məsələlər 3-cü Dövlət Proqramına salınacaq və növbəti 5 il ərzində tamamilə öz həllini tapacaqdır.

Sizi bir daha ürəkdən salamlayıram, belə gözəl Olimpiya İdman Kompleksinin açılışı münasibətilə bir daha təbrik edirəm.

**X ə y a l Ə h m ə d o v** (*Nərimankənd orta məktəbin məşqçi-müəllimi*): Möhtərəm cənab Prezident, Saatlıya xoş gəlmisiniz! Sizi idmançılarımız və bütün ictimaiyyətimiz adından ürəkdən salamlayıram. Bu gün bizim sevincimizin həddi-hüdudu yoxdur. Ona görə ki, xalqımızın böyük oğlu, əziz

Prezidentimiz bizimlə görüşə gəlibdir. Sizin hər səfəriniz, hər gəlişiniz Saatlının inkişafına yeni töhfələr deməkdir. Biz Sizin saatlılılara doğma və isti münasibətinizin daim şahidi olmuşuq. 2011-ci ildə Saatlıya səfəriniz zamanı Sizdən xahiş etmişdik ki, rayonumuzda bir Olimpiya İdman Kompleksi tikilsin. Siz dərhal göstəriş verdiniz, Saatlıda Olimpiya İdman Kompleksi və Gənclər Mərkəzinin tikintisi haqqında sərəncam imzaladınız. Bununla da bizə ikiqat sevinc bəxş etdiniz.

Bu gün də biz sevinc içərisindəyik. Rayonumuzda bu möhtəşəm Olimpiya İdman Kompleksinin açılışında bizimlə birlikdə iştirak edirsiniz. Bu Sizin ucalığınızın, insanların qayğıları ilə yaşamağınızın, gənclərimizin sağlam gələcəyinə olan ali diqqətinizin bariz nümunəsidir.

Cənab Prezident, Siz bizim arzularımızı gerçəkləşdirdiniz. Mən taekvondo üzrə məşqçi-müəllim işləyirəm. Onlarla yetirməm taekvondo sənətini davam etdirir. Biz söz veririk ki, bu möhtəşəm kompleksdə yeni çempionlar yetişdirəcəyik. Bu möhtəşəm Olimpiya İdman Kompleksi gündən-günə abadlaşan, müasir görkəmdə yenidən qurulan Saatlıya əlavə yaraşıq verir. Sizin yüksək diqqət və qayğınız sayəsində rayonumuzda sosial obyektlər, körpülər tikilir, yollar, parklar salınır, yeni iş yerləri açılır, rayon sakinlərinin istək və arzuları reallığa çevrilir. Doğma Azərbaycanımızın tərəqqisi naminə gördüyünüz bu əzəmətli işlərlə biz fəxr edirik, Sizinlə qürur duyuruq.

Əziz Prezidentimiz, indi Azərbaycan idman ölkəsi kimi tanınır. Ölkəmizdə olimpiya və idman hərəkatının inkişafı da Sizin adınızla bağlıdır. Hər dəfə beynəlxalq yarışlarda idmançılarımızın uğurlu çıxışları nəticəsində Dövlət bayrağımız dalğalananda sevincdən gözlərimiz yaşarır. 2015-ci ildə I Avropa oyunlarının Azərbaycanda keçirilməsi isə ölkəmizin sürətli inkişafının beynəlxalq aləmdə sabit, tərəqqipərvər bir dövlət kimi, özünə layiqli yer tutmasının təsdiqidir. Buna görə Sizə dərin minnətdarlığımızı bildiririk. Cənab Prezident, I Avropa oyunlarının Təşkilat Komitəsinə Mehriban xanım Əliyevanın rəhbərlik etməsi sayəsində bu oyunların da mötəbər

bir tədbir kimi tarixə düşəcəyinə inanırıq. Buna görə Sizə və Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya dərin təşəkkürümüzü bildiririk.

Möhtərəm cənab Prezident, Saatlı gəncləri və idmançıları Sizi əmin edirlər ki, bu möhtəşəm kompleksdən – bütün şəraiti olan, hər bir avadanlıqla təchiz edilmiş bu kompleksdən səmərəli istifadə edəcəyik. Mən idmançılarımız adından söz verirəm ki, bizim bütün qələbələrimiz, gələcəyə inamımız Sizinlə bağlıdır. Gənclərimiz öz gələcəklərindən tam arxayındırlar. Çünki bizim Sizin kimi qüdrətli liderimiz vardır. Xalqımız çox gözəl bilir ki, Siz suveren Azərbaycanımızın, bugünkü firavan həyatımızın qarantısınız. Bir daha əmin ola bilərsiniz ki, Sizin həyata keçirdiyiniz bütün işlərdə saatlılılar həmişə Sizinlədirlər, daim Sizinlə olacaqlar. Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar arzu edirəm, cənab Prezident.

**İ l h a m  Ə l i y e v:** Bizim görüşlərimiz hələ çox olacaq. Çünki Saatlıda görüləsi işlər çoxdur. Açılışlar da olacaqdır. Yeni obyektlərin açılışlarında biz bərabər olacağıq. Sizi əmin edirəm ki, gələcəkdə də Saatlının inkişafını daim diqqət mərkəzində saxlayacağam və rayonun inkişafı üçün bütün tədbirlər görüləcəkdir, Saatlı inkişaf edəcək, çiçəklənəcəkdir. Bir daha sizi təbrik edirəm.

## Qarayevkənd–Sımada avtomobil yolunun açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 29-da Saatlı rayonuna səfəri çərçivəsində Qarayevkənd–Sımada avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Son illər ölkəmizin yol-nəqliyyat strukturunda əsaslı dəyişikliklər baş vermişdir. Paytaxtın və rayon mərkəzlərinin küçə və yolları başdan-başa abadlaşdırılır. Bu proses Saatlı rayonunda da geniş vüsət almışdır. Rayonun Qarayevkənd–Sımada yerli əhəmiyyətli avtomobil yolu müasir tələblər səviyyəsində tamamilə yenidən qurulub.*

*Dövlətimizin başçısı avtomobil yolunun texniki göstəricilərini əks etdirən stendlərə baxdı.*

*Bildirildi ki, uzun müddət təmir işləri aparılmadığından yol istismara yararsız vəziyyətə düşmüşdü. Azərbaycan Prezidentinin «Saatlı rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında» 2013-cü il 16 iyul tarixli Sərəncamına əsasən 44 min nəfərin yaşadığı 17 məntəqəni birləşdirən Qarayevkənd–Sımada avtomobil yolunun tikintisi məqsədilə ilkin olaraq 3,5 milyon manat vəsait ayrılmışdır. Qısa müddətdə yenidən qurulan yol əhalinin gediş-gəlişini xeyli asanlaşdırıb. Yenidən qurulan bu yol regionlara olan diqqəti nümayiş etdirir və ölkədə həyata keçirilən sosial siyasətin bütün bölgələri əhatə etdiyini göstərir.*

*Qeyd edildi ki, yolun layihə-smeta sənədləri «Azərnəqliyyatyoltikinti» Açıq Səhmdar Cəmiyyəti tərəfindən hazırlanıb. Avtomobil yolunun ümumi uzunluğu 21 kilometrdir. Hazırda yolun 11 kilometrlik hissəsi istifadəyə verilir. Müasir standartlar səviyyəsində qurulan avtomobil yolunda 22 su keçidi tikilmiş, 66 min kvadratmetr asfalt-beton örtüyü vurulmuşdur. Yolun kənarında 250-yə yaxın siqnal dirəkləri basdırılıb.*

*Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

## AĞCABƏDİ RAYONUNA SƏFƏR

*29 avqust 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 29-da Saatlıya səfərini başa çatdıraraq Ağcabədi rayonuna gəlmişdir.*

*Dövlət başçısı əvvəlcə ulu öndər Heydər Əliyevin Ağcabədi şəhərinin mərkəzində ucaldılmış abidəsi önünə gül dəstəsi qoydu.*

*Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov prezident İlham Əliyevə məlumat verdi ki, Heydər Əliyev meydanı tamamilə yenidən qurulub. Burada abadlıq işləri aparılmış, 6,7 min kvadratmetr əraziyə dekorativ plitələr döşənmiş, qarşı hissədəki hasar milli memarlıq üslubunda tikilmişdir. İşıqlandırma sistemi də müasir standartlara uyğun yenidən qurulub.*

### Yeni Azərbaycan Partiyası Ağcabədi rayon təşkilatının yeni inzibati binasının açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 29-da Yeni Azərbaycan Partiyası Ağcabədi rayon təşkilatının yeni inzibati binasının açılışında iştirak etmişdir.*

*Dövlət başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Bina ilə tanışlıq zamanı məlumat verildi ki, tikinti işlərinə 2012-ci ilin iyununda başlanılmış və bu ilin avqustunda başa çatdırılmışdır. Binada ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin ölkəmizin ictimai-siyasi həyatı, o cümlədən Yeni Azərbaycan Partiyasının fəaliyyəti ilə bağlı gördükləri işləri əks etdirən fotoguşələr yaradılıb.*

*Prezident İlham Əliyev otaqlarda yaradılan şəraitlə tanış oldu.*

*İnzibati bina ümumilikdə 10 otaq, konfrans və iclas salonlarından ibarətdir. Bütün otaqlarda səmərəli fəaliyyət üçün hər cür şərait vardır. İnformasiya-kommunikasiya texnologiyalarının tətbiqi də xüsusi diqqətdə saxlanılıb. Bütün otaqlar lazımi avadanlıqlarla təchiz edilib. Binanın ikinci mərtəbəsində ulu öndər Heydər Əliyevin büstü qoyulub. Buradakı 70 nəfərlik akt zalında respublika və rayon əhəmiyyətli tədbirlərin keçirilməsi nəzərdə tutulub. Bundan başqa, kiçik iclas zalı da yaradılıb.*

*Dövlət başçısına məlumat verildi ki, partiyanın rayon təşkilatının 9,2 min üzvü vardır. Təşkilatın sıraları əsasən gənclərin hesabına ildən-ilə artır. Onlar hazırda partiya üzvlərinin 42 faizini təşkil edirlər.*

*Prezident İlham Əliyev görülən işlərdən razılığını bildirdi, tapşırıq və tövsiyələrini verdi.*

# AĞCABƏDİ RAYON MƏRKƏZİ XƏSTƏXANASININ YENİ BİNASININ AÇILIŞINDA RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*29 avqust 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 29-da Ağcabədi Rayon Mərkəzi Xəstəxanasının yeni binasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə rayon ictimaiyyətinin nümayəndələri və tibb işçiləri ilə görüşdü.*

**İ l h a m Ə l i y e v:** Kənardan baxıram, çox gözəl bir abidə tikilmişdir Ağcabədidə. Xəstəxana birinci növbədə, Ağcabədiyə, Qarabağ torpağına layiqdir. Azərbaycan dövlətinin qüdrətini göstərir.

Bu xəstəxana inkişaf etmiş ölkələrdə olan xəstəxanalardan geri qalmır. İndi nazir məlumat verir ki, bütün şöbələr vardır. Lazım olan bütün tədbirlər görülüb. Ən müasir avadanlıqlar quraşdırılıb. Doğum, cərrahiyyə, diaqnostika, dializ şöbələri, yəni tam şəkildə bütün dünya standartlarına cavab verən bir tibb mərkəzidir. Çox şadam ki, qısa müddət ərzində belə gözəl xəstəxana yaradıldı və bu gündən başlayaraq vətəndaşlara xidmət göstərəcəkdir. Xidmət də yüksək səviyyədə olmalıdır. Əminəm ki, belə də olacaqdır. Həkimlərin peşəkarlığı, təcrübəsi artır. Bu məqsədlə müxtəlif tədbirlər görülür. Səhiyyə sisteminin təkmilləşdirilməsi üçün proqramlar icra edilir.

Beynəlxalq təşkilatlar da Azərbaycanda bu sahədə aparılan işlərə yüksək qiymət verir. İslahatlar aparılır. Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanda bu sahədə görülən işlərə çox yüksək qiymət vermişdir. Bakıda bir müddət əvvəl keçirilmiş beynəlxalq səhiyyə toplantılarında xüsusilə vurğulanır ki,

Azərbaycanda səhiyyədə böyük irəliləyiş vardır. Statistika da bunu göstərir ki, uşaq ölümü azalır, insanların ömrünün uzunluğu artır.

Əlbəttə, bölgələrdə belə gözəl, möhtəşəm xəstəxanaların tikintisi insanların sağlamlığına verilən böyük töhfədir. Bakıda müasir xəstəxanaların tikintisinə biz artıq öyrəşmişik. İndi Bakıda onlarla tibb ocağı tikilib, təmir edilibdir. Bölgələrdə də səviyyə Bakıdakından aşağı olmamalıdır. Bu gözəl, möhtəşəm tibb ocağı onu göstərir ki, bölgələrdə də ən yüksək tibbi xidmət göstərilməlidir. Çünki Azərbaycan vətəndaşları sağlam olmalıdırlar. Azərbaycan vətəndaşları sağlam həyat tərzi sürməlidirlər. Diaqnostika və xəstəliyin vaxtında müəyyən edilməsi insanların sağlamlığı üçün əsas şərtdir.

Bu məqsədlə bölgələrdə diaqnostika mərkəzləri tikilmişdir. Bununla paralel olaraq hər bir şəhərdə mərkəzi rayon xəstəxanaları tikilir və yaxud da ki, əsaslı şəkildə təmir edilir. Hazırda deyə bilərəm ki, rayon mərkəzlərinin, şəhərlərimizin mütləq əksəriyyətində artıq gözəl tibbi xidmət vardır. Bu proses davam edir. Son 10 il ərzində Azərbaycanda 500-ə yaxın tibb mərkəzi tikilmişdir. Böyük vəsait qoyulmuşdur. Bundan sonra da qoyulacaqdır. Çünki bir daha demək istəyirəm ki, insanların sağlamlığı üçün diaqnostika və müalicə, əlbəttə, əsas məsələdir.

Vaxt var idi bizim imkanlarımız yox idi. Amma indi imkanlarımız vardır. İmkanları da biz lazım olan sahələrə yönəldirik. Neft kapitalını insan kapitalına çevirmək proqramı, bax, bu xəstəxananın timsalında özünü göstərir. Azərbaycanda düşünülmüş iqtisadi siyasət aparılır. Neft strategiyamız uğurla icra edilir. Bütün gəlirlər Azərbaycan xalqının rifah halının yaxşılaşmasına, iqtisadiyyatımızın möhkəmlənməsinə, ölkəmizin beynəlxalq mövqelərinin güclənməsinə yönəldilibdir. Məhz buna görə Azərbaycan nadir ölkələrdəndir ki, hətta dünyanı bürümüş iqtisadi və maliyyə böhranı bizə heç bir təsir etməmişdir.

Böhran illərində iqtisadiyyat artmışdır, bu il də artır. Xüsusilə qeyri-neft sektorumuz artır, 10 faizdən çox artım vardır. Böhran illərində maaşlar, pensiyalar artırılıb. İndi biz görürük və mətbuatdan da izləyirik ki, bir neçə ölkədə iqtisadi

çətinliklər baş verir. Demək olar ki, ölkələr müflisləşir, iş yerləri ixtisar edilir, maaşlar, pensiyalar kəsilir. Bizdə isə vəziyyət tam başqadır. Bizdə iqtisadiyyat artır, dövlət investisiyaları artır, pensiyalar, maaşlar artırılır, sosial infrastruktura, belə gözəl xəstəxanaların tikintisinə vəsait qoyulur və biz bundan sonra da bunu edəcəyik.

Ağcabədi rayonunun inkişafı üçün bundan sonra da əməli tədbirlər görüləcəkdir. Son illərdə Ağcabədidə böyük işlər görülmüşdür. Bu xəstəxana bu işlərin arasında xüsusi yer tutur. Digər layihələr icra edilmişdir. Binalar tikilir, parklar salınır, yollar, kənd yolları çəkilir və bu məqsədlə vəsait ayrılır. Növbəti illərdə bu istiqamətdə işlər davam etdiriləcək, bütün infrastruktur layihələri tam şəkildə icra ediləcək, o cümlədən içməli su, qazlaşdırma layihələri, kənd yollarının tikintisi davam etdiriləcəkdir.

İş yerlərinin yaradılması ilə bağlı burada yaxşı işlər gedir. Keçən dəfə burada olarkən, südçülük müəssisəsinin işi ilə tanış olmuşdum. Bu gün heyvandarlıq fermasının işi ilə tanış olacağam. Yəni iş yerlərinin açılması, regionların inkişafı, sosial infrastrukturun yaradılması kompleks şəkildə Azərbaycan dövlətinin inkişafını müəyyən edir. Bu inkişaf dayanıqlıdır, davamlıdır, uğurludur və gözəl nəticələr verir.

Qarabağ torpağında belə gözəl xəstəxanaların tikintisi bir daha qeyd etmək istəyirəm ki, ilk növbədə, insanlara dövlət tərəfindən göstərilən qayğının təzahürüdür, eyni zamanda, Azərbaycan dövlətinin gücünü göstərir. Gün gələcək, belə gözəl binalar, xəstəxanalar hazırda işğal altında olan torpaqlarda tikiləcəkdir. Biz mütləq o torpaqlara qayıdacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik və yenidən bütün şəhərləri quracağıq, tikəcəyik. Əminəm ki, «Böyük qayıdış» proqramı qısa müddət ərzində icra ediləcək və bütün infrastruktur, binalar, xəstəxanalar, məktəblər, iş yerləri açılacaqdır. Hazırda işğaldan azad olunmuş ərazilərdə, xüsusilə Füzuli rayonunun bir hissəsində görülən işlər onu göstərir ki, biz bütün bərpa işlərini qısa müddət ərzində görə bilərik. Hazırda hər il 20 min köçkün

müasir evlərlə, mənzillərlə təmin edilir. Deməк olar ki, hər il biz bir şəhər boyda qəsəbələr, evlər, mənzillər tikib veririk köçkünlərin sərəncamına. Ona görə torpaqlar işğaldan azad olunandan sonra qısa müddət ərzində bütün infrastruktur bərpa ediləcək və bu gün işğal altında olan torpaqlara yeni həyat veriləcəkdir.

Bu xəstəxana isə rayon sakinlərinə xidmət edəcəkdir. Arzum budur ki, rayon sakinləri ən azı ildə 1 dəfə buraya gəlib müayinədən keçsinlər. Mən bu sözləri hər bir xəstəxananın açılışında təkrar edirəm. Hesab edirəm ki, buna ehtiyac vardır. İndi tibb elmi elə inkişaf edir ki, istənilən xəstəlik müalicə oluna bilər, təki vaxtında aşkar olunsun. Əvvəllər avadanlıq yox idi. Ölkəmizdə cəmi 1 dənə kompüter tomoqrafı, bir neçə dializ aparatı var idi. İndi isə hər bir tibb mərkəzində, bölgələrdə, hər yerdə ən müasir avadanlıqlar vardır. İldə 1 dəfə, çox yox, 1 günü hər bir vətəndaş sərf etsin, gəlsin burada öz sağlamlığını yoxlatsın. Əgər problem varsa müalicə alsın, problem yoxdursa rahat yaşasın. İndi mövcud olan dializ mərkəzlərində, ondan sonra diaqnostika mərkəzlərində, mərkəzi rayon xəstəxanalarında müalicə alan insanlar görürlər ki, doğrudan da vaxtında müraciət edərkən böyük problemlərin qarşısı alına bilər. Statistika da onu göstərir ki, müalicə alan vətəndaşlar sağalırlar, dinamika da müsbətdir. Əlbəttə ki, həkimlərin peşəkarlığından da çox şey asılıdır. Həkimlər də daim öz biliklərini artırmalıdırlar. Çünki müasir tibb elmi sürətlə inkişaf edir.

Ağcabədidə bundan sonra da işlər görüləcəkdir. Bütün infrastruktur işləri görüləcəkdir ki, burada insanlar rahat yaşasınlar.

Sizi bir daha ürəkdən salamlayıram, yenidən doğma Qarabağ torpağında olmağımdan çox məmnunam. Sizə yeni uğurlar arzulayıram. Arzu edirəm ki, xəstələnməyəsiniz, sağlam olasınız. Ancaq buraya da müraciət edəsiniz.

**N u r a n ə  Q ə r i b o v a** (*xəstəxananın həkimi):* Möhtərəm cənab Prezident! İcazə verin, Sizi rayonumuzun ictimaiyyəti, o cümlədən Ağcabədi sakinləri adından salamlayım.

Böyük məmnunluq hissi ilə bildiririk ki, bu gün açılışını etdiyiniz bu Mərkəzi Xəstəxana Sizin ağcabədililərə etdiyiniz növbəti hədiyyədir. Göstərdiyiniz diqqət və qayğıya görə Sizə səmimi minnətdarlığımızı bildiririk.

Mən bir həkim kimi, bu gün ölkəmizdə səhiyyənin inkişafını izləyirəm və əldə olunan nailiyyətlərə hədsiz sevinirəm. Bu gün bu uğurların kökündə Sizin sosial siyasətinizin əsasını təşkil edən insan amili, insan sağlamlığı dayanır. Mətbuat xəbərləri ilə də tanış oluram və görürəm ki, son 10 ildə ölkəmizdə müasir xəstəxanalar açılmış, dərman təchizatı əhəmiyyətli dərəcədə yaxşılaşmış, həkimlərimizin peşəkarlığı artmışdır. Bu bir faktdır ki, Azərbaycanda, ölkəmizdə onlarla xəstəxana, müalicə-diaqnostika mərkəzləri tikilib istifadəyə verilibdir. Elə bir bölgəmiz yoxdur ki, orada səhiyyə obyektləri tikilməsin və ya yenidən qurulmasın. Bu, inanılmaz bir göstəricidir.

Bu gün açılışını etdiyiniz bu Mərkəzi Xəstəxana bunun bariz nümunəsidir. Bu xəstəxanada fəaliyyət göstərən bütün həkimlər, tibb işçiləri adından Sizə dərin minnətdarlığımızı bildiririk və bir daha Ağcabədiyə «Xoş gəlmisiniz!» – deyirik. Azərbaycanın bu günü və sabahı daim Sizinlə olsun, Tanrı Sizi qorusun!

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun. Xəstəxana, əlbəttə, ilk növbədə, pasiyentlər üçündür. Amma həkimlərin də iş yeridir. Ona görə də həkimlər üçün gözəl iş yeri yaradılıb. Burada işləmək, əlbəttə ki, hər bir həkim üçün xoşdur. Burada işləyən həkimlər hamısı yerli sakinlərdir. Bakıdan da gələ bilərlər, əlbəttə. Belə gözəl tibb mərkəzində işləmək hər kəs üçün xoş olar. Əvvəllər bölgələrə o qədər də böyük həvəslə gəlmirdilər. Çünki infrastruktur yox idi, problemlər var idi, gediş-gəliş çətin idi. Rayon xəstəxanalarımız da yaxşı vəziyyətdə deyildi. Amma indi belə xəstəxanada hər bir həkim böyük həvəslə işləyə bilər. Belə də olmalıdır. Ölkəmiz belə inkişaf etməlidir. Yoxsa paytaxt inkişaf etsin, bölgələr geridə qalsın, bu mümkün deyildir.

10 ildir ki, regional inkişaf proqramı icra edilir. Artıq ikinci proqram başa çatır. Bu 10 il ərzində bölgələr canlandı. Növbəti proqram da hazırlanır. O da gələn il qəbul ediləcəkdir, beşillik

proqram. Orada da bu günə qədər görə bilmədiyimiz işləri nəzərə alacağıq. Onlar da həll olunacaqdır. Bütün şəhərlərdə bu səviyyədə xəstəxanalar olmalıdır. Artıq buna az qalıb. Ondan sonra poliklinikalar, tibb məntəqələri, kənd məntəqələri, hamısı nəzərə alınacaq. Dərman təchizatı da yaxşıdır. Şərait var, avadanlıq var. Qalıb ki, xidmət göstərilsin, xəstələrə qayğı göstərilsin və müalicə də yüksək səviyyədə olsun. Bir daha təbrik edirəm sizi.

**S a k i n l ə r:** Çox sağ olun.

* * *

*Prezident İlham Əliyev Ağcabədi Rayon Mərkəzi Xəstəxanasının yeni binasının rəmzi açılışını bildirən lenti kəsdi. Səhiyyə naziri Oqtay Şirəliyev məlumat verdi ki, dövlətimizin başçısının 2010-cu il 30 mart tarixli Sərəncamına əsasən 205 çarpayılıq Mərkəzi Rayon Xəstəxanasının tikintisi üçün Prezidentin ehtiyat fondundan Səhiyyə Nazirliyinə ilkin olaraq 5 milyon manat vəsait ayrılıb. Tibb ocağının tikintisi 2011-ci ilin mayında başlanılmış, bu ilin avqustunda başa çatdırılıb. Ümumi ərazisi 3,9 hektar olan xəstəxana 5 korpusdan və 1 yoluxucu xəstəliklər bölməsindən ibarətdir. Yeni səhiyyə müəssisəsində əməliyyat boksu, cərrahiyyə və reanimasiya, doğum, ginekologiya, observasiya, otolarinqologiya, kardioloji, terapiya, uşaq qəbulu, uşaq terapiya, hemodializ, şüa-diaqnostika şöbələri, poliklinika və uşaq poliklinikası, konfrans zalı, laboratoriya, camaşırxana, digər yardımçı sahələr fəaliyyət göstərəcəkdir.*

*Xəstəxananın müasir şəraitlə təmin edilməsi ilk növbədə, burada tibbi müayinələrin və müalicə işinin ən yüksək səviyyədə təşkilinə və aparılmasına hərtərəfli imkan verir. Bina bütün növ kommunikasiyalarla təchiz edilib. Tibb ocağının ərazisində 19 min kvadratmetr sahəyə asfalt döşənmiş, 11 min kvadratmetr yaşıllıq zolağı salınmışdır.*

## Gənclər Mərkəzinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 29-da Ağcabədidə Gənclər Mərkəzinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi, burada yaradılan şəraitlə tanış oldu.*

*Azərbaycan Prezidentinə məlumat verildi ki, binanın tikintisi ötən ilin iyulunda başlanılmış, bu ilin avqustunda başa çatdırılmışdır. Şəhərin ən gözəl binalarından olan Gənclər Mərkəzinin ümumi sahəsi 3 min kvadratmetrdir.*

*Mərkəzin foyesində ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin ictimai-siyasi fəaliyyətinin müxtəlif məqamlarını, həmçinin gənclərlə görüşlərini əks etdirən fotolardan ibarət guşələr vardır.*

*Mərkəzin yaradılmasında əsas məqsəd yeniyetmələr arasında elmi-texniki biliklərin təbliği, onların elmi-yaradıcı təşəbbüslərinin artırılması və bu sahədə istedadlı gənclərin üzə çıxarılmasıdır. Bunun üçün ayrıca internet otağı vardır. Bütün kompüterlər internetə qoşulub. Gənclər Mərkəzində kompüter bilikləri və xarici dil üzrə xüsusi kursların təşkili də planlaşdırılır. Burada, həmçinin iclas və akt zalları, atıcılıq otağı, 3D kinozalı, linqafon otağı, elektron kitabxana və digər yardımçı otaqlar vardır. Müasir avadanlığın quraşdırıldığı atıcılıq salonunda gənclərin bu sahədə ibtidai hazırlıq keçmələrində və onların interaktiv, pnevmatik avtomatdan atəşaçma bacarıqlarının yüksəldilməsi üçün məqsədyönlü işlər aparılacaqdır. Bu mərtəbədə fəaliyyət göstərən disko-barda ən müasir akustika sistemi quraşdırılıb.*

*Binanın birinci mərtəbəsində oyun zalı yaradılıb. Burada müxtəlif növ oyun aparatları, dördcərgəli boulinq zalı, balacalar üçün «Labirint» oyun guşəsi fəaliyyət göstərəcəkdir. İkinci mərtəbədə gənclər kafesi yaradılıb.*

*Bildirildi ki, elektron kitabxananın fondunda ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin siyasi fəaliyyətinə*

*həsr edilən, eləcə də uşaqlar üçün və digər sahələrə dair kitablar toplanılıb. Bir sözlə, mərkəz gənclərin asudə vaxtlarının səmərəli təşkilində, onların ictimai fəallığının yüksəldilməsində mühüm rol oynayacaqdır.*

*Prezident İlham Əliyev Gənclər Mərkəzi ilə tanışlıqdan sonra tapşırıq və tövsiyələrini verdi.*

## «Aqat Aqro» heyvandarlıq kompleksinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 29-da Ağcabədidə «Aqat Aqro» heyvandarlıq kompleksinin açılışında iştirak etmişdir.*

*Məlumat verildi ki, «Aqat Aqro» heyvandarlıq kompleksi regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının həyata keçirilməsinin bəhrəsidir. Ağcabədi rayonunun Ağabəyli kəndində yaradılan kompleksin ümumi sahəsi 50 hektardır. Kompleks 3 min başlıq iribuynuzlu heyvandarlıq və 2 min başlıq keçi təsərrüfatından ibarətdir. Ümumi dəyəri 21 milyon manat olan iribuynuzlu heyvandarlıq kompleksinin yaradılmasına İqtisadi İnkişaf Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 7,5 milyon manat, dəyəri 5 milyon manat olan keçi təsərrüfatının yaradılmasına isə 3,5 milyon manat güzəştli kredit verilib. İribuynuzlu heyvandarlıq kompleksi müasir ferma avadanlığı – avtomatik yönləndirmə və yemləmə sistemləri, birdəfəyə 40 baş inəyin sağılmasına imkan verən karusel tipli avadanlıq, soyutma sistemləri və s. ilə təchiz edilib.*

*Qeyd olundu ki, kompleksə hər biri gündəlik 25 litrdən çox südvermə qabiliyyətinə malik 1500 baş «Holstein Friesian» cinsindən olan inəklər gətirilib. İndi heyvanların sayı 2600 başa çatdırılıb. Payız aylarında əlavə 600 baş cins damazlıq heyvanın gətirilməsi nəzərdə tutulub. Bir neçə ildən sonra heyvanların baş sayı 10 minə çatdırılacaqdır. Kompleksdə illik 22,8 min ton süd istehsalı nəzərdə tutulur ki, bu da illik emal*

*gücü 90 min ton olan «Atena» süd emalı zavodunun xammala tələbatının təmin edilməsinə imkan verəcəkdir.*

*Müəssisənin hazır məhsullarına baxan prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, gələcəkdə «Atena» zavodu Fransanın «Danone» şirkəti ilə birgə süd məhsulları istehsal edəcəkdir. Həmin məhsulların xarici ölkələrə ixracı da nəzərdə tutulur.*

*Elektromobillə müəssisənin ərazisini gəzən dövlətimizin başçısına keçi təsərrüfatı barədə də məlumat verildi. Bildirildi ki, 8 ferma, sağım və yem sexindən ibarət olacaq 2 min başlıq cins damazlıq keçi təsərrüfatında artıq 6 ferma istifadəyə verilib.*

*Hollandiyadan məhsuldarlığı və südünün keyfiyyətinə görə ən yüksək göstəricilərə malik «Saanen» cinsindən olan 1000 baş keçi alınmış və yaxın günlərdə təsərrüfata gətiriləcəkdir. İlin sonunadək əlavə 2 min baş cins damazlıq keçi də alınacaqdır. Yerli iqlimə asanlıqla uyğunlaşan, diri çəkisi 50–55 kiloqram, südünün yağlılığı 3-3,5 faiz və südvermə dövrü 300 gün olan bu keçilərdən gündəlik 3-4 litr süd sağılır. Tərkibinə görə ana südünə ən yaxın olan keçi südü kalsium, maqnezium, vitaminlər və digər minerallarla zəngindir. Allergiya riski olmaması, qastrit, mədə-bağırsaq xəstəliklərinə qarşı müalicəvi effekti olması keçi südünün əsas üstünlüklərindən sayılır.*

*Qeyd edildi ki, heyvandarlıq kompleksində 95 nəfər daimi iş yeri ilə təmin olunub. Keçi təsərrüfatında isə 60 nəfər daimi işçi çalışacaqdır. Təsərrüfat tam istifadəyə verildikdən sonra isə işçilərin sayının 100-dək artırılacağı nəzərdə tutulur.*

*Bildirildi ki, Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti hesabına Ağcabədi rayonu üzrə 534 sahibkara 28,8 milyon manat güzəştli kredit verilmişdir. Bu kreditlər hesabına 2010 yeni iş yerinin yaradılacağı nəzərdə tutulur.*

*Azərbaycan Prezidentinə Ağcabədi və Beyləqan rayonlarının ərazisində yaradılan özəl pilot taxılçılıq təsərrüfatının əvvəlki və hazırkı vəziyyətini əks etdirən stendlər də təqdim olundu.*

*Sahibkarlığa Kömək Milli Fondunun icraçı direktoru Şirzad Abdullayev məlumat verdi ki, dövlətimizin başçısının tapşırıqlarına*

uyğun olaraq Ağcabədi və Beyləqan rayonlarında 4,8 min hektar qış otlaq sahələrində özəl pilot taxılçılıq təsərrüfatı yaradılıb. Təsərrüfatda dövlət investisiyaları hesabına su və enerji təminatı yaratmaq məqsədilə 10,7 kilometr Yuxarı Mil kanalı, 10 kilometr yüksəkgərginlikli elektrik xətləri çəkilmiş, ərazi boşaldılaraq sahibkara 49 il müddətinə müsabiqə yolu ilə icarəyə verilmişdir.

Həyata keçirilən layihənin ümumi dəyəri 27,6 milyon manatdır. Bunun 17,6 milyon manatı sahibkarın vəsaiti, 10 milyon manat isə dövlətin güzəştli krediti təşkil edir. Təsərrüfatda ABŞ-ın «John Deere» şirkətinin müasir texnika və aqreqatları, kombaynları ilə təchiz olunan özəl «Aqroservis» yaradılıb və 30 min tonluq taxıl anbarının tikintisi başa çatmaq üzrədir. Layihə çərçivəsində 1000 başlıq müasir heyvandarlıq kompleksi və bitki yağları zavodu tikiləcəkdir.

Ərazidə ABŞ-ın «Lindsay» şirkətinin istehsalı olan 47 süni yağışyağdırma sistemləri – pivot quraşdırılıb. Bu da orta məhsuldarlığın 2 dəfə artmasına, suvarma suyuna 2-3 dəfə qənaət edilməsinə, torpağın şoranlaşması və eroziyaya uğramasının qarşısının alınmasına və münbitliyinin artırılmasına şərait yaradır. Yüksək reproduksiyalı toxumlardan və yeni intensiv əkin metodlarından istifadə etməklə, 1875 hektarda əkilmiş buğda sahələrində biçin başa çatmış və yüksək məhsuldarlıq – hər hektardan 55 sentnerədək məhsul əldə olunmuşdur.

Bundan başqa, 2000 hektar sahədə yazlıq qarğıdalı, sınaq məqsədilə isə 20 hektar günəbaxan və 5,3 hektar soya əkilib. Ərazidə payızlıq səpinə hazırlıq işlərinə başlanılmışdır. Növbəti mərhələlərdə bütövlükdə taxılçılıq təsərrüfatı üçün ayrılan 4,8 min hektar sahə əkin dövriyyəsinə cəlb ediləcəkdir. Layihənin həyata keçirilməsi nəticəsində 400-dək yeni iş yerinin yaradılması nəzərdə tutulub. Hazırda 150-dək yerli sakin, o cümlədən ətraf ərazilərdə məskunlaşmış məcburi köçkün daimi iş yeri ilə təmin olunub.

## VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÇIONQ TAN ŞANQA

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza Azərbaycan xalqı adından və öz adımdan ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan–Vyetnam münasibətlərinin möhkəmləndirilməsi, ənənəvi dostluq əlaqələrimizin və qarşılıqlı maraq doğuran əməkdaşlığımızın genişləndirilməsi istiqamətində atdığımız addımlar bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Vyetnam xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 avqust 2013-cü il*

## BİNƏQƏDİ RAYONUNDAKI 135 VƏ 248 SAYLI ORTA MƏKTƏBLƏRİN BİNALARININ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMADAN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*30 avqust 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 30-da Binəqədi rayonundakı 135 və 248 saylı orta məktəblərin binalarının əsaslı təmir və yenidənqurmadan sonrakı vəziyyəti ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi istiqamətində məqsədyönlü tədbirlər ardıcıl olaraq həyata keçirilir. Xüsusi Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlər planına uyğun olaraq təhsil, səhiyyə, mədəniyyət müəssisələrinin əsaslı şəkildə yenidən qurulması, yeni məktəb və uşaq bağçaları binalarının inşası uğurla həyata keçirilir. Yeni dərs ili ərəfəsində respublikanın hər yerində olduğu kimi, paytaxtda və eləcə də ətraf qəsəbələrdə orta məktəb binaları yüksək standartlara uyğun şəkildə yenidən qurulur və lazımi avadanlıqla təchiz edilir, təhsil müəssisələrinin ərazilərində abadlıq işləri həyata keçirilir, yaşıllıq zolaqları salınır.*

*Prezident İlham Əliyev əvvəlcə Binəqədi rayonundakı 135 saylı orta məktəbin binasının əsaslı təmir və yenidənqurmadan sonrakı vəziyyəti ilə tanış oldu.*

*Dövlətimizin başçısı məktəbin təmirdən əvvəlki vəziyyətini əks etdirən fotolardan ibarət stendə baxdı.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov görülən işlərlə bağlı prezident İlham Əliyevə məlumat verdi. Bildirildi ki, 1970-ci ildə istifadəyə verilən məktəbdə Dövlət Proqramına uyğun olaraq əsaslı təmir və yenidənqurma işləri yüksək standartlara uyğun şəkildə həyata keçirilib. Məktəbin*

*elektrik və kommunikasiya xətləri yeniləri ilə əvəz olunub, müasir istilik sistemi quraşdırılıb. 1020 şagird yerlik məktəbin bütün sinif otaqları, idman və iclas zalları, yeməkxanası tam təmir olunub, həyətdəki açıq idman meydançası əsaslı şəkildə yenidən qurulub. Məktəbdə dərslər bir növbədə aparılacaqdır.*

*Sonra prezident İlham Əliyev 248 saylı orta məktəbdə həyata keçirilən əsaslı təmir və yenidənqurma işləri ilə tanış oldu. Burada görülən işlər barədə dövlətimizin başçısına məlumat verildi. Məktəbin 1969-cu ildə istifadəyə verildiyi qeyd olundu. Bildirildi ki, 1020 şagird yerlik bu orta məktəbin 41 sinif otağı vardır. Dərslər bir növbədə keçirilir. Bütün sinif otaqları, fənn kabinetləri, idman və iclas zalları yüksək standartlar səviyyəsində təmir edilib. Məktəbin işıq və istilik sistemi ən müasir tələblər səviyyəsindədir.*

*Dövlətimizin başçısı sinif otaqlarına, ayrı-ayrı fənn kabinetlərinə baxdı, idman və iclas zallarında yaradılan şəraitlə yaxından tanış oldu.*

*Məktəbin həyətindəki açıq idman meydançası da yenidən qurulub. Bu təhsil ocağının ərazisində də abadlıq və quruculuq işləri həyata keçirilib.*

## «QƏLƏBƏ MEYDANI MÜXTƏLİF SƏVİYYƏLİ TUNEL TİPLİ YOL QOVŞAĞI» LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ İNŞA EDİLƏN 5 TUNELİN AÇILIŞI MƏRASİMİ

*2 sentyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də Bakıda «Qələbə meydanı müxtəlif səviyyəli tunel tipli yol qovşağı» layihəsi çərçivəsində inşa edilən 5 tunelin açılışı mərasimində iştirak etmişdir.*

*Son illərdə paytaxtda və regionlarda çoxsaylı yol ötürücüləri, körpülər, tunellər, yeraltı və yerüstü piyada keçidləri inşa olunur, beynəlxalq standartlar səviyyəsində avtomobil yolları salınır. Bütün bu işlər «Azərbaycanda avtomobil yolları şəbəkəsinin yeniləşməsinə və inkişafına dair 2006–2015-ci illər üzrə Dövlət Proqramı»na uyğun olaraq görülür. Bu çərçivədə həyata keçirilən məqsədyönlü tədbirlərin məntiqi nəticəsi olaraq yol-nəqliyyat kompleksinin ayrı-ayrı qurğuları yüksək keyfiyyətlə istismara buraxılıb. Müasirlikdə bir-birini üstələyən bu cür qurğuların və yolların inşası indi də davam etdirilir. Prezident İlham Əliyevin sərəncamı ilə Bakı şəhərində nəqliyyatın hərəkətinin tənzimlənməsi və yol infrastrukturunun təkmilləşdirilməsi layihələri üzrə işlər uğurla icra olunur. Dövlətimizin başçısının sərəncamına uyğun olaraq Qələbə meydanı adlanan ərazidə və onunla kəsişən yollarda nəqliyyatın hərəkətinin nizamlanmasını, tıxacların aradan qaldırılmasını və işıqforsuz hərəkət rejiminin təmin edilməsini nəzərdə tutan layihə artıq yekunlaşmışdır. «Qələbə meydanı müxtəlif səviyyəli tunel tipli yol qovşağı» adlanan layihə çərçivəsində inşa edilən 5 tunel artıq hazırdır. Bu layihəyə daxil olan 6 saylı tunel isə 2012-ci ilin dekabrında istifadəyə verilib. Layihənin podratçısı*

«Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası» ASC-dir. Sinqapurun «Surbana International Consultants» şirkətinin layihələndirdiyi qovşağın məsləhətçi-nəzarətçisi Türkiyənin «Pro Yapı Proje İnşaat» şirkətidir.

Dövlətimizin başçısına layihə barədə məlumat verildi. Bildirildi ki, Bakı şəhərinin yol-nəqliyyat infrastrukturunun yenidən qurulması ilə bağlı əlavə tədbirlərin icrası uğurla həyata keçirilir. Qələbə–Gənclik adlanan ərazidə yol qovşağı da tamamilə yenidən qurulub.

Prezident İlham Əliyev layihənin icrasını əks etdirən filmə, sonra isə inşa edilən tunellərin istiqamətini bildirən maketə baxdı. Bildirildi ki, layihə üzrə ərazidə 16 giriş-çıxışlı, ümumi uzunluğu 2512 metr, eni 8–15,5 metr, hündürlüyü 5,5 metr, hərəkət zolaqlarının sayı isə 5 olan 6 tunel tipli yol qovşağı inşa edilib.

Azərbaycan Prezidentinə layihənin texniki göstəriciləri barədə məlumat verildi. Tunel tipli yol qovşaqları Atatürk və Vaqif prospektlərini, həmçinin Atatürk prospekti ilə Əhməd bəy Ağaoğlu küçəsi vasitəsilə Təbriz prospektini birləşdirir. Əlavə olaraq, Təbriz prospektindən gələn avtomobillər Gənclik dairəsinə daxil olmadan birbaşa tunel vasitəsilə Dərnəgül şosesinə çıxa biləcəkdir. Həmçinin Fətəli xan Xoyski prospektinə qısa döngələrlə istiqamətlənmək mümkün olacaqdır. Vaqif prospektindən gələn avtomobillər Fətəli xan Xoyski prospektinin altından keçərək Atatürk prospektinə çıxacaq və bu istiqamətdən Həsən Əliyev prospektinin üstündən keçəcəklər.

Prezident İlham Əliyev inşa edilən tunellərlə tanış oldu. Layihə üzrə tikintisi nəzərdə tutulan yolların ümumi sahəsi 110 min kvadratmetrdir. Qələbə meydanı adlanan ərazidə hərəkət intensivliyi saatda 2340 avtomobildən 11 min avtomobilədək artacaqdır. Vaqif prospektində inşa edilən yol qovşağı metronun «Gənclik» stansiyasının tuneli üzərindən keçir. Tunellər beynəlxalq standartlara uyğun layihələndirilmiş və 9 ballıq zəlzələyə davamlılığı nəzərdə tutulub. Tunelin daxili işıqlandırma sistemi dünyada keyfiyyət, səmərəlilik, təhlükə-

*sizlik və uzunömürlülük baxımından özünü təsdiqləmiş və yarımkeçirici diodlar əsasında işləyən ən müasir işıqlandırma sistemidir. Tunellərin yan divarlarında və tavanda kompüterlə idarə olunan 9 min LED işıqlar quraşdırılmışdır. Tavanda quraşdırılan 3 minə yaxın projektor gündüz, gecə və qəza rejimlərində işləyir. Hərəkət zolaqlarında 2400 istiqamətverici işıqlar quraşdırılmışdır. Burada, həmçinin səsin səviyyəsini aşağı salmaq üçün 20 minə qədər panel vardır. 60-dan çox müşahidə kamerası təhlükəsizliyi təmin edir. Bundan başqa, istifadəyə verilən tunellərdə Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi tərəfindən idarə edilən elektron informasiya tablosunun köməyi ilə nəqliyyatın cari vəziyyəti haqqında məlumatlar təhlil edilərək sürücülərə çatdırılacaqdır. Layihəyə əsasən inşa ediləcək 10 piyada keçidindən ikisində işlər tamamlanma mərhələsindədir. Hər piyada keçidində 2 eskalator və əlillər üçün platforma quraşdırılacaqdır. Keçidlərin içərisinin üzlənməsində milli ornamentlərdən istifadə edilmişdir. Layihəyə əsasən metronun «Gənclik» stansiyasında əlavə 2 yeni piyada çıxışının inşası da planlaşdırılmışdır. İlk olaraq, metronun «Gənclik» stansiyasının Atatürk prospektinə çıxışının Qələbə meydanının mərkəzinə doğru yerdəyişməsi həyata keçirilmişdir. Piyada keçidləri də daxil olmaqla, tikinti işləri tamamilə başa çatdıqdan sonra ərazidəki park yenidən qurulacaq və sakinlərin istifadəsinə veriləcəkdir.*

**İlham Əliyev:** 3 il ərzində böyük iş görülüb. Şəhər infrastrukturu yeniləşib – yollar, körpülər, tunellər. Son illərdə Bakıda onlarla, ölkə üzrə bəlkə də yüzlərlə körpü, keçid, tunel tikilib. Hər şey insanların rahatlığı, hər şey Azərbaycan vətəndaşları üçün olmalıdır.

Gələcəkdə hələ ki görüləsi işlər çoxdur. Bakının yol infrastrukturunun yeniləşməsi, qurulması istiqamətində hələ böyük işlər görüləcək. Ancaq görülən işlər də kifayət qədərdir. İnsanlar bu yeniliklərə öyrəşirlər. İndi misal üçün, 5-7 il bundan əvvəlki vəziyyəti yada salanda görürük ki, yerlə göy qədər fərq vardır. Aeroport yolu, körpülər, qovşaqlar, tunellər tikilir, özü

də hər yerdə. Təkcə şəhərin mərkəzində deyil, şəhərin bütün yerlərində böyük nəqliyyat infrastrukturu yaradılır. Hazırda Ziya Bünyadov istiqamətində də böyük qovşaq tikilir. Burada – «Gənclik» metrosunun ətrafında əvvəllər də 2 yol açılmışdır, 2 istiqamətə aparan yollar. Bu yollar da elə bu qovşağın tərkib hissəsi olaraq indi fəaliyyət göstərir. Bütün binalar yenidən qurulub, abadlaşıb. Bu meydan doğrudan da yeni görkəm alıb. Futbol stadionu da əsaslı təmir edilibdir. Burada digər infrastruktur tikilir. Yəni Qələbə meydanı Bakının ən gözəl meydanlarından biri olacaqdır.

# MAŞTAĞADA QƏSƏBƏDAXİLİ YOLLARDA APARILAN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*2 sentyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də Maştağada qəsəbədaxili yollarda aparılan əsaslı təmir və yenidənqurma işləri ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısının göstərişi ilə Bakı və Bakıətrafı qəsəbələrin sosial-iqtisadi inkişafının sürətləndirilməsi, paytaxtın yol-nəqliyyat infrastrukturunun müasirləşdirilməsi istiqamətində məqsədyönlü tədbirlər ardıcıl olaraq həyata keçirilir. Azərbaycan Prezidentinin sərəncamı ilə təsdiq edilmiş «Bakı şəhərinin qəsəbələrinin 2006–2007-ci illər üzrə sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Proqramı»nın davamı olan 2011–2013-cü illəri əhatə edən Dövlət Proqramında yol infrastrukturunun daha da müasirləşdirilməsi nəzərdə tutulur. Bakı və ətraf qəsəbələrin yollarının ən müasir səviyyədə inşası, yol ötürücülərinin, körpü, tunel, yeraltı və yerüstü piyada keçidlərinin tikintisi ardıcıl olaraq həyata keçirilir.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov görülən işlər və həyata keçiriləcək tədbirlərlə bağlı prezident İlham Əliyevə məlumat verdi. Bildirildi ki, Bakının digər qəsəbələrində olduğu kimi, Maştağada da daxili yollar əsaslı şəkildə yenidən qurulur, əhalinin sosial həyat şəraitinin yaxşılaşdırılması istiqamətində tədbirlər davam etdirilir. Qeyd olundu ki, qəsəbədə 72500 kvadratmetr yol sahəsinə asfalt örtüyü döşənmiş, yolların kənarları abadlaşdırılmış, ətraf ərazilərdə səliqə-sahman yaradılmışdır. Qəsəbədaxili yolların*

*kənarlarında 100-ə yaxın yeni işıq dirəkləri qoyulub, müasir işıqlandırma sistemi quraşdırılıb.*

*Azərbaycan Prezidentinin diqqətinə çatdırıldı ki, qəsəbədaxili yolların əsaslı şəkildə yenidən qurulması işləri davam etdirilir.*

*Görülən işlərlə yaxından tanış olan dövlətimizin başçısı sakinlərlə görüşdü.*

**İ l h a m Ə l i y e v:** Sizi görməyimə çox şadam. Əvvəllər Maştağa qəsəbəsində dəfələrlə olmuşam. Mən indi yeni çəkilən yola da baxdım. Keyfiyyətli yoldur. Qəsəbədaxili bütün yollar bu səviyyədə olmalıdır. Elə də olacaqdır. Maştağa böyük qəsəbədir. Burada qəsəbədaxili yollar da çoxdur. Ancaq biz bütün bu yolları tədricən yüksək səviyyədə təmir etdirəcəyik ki, insanlar rahat yaşasınlar, gediş-gəliş də rahat olsun.

İndi Azərbaycanda bütün yol infrastrukturu yenilənir, o cümlədən Bakı şəhərində. Bütün bölgələrdə, rayonlarda kənd yolları, qəsəbə yolları tikilir. Bakıda qəsəbələrarası yollar yenidən qurulur. Bu gün səhər biz böyük bir yol-nəqliyyat qovşağının açılışını qeyd etdik. Metronun «Gənclik» stansiyasının yaxınlığındakı böyük bir nəqliyyat infrastrukturu açılmışdır. Bununla bərabər, bütün qəsəbələrdə yol infrastrukturu layihələri icra edilir.

Bildiyiniz kimi, Bakının kənd və qəsəbələrinin inkişafı ilə bağlı Dövlət Proqramı icra edilir. Bu il proqramın əsas hissəsi başa çatdırılacaqdır. Proqramda əsasən yol, qazlaşdırma, su, kanalizasiya xətləri layihələri nəzərdə tutulur. Bütün bu məsələlər ardıcıllıqla icra edilir. Qəsəbələrdə bütün infrastruktur layihələri yüksək səviyyədə təşkil edilməlidir.

Bakının qəsəbələrinin arasında isə Maştağa ən böyük qəsəbədir, tarixi bir yerdir. Maştağanın çox böyük tarixi vardır. Bu gün də böyük potensiala malik olan bir qəsəbədir. Şadam ki, burada bütün işlər məqsədyönlü şəkildə aparılır. Biz bu işlərə kompleks şəkildə yanaşırıq. Məktəblər tikilir, təmir edilir, tibb məntəqələri, uşaq bağçaları, yollar, su-kanalizasiya layihələri də icra ediləcəkdir. Bütün yollar, bax, bu səviyyədə olmalıdır. Bu günə qədər

görülmüş işlər xəritədə göstərilir, burada əks olunub. Ancaq bir daha demək istəyirəm ki, qəsəbə çox böyükdür. Qəsəbədaxili yollar da çoxdur. Biz hələ gərək bir müddət işləyək ki, bütün yollar bu səviyyədə olsun.

Əlbəttə, hər bir qəsəbənin inkişafı ilə bağlı xüsusi proqramlar vardır. Qəsəbələrdə iş yerlərinin, yeni sənaye müəssisələrinin yaradılması layihələri icra edilir. Bakının digər bölgələri ilə əlaqə rahat olmalıdır.

Zabrat yolu genişləndirilmişdir. İndi Pirşağı yolu, sahilboyu Bilgəh–Sumqayıt yolu tikilir. Bütün bu yollar Bakı sakinlərinin rahatlığı üçün edilir. Gördüyümüz bütün işlərin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Həm bölgələrdə, həm Bakıda, Bakının qəsəbələrində çox böyük quruculuq işləri aparılır. Layihələrin icra edilməsi bizə əlavə güc verir. Ona görə də görülmüş bu işlərlə bağlı mən sizi ürəkdən təbrik edirəm. Deyə bilərəm ki, gələcəkdə də Maştağanın inkişafı daim diqqət mərkəzində olacaqdır.

**S a k i n l ə r:** Çox sağ olun.

**İ l h a m  Ə l i y e v:** Mən xatırlayıram ki, prezident kimi, ilk dəfə qəsəbəyə gəlmişdim. O vaxt yollar, əlbəttə ki, belə vəziyyətdə deyildi. O vaxt biz bəzi qəsəbədaxili yolların tikintisinə başlamışdıq. Ondan sonra sakinlərin bir neçə xahişi olmuşdu, onlar da icra edildi. Ancaq bu gün Azərbaycan daha da böyük maliyyə imkanlarına malikdir. Biz daha da böyük işlər görməyə qadirik, bunu edirik və edəcəyik. Bir daha sizi təbrik edirəm.

**H ü s e y n q u l u  Ə l ə s g ə r o v** *(Maştağa qəsəbəsinin sakini)*: Hörmətli cənab Prezident! Əvvəla, icazə verin, sakinlər adından qəsəbəmizə gəlməyiniz münasibətilə Sizə «Xoş gəlmisiniz!» – deyək.

Sizin qəsəbəmizin sakinlərinə, qəsəbəyə göstərdiyiniz diqqət hamımıza bəllidir. Elə bunun nəticəsidir ki, qəsəbəmizdəki bütün məktəblər, uşaq bağçaları əsaslı təmir olunub. Poliklinika şöbəsi əsaslı təmir edilib və istifadəyə verilib. Biz buna görə Sizə təşəkkür edirik. Elə bu gün istifadəyə verilən yollarımızın,

bu yaxınlarda Buzovna–Maştağa–Zabrat yolunun açılışında da Sizinlə birlikdə iştirak etdik. Bizi çox sevindirir ki, istər Bakı şəhərinin yolları, istərsə də qəsəbədaxili yollarımız eyni səviyyədə, eyni keyfiyyətdədir. Bizim küçələrimiz – artıq 10 belə küçə vardır – asfaltlaşdırılmışdır. Qaz və işıq problemimiz yoxdur. Kanalizasiya sisteminin çəkilməsi haqqında bizə xoş xəbər verdilər ki, Sizin bu haqda göstərişiniz olub. Qəsəbə sakinləri adından Sizə təşəkkür edirik ki, bu işimiz də öz yolunda olacaqdır.

Su problemimizlə bağlı Sizin göstərişiniz nəticəsində artıq bu işlərə başlanılmışdır. Son zamanlar rayonumuzda gedən işlərlə bağlı Sizə dərin təşəkkürümü bildirirəm. Demək istəyirəm ki, qəsəbəmizin bir hissəsində qrunt sularının qalxması ilə bağlı Sizin bircə göstərişiniz kifayət etdi ki, 70-ə qədər nasos quraşdırıldı, kilometrlərlə xətlər çəkildi. Hazırda bu problem, demək olar ki, aradan qaldırılıb. Sizə dərin təşəkkürümüzü bildiririk. Sizə bu işlərinizdə müvəffəqiyyətlər arzulayırıq. Sizə cansağlığı, uzun ömür arzulayırıq. Sonda demək istəyirəm, qəsəbə sakinləri arzu edirlər ki, Siz onların əbədi Prezidenti olasınız.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun. Qəsəbədə doğrudan da böyük işlər görülüb, amma görüləsi işlər də çoxdur. Əlbəttə, mənim rayonlara, qəsəbələrə səfərlərimin səbəbi ondan ibarətdir ki, əlavə nə kimi işlər görülməlidirsə, onu sizdən eşidim. Çünki, əlbəttə ki, forsmajor hadisələr də olur, gözlənilmədən hansısa bir hadisə baş verir. Siz də qeyd etdiyiniz kimi, qrunt sularının qalxması ilə əlaqədar insanlar əziyyət çəkdilər. Ancaq bütün bu məsələlər operativ qaydada öz həllini tapdı. Yəni bu hadisə və gördüyümüz bütün başqa işlər onu göstərir ki, iradə olan yerdə istənilən işi görmək olar. Təki iradə, istək, həvəs olsun.

Hər bir vəzifəli şəxs öz xalqına bağlı olmalıdır. Hər bir məmur öz vətəndaşlarına xidmət etməlidir. Əgər hər bir qəsəbənin problemi öz həllini taparsa, onda ölkədə heç bir problem qalmaz. Çox sadə bir məntiqdir.

Azərbaycanda 4000-dən artıq kənd və qəsəbə vardır. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı da bütün bu qəsəbələrin problemlərini özündə ehtiva edir. Bu ilin sonunda 2-ci Dövlət Proqramı başa çatır. 3-cü proqram da hazırlanır. Növbəti 5 il ərzində infrastruktur və sosial obyektlərlə bağlı heç bir problem qalmayacaqdır.

Bir daha demək istəyirəm ki, Maştağa qəsəbəsində bir çox məsələlər öz həllini tapmışdır. Qazlaşdırma tam şəkildə öz həllini tapıb. Elektriklə bağlı problem yoxdur. Yollar çəkilir və bu proses davam etdiriləcəkdir. Su-kanalizasiya layihələri bütün qəsəbələrdə böyük problemdir. Bilirsiniz ki, bu məsələlər Bakıda heç vaxt lazımi səviyyədə öz həllini tapmamışdır. Bunun təbii səbəbləri vardır. Çünki Abşeron yarımadasında su mənbələri çox azdır. Vaxtilə Abşerona digər yerlərdən xətlər çəkilərək su verilmişdir. Ancaq hazırda bütün ölkəmizin su probleminin həlli üçün xüsusi proqram icra edilir. Siz də yəqin ki, izləyirsiniz. Demək olar ki, hər həftə hansısa rayonda içməli su, kanalizasiya layihələri öz həllini tapır. Belə olan halda mütləq Bakı şəhərinin bütün qəsəbələrində bu problem öz həllini tapmalıdır. Müvafiq göstərişlər verilmişdir. Proqram tutulub. Maştağada yaxın zamanlarda bu proqram icra edilməyə başlanacaqdır. Hər bir evə 24 saat ərzində içməli suyun verilməsi, özü də keyfiyyətli içməli suyun verilməsi təşkil ediləcəkdir. Yəni qarşıya belə vəzifə qoyulubdur.

Gələcəkdə, əlbəttə ki, digər layihələr icra ediləcəkdir. Məktəb, uşaq bağçası tikintisi, təmiri gedir. Ancaq əhali artır, Maştağa qəsəbəsi də böyüyür və üstünlüyümüz ondan ibarətdir ki, bizdə daim demoqrafik inkişaf gedir. Əhali artır, bu da gücümüzü daha da artırır. Ona görə bütün bu işlər, o cümlədən burada qurulacaq su layihəsi də 2035-ci ilə hesablanıb ki, əhalinin artımı da orada nəzərə alınır. Əgər indi əlavə hansısa bir təklifiniz, istəyiniz, xahişiniz varsa, deyin, biz onu da həll edək. Çünki mən ona görə gəlmişəm ki, həm tanış olum, həm də Sizdən eşidim ki, biz əlavə nə etməliyik.

**S a k i n:** Təşəkkür edirik. Çox sağ olun! Hər şey yaxşıdır.

**İ l h a m  Ə l i y e v:** Rayonda da bütövlükdə işlər yaxşı gedir. Sabunçu rayonu inkişafdadır, digər qəsəbələrdə də quruculuq işləri aparılır. Bir daha demək istəyirəm ki, mənim üçün mərkəzi, yaxud da ki, qıraq rayon anlayışı yoxdur – nə ölkə, nə də Bakı şəhəri üzrə. Hər bir rayon mərkəzdir. Hər bir qəsəbədə işlər elə görülməlidir ki, sanki bu, şəhərin mərkəzidir. Bax, Bakı şəhərinin mərkəzi necə gözəldir. Bütün şəhərlər, bütün rayonlar elə olmalıdır. Bir daha demək istəyirəm ki, bunu etməyə bizim imkanımız da, iradəmiz də vardır. Xalq da bütün bu işləri dəstəkləyir. Belə olan halda qarşımızda heç bir maneə ola bilməz.

## AZƏRBAYCAN RESPUBLİKASI VƏTƏNDAŞININ İLK BİOMETRİK PASPORTUNUN TƏQDİM EDİLMƏSİ MƏRASİMİ

*2 sentyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də Azərbaycan vətəndaşının ilk biometrik pasportunun təqdim edilməsi mərasimində iştirak etmişdir.*

*Son illər ölkəmizdə sürətli iqtisadi inkişaf proseslərinin həyata keçirilməsi, xalqın rifah halının daha da yaxşılaşdırılması, sosial infrastruktur layihələrinin uğurla icra olunması, dövlət orqanlarında işlərin operativ həlli və bu sahədə bürokratik əngəllərin aradan qaldırılması istiqamətində ardıcıl işlər görülür. Bakıda və regionlarda Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin «ASAN xidmət» mərkəzlərinin fəaliyyətə başlaması, dövlət idarələrində digər müasir xidmət növlərinin yaradılması olduqca əhəmiyyətlidir. Azərbaycanda vətəndaşlara müasir texniki xidmətin ən yüksək dünya standartları səviyyəsində göstərilməsi sahəsində də məqsədyönlü tədbirlər görülür. Azərbaycan Respublikası vətəndaşının ilk biometrik pasportunun hazırlanması da bu istiqamətdə atılan mühüm addımlardan biridir. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 13 fevral tarixli Sərəncamı ilə təsdiq olunmuş «Azərbaycan Respublikasının biometrik eyniləşdirmə sisteminin yaradılması üzrə 2007–2012-ci illər üçün Dövlət Proqramı»nın, həmçinin «Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında» Azərbaycan Respublikası Qanununda dəyişikliklər edilməsi barədə» 2012-ci il 17 iyul tarixli 686 saylı Fərmanın tələblərinin vaxtında təmin edilməsi məqsədilə bir sıra təxirəsalınmaz tədbirlər həyata keçirilib. Şəxsiyyəti təsdiq edən sənədlərin verilməsini tənzimləyən normativ hüquqi baza təkmilləşdirilmiş, ümumvətəndaş, xidməti və diplomatik pasportların təsviri,*

*spesifikasiyası və nümunələri Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 17 iyul tarixli 687 saylı Fərmanı ilə təsdiq edilmişdir. Şəxsiyyəti təsdiq edən yeni nəsil biometrik sənədlərin tətbiqi məqsədilə İqtisadi İnkişaf Nazirliyi tərəfindən aidiyyəti dövlət orqanlarının mütəxəssislərindən ibarət İşçi Qrupu yaradılmış, bu sahədə beynəlxalq səviyyədə tanınmış şirkətlərin təcrübəsi və əldə olunan nailiyyətlər öyrənilmiş, pasportların təsviri və spesifikasiyası hazırlanmışdır. Ümumvətəndaş pasportlarının hazırlanması və verilməsi məqsədilə 9 regional mərkəz yaradılmışdır. Bu mərkəzlərdə xidmət üçün ən yüksək şərait vardır.*

*Azərbaycan Respublikası vətəndaşının ilk biometrik pasportu prezident İlham Əliyevə təqdim edildi.*

*Beləliklə, sentyabrın 2-dən ölkəmizdə yeni nəsil biometrik pasportların verilməsinə başlanıldı. Vətəndaşlar ödədikləri dövlət rüsumunun məbləğindən asılı olaraq 10, 5 və 1 iş günü ərzində ümumvətəndaş pasportları ilə təmin oluna biləcəklər.*

## AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

Hörmətli həmvətənlər!

Sizi yəhudi xalqının əlamətdar milli bayramlarından olan Roş-Ha-Şana münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

Sivilizasiyaların qovşağında yerləşən Azərbaycan bu gün etnik-mədəni müxtəlifliyin, multikulturalist ənənələrin qorunub saxlandığı, ayrı-ayrı dinlər və mədəniyyətlər arasında qarşılıqlı hörmət və etimad şəraitinin mövcud olduğu nadir məkanlardandır. Xalqlararası ənənəvi dostluq və qardaşlıq münasibətlərinin, vətəndaş həmrəyliyinin, nümunəvi tolerantlıq mühitinin hökm sürdüyü Azərbaycan cəmiyyətində yəhudi icmasının özünəməxsus yeri vardır. Məmnuniyyətlə qeyd etmək istəyirəm ki, yəhudi əsilli vətəndaşlarımız hazırda böyük inkişaf və tərəqqi mərhələsini yaşayan ölkəmizin ictimai-siyasi və mədəni həyatında yaxından iştirak edir, hüquqi dövlət quruculuğu prosesində fəal mövqe nümayiş etdirirlər.

Yeniliyin, mənəvi saflığın, xeyirxahlıq və həmrəylik duyğularının rəmzi olan Roş-Ha-Şana münasibətilə bir daha hər birinizi təbrik edir, ailələrinizə xoşbəxtlik, süfrələrinizə xeyir-bərəkət arzulayıram.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 sentyabr 2013-cü il*

## SALYAN RAYONUNA SƏFƏR

*4 sentyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 4-də Salyan rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə rayonun mərkəzində ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstəsi qoydu.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Heydər Əliyev parkının yenidən qurulmasına 2011-ci ildə başlanılmışdır. Ümumi sahəsi 22 min kvadratmetr olan parkda ulu öndərin möhtəşəm abidəsi ucaldılmışdır. Abidə Azərbaycanın Xalq rəssamı, Rusiya Rəssamlıq Akademiyasının fəxri üzvü, professor Natiq Əliyev tərəfindən hazırlanıb.*

*Diqqətə çatdırıldı ki, parkda 10 min kvadratmetr sahədə yaşıllıq salınmış, uzunluğu 65, eni 4 metr olan 2 fəvvarə kompleksi tikilmiş, işıqlandırma sistemi və oturacaqlar quraşdırılmış, qranit və asfalt döşənmiş, su anbarı inşa olunmuşdur.*

# HEYDƏR ƏLİYEV MƏRKƏZİNİN AÇILIŞINDA SALYAN RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*4 sentyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 4-də Salyanda Heydər Əliyev Mərkəzinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

**İ l h a m Ə l i y e v:** Yenidən Salyanda olmağımdan çox şadam. Son illər ərzində mən dəfələrlə Salyan rayonunda olmuşam. Bu mənim prezident kimi, 7-ci səfərimdir. Çox şadam ki, Salyanda işlər yaxşı gedir, şəhər abadlaşır, gözəlləşir, bütün küçələrdə abadlıq işləri görülür, binalar təmir olunur, gözəl binalar tikilir. Bu gün biz Heydər Əliyev Mərkəzinin açılışını qeyd edirik. Gözəl, möhtəşəm binadır. Əlbəttə, bu mərkəzlərin yaradılması xalqımızın ulu öndərinin xatirəsinə olan hörmətinin əlamətidir. Bu mərkəzlərdə müxtəlif tədbirlər keçiriləcək, dərnəklər fəaliyyət göstərəcəkdir. Yəni bu mərkəzlər yaşayacaq və vətəndaşlar da mərkəzlərin imkanlarından istifadə edəcəklər.

Bu il biz ulu öndərin 90 illik yubileyini qeyd etdik, eyni zamanda, Qurtuluş Gününün 20-ci ildönümünü də. Bu şanlı tarixə bir daha nəzər salaraq görürük ki, ulu öndər Heydər Əliyevin Azərbaycan Respublikasının formalaşmasında xüsusi xidmətləri olmuşdur. Məhz onun fəaliyyəti nəticəsində bu gün Azərbaycan inkişaf edir.

Azərbaycan sabit, inkişafda olan ölkədir. Biz ulu öndərin qoyduğu yolla gedirik və bu yol inkişaf, tərəqqi yoludur. Son 10 il ərzində biz bu yolda böyük nailiyyətlərə imza atmışıq. Biz bunu Salyan rayonunun timsalında da görürük. Salyan son illər ərzində böyük inkişaf yolu keçmişdir. Qeyd etdiyim kimi, abadlıq işləri görülür, binalar tikilir, küçələr abadlaşır,

infrastruktur layihələri də icra edilir. Qazlaşdırma işləri yaxşı gedir, rayon təxminən 60–70 faiz qazlaşdırılmışdır. Ancaq qarşıya məsələ qoyulubdur ki, Salyanın bütün kəndləri 100 faiz qazlaşdırılsın. Buna imkan vardır, biz bunu yaxın gələcəkdə edəcəyik.

İçməli su-kanalizasiya layihələrinin icrası nəzərdə tutulur. Əgər hər şey proqram üzrə gedərsə, gələn ilin sonuna qədər bu problem də öz həllini tapacaqdır. Bilirəm ki, bu çox ciddi, vətəndaşları narahat edən problemdir. İçməli su fasilələrlə, qrafiklə verilir. Bildiyiniz kimi, indi ölkəmizin bütün bölgələrində bu böyük layihələr icra edilir, o cümlədən Salyan rayonunda. Dediyim kimi, gələn ilin sonuna qədər bu məsələ tam şəkildə həll olunacaq və 24 saat keyfiyyətli içməli su veriləcəkdir.

Mənə indi verilən məlumata görə, bir neçə məsələ var ki, insanları narahat edir, öz həllini gözləyir. Biz onu da həll edəcəyik. Kür çayı üzərində körpünün tikintisi məsələsi vardır. Bu da öz həllini tapmalıdır. Son illərdə Azərbaycanda 150-dən çox körpü tikilmişdir, həm Bakıda, həm bölgələrdə. Bu körpülərin tikintisi insanların rahatlığı üçündür. Əlbəttə, nəqliyyat infrastrukturunun yaradılması, yeniləşməsi çox vacib məsələdir. İndi Bakı–Salyan avtomobil yolu tikilir. Onun bir hissəsi artıq hazırdır. Qalan hissə də tikiləcək və bütünlükdə Bakıdan Astaraya qədər – sərhədə qədər yeni dördzolaqlı yolun tikintisi həll ediləcəkdir. Körpünün tikintisi də, əlbəttə ki, böyük əhəmiyyətə malik olan məsələdir. Bu öz həllini tapacaqdır.

Digər məsələ Şirvan–Salyan avtomobil yolunun tikintisidir. Bu məsələ də öz həllini tapacaqdır. Güman edirəm ki, gələn ilin investisiya proqramında hər 2 məsələ öz əksini tapmalıdır. Vəsait ayrılacaq və bu məsələlər öz həllini tapacaqdır. Hələ qəzalı vəziyyətdə olan məktəblər vardır. Baxmayaraq ki, son illərdə bir çox məktəblər əsaslı şəkildə təmir edilib, hər bir rayonda, o cümlədən burada qəzalı vəziyyətdə məktəblər vardır. Bu məsələlər də öz həllini tapacaqdır.

Əlavə hər hansı görüləsi işlər varsa, siz mənə deyin, onları da həll edək. Mənim bölgələrə səfərlərimin əsas səbəbi bundan ibarətdir, vəziyyətlə tanış olum, görüm əlavə nə işlər görülməlidir ki, insanlar daha da razı olsunlar.

**S a k i n l ə r:** Çox sağ olun, minnətdarlığımızı bildiririk. Sizin sayənizdə işlər çox gözəl gedir.

**Y a q u t Ə l ə s g ə r o v a** *(Əməkdar müəllimə):* Hörmətli cənab Prezident, Sizi rayon ictimaiyyəti adından ürəkdən salamlayıram. Salyana xoş gəlmisiniz! Salyanlılar Sizin gəlişinizi səbirsizliklə, intizarla gözləyirdilər. Bu gün Salyan bayram əhval-ruhiyyəsindədir. Sevinc hissi ilə bildirirəm ki, bu gün ulu öndərin, dahi şəxsiyyətin adını daşıyan Heydər Əliyev Mərkəzinin açılışındayıq. Bu Mərkəzin açılması salyanlıların ürəyincədir. Çünki burada bizim ziyalılarımız, gənclərimiz öz potensial imkanlarını artıracaq, istək və arzularını həyata keçirəcək və istirahət edəcəklər. Buna görə Sizə minnətdarlığımı bildirirəm. Bu bizi çox sevindirir.

Cənab Prezident, hər bir azərbaycanlı bilir ki, ulu öndər Azərbaycan Respublikasına rəhbərlik etdiyi müddətdə öz fəaliyyətini müstəqil Azərbaycanın yaradılmasına sərf edib. Onun atdığı addımlar, irəli sürdüyü ideyalar hər bir azərbaycanlının qəlbində böyük, dərin iz buraxıb. Siz ulu öndərin layiqli davamçısı olaraq onun ideyalarını davam etdirirsiniz. Bu Sizin apardığınız siyasətin nəticəsidir. Biz fəxr edirik ki, belə gözəl bir respublikada yaşayırıq. Siz Salyana son səfəriniz zamanı qeyd etmişdiniz ki, Salyan Azərbaycanın ən gözəl rayonlarından birinə çevriləcəkdir. Bu, artıq reallıqdır və bizi həddindən artıq sevindirir. Biz Sizi sevirik. Biz Sizinlə fəxr edirik, qürur duyuruq. Ona görə ki, Sizin Salyana diqqət və qayğınız həmişə olub və olacaqdır. İndi Salyanda yeni-yeni obyektlər həyata vəsiqə alır. Vaxtınızın məhdud olmasına baxmayaraq, bu obyektlərin hamısının açılışında bizimlə birgə iştirak etmisiniz, əziz Prezidentimiz. Rayon ictimaiyyəti adından Sizə cansağlığı, uzun ömür arzulayıram. Sonda bildirirəm ki, salyanlılar Sizinlə olub, Sizinlədir və Sizinlə olacaqlar.

**Y a v ə r  C ə b r a y ı l o v** *(Əməkdar mədəniyyət işçisi):* Cənab Prezident! Siz salyanlılara, nəinki salyanlılara, bütün azərbaycanlılara çox yüksək diqqət və qayğı ilə yanaşırsınız. Doğma Vətənimizi, Azərbaycanı ürəkdən sevən bir oğul kimi, Sizə bütün ziyalılarımız adından, bütün Salyan camaatı adından böyük təşəkkür edirik. Həmişə yolunuz uğurlu olsun, həmişə yolunuz böyük uğurlara doğru getsin.

**S a k i n l ə r:** Bir daha xoş gəlmisiniz, hörmətli Prezidentimiz!

**İ l h a m  Ə l i y e v:** Sağ olun. Hələ görüşlərimiz çox olacaq. Salyanda açılışlar gözlənilir. Burada qeyd edildiyi kimi, biz əvvəlki illərdə də bir neçə tədbirin açılışında bərabər olmuşuq – Olimpiya Mərkəzi, xəstəxananın təmiri, digər layihələr. Bu gün biz gözəl bir Mərkəzin açılışında bərabərik. Hələ görüləsi işlər var, baxmayaraq ki, çox işlər görülüb. Bu işlərin görülməsi üçün bütün imkanlar vardır. Azərbaycan son illər dünyada ən sürətlə inkişaf edən ölkədir. Bizim imkanlarımız da vardır, büdcəmiz də artır, investisiya proqramımız da kifayət qədər böyükdür. Əsas odur ki, biz bütün mövcud olan problemləri bilirik və onları ardıcıllıqla həll edirik.

**S a k i n l ə r:** Çox sağ olun.

**İ l h a m  Ə l i y e v:** Buraya gəlməzdən əvvəl mənə verilən arayışda, bax, bu körpünün tikintisi, Şirvan–Salyan yolunun yenidən qurulması, məktəblərin tikintisi, bütün bu məsələlər vardır. Növbəti ilin investisiya proqramında bu məsələlər öz həllini tapacaqdır. Beləliklə, mövcud olan problemlərin hamısı aradan götürüləcəkdir.

**S a k i n l ə r:** Çox sağ olun, Allah Sizə cansağlığı versin.

**İ l h a m  Ə l i y e v:** Bir daha sizi ürəkdən salamlayıram, cansağlığı arzulayıram.

**S a k i n l ə r:** Çox sağ olun.

* * *

*Sonra prezident İlham Əliyev Mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi. Məlumat verildi ki, Mərkəzin inşası 2011-ci ilin dekabrında başlanılmış və bu ilin avqustunda başa çatdırılmışdır. İnşaat işləri rayonun daxili imkanları hesabına həyata keçirilib. Mərkəzin 10 otaqdan ibarət üçmərtəbəli binasının ümumi sahəsi 626 kvadratmetrdir.*

*Azərbaycan Prezidenti Mərkəzdə yaradılan şəraitlə tanış oldu. Binanın birinci mərtəbəsində sərgi zalı, inzibati otaqlar yerləşir. Foyedə ümummilli lider Heydər Əliyevin büstü qoyulub. Burada ulu öndərin və prezident İlham Əliyevin Salyana səfərlərini əks etdirən fotoguşələr vardır. Foyedə, həmçinin dahi rəhbər Heydər Əliyevə həsr olunan videoçarx da nümayiş olunur.*

*Mərkəzin ikinci mərtəbəsində sahəsi 457 kvadratmetr olan sərgi zalındakı stendlərdə ulu öndərin uşaqlıq, Naxçıvanda təhsil aldığı dövrləri, Dövlət Təhlükəsizlik Komitəsində, eləcə də Moskvada çalışdığı illəri əks etdirən şəkilləri, həmçinin görkəmli dövlət xadiminə həsr olunmuş nəşrlər, ümummilli liderin diplomları və tərifnamələrinin surətləri nümayiş olunur.*

*Mərkəzin üçüncü mərtəbəsində isə rəqs studiyası, rəsm otağı, elektron kitabxana, xarici dil mərkəzi, şahmat dərnəyi, kompüter və informatika kabineti, fotostudiya vardır.*

*Prezident İlham Əliyev Mərkəzdə yaradılmış şəraitdən razılığını bildirdi, tapşırıq və tövsiyələrini verdi.*

## Salyan Rayon İcra Hakimiyyətinin yeni inzibati binasının açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 4-də Salyan Rayon İcra Hakimiyyətinin yeni inzibati binasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, binanın tikintisinə 2011-ci ilin dekabrında başlanılmış, inşaat işləri ötən ilin*

*avqustunda başa çatdırılmışdır. Binanın ərazisi 1800, tikintialtı sahəsi isə 1044 kvadratmetrdir. Üçmərtəbəli binanın foyesində ulu öndər Heydər Əliyevin büstü qoyulub. Burada ümummilli liderin və prezident İlham Əliyevin Salyan rayonuna səfərlərini əks etdirən fotoşəkillərdən ibarət guşələr yaradılıb.*

*Binanın birinci mərtəbəsində 11 xidməti, vətəndaşların qəbulu və xüsusi rabitə otaqları vardır. İkinci mərtəbədə şəhər və kənd inzibati ərazi nümayəndələri ilə canlı videobağlantı üçün operativ idarəetmə mərkəzi və 292 yerlik iclas zalı yaradılıb. Binanın üçüncü mərtəbəsində isə ali qonaq otağı və 10 iş otağı yerləşir. İnzibati binada işçilərin səmərəli iş şəraiti ilə təmin olunmaları üçün bütün imkanlar yaradılıb.*

## Bayraq Meydanında yaradılan şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 4-də Salyanda Bayraq Meydanında yaradılan şəraitlə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Bayraq Meydanının inşası bu ilin iyununda başlanılmış, avqustda başa çatdırılmışdır. Ümumi sahəsi 2,1 hektar olan Bayraq Meydanı Salyan şəhərinin girişində, Milli Qəhrəman Nazim Babayev küçəsində yaradılmışdır. Bayraq Meydanının girişində hündürlüyü 5,3, uzunluğu 14 metr olan tağ tikilmişdir. Bayraq dirəyinin hündürlüyü 42, bayrağın eni 10, uzunluğu isə 20 metrdir.*

*Meydanın ərazisində istirahət parkı da salınmışdır.*

*Azərbaycan Prezidenti parkın ərazisini gəzdi. Bildirildi ki, ərazidə uzunluğu 236, eni isə 7 metr olan su kanalı tikilib. Kanalın üzərində uzunluğu 11, eni 3 metr olan 2 körpü, ərazidə biri səkkizguşəli olmaqla, 17 fəvvarə, kanalüstü «Buta» və 2 «Lalə» inşa olunub. Burada geniş yaşıllaşdırma işləri aparılıb, müasir işıqlandırma sistemi, dekorativ məhəccər qurulub, oturacaqlar qoyulub.*

*Azərbaycan Prezidenti meydanda yaradılan şəraitlə tanışlıqdan sonra müvafiq tapşırıqlarını verdi.*

## BİLƏSUVAR RAYONUNA SƏFƏR

*4 sentyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Salyana səfərini başa çatdıraraq Biləsuvar rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Mahir Quliyev yeni salınan Heydər Əliyev parkında görülmüş işlər barədə prezident İlham Əliyevə məlumat verdi. Bildirildi ki, ümumi sahəsi 2 hektar olan parkda genişmiqyaslı yaşıllaşdırma işləri görülmüş, 4 müasir fəvvarə kompleksi tikilmiş, işıqlandırma sistemi quraşdırılmış, Bayraq Kompleksi inşa olunmuşdur.*

## BİLƏSUVAR ŞƏHƏRİNƏ İÇMƏLİ SUYUN VERİLMƏSİ MƏRASİMİNDƏ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*4 sentyabr 2013-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 4-də Biləsuvar şəhərinə içməli suyun verilməsi mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

**İ l h a m Ə l i y e v:** Sabahınız xeyir olsun! Sizi ürəkdən salamlayıram və bu gün burada açılacaq böyük layihənin icra edilməsi münasibətilə ürəkdən təbrik edirəm. Bu, böyük tarixi layihədir. Biləsuvar şəhərinin içməli su ilə təminatı artıq bundan sonra 100 faiz təşkil ediləcəkdir. Bu, böyük nailiyyətdir, böyük uğurumuzdur. Bilirəm ki, Biləsuvarda su problemi həmişə olmuşdur, insanları narahat edirdi. Ancaq bundan sonra görülən işlər nəticəsində bu problem tamamilə aradan qaldırılacaq, şəhər 100 faiz su ilə təmin ediləcək və 24 saat ərzində təmiz içməli su veriləcək. Bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Bundan sonra kəndlərə də su xətləri çəkiləcəkdir və beləliklə, uzun illər qalmış bu problemi biz birdəfəlik həll edirik.

Bildiyiniz kimi, təmiz içməli su insanların sağlamlığını təmin edir. Biz isə istəyirik ki, Azərbaycan vətəndaşları sağlam olsunlar, xəstələnməsinlər və Azərbaycanda bütün sahələrdə ən yüksək standartlar tətbiq edilsin. Ona görə içməli su və kanalizasiya xətlərinin çəkilişi bu gün Azərbaycanda hər bir bölgədə icra edilir. Bu bəzi rayonlarda artıq istifadəyə verilmişdir, bəzi rayonlarda icra edilir, bəzi rayonlarda isə hazırlıq işləri gedir. Ancaq

Azərbaycanda bir dənə də şəhər qalmayacaq ki, orada 24 saat ərzində içməli su olmasın. Bununla paralel olaraq bir çox kəndlərdə də içməli su layihələri təmin ediləcək, o cümlədən Biləsuvarda. Beləliklə, biz bu insanları həmişə narahat edən ən əsas problemi həll edəcəyik.

Bununla yanaşı, Biləsuvarda digər infrastruktur layihələri, o cümlədən qazlaşdırma layihəsi uğurla icra edilir. Mənə verilən məlumata görə, rayon təqribən 90 faiz qazlaşdırılıbdır. Bu ilin sonuna qədər bir neçə kəndin qazlaşdırılması nəzərdə tutulur. Biləsuvarda qazlaşdırma 100 faiz təmin ediləcəkdir. Yəni bunlar əsas infrastruktur layihələridir ki, Azərbaycan dövləti bunları uğurla, ardıcıllıqla icra edir. Bildiyiniz kimi, bu layihələr böyük maliyyə vəsaiti tələb edir. Bütün maliyyə vəsaiti isə Azərbaycan dövlət büdcəsi hesabına formalaşır və ildən-ilə artan maliyyə imkanlarımız imkan verir ki, biz belə gözəl layihələri icra edək.

Bütün uğurlarımızın təməlində güclü iqtisadiyyat, düşünülmüş iqtisadi siyasət, iqtisadi islahatlar dayanır. Ölkəmiz son 10 il ərzində iqtisadi sahədə dünya miqyasında ən sürətlə inkişaf edən ölkədir. Dünyada 200-dən çox ölkə vardır. Bütün beynəlxalq qurumların hesablamalarına, statistikaya görə, son 10 ildə iqtisadi sahədə Azərbaycan qədər inkişaf edən ikinci ölkə yoxdur. Bütün bunlar reallıqdır və bu reallığın arxasında düşünülmüş siyasət və xalqla iqtidar arasında olan birlik dayanır. Çünki bizim bütün təşəbbüslərimiz xalq tərəfindən dəstəklənir. Bütün təşəbbüslərimiz Azərbaycan xalqının daha da yaxşı yaşamasına yönəldilib. Bu layihələr, o cümlədən digər infrastruktur layihələri bir məqsədi güdür ki, Azərbaycan vətəndaşları rahat yaşasınlar, rifah içində yaşasınlar, bütün sosial problemlər öz həllini tapsın və bütün infrastruktur layihələri ən yüksək səviyyədə təşkil edilsin.

Hər bir şəhərdə, o cümlədən Biləsuvarda içməli su layihələri 2035-ci ilə qədər əhalinin təbii artımını nəzərə almaqla hesablanır. Bildiyimə görə, artıq suyun verilməsi başlanmışdır və yaxın zamanlarda bütün şəhəri əhatə edəcəkdir. Bir sözlə, bu layihə həm əhəmiyyətlidir, həm də böyük rəmzi məna daşıyır. Çünki ancaq müstəqil Azərbaycanda belə layihələr icra edilə bilər. Ancaq

müstəqillik dövründə ölkə qarşısında duran bütün vəzifələr uğurla icra edilə bilər. Çünki bizim taleyimiz öz əlimizdədir və bu gün Azərbaycan xalqı gündən-günə daha da yaxşı yaşayır, Azərbaycan dövləti daha da möhkəmlənir və regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası bölgələri də canlandırır.

Mən Biləsuvarda dəfələrlə olmuşam. Əvvəlki dövrlərdə də, prezidentlik dövrümdə də olmuşam. Bu mənim prezident kimi, 4-cü səfərimdir. Burada gedən abadlıq-quruculuq işləri məni sevindirir. Əminəm ki, sizi də sevindirir. İndiki Biləsuvar əvvəlki ilə müqayisəedilməz dərəcədə inkişaf edibdir. Gözəl şəhər yaradılıbdır. Gözəl binalar tikilir, küçələr abadlaşıb. Bax, bu meydan yox idi. Yeni tikilib. Yəni hər şey etmək mümkündür. Gözəl Heydər Əliyev Mərkəzi, icra hakimiyyətinin yeni binası, park. Yəni hər şey insanlar üçün edilir. Bizim şəhərlərimiz deyə bilərəm ki, sürətlə abadlaşır, yeni görkəm alır. İnsanların rahatlığı üçün işlər görülür. Əvvəlki dövrdə də Biləsuvarda müxtəlif layihələr icra edilmişdir. Olimpiya Mərkəzi, məktəblər tikilmişdir, zavodlar işə salınmışdır, iş yerləri açılmışdır. Kənd yolları tikilmişdir. 2 böyük kənd yolu layihəsi icra edilir.

Kənd yolları problemi Biləsuvarda tam şəkildə həll ediləcəkdir. Qazlaşdırma dediyim kimi, 90 faizdir, 100 faizə çatacaqdır. İçməli su şəhəri tam əhatə edəcəkdir, kəndlərə də çəkiləcəkdir. Budur bizim bugünkü reallıqlarımız. Biləsuvarın timsalında biz regionların inkişafını, dövlət siyasətinin nəticələrini görürük. Əlbəttə ki, bütün bu layihələrin içərisində insanların sağlamlığına xidmət edən layihə xüsusi yer tutur. Bax, bu layihə onların arasında bəlkə də ən önəmlisidir.

Bilirəm ki, Biləsuvarda Rayon Mərkəzi Xəstəxanasının vəziyyəti o qədər də yaxşı deyil. Biz xəstəxananın təmirini də təşkil edəcəyik. Azərbaycanda bir dənə də gözəl xəstəxanası olmayan şəhər olmamalıdır. İndi ətraf bölgələrdə də, rayonlarda da xəstəxanalar tikilib və təmir edilib. Biləsuvarda da bu iş görüləcəkdir.

Əlavə hər hansı bir təklifiniz, xahişiniz olarsa, siz mənə, əlbəttə ki, yerli icra orqanlarına çatdırın ki, biz növbəti

investisiya proqramlarımızda bütün bunları nəzərə alaq. Çünki bizim vəzifəmiz insanlara xidmət etməkdir. Bu gün güclənən Azərbaycan bir daha demək istəyirəm ki, bütün görülən işlərin məntiqi nəticəsidir. Bir daha sizi salamlayıram və gözəl hadisə münasibətilə təbrik edirəm.

**X o ş b ə x t  A ğ a y e v a** *(Rayon Mərkəzi Xəstəxanasının həkimi):* Cənab Prezident, icazə verin, Sizi bütün Biləsuvar ictimaiyyəti adından salamlayım. Doğma Biləsuvarımıza xoş gəlmisiniz! Bu gün biləsuvarlıların həyatında möhtəşəm bir gündür. Bu gün Siz biləsuvarlılara təmiz içməli su verəcəksiniz. Su həyat, təmizlik, sağlamlıq deməkdir. Siz bununla minlərlə biləsuvarlılara həyat verəcəksiniz, sağlamlıq verəcəksiniz.

İcazə verin, bu böyük problemi həll etdiyinizə görə Sizə bütün biləsuvarlıların adından dərin minnətdarlığımı bildirim.

Mən onu qeyd etməliyəm ki, bu bir ənənə halını almışdır, Siz bölgələrimizə, regionlarımıza səfərlər edirsiniz. Bu cür açılışlarda vaxtınızın az olmağına baxmayaraq, şəxsən özünüz iştirak edirsiniz. Bu gün olduğu kimi, insanların sevincinə şərik olursunuz, onlarla bu sevinci bölüşürsünüz. Bu da onu göstərir ki, Siz xalqa nə qədər yaxınsınız və xalqın qayğısına nə qədər qalırsınız. Bu bizim insanlarda yüksək əhval-ruhiyyə yaradır.

Möhtərəm Prezidentimiz, bizə məlumdur ki, Biləsuvar son 10 ildə çox sürətlə inkişaf etmiş, simasını olduqca dəyişmiş, füsunkar bir bölgəyə çevrilmişdir. Bu gün Biləsuvarda yeni-yeni yollar çəkilir, abadlıq işləri gedir. Müasir üslubda salınan parklar, yaşayış məntəqələri insanlara xüsusi zövq, xüsusi rahatlıq verir. Bu inkişaf, bu tərəqqi son 10 ildə təkcə Biləsuvarda deyil, bütün Azərbaycanımızda getmişdir. Azərbaycan son 10 ildə simasını olduqca dəyişmiş, çox qüdrətli bir ölkəyə çevrilmişdir. Biz bu qüdrətli ölkənin vətəndaşları olmağımızdan qürur duyuruq. Bütün bunlar isə Sizin gərgin əməyinizin, yorulmaz fəaliyyətinizin nəticəsidir.

Cənab Prezident, bütün Azərbaycan xalqı kimi, biləsuvarlılar da, bax, bu əmin-amanlığın, bu sabitliyin, bu inkişafın,

bu tərəqqinin davamını istəyirlər. Bunu bizə yalnız Siz verə bilərsiniz və verəcəksiniz də.

Mən isə biləsuvarlılar adından Sizi əmin edirəm ki, biz həmişə Sizinlə olmuşuq, bundan sonra da Sizinlə olacağıq. Ulu Tanrı Sizi qorusun!

**İ l h a m Ə l i y e v:** Sağ olun. Mən burada köhnə dostumu da görürəm. Gərək onunla görüşəm. 2000-ci ildə parlament seçkiləri ərəfəsində, mən o vaxt seçki kampaniyasında Yeni Azərbaycan Partiyasının rəhbəri kimi iştirak edirdim, bölgələri gəzirdim. Yadımdadır, cənub zonasına gedirdim. Bu yoldaş durmuşdu yolda, məni salamlayırdı və mən də maşını saxladım, tanış olduq. O vaxtdan bu günə qədər, 10 ildən çoxdur ki, bizim dostluğumuz davam edir. Çoxdandır görməmişəm. Dəyərli, sədaqətli insandır. Şadam ki, həmişə olduğu kimi, fəalların içərisindəsən.

* * *

*Sonra prezident İlham Əliyev Biləsuvar şəhərinin su təchizatı sisteminin, Şirvan–Muğan qrup su kəmərinin baş planları və texniki göstəricilərini əks etdirən stendlərə baxdı.*

*Layihə barədə məlumat verən «Azərsu» Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov bildirdi ki, Biləsuvar şəhəri içməli su ilə Araz çayından çəkilən «Cənub» kanalından təmin olunurdu. Şəhərdə sutəmizləyici qurğu olmadığından kanal suyu çökdürülərək əhaliyə verilirdi. Şəhərin 21 min sakininin təxminən 50 faizinə yerli Sukanal İdarəsi tərəfindən xidmət göstərilirdi. Əhalinin qalan hissəsi isə tələbatını fərdi qaydada ödəyirdi. Şəhər əhalisinə içməli su həftənin 5 günü cədvəl üzrə 7-8 saat ərzində verilirdi. İstismarda olan su xətləri isə yararsız vəziyyətdə idi. Kanalizasiya sistemi, ümumiyyətlə, olmamışdır.*

*Sonra dövlətimizin başçısına «Biləsuvar şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması» layihəsi haqqında məlumat verildi. Qeyd olundu ki, layihə 2035-ci ilədək perspektiv inkişaf nəzərə alınmaqla, 26 min nəfərin*

içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanmışdır. Layihəyə əsasən Biləsuvar şəhərinə içməli su yeni mənbədən – Şirvan–Muğan qrup su kəmərindən verilir. Bu məqsədlə Salyan şəhəri yaxınlığındakı anbardan 57 kilometr uzunluğunda özüaxımlı magistral su kəməri çəkilmişdir. Biləsuvar şəhərini fasiləsiz rejimdə içməli su ilə təmin etmək üçün ümumi tutumu 10 min kubmetr olan 2 su anbarı tikilib. Yeni layihəyə əsasən şəhərə saniyədə 158 litr su veriləcəkdir ki, bu da istehlakçıların tələbatını tam ödəyəcəkdir. Biləsuvar şəhərində 89 kilometrlik paylayıcı su şəbəkəsində işlər tam yekunlaşıb, 4430 ünvanın hamısı yeni şəbəkəyə qoşulub. Layihəyə uyğun olaraq Biləsuvar şəhərində ilk dəfə kanalizasiya şəbəkəsi yaradılır. 88 kilometr kanalizasiya şəbəkəsinin 70 kilometrlik hissəsinin tikintisi başa çatmış, 3 kilometr uzunluğunda mikrotunel tipli kanalizasiya kollektorunun tikintisi davam etdirilir. Tullantı suları şəhərin kənarında tikiləcək çirkab sutəmizləyici qurğuya ötürüləcəkdir. İcrasına 2011-ci ilin oktyabrında başlanılan və dövlət büdcəsi vəsaiti hesabına maliyyələşdirilən layihə 2014-cü ildə tam başa çatdırılacaqdır. Biləsuvar şəhərini içməli su ilə təmin edən Şirvan–Muğan qrup su kəməri rayonun 24 kəndini də içməli su ilə təmin edəcəkdir.

Prezident İlham Əliyevə Şirvan–Muğan qrup su kəməri haqqında da məlumat verildi. Kəmərin təməli 2012-ci il iyulun 16-da prezident İlham Əliyev tərəfindən qoyulub. Kür və Bakı su kəmərləri ilə nəql edilən suyun bir hissəsi Şirvan–Muğan qrup su kəməri vasitəsilə Hacıqabul, Şirvan, Salyan, Neftçala və Biləsuvar şəhərlərinin, həmçinin həmin rayonların 121 kəndinin tələbatının ödənilməsinə imkan verəcəkdir. Kəmərin istismara verilməsi ilə 470 min əhali fasiləsiz keyfiyyətli içməli su ilə təmin olunacaqdır. Artıq 2013-cü ilin aprelindən Hacıqabul, iyulundan isə Şirvan şəhərinə bu kəmər vasitəsilə su verilir.

Layihələrlə tanışlıqdan sonra prezident İlham Əliyev Biləsuvar şəhərinə içməli suyun verilməsini bildirən düyməni basdı.

## Yeni Azərbaycan Partiyası rayon təşkilatının yeni inzibati binasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 4-də Biləsuvara səfəri çərçivəsində Yeni Azərbaycan Partiyası rayon təşkilatının yeni inzibati binasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi. Bildirildi ki, ikimərtəbəli binada 15 iş otağı vardır. Otaqlar zəruri inventar və avadanlıqla təchiz olunub. Binanın foyesində ulu öndər, Yeni Azərbaycan Partiyasının banisi Heydər Əliyevin büstü qoyulub. Burada ümummilli liderin və prezident İlham Əliyevin Yeni Azərbaycan Partiyası ilə bağlı fəaliyyətlərini əks etdirən maraqlı fotolardan ibarət stend yaradılıb. Binanın 40 nəfərlik akt zalında müxtəlif tədbirlər keçirmək mümkündür.*

*YAP-ın Biləsuvar rayon təşkilatı 1993-cü ilin yanvarında 12 ilk ərazi təşkilatının iştirakı ilə yaradılmışdır. Hazırda isə YAP Biləsuvar rayon təşkilatının 68 ilk ərazi təşkilatı və 4440 üzvü vardır. Onlar rayonun ictimai-siyasi, sosial-iqtisadi həyatına mühüm töhfələr verir, aparılan abadlıq-quruculuq və yenidənqurma işlərində yaxından iştirak edirlər.*

*Yeni bina ilə tanışlıqdan sonra prezident İlham Əliyev tapşırıq və tövsiyələrini verdi.*

## Heydər Əliyev Mərkəzinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 4-də Biləsuvarda Heydər Əliyev Mərkəzinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi. Məlumat verildi ki, Mərkəzin 28 otaqdan ibarət üçmərtəbəli binası bütün zəruri avadanlıqla təchiz edilib. Girişdə Mərkəz barədə bütün məlumatların əks olunduğu elektron köşk*

*quraşdırılıb. Birinci mərtəbədə ümummilli lider Heydər Əliyevin büstü qoyulub. Buradakı Heydər Əliyev Muzeyində ulu öndərin həyat və fəaliyyəti ilə bağlı sənədlər böyük maraq doğurur. Dahi şəxsiyyətin müxtəlif dövrlərə aid fotoları 15 guşədə yerləşdirilib. Birinci mərtəbədə ümummilli liderin uşaqlıq, gənclik, tələbəlik illərinə, sovet dönəmi və müstəqillik illərində ölkəyə rəhbərlik etdiyi dövrlərə aid müxtəlif fotoları maraqla qarşılanır. Onların arasında ulu öndərin hakimiyyətdə olduğu illərdə Biləsuvara səfərlərini əks etdirən çoxlu sayda fotoşəkillər və çap materialları da sərgilənir. Birinci mərtəbədə, həmçinin psixoloji məsləhət otağı, linqafon kabineti, rəqs studiyası fəaliyyət göstərir. Burada ümummilli liderin həyat və fəaliyyətinə həsr edilmiş film fasiləsiz olaraq nümayiş etdiriləcəkdir. İkinci mərtəbədə rəsm studiyası, şahmat dərnəyi, internet-kafe, kompüter otağı, treninq zalı, kitabxana, 3D kinozalı vardır. Mərkəzdə, həmçinin fotostudiya, heykəltəraşlıq dərnəyi, poliqrafiya və dizayn studiyaları, virtual sinif, intellektual oyun otağı, xalçaçılıq dərnəyi fəaliyyət göstərəcəkdir.*

*Diqqətə çatdırıldı ki, Mərkəzin böyük akt zalında rayonun ictimai-siyasi həyatında baş verən mühüm hadisələr və əlamətdar günlərlə bağlı tədbirləri yüksək səviyyədə keçirmək üçün hərtərəfli imkan yaradılıb.*

*Prezident İlham Əliyev Mərkəzin Xatirə kitabına ürək sözlərini yazdı.*

## Biləsuvara səfəri çərçivəsində rayon icra hakimiyyətinin yeni inzibati binasında yaradılmış şəraitlə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 4-də Biləsuvara səfəri çərçivəsində rayon icra hakimiyyətinin yeni inzibati binasında yaradılmış şəraitlə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, rayon icra hakimiyyətinin köhnə binası keçən əsrin 50-ci illərində istifadəyə verilmişdir. Əvvəllər bina müxtəlif təyinatlar üçün istifadə olunmuşdur. 1992-ci ildən isə icra hakimiyyətinin binası kimi fəaliyyət göstərməyə başlamışdır. Ötən illər ərzində binada əsaslı təmir aparılmadığından iş şəraiti əlverişsiz olmuşdur.*

*Diqqətə çatdırıldı ki, yeni inzibati binanın tikintisi 2012-ci ilin iyulunda başlanılmış, bu ilin iyulunda başa çatdırılmışdır. Binanın girişində ulu öndər Heydər Əliyevin büstü qoyulub. Burada ümummilli liderin və prezident İlham Əliyevin Biləsuvara səfərlərini əks etdirən fotoguşə yaradılmışdır.*

*Prezident İlham Əliyev binada yaradılmış şəraitlə tanış oldu. 3 mərtəbədən ibarət bina bütün lazımi avadanlıqla təchiz edilib. Otaqların hamısı müasir tələblər səviyyəsində qurulub. Heydər Əliyev prospektində inşa olunmuş və şəhərin gözəlliyini artıran binanın fasadı yerli tikinti materialları ilə üzlənilib.*

*Qeyd edildi ki, binanın birinci mərtəbəsində 8 iş otağı və 40 nəfərlik yeməkxana vardır. İkinci mərtəbədə müxtəlif toplantıların və «dəyirmi masa»ların keçirilməsi üçün konfrans zalı və 10 işçi otaq yaradılıb. Üçüncü mərtəbədə isə böyük akt zalı və 13 iş otağı vardır. Ərazidə geniş yaşıllaşdırma işləri aparılıb, müxtəlif bəzək elementləri, müasir işıqlandırma sistemi quraşdırılıb. İnzibati binada sakinlərlə və yerli icra nümayəndəlikləri ilə birbaşa əlaqə üçün videokonfrans zalı, operativ idarəetmə mərkəzi yaradılıb.*

*Prezident İlham Əliyev operativ idarəetmə mərkəzinə baxdı. Burada «online» videoqəbul da mümkün olacaqdır. Sakinlər binaya gəlmədən kənd və qəsəbə icra nümayəndəliklərinə müra-*

*ciət edərək, onları* narahat *edən problemlərlə əlaqədar* rayon icra *hakimiyyətinin başçısı və digər məsul şəxslərlə birbaşa videoəlaqə* yarada *biləcəklər. Artıq şəhər* icra *nümayəndəliyi və 7 kənd* icra *nümayəndəliyi şəbəkəyə qoşulmuşdur. Müasir* standartlara cavab *verən səs,* istilik, *işıq sistemləri ilə təchiz edilən 150 nəfərlik* konfrans *zalında müxtəlif tədbirlərin* ke-*çirilməsi üçün hər cür şərait yaradılmışdır.*

Prezident *İlham Əliyev* görülmüş *işlərdən razılığını* bildirdi.

## CƏLİLABAD RAYONUNA SƏFƏR

*4 sentyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 4-də Biləsuvara səfərini başa çatdıraraq Cəlilabad rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə Cəlilabad şəhərinin mərkəzindəki Heydər Əliyev parkında ulu öndərin abidəsi önünə gül dəstəsi qoydu.*

*Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov parkda aparılan abadlıq-quruculuq işləri barədə prezident İlham Əliyevə məlumat verdi.*

*Bildirildi ki, burada yenidənqurma işlərinə bu ilin mayında başlanılmışdır. İşlər qısa müddətdə yüksək keyfiyyətlə başa çatdırılmışdır. Ümummilli lider Heydər Əliyevin parkda ucaldılan abidəsi yenisi ilə əvəz olunmuşdur. Qranitdən hazırlanmış yeni abidənin hündürlüyü 10 metrdir. Ümumi ərazisi 3 hektar olan bu istirahət məkanında 2 fəvvarə quraşdırılmış, müasir işıq dirəkləri və oturacaqlar qoyulmuş, yaşıllıq zolağı salınmışdır. Parkın ətrafında yerləşən bütün binalar təmir edilmişdir.*

### Qarazəncir–Qarakazımlı–Boyxanlı avtomobil yolunun açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 4-də Cəlilabadda Qarazəncir–Qarakazımlı–Boyxanlı avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı yolun tikinti işlərinin gedişini, eləcə də texniki göstəricilərini əks etdirən stendlərə baxdı.*

*Azərbaycan prezidenti İlham Əliyevin 2012-ci il sentyabrın 28-də imzaladığı sərəncamla Prezidentin ehtiyat fondundan*

*Qarazəncir–Qarakazımlı–Boyxanlı avtomobil yolunun inşasına ilkin olaraq 2 milyon manat vəsait ayrılıb. Yolun tikintisinə 2012-ci ilin oktyabrında başlanılmışdır. Ümumi uzunluğu 34 kilometr olan yolun eni 8 metrdir. Dördüncü texniki dərəcəyə aid olan yolun inşası zamanı kommunikasiya məsələlərinə də xüsusi diqqət yetirilmiş, 33 suötürücüsü tikilmişdir.*

*Qeyd edildi ki, mövcud yol bir neçə yerdə sürüşmə zonasına düşdüyü üçün hündürlüyü 2-3 metrlik yamaclar kəsilmiş, sürüşmə zonasından 10 metr kənarlaşdırılmışdır. Yol 25 yaşayış məntəqəsini birləşdirir. Bu yolun istifadəyə verilməsi 50 mindən çox əhaliyə müasir səviyyəli nəqliyyat infrastrukturundan yararlanmağa imkan verəcəkdir.*

*Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

## «Fidan» körpələr evi-uşaq bağçasının açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 4-də Cəlilabadda «Fidan» körpələr evi-uşaq bağçasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi. Son dövrlərdə bütün sahələrdə olduğu kimi, uşaqların sosial müdafiəsinin gücləndirilməsinə, onların sağlam və xoşbəxt böyümələrinə dövlət tərəfindən yüksək diqqət göstərilir. Müasir körpələr evi-uşaq bağçalarının istifadəyə verilməsi bunun əyani təsdiqidir. Yeni uşaq bağçaları və körpələr evlərinin inşası, eləcə də mövcud olanların ən müasir tələblər səviyyəsində yenidən qurulmasına Heydər Əliyev Fondu da öz töhfəsini verir. Həyata keçirilən bütün bu mühüm layihələr uşaqların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində Azərbaycanda aparılan siyasətin uğurlu və məntiqi nəticəsidir.*

*Azərbaycan Prezidenti binada yaradılan şəraitlə tanış oldu. Körpələr evi-uşaq bağçasında ümummilli lider Heydər Əliyevin, prezident İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti*

*Mehriban xanım Əliyevanın uşaqlara diqqət və qayğılarını əks etdirən fotolardan ibarət guşələr vardır.*

*Məlumat verildi ki, binanın inşasına bu ilin fevralında başlanılmışdır. Tikinti işlərinin yüksək keyfiyyətlə həyata keçirilməsi üçün bütün qüvvələr səfərbər olunmuşdur. 120 yerlik müasir tipli körpələr evi-uşaq bağçasının ümumi ərazisi 2,5 hektara yaxındır. Binada 20 otaq vardır. Burada həkim otağı, yeməkxana və uşaqların əyləncəsi üçün zal inşa edilib. Bundan başqa, musiqi zalı və digər istirahət otaqları da balacaların ixtiyarına veriləcəkdir. Bütün otaqlar zəruri avadanlıqla təchiz edilib. Bir sözlə, burada uşaqların təlim-tərbiyəsi və bacarıqlarının üzə çıxarılması üçün hərtərəfli şərait yaradılıb. Binanın həyətində müasir standartlara cavab verən attraksionlar quraşdırılıb, ətrafda geniş abadlıq işləri aparılıb.*

## Səlilabad Rayon Mərkəzi Xəstəxanasının açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 4-də Cəlilabad Rayon Mərkəzi Xəstəxanasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı tibb ocağının rəmzi açılışını bildirən lenti kəsdi. Səhiyyə naziri Oqtay Şirəliyev xəstəxanada yaradılan şərait barədə prezident İlham Əliyevə məlumat verdi.*

*Bildirildi ki, xəstəxana ərazisində əsas binadan əlavə yoluxucu xəstəliklər üçün ikimərtəbəli infeksion şöbə tikilmişdir. Həyətdə geniş abadlıq işləri görülmüş, yaşıllıq zolaqları yaradılmışdır. Cəlilabad Rayon Mərkəzi Xəstəxanasının inşasına prezident İlham Əliyevin 2012-ci ildə imzaladığı sərəncama əsasən başlanılmışdır. Səhiyyə Nazirliyinin sifarişi ilə inşa edilən bina ən müasir tələblər səviyyəsində tikilmişdir. Xəstəxananın ümumi ərazisi 5 hektar, tikintialtı sahəsi isə 7381 kvadratmetrdir. 3 mərtəbədən ibarət binada ən müasir tibbi avadanlıqlar quraşdırılmışdır.*

*Xəstəxanada yaradılan şəraitlə tanışlıqdan sonra dövlətimizin başçısı tibb işçiləri və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

## CƏLİLABAD RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*4 sentyabr 2013-cü il*

Mən sizi ürəkdən təbrik edirəm. Cəlilabad Rayon Mərkəzi Xəstəxanasının açılışı çox gözəl hadisədir, böyük hadisədir. Bu xəstəxananın qısa müddət ərzində tikilməsi də Azərbaycan dövlətinin gücünü göstərir. Mən xatırlayıram, keçən il Cəlilabadda olarkən burada Rayon Mərkəzi Xəstəxanasının tikintisi ilə bağlı göstəriş vermişdim. Bu xəstəxana 1 il ərzində tikilib və ən yüksək standartlara cavab verir. Dünyada hansı yüksək standart varsa, Cəlilabad Rayon Mərkəzi Xəstəxanasında da o standart vardır – həm keyfiyyət, həm memarlıq, həm gözəllik, təmizlik. Burada ən müasir avadanlıqlar quraşdırılıbdır, bütün şöbələr – cərrahiyyə, terapiya, oftalmologiya, doğum şöbələri fəaliyyət göstərir. Yəni bu xəstəxana dünya səviyyəsində tikilmiş xəstəxanadır.

Xəstəxananın tikintisi bir daha demək istəyirəm ki, Azərbaycan dövlətinin gücünü və siyasətini əks etdirir. Çünki siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır, onun rifahı, onun sağlamlığıdır. İnsan sağlamlığı hər şeydən üstündür. Hər bir insan öz sağlamlığını qorumalıdır və hər bir insan keyfiyyətli tibbi xidmət almalıdır.

Bu gün Azərbaycanın müxtəlif yerlərində keyfiyyətli tibbi xidmət almaq üçün bütün şərait vardır. Xüsusilə cənub zonasında, demək olar ki, bütün rayonlarda xəstəxanalar, diaqnostika mərkəzləri tikilib, yaxud da ki, əsaslı şəkildə təmir

edilib. Bir rayonda – Biləsuvarda hələ ki, işlər lazımi səviyyədə deyildir. Mən bu gün səhər orada olmuşam. Biləsuvar Rayon Xəstəxanasının əsaslı təmiri ilə bağlı artıq göstəriş verilib. Beləliklə, bu zonanın bütün rayonlarında ən yüksək səviyyəli tibbi xidmət təşkil edilir. Nəzərə alsaq ki, bir müddət bundan əvvəl Cəlilabadda Müalicə-Diaqnostika Mərkəzi tikilmişdir, hazırda rayonda 2 müasir tibb mərkəzi vardır. Bu onu göstərir ki, burada müalicə, diaqnostika, bütün terapevtik tədbirlər yüksək səviyyədə təşkil edilir. Bu bir daha demək istəyirəm ki, dövlət siyasətimizin təzahürüdür, Cəlilabada olan münasibətdir. Bilirsiniz ki, ulu öndər Heydər Əliyev Cəlilabadın inkişafına daim böyük diqqət göstərmişdir, dəfələrlə Cəlilabadda olmuşdur.

Bu gün Cəlilabadın yeni dövrü davam edir. Bu gün biz müstəqil dövlətdə yaşayırıq, bizim taleyimiz öz əlimizdədir. Əlbəttə ki, müstəqillik dövründə görülən işlər göz qabağındadır. O cümlədən Cəlilabadda əvvəlki dövrdə də böyük işlər görülmüşdür, Olimpiya Mərkəzi tikilmişdir, parklar salınır, kənd yolları tikilir. Bu gün bir kənd yolunun açılışını da qeyd etdik. Rayon sakinlərinin xahişini nəzərə alaraq Cəlilabad–Yardımlı yolu tikilir. Həm 2 rayonu birləşdirir, eyni zamanda, yolun üstündə yerləşən onlarla kəndi əhatə edirik. Onlarla kənd yeni yoldan istifadə edəcəkdir.

Bütün işlər, iqtisadi-sosial, infrastruktur layihələri ardıcıl şəkildə aparılır. Mənə verilən məlumata görə, qazlaşdırma prosesi də gedir. Düzdür, rayon hələ ki, tam şəkildə qazlaşdırılmayıbdır, ancaq hesab edirəm ki, yaxın 1 il ərzində bütün kəndlər, şəhər də daxil olmaqla, 100 faiz qazlaşdırılmalıdır. İçməli su layihəsi gələn ilin sonuna qədər başa çatacaqdır, Cəlilabad şəhərinin təmiz içməli su ilə təminatı həll ediləcəkdir. Yəni rayonda bütün sosial infrastruktur yenilənir, tikilir və bundan sonra da biz bu siyasəti davam etdirəcəyik.

Cəlilabad böyük rayondur, əhalisi də çoxdur. Əlbəttə ki, rayonun sosial-iqtisadi inkişafı ilə bağlı tədbirlər görülür, vaxtaşırı Prezidentin ehtiyat fondundan vəsait ayrılır, dövlət

investisiya proqramında məsələlər öz həllini tapır. Növbəti illərdə Cəlilabadda bu günə qədər həll edilməyən məsələlər də öz həllini tapacaqdır. Xüsusilə biz müxtəlif layihələri gələn ilin investisiya proqramına salacağıq. Gələn il növbəti regional inkişaf proqramı qəbul ediləcəkdir ki, oraya da bu günə qədər görə bilmədiyimiz məsələlər salınacaqdır.

Rayonun hərtərəfli inkişafı ilə bağlı kompleks tədbirlər görülür və qeyd etdiyim kimi, səhiyyə, təhsil, infrastruktur, iqtisadi inkişafla bağlı bütün məsələlər öz həllini tapır. Deyə bilərəm ki, son illərdə Cəlilabadda görülən işlər ölkəmizin ümumi dinamikasını göstərir. Mən son 10 il ərzində dəfələrlə Cəlilabadda olmuşam, əvvəlki dövrlərdə də olmuşam. Amma prezident kimi, bu mənim 6-cı səfərimdir. Demək olar ki, rayonda iki ildən bir, bəlkə ondan da tez oluram. Keçən il də olmuşam. Əlbəttə ki, bu səfərlər imkan verir ki, vəziyyətlə dərindən tanış olum, eyni zamanda, insanları narahat edən problemləri də mən gərək sizdən eşidim. Əlavə nə edilməlidir, həllini gözləyən hansı əlavə məsələlər var ki, biz gələcəkdə onları həll edək. Əlbəttə, hər bir səfərdə biz hansısa bir önəmli obyektin açılışında iştirak edirik.

Bu xəstəxana doğrudan da bir memarlıq əsəridir. Bir daha demək istəyirəm ki, bu xəstəxana insanların sağlamlığı üçün tikilibdir və insanların, vətəndaşların sərəncamına verilir. Eyni zamanda, bu xəstəxana həkimlərin iş yeridir. Həkimlər də başqa kateqoriyalı işçilər kimi, keyfiyyətli iş yerləri ilə təmin edilməlidir. Burada iş şəraiti çox gözəldir, yüksəkdir. İstənilən şəhərdən, hətta Bakıdan buraya gəlib işləmək istəyənlərin hesab edirəm ki, sayı az olmamalıdır. Ancaq mənə verilən məlumata görə, yerli həkimlər də peşəkardırlar. Həkimlər daim öz peşəkarlığını artırmalıdırlar ki, dünyada gedən yeniliklər Azərbaycanda tətbiq edilsin. Çünki tibb elmi sürətlə inkişaf edir, burada ən müasir avadanlıqlar quraşdırılıbdır. Əsas odur həkimlərin təkmilləşdirilməsi prosesi daim getsin ki, insanlara keyfiyyətli tibbi xidmət göstərilsin. Həkimləri, vətəndaşları,

Cəlilabad rayon sakinlərini təbrik edirəm, sizə yeni uğurlar arzulayıram.

**N ə z a k ə t  N ə z ə r l i** *(həkim):* Möhtərəm cənab Prezident, icazə verin, Sizi rayon ictimaiyyəti, çoxsaylı səhiyyə işçiləri adından salamlayım, «Cəlilabada xoş gəlmisiniz!» – deyim. Hamımıza yaxşı məlumdur ki, Sizin fəaliyyətinizdə insan amili, onun sağlamlığı, rifahı həmişə ön mövqelərdə durub. Respublikamızda yeni tikilən, əsaslı təmir edilən xəstəxanalar, müasir müalicə-diaqnostika mərkəzləri, ixtisaslaşmış tibbi kadrların hazırlanması istiqamətində aparılan işlər, mütərəqqi tibbi nailiyyətlərin respublikamızın səhiyyə ocaqlarına tətbiq olunması dediklərimizin əyani sübutudur. 2010-cu ildə rayonumuzda müasir Müalicə-Diaqnostika Mərkəzi açıldı. Hazırda bu mərkəz öz işini müvəffəqiyyətlə yerinə yetirir, əhaliyə nümunəvi xidmət göstərir. Çox qısa bir müddət ərzində belə möhtəşəm, yüksək səviyyəli yeni səhiyyə ocağı tikildi və bu gün istifadəyə verilir. İdeal iş şəraitinə, müasir təminat və təchizata malik belə bir səhiyyə ocağının yaranması əhaliyə yüksək səviyyəli tibbi xidmət göstərmək üçün geniş imkanlar açır, ən mürəkkəb əməliyyatların aparılmasına şərait yaradır.

Cənab Prezident, bu həm də həkim əməyinə verilən yüksək qiymətdir. Əlbəttə, bu yüksək qiymət bizim üzərimizə yüksək məsuliyyət hissi də qoyur. Çünki bizim belə möhtəşəm, gözəl şəraitdə yaxşı işləməməyə haqqımız yoxdur. Belə yüksək səviyyəli tibb ocağını bizə bəxş etdiyinizə görə Sizə təşəkkür edirik. Sizi əmin etmək istəyirəm ki, bundan sonra daha səylə çalışacaq, öz üzərimizdə daha çox işləyəcək, əhalinin sağlamlığının keşiyində dayanmaq üçün əlimizdən gələni əsirgəməyəcəyik.

Ümumiyyətlə, son vaxtlar respublikamızda təkcə səhiyyə sistemində deyil, bütün sahələrdə böyük işlər görülür. Rayonlarımız, şəhərlərimiz böyüyür, abadlaşır, Cəlilabadımız da gündən-günə gözəlləşir, demək olar ki, regionda füsunkar, abad guşələrdən birinə çevrilir. Parklar, meydanlar, uşaq bağçaları,

məktəblər, yeni yollar – bütün bunlar hamısı, cənab Prezident, Sizin regionlara olan diqqət və qayğınızın nəticəsidir, Sizin fədakar əməyinizin bəhrəsidir. Sizə Azərbaycan xalqının rifahı naminə bu müqəddəs, çətin, məsuliyyətli işinizdə müvəffəqiyyətlər arzulayırıq. Bütün Azərbaycan xalqı, bütün cəlilabadlılar həmişə Sizinlədir. Sizinlə birgə addımlamağa hazırıq, Sizə inanırıq. İnanırıq ki, bizi ancaq zirvələrə doğru aparacaqsınız. Tanrı Sizi qorusun.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Biz hələ birlikdə çox iş görəcəyik. Mən çox şadam ki, son illər ərzində Cəlilabad rayonu doğrudan da öz inkişaf dövrünü yaşayır. Siz də qeyd etdiyiniz kimi, rayon hərtərəfli inkişaf edir. Bütün məsələlər öz həllini tapır. Həm iş yerləri, yeni müəssisələr açılır, eyni zamanda, şəhər abadlaşır. Əvvəlki dövrlərdə Heydər Əliyev seyrəngahını, Olimpiya Mərkəzini, Diaqnostika Mərkəzini, yolları, sənaye obyektlərini biz sizinlə bərabər açmışıq. Əlbəttə ki, ölkənin inkişafı dövlət siyasətindən, dövlətin başında dayanan şəxslərin işindən, onların gələcəyə baxışlarından asılıdır. Azərbaycanda hər bir istiqamət üzrə düşünülmüş siyasət aparılır. Son 10 ilin tarixi bunun əyani sübutudur. Çünki son 10 il ərzində dünyada Azərbaycan qədər sürətlə inkişaf edən ikinci ölkə yoxdur. Bu sadəcə, reallıqdır, dünya statistikasıdır. Ancaq o da həqiqətdir ki, əgər bu siyasət və bu təşəbbüslər yerlərdə dəstək qazanmasaydı, heç bir işi görmək mümkün olmazdı. Bizim üstünlüyümüz ondan ibarətdir ki, bütün təşəbbüslər yerlərdə dəstəklənir və eyni zamanda, qərarlarımızın təməlində də insanların arzularıdır. Çünki bir çox hallarda bölgələrdə görülən işlərin təşəbbüskarı vətəndaşlar olmuşlar. Mənim rayonlara səfərlərim və insanlarla söhbət əsnasında qaldırılan məsələlər sonradan regional inkişaf proqramının tərkib hissəsi kimi qəbul edilir və icra olunur. Ona görə bu canlı bağlantı mütləq olmalıdır. Əgər bu olmasa, onda işlər getməyəcəkdir. Bütün təşəbbüslər xalq tərəfindən nəinki dəstəklənir, Azərbaycan vətəndaşları bu işlərin fəal iştirakçılarıdır, o cümlədən Cəlilabadda.

Əlbəttə, dövlətimiz nə qədər güclü olsa, bizim maliyyə imkanımız da o qədər güclü olacaqdır ki, bütün bu işləri görək. Çünki bütün bu məsələlər böyük maliyyə vəsaiti tələb edir. Sosial sahəyə qoyulan vəsait geri qayıtmır. Yəni vəsait kimi, geri qayıtmır. İnsan kapitalı kimi, əlbəttə ki, geri qayıdır və qayıtmalıdır. Xəstəxana, yol çəkilişi, digər ictimai yerlərin yaradılması, məktəb tikintisi, su xətləri, qazlaşdırma – bütün bu layihələr sırf sosial məna daşıyır, bir daha onu göstərir ki, həmişə dediyim kimi, dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Bu sadəcə olaraq, bir şüar deyil, həqiqətdir, belə də olmalıdır. Hər dövlətdə belə olmalıdır. Belə olmasa, onda dövlətlərdə problemlər yaşanar. Əgər insan amili kənara qoyulursa, başqa amillər önə çəkilirsə, bu ölkələrin gələcəyi yoxdur. Bizdə isə sosial siyasət güclü iqtisadi islahatlarla, iqtisadi siyasətlə tamamlanır. Bizim uğurlarımızın səbəbi, bax, budur.

İndi dünyanın müxtəlif yerlərində yaşanan hadisələri hamımız televizordan görürük, mətbuatdan izləyirik. Görürük ki, dünyanın müxtəlif yerlərində çox çətin proseslər gedir – haradasa böhran, iqtisadi çətinliklər, sosial narazılıqlar, haradasa qanlı toqquşmalar. Yəni bizim ətrafımızda, demək olar ki, müxtəlif yerlərdə vəziyyət artıq çox gərginləşib, alovlanır. Azərbaycan isə bir sabitlik adasıdır. Azərbaycan bölgədə də sabitləşdirici rol oynayır. Yəni bizim sabitliyimiz bölgəyə də müsbət təsir göstərir.

Azərbaycan bütün bu böhranlı illərə baxmayaraq, öz iqtisadi inkişafını təmin edib və artırıb. Bunun səbəbi çox aydındır. Bunun səbəbi düşünülmüş, xalqın rifah halının yaxşılaşdırılmasına yönəlmiş siyasət və xalqla iqtidar arasında olan birlikdir. Budur bizim uğurlarımızın əsas sirləri. Çünki bəzi hallarda xarici qonaqlarla söhbət əsnasında sual verilir ki, necə olur, hər yerdə vəziyyət başqa cürdür, sizdə isə inkişafdır?! Bunun sirri nədir? Yenə də deyirəm və hesab edirəm ki, bunun əsas sirri xalqla iqtidar arasında olan birlikdir, cəmiyyətdə ölkəmizin inkişafı ilə bağlı vahid mövqenin mövcudluğudur.

Cəmiyyətdə ölkəmizin xarici, daxili, iqtisadi siyasəti ilə bağlı heç bir fikir ayrılığı yoxdur. Yəni cəmiyyətin bütün üzvləri qlobal, ümumi istiqamətlər üzrə bir fikirdədir – ölkəmizi daha da gücləndirməliyik, beynəlxalq mövqelərimizi gücləndirməliyik, daxili inkişafı bundan sonra da təmin etməliyik ki, insanlar daha da yaxşı yaşasınlar, Azərbaycan dövləti daha da qüdrətli olsun.

Azərbaycan dövlətinin gücü hər bir vətəndaşa xidmət göstərir. Hər bir vətəndaşın öz doğma Vətəninə olan sevgisi, onun əməyi dövlət gücümüzü artırır. Bütün bu işlər bir-biri ilə sıx bağlıdır. Deyə bilərəm ki, biz bütün bu müsbət meyilləri Cəlilabad rayonunda görürük.

Sizi bir daha ürəkdən təbrik edirəm, sizə uğurlar, cansağlığı arzu edirəm.

## YARDIMLI RAYONUNA SƏFƏR

*4 sentyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 4-də Yardımlı rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.*

*Prezident İlham Əliyev ümummilli liderin adını daşıyan parkla tanış oldu.*

*Rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov prezident İlham Əliyevə ümummilli liderin adını daşıyan parkda görülmüş yenidənqurma və abadlıq işləri barədə məlumat verdi.*

*Parkın girişində müasir üslubda 3 aşırımlı giriş qapısı inşa olunub. Burada 3 fəvvarə, suvarma və işıqlandırma sistemi quraşdırılib.*

### Heydər Əliyev Mərkəzinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 4-də Yardımlıda Heydər Əliyev Mərkəzinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi, Mərkəzdə yaradılmış şəraitlə tanış oldu.*

*Məlumat verildi ki, Mərkəzin birinci mərtəbəsində 30 nəfərlik akt zalı, rəsm və dizayn dərnəyi, xalq sənətkarlıq studiyası, poliqrafiya emalatxanası, fotostudiya və kompüter otağı yaradılıb. Burada ümummilli liderin xatirəsinə həsr olunmuş muzey təşkil edilib. Muzeydəki fotostendlərdə ulu öndərin uşaqlıq, yeniyetməlik, tələbəlik, Dövlət Təhlükəsizlik Komitəsində işlədiyi dövrlər, hakimiyyətdə olduğu illərdə bölgələrə etdiyi səfərlər əks olunub. Bu fotolardan da görünür ki, ümummilli*

lider hər zaman vətəndaşların rifahını diqqət mərkəzində saxlamışdır. Onun regionlara səfərlərinin də əsas məqsədi ölkəmizdəki inkişafı hər bir soydaşımızın həyatına daxil etmək idi. Ulu öndərin Azərbaycana rəhbərlik etdiyi illər ölkəmizin tarixinə intensiv inkişaf dövrü kimi daxil olub. Ölkədə mükəmməl idarəçilik məktəbini yaradan Heydər Əliyevin görkəmli ictimai-siyasi xadim kimi tanınmasında onun Azərbaycana, respublikamızın timsalında regiona, nəticə etibarilə dünyaya sülh, sabitlik, davamlı inkişaf və harmoniya gətirməklə bağlı atdığı əhəmiyyətli addımlar mühüm rol oynayıb.

Mərkəzdə prezident İlham Əliyevin Yardımlı rayonuna səfərlərini əks etdirən fotoguşə də yaradılıb. Bundan başqa, Mərkəzin ikinci mərtəbəsində 40 tamaşaçı yerlik 3D formatlı kinozal, virtual sinif, 15 yerlik konfrans zalı, sərgi salonu, kompüter və linqafonlarla təchiz edilmiş xarici dil studiyası, intellektual oyun otağı və ədəbiyyat dərnəyi fəaliyyət göstərəcəkdir. Burada gənclərin müasir texnoloji yeniliklərlə yaxından tanış olmalarına, onların bilik və bacarıqlarının inkişaf etdirilməsinə yönəldilən kurslar təşkil olunacaqdır.

## Şəhərə çəkilmiş yeni içməli su xəttinin açılışı mərasimi

Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 4-də Yardımlı şəhərinə çəkilmiş yeni içməli su xəttinin açılışı münasibətilə Gənclər parkında təşkil olunan mərasimdə iştirak etmişdir.

Əvvəlcə dövlətimizin başçısına parkda görülən işlərlə bağlı məlumat verildi. Qeyd olundu ki, bu ilin avqustunda parkda başlanmış tikinti işləri hazırda davam etdirilir. Parkın ümumi ərazisi yarım hektardır. Burada istirahət köşkləri tikilib, geniş yaşıllıq sahəsi yaradılıb, müasir fəvvarə quraşdırılıb.

Dövlətimizin başçısı burada rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

## YARDIMLI RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*4 sentyabr 2013-cü il*

Yenidən Yardımlıda olmağımdan çox şadam. Bu, Yardımlıya mənim prezident kimi, üçüncü səfərimdir. Buraya gələrkən birinci səfərimi xatırlayırdım. 2005-ci ildə biz Masallı–Yardımlı yolunun yenidən qurulmasını qeyd edirdik. O vaxt bu, böyük layihə idi. Çünki yol o qədər də yaxşı vəziyyətdə deyildi. Yeni yol çəkildi. Ondan sonra 2006-cı ildə Yardımlıya təbii qazın verilməsini qeyd etdik. O da tarixi bir gün idi. Çünki heç sovet dövründə də buraya təbii qaz verilməmişdi. O vaxt xətlər çəkildi. Bu gün məndə olan məlumata görə, Yardımlı şəhərinin böyük hissəsi qazlaşdırılıb. Bir neçə kənddə də qaz xətləri çəkilib. Gələcəkdə, əlbəttə, tam şəkildə qazlaşdırma aparılacaq. Bu gün isə biz növbəti vacib layihənin icrasını – Yardımlıya içməli suyun verilməsini qeyd edirik.

Yəni bu tarix özlüyündə bir göstəricidir. Yol, qaz və içməli su həyatdır. Təmiz içməli su isə sağlam həyat deməkdir. İndi verilən məlumata görə, bütün xətlər artıq bu ilin sonuna qədər qurulacaqdır. Gələn ildən başlayaraq Yardımlı şəhərinin içməli su problemi tam şəkildə öz həllini tapacaqdır. Bununla bərabər, yerli icra orqanları kənd yerlərində su xətlərinin çəkilişi ilə məşğuldurlar. Bu da çox gözəl bir təşəbbüsdür. Mən bunu dəstəkləyirəm, alqışlayıram. Elə etməliyik ki, əsas infrastruktur layihələri icra edilsin. Bu gün biz kənd yolunun açılışını qeyd edəcəyik. Yeni elektrik xətlərinin çəkilişi də başlanılmışdır. Çünki Yardımlıda bərk külək əsəndə köhnə dirəklər yıxılır, elektrik kəsilir. İndi yeni, möhkəm dayaqlar tikilir ki, artıq bu problem də olmayacaqdır.

Bütün bu əsas layihələr insanların rahat yaşaması üçün icra edilir. Bu təşəbbüslər əminəm ki, xalq tərəfindən də yüksək qiymətləndirilir. Çünki rayon qarşısında duran əsas infrastruktur məsələləri qısa müddət ərzində öz həllini tapır. Əlbəttə ki, gələcəkdə görüləsi işlər çoxdur. Biz bütün bu işləri davam etdirməliyik. Xüsusilə növbəti illərdə sahibkarlığın inkişafı ilə bağlı daha da böyük tədbirlər görülməlidir. Ölkə üzrə bütövlükdə sahibkarlıq sürətlə inkişaf edir. Yeni kənd təsərrüfatı müəssisələri yaradılır. Hesab edirəm ki, Yardımlı rayonunda da bu istiqamətdə əlavə tədbirlər görülməlidir. Kənd sakinlərinə maliyyə yardımı göstərilməlidir ki, onlar daha da böyük şəkildə və özləri üçün daha da səmərəli qaydada bizneslə məşğul ola bilsinlər.

İçməli su layihəsi isə rəmzi xarakter daşıyır. Çünki bu ilk növbədə, Azərbaycan dövlətinin gücünü göstərir. Digər tərəfdən, Azərbaycanın dövlət siyasətini göstərir. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır. İçməli su insan orqanizmi üçün əsas şərtdir. Ona görə, Yardımlıya təmiz içməli suyun çəkilməsi xüsusi əhəmiyyət daşıyır. Yardımlı dağlıq rayondur. Burada da başqa yerlərdə olduğu kimi bütün infrastruktur layihələri icra edilir və edilməlidir. Dediyim kimi, son 7-8 ilin tarixi onu göstərir. Yol, işıq, qaz, su və bütövlükdə rayonun abadlığı – bu istiqamətdə də işlər görülüb. Yardımlı inkişaf edir. Gözəl binalar tikilir. Bu gün Heydər Əliyev Mərkəzinin açılışını qeyd etdik. Əvvəlki səfərlərimdə məktəblər, uşaq bağçaları açılmışdır. İndi buna ehtiyac vardır. Gələcəkdə bu işlər də görüləcəkdir.

Mən bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Sizə cansağlığı arzulayıram. Gələcəkdə bizim görüşlərimiz hələ çox olacaq. Çünki Yardımlıda başqa müxtəlif layihələr də icra ediləcək. Bütün açılışlarda bərabər olacağıq.

**S a k i n l ə r:** İnşallah.

**F e y r u z  S u l t a n o v** *(rayon sakini):* Hörmətli cənab Prezident, Yardımlıya xoş gəlmisiniz! Yardımlılar Sizi ürəkdən sevir, sizin fəaliyyətinizi bəyənir və Sizinlə birlikdədirlər. Sizin

bugünkü gəlişiniz isə elə bir vacib məsələyə həsr olunub ki, bu həm savabdır, həm də xalqın Sizə duası bəsdir. Bundan əvvəl qadınlar, uşaqlar, gənclər istifadə etmək üçün müxtəlif mənbələrdən mənşəyi bilinməyən su daşıyırdılar. Əhalimiz keyfiyyətsiz sudan istifadə etməyə məcbur idi. İndi isə Siz bu gəlişinizlə yardımlılılara böyük töhfə verirsiniz – təmiz, saf suyun açılışını edirsiniz. Saf su isə insan orqanizmi üçün əvəzolunmaz bir nemətdir. Allah Sizi qorusun, Allah Sizə cansağlığı versin, işiniz avand olsun.

Hörmətli cənab Prezident! Yardımlı durmadan inkişaf edir. Yardımlı simasını dəyişib. Sizin sayənizdə yeni parklar, yeni küçələr, yeni evlər, yeni inzibati binalar tikilir. Ona görə bir daha təkrar edirəm ki, yardımlılılar Sizi çox sevirlər. Yardımlı inkişaf edib, gözəlləşib, tanınmaz dərəcədə dəyişib. Respublikamızın inkişafı göz qabağındadır. Bunu inkar etmək olmaz. Bunu artıq bizim xarici dostlarımız da, bizi istəməyən dövlətlər də qeyd edirlər. Azərbaycan sürətlə inkişaf edir. Biz bundan sonrakı fəaliyyətimizdə balalarımızın, nəvələrimizin firavan yaşayışını da məhz Sizin rəhbərliyiniz altında görmək istəyirik. Bu belə də olacaqdır. Siz uzun illər bizim rəhbərimiz olacaqsınız və biz də Sizin ətrafınızda varıq. Yardımlıya xoş gəlmisiniz, Allah Sizi qorusun.

**İ l h a m Ə l i y e v:** Təşəkkür edirəm, doğrudan da böyük hadisədir. Bir daha demək istəyirəm ki, Yardımlıda görülən işlər məni çox sevindirir. Çünki vaxtilə burada başlanmış bu proqram uğurla icra edilir. Rayon inkişaf edir. Rayonun böyük potensialı vardır. Mən çox şadam ki, biz həm qazın, həm içməli suyun çəkilişinə nail olduq, elektrik xətləri çəkilibdir. Gələcəkdə Olimpiya İdman Mərkəzinin, digər sosial obyektlərin tikintisi nəzərdə tutulur. Hələ qəzalı vəziyyətdə olan məktəblər vardır. Onların hamısı əsaslı şəkildə təmir ediləcəkdir. Yəni siz bilirsiniz ki, hər bir rayon üçün konkret proqram vardır. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının tərkibində Yardımlının inkişafı nəzərdə tutulub. Son 10 il ərzində bu proqram artıqlaması ilə icra edilibdir. Deyə

bilərəm ki, 2 Dövlət Proqramında nəzərdə tutulmuş bütün məsələlər həll olunur. Bunu Yardımlının timsalında görə bilərik.

Ancaq həll olunmalı məsələlər çoxdur. Rayonlara, bölgələrə səfərlərimin səbəblərindən biri də ondan ibarətdir ki, problemləri aşkar edək, sizdən eşidim əlavə nə etmək lazımdır. Hansı məsələlər insanları narahat edir, növbəti illərdə onları da həll edək. Biz indi uğurla inkişaf edirik. Belə güclü iqtisadiyyat yaratmışıq ki, biz istənilən məsələni həll edə bilək. Biz dağlara yollar, su və qaz xətləri çəkirik. Elə məsələ yoxdur ki, biz onu həll edə bilməyək. Çünki güclü iqtisadiyyat yarada bilmişik. Bu iqtisadiyyat imkan verir ki, biz sosial məsələlərin həllinə də vəsait ayıraq. Bax, bütün bu layihələr böyük vəsait tələb edir. Bu dağlarda çəkilən su, qaz, elektrik xətləri, yollar – bütün bunlar dövlət büdcəsi, yaxud da ki, Prezidentin ehtiyat fondu hesabına – o da dövlət büdcəsinin bir hissəsidir – reallaşır. Güclü iqtisadiyyat olmasa, bu layihələr icra edilə bilməz. Bu gün Azərbaycan elə bir sürətlə inkişaf edir ki, istənilən məsələ öz həllini tapa bilər. Təki biz bilək ki, hansı məsələlər vardır və onlar necə həll edilməlidir. İnsanları narahat edən əsas məsələlər nədir ki, onlar da öz həllini tapsın. İndi hazırlanan üçüncü regional inkişaf proqramı da daha çox yerlərdən gələn təkliflər əsasında tərtib olunacaq və 2014–2018-ci illəri əhatə edəcəkdir. Çalışmaq lazımdır ki, qalan bütün sosial infrastruktur məsələlər növbəti 5 il ərzində öz həllini tapsın.

Yardımlı rayonunda görüləcək işlər haqqında, əlbəttə ki, siz daha yaxşı bilirsiniz. Hansı işlərin görülməsi barədə bizə vaxtaşırı məlumat verilir. Bundan sonra da veriləcəkdir. Növbəti proqramlarımızda bütün bu təkliflər nəzərə alınacaq ki, burada işlər daha da yaxşı getsin, insanlar rahat yaşasınlar. Sizin də qeyd etdiyiniz kimi, bu layihə insan sağlamlığı üçün başlıca şərtdir. Burada insanın sağlamlığı üçün bütün imkanlar vardır. Gözəl təbiət, dağ havası, meşələr, təmiz ərzaq məhsulları, təkcə içməli su çatmırdı, bunu da biz bu gün həll etdik. Gələcəkdə də çox görüşəcəyik.

* * *

*Sonra prezident İlham Əliyev Yardımlı rayonunun su təchizatının və kanalizasiya sisteminin yenidən qurulmasının texniki göstəriciləri, şəhərin su təchizatı sisteminin baş planını əks etdirən stendlərlə tanış* oldu.

*Dövlətimizin başçısına məlumat verən «Azərbaycan Respublikası Meliorasiya və Su Təsərrüfatı» Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə* bildirdi ki, *Milli Su Təchizatı və* Kanalizasiya *Xidmətləri üzrə İkinci Layihə çərçivəsində Yardımlı* rayonunda *su təchizatı və* kanalizasiya *şəbəkəsi, çirkab sutəmizləyici qurğunun* tikintisi *və yenidənqurma işləri həyata keçirilir. Layihənin* birinci *mərhələsində* rayon *mərkəzini təchiz edən* magistral *içməli su xətti və* diametri *300–400* millimetr *olan* kanalizasiya kollektorunun *çəkilməsi,* qalan *digər işlərin isə 2014-cü ildə yerinə* yetirilməsi *nəzərdə* tutulub. *Əhalini içməli su ilə təmin etmək məqsədilə Yardımlı* rayonu *ərazisində yerləşən Viləşçayın məcraaltı sularından istifadə* olunur. *Həmin ərazidə yerləşən* Avun *kəndindəki mövcud sugötürücü qurğudan Yardımlı şəhərini təchiz edən 8630* metr *uzunluğunda* magistral *su xəttinin* tikintisi *başa çatıb. Şəhərin mərkəzində 6520* metr *uzunluğunda baş* kanalizasiya kollektoru *inşa* edilib. *Layihəyə əsasən şəhərə 24* saat *ərzində adambaşına 150* litr *həcmində fasiləsiz içməli* suyun *verilməsi nəzərdə* tutulub. *Bu məqsədlə Yardımlı şəhərinin su təchizatı və* kanalizasiya sisteminin tam olaraq *yenidən qurulması işləri həyata keçirilir.* Bunun üçün *Yardımlı* rayon *mərkəzində 63,5* min metr su *xəttinin çəkilməsi, yanğın* hidrantlarının, *içməli* su ev *birləşmələrinin quraşdırılması, 59,5* min metr kanalizasiya *xəttinin çəkilməsi,* 13 su anbarının *tikilməsi və digər tədbirlər nəzərdə* tutulub. *Gücü* 8500 *əhali* ekvivalentli *olan çirkab sutəmizləyici* qurğunun daha *müasir qurğu ilə əvəz* olunması *üçün* müvafiq *layihədə dəyişikliklər* aparılmışdır *və* qurğunun tikintisi davam etdirilir.

*Prezident İlham Əliyev Yardımlı* rayonuna *içməli* suyun *verilməsini bildirən düyməni basdı.*

## Yeni Azərbaycan Partiyası Yardımlı rayon təşkilatının yeni inzibati binasının açılışı mərasimi

*Dövlətimizin başçısı sentyabrın 4-də Yeni Azərbaycan Partiyası Yardımlı rayon təşkilatının yeni inzibati binasının açılışında iştirak etmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev binanın rəmzi açılışını bildirən lenti kəsdi. Bina ilə tanışlıq zamanı Azərbaycan Prezidentinə məlumat verildi ki, ötən ilin mayında başlanan tikinti işləri bu ilin avqustunda başa çatdırılıb. Burada ulu öndər Heydər Əliyevin büstü qoyulub. Büstün ətrafında ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin ölkəmizin ictimai-siyasi həyatında, o cümlədən Yeni Azərbaycan Partiyasının fəaliyyəti ilə bağlı gördükləri işləri əks etdirən fotoguşələr yaradılıb.Məlumat verildi ki, inzibati bina 7 otaqdan və akt zalından ibarətdir. Buradakı bütün otaqlarda səmərəli fəaliyyət üçün hər cür şərait yaradılıb. İnformasiya-kommunikasiya texnologiyalarının tətbiqi də xüsusi diqqətdə saxlanılıb.Qeyd edildi ki, 50 nəfərlik akt zalında respublika və rayon əhəmiyyətli tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur. Burada əlavə kiçik iclas zalı da vardır.*

*Dövlətimizin başçısı inzibati binada yaradılmış şəraiti yüksək qiymətləndirdi.*

## Yardımlı–Deman–Arvana avtomobil yolunun 20 kilometrlik hissəsinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 4-də yenidən qurulan Yardımlı–Deman–Arvana avtomobil yolunun 20 kilometrlik hissəsinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi. Bildirildi ki, Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 21 fevral tarixli Sərəncamı ilə Yardımlı–Deman–Arvana avtomobil yolunun tikintisi məqsədilə Prezidentin ehtiyat fondundan ilkin olaraq 5 milyon manat vəsait ayrılıb. Layihənin ümumi dəyəri 9 milyon 600 min manatdır. Avtomobil yolunun ti-*

*kintisinə bu ilin aprelində başlanılmışdır. İnşaat işləri «Techno–İnşaat» MMC tərəfindən həyata keçirilib. Yolun ümumi uzunluğu 46 kilometrdir. Yolun eni 10 metrdir ki, bunun 6 metrini asfalt örtüyü, 4 metrini isə tikilmiş çiyin hissələri əhatə edir. Yolboyu 26 su keçidi quraşdırılıb. Yardımlı–Deman–Arvana avtomobil yolu 23 yaşayış məntəqəsini əhatə edir. Yolun tikintisi rayon mərkəzinin kəndlərlə nəqliyyat əlaqəsinin yaxşılaşdırılması, həmçinin iqtisadiyyatın və turizmin inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir.*

*Dövlətimizin başçısı inşaatçılarla görüşdü.*

**İ l h a m Ə l i y e v:** Salam, yaxşı iş görmüsünüz, yol çəkmisiniz.

**İ n ş a a t ç ı l a r:** Çox sağ olun!

**İ l h a m Ə l i y e v:** Sağ olun! Hələ çəkiləsi yollar çoxdur. İş də çox olacaqdır.

**İ n ş a a t ç ı l a r:** Çox sağ olun!

## MASALLI RAYONUNA SƏFƏR

*4 sentyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 4-də Yardımlıya səfərini başa çatdıraraq Masallı rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı Heydər Əliyev parkında ulu öndərin abidəsi önünə gül dəstəsi qoydu.*

*Masallı Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov prezident İlham Əliyevə məlumat verdi ki, ümummilli liderin adını daşıyan park yenidən qurulıb. 2011-ci ildə Heydər Əliyev Muzeyinin bazasında Heydər Əliyev Mərkəzi yaradılmışdır. Parkda rayon sakinləri və qonaqların mənalı istirahəti üçün hər cür şərait yaradılıb.*

### Heydər Əliyev Mərkəzinin yenidənqurmadan sonra açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 4-də Masallıda Heydər Əliyev Mərkəzinin yenidənqurmadan sonra açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, şəhərdə yenidən qurulan Heydər Əliyev Mərkəzi ümummilli liderin xatirəsinə dərin ehtiramın nümunəsidir. Mərkəzdə ulu öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotolar və eksponatlar yer alıb. Burada görkəmli dövlət xadimi Heydər Əliyevin gərgin siyasi fəaliyyəti nəticəsində Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun möhkəmləndirilməsi, müstəqilliyin ilk illərində ölkəmizdə vətəndaş müharibəsinin qarşısının alınması, Azərbaycan iqtisadiyyatının ağır böhran vəziyyətindən çıxarılaraq inkişaf yoluna qədəm qoyması, qüdrətli*

ordu quruculuğu istiqamətində həyata keçirilən mühüm tədbirləri əks etdirən fotolara geniş yer verilib. Bildirildi ki, ümummilli liderin xatirəsinin əbədiləşdirilməsi baxımından böyük əhəmiyyəti olan Mərkəzdə ulu öndərin həyatının və çoxşaxəli dövlətçilik fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən materiallar, şəkillər, tarixi sənədlər, eksponatlar, o cümlədən Masallıya səfərlərini əks etdirən fotolar nümayiş etdirilir. Burada kompüterlər və digər ən müasir avadanlıqla təchiz olunan xidməti otaqlar fəaliyyət göstərəcəkdir. 250 və 100 nəfərlik 2 konfrans zalının mövcud olduğu Mərkəzdə müxtəlif tədbirlərin keçirilməsi üçün lazımi şərait yaradılıb.

Vurğulandı ki, Mərkəzdə internet-kafe və 3D kino zalı fəaliyyət göstərir. Burada məktəblilərin Azərbaycanın zəngin tarixini dərindən öyrənmələri üçün xüsusi dərnəklər yaradılıb. Rəsm studiyası, fotostudiya, xalq sənətkarlığı otağı da məhz belə dərnəklərdəndir. Mərkəzdə yaradılan xalq sənətkarlığı otağında Azərbaycanın qədim musiqi alətləri və xalçaçılıq nümunələri nümayiş etdirilir. Elektron kitabxanada isə ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin həyat və fəaliyyətindən bəhs olunan, o cümlədən Azərbaycan tarixini, ədəbiyyatını və mədəniyyətini özündə əks etdirən elekton vəsaitlər yer almışdır.

Burada «eko-sinif» də fəaliyyət göstərir. Sinifdə ölkəmizin flora və faunasının qorunması istiqamətində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən İDEA kampaniyası haqqında məlumatların əks olunduğu lövhələr yer almışdır.

Qeyd edildi ki, 2012-ci ildə I Beynəlxalq folklor festivalı və ulu öndər Heydər Əliyevin 90 illik yubileyinə həsr olunan II Beynəlxalq folklor festivalı Masallıda keçirilmiş və şəhər 2012-ci ildə Azərbaycanın folklor paytaxtı seçilmişdir.

Prezident İlham Əliyev kompüter, xarici dil otağı və milli rəqs otaqlarına baxdı. Mərkəzlə tanışlıqdan sonra prezident İlham Əliyev Masallı rayon incəsənət məktəbinin, Tarix-Diyarşünaslıq Muzeyinin fəaliyyətini, Masallıda həyata keçirilən abadlıq və

*quruculuq işlərini əks etdirən fotolara baxdı. Viləşçay sahilində park-bulvar layihəsi dövlətimizin başçısına təqdim olundu.*

*Prezident İlham Əliyev Mərkəzdə yaradılan şəraiti yüksək qiymətləndirdi.*

**Mədəniyyət Mərkəzinin əsaslı təmirdən sonra açılışı mərasimi**

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 4-də Masallıda Mədəniyyət Mərkəzinin əsaslı təmirdən sonra açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Mədəniyyət Mərkəzi 1956-cı ildə inşa olunub. Bu mədəniyyət ocağı istismarda olduğu müddətdə əsaslı təmir edilməmişdir. Ümumi sahəsi 7300 kvadratmetr olan bina üçmərtəbəlidir. Rayonun bu əsas mədəniyyət ocağının əsaslı təmirinə 2011-ci ildən başlanılıb. Tikinti işləri Mədəniyyət və Turizm Nazirliyinin xətti ilə həyata keçirilib.*

*Mərkəzin foyesində ulu öndər Heydər Əliyevin mədəniyyət və incəsənət xadimlərinə qayğısından bəhs edən fotoguşə yaradılıb. Burada prezident İlham Əliyevin ölkəmizdə mədəniyyətin inkişafına, bu sahədə böyük əmək sərf edən insanlara diqqət və qayğısını əks etdirən fotolar da toplanmışdır.*

*Dövlətimizin başçısının Masallıya ötən səfərindən sonra şəhərin inkişafı məqsədilə imzaladığı sərəncama uyğun olaraq ayrılan vəsait hesabına yenidən qurulan Mədəniyyət Mərkəzinin binası müasir standartlara cavab verir. 358 yerlik tamaşa salonundan və digər yardımçı otaqlardan ibarət Mədəniyyət Mərkəzinin bütün infrastrukturu tamamilə yenidən qurulmuşdur.*

*Mərkəzlə tanışlıq zamanı dövlətimizin başçısı rayon incəsənət məktəbi xor kollektivinin ifasını dinlədi.*

*Prezident İlham Əliyev Masallı ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

## MASALLI RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*4 sentyabr 2013-cü il*

Mədəniyyət Mərkəzi hazırdır. Artıq fəaliyyətə başlayır. Çox şadam ki, yüksək səviyyədə təmir olunub. Keçən dəfə burada olarkən göstəriş verilmişdi ki, bina əsaslı şəkildə təmir olunsun və bu gün artıq hazırdır. Bu da hesab edirəm ki, həm Masallının, həm də Azərbaycan mədəniyyətinin inkişafına növbəti bir töhfədir. Əlbəttə ki, bütün infrastruktur layihələri ilə yanaşı, mədəniyyətlə bağlı olan tədbirlər, obyektlər, mədəniyyət sahəsindəki işlər də xüsusi məna daşıyır. Çünki mədəniyyət hər şeyin əsasıdır.

Azərbaycan xalqının çox zəngin mədəniyyəti, tarixi vardır. Biz haqlı olaraq öz mədəniyyətimizlə fəxr edirik. Bu gün Azərbaycan dünyada öz mədəniyyəti, musiqisi, tarixi ilə tanınan bir ölkədir. Dünyanın müxtəlif yerlərində Azərbaycan günləri keçirilir. Azərbaycan mədəniyyətinin nə qədər zəngin olduğunu bütün dünya bilir. Bakıda, bölgələrdə, o cümlədən Masallıda müxtəlif mədəni tədbirlər, müsabiqələr keçirilir. Azərbaycan cəmiyyəti həmişə mədəniyyətə çox bağlı olub və bu gün müstəqil Azərbaycan dövləti çox güclü əsaslar – tarixi, mədəni əsaslar, mənəvi dəyərlər üzərində qurulubdur. Ona görə də mədəniyyət mərkəzlərinin yenidən qurulması böyük əhəmiyyət daşıyır. Yenə də deyirəm ki, bütün başqa layihələrlə bərabər, bu sahədəki işlər də təqdirəlayiqdir.

Son 10 ildə mən Masallıda dəfələrlə olmuşam. Bu mənim səkkizinci səfərimdir. Demək olar ki, hər il gəlirəm və hər il müxtəlif açılışlarda iştirak edirəm. Sevinirəm ki, açılışların sayı artır və vaxtilə verilmiş qərarlar nəticə verir, gözəl səmərə verir. Masallıda son illər ərzində böyük işlər görülmüşdür. Bu gün də

bu işlər davam etdirilir. Xüsusilə, rayonun infrastrukturu ilə bağlı layihələr uğurla icra edilir. Yol tikintisi sürətlə gedir, kənd yolları tikilir. Masallıda 100-dən çox kənd vardır. Çox vacib layihədir. Çünki kənd yolu kənddə yaşayan insanlar üçün əsas məsələdir. Biz, əlbəttə ki, ilk növbədə magistral yolların çəkilişi ilə bağlı qərarlarımızı vermişik. İndi isə kənd yollarının çəkilişinin növbəsi gəlib və Masallıda bu layihələr geniş vüsət alıb. Yaxın aylarda müasir xəstəxana olacaqdır.

Rayonlar bir-birindən fərqlənir. Elə rayon var ki, orada əhalinin əksəriyyəti rayon mərkəzində, şəhərdə yaşayır. Masallıda isə əksəriyyət kəndlərdə yaşayır. Belə olan halda, biz şəhəri su ilə təmin edəcəyik. Bəs kəndlər necə olacaq?! O tövsiyələr nəzərə alınmışdır. Bu layihə gələn ilin sonunda başa çatmalıdır və təmiz içməli su veriləcəkdir. Bu da böyük tarixi nailiyyətdir. Çünki ölkəmizdə su mənbələri məhduddur. Əvvəlki dövrlərdə, sovet dövründə də su həmişə problem idi. Keçən əsrin 70-ci illərində ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə su kəmərləri çəkilmişdir. O vaxt Azərbaycan əhalisi o qədər də çox deyildi. İndi əhali artır, tələbat da artır. Bir də ki, vaxtilə çəkilmiş xətlər artıq istismar müddətini başa vurub. Belə olan halda yeni layihələrin icrası böyük əhəmiyyət daşıyır. Bu gün şəhərin ölkəmizin hər yerində içməli su layihələri icra edilir, o cümlədən bu zonada. Bu gün biz Biləsuvarda və Yardımlıda içməli su layihələrinin açılışını qeyd etmişik.

**S a k i n:** O gün olsun bizdə də olsun.

**İ l h a m Ə l i y e v:** Sizdə gələn il olacaq. Hər rayonda, hər şəhərdə. Bütün şəhərlər 100 faiz, kəndlərin də böyük əksəriyyəti ilkin mərhələdə su ilə təmin ediləcəkdir. Bu layihələrin böyük əhəmiyyəti vardır. Çünki su həyat deməkdir. İnsan susuz yaşaya bilməz. Bizim əksər şəhərlərimizdə kanalizasiya, ümumiyyətlə, ya yox idi, ya da ki, yarımçıq vəziyyətdə idi. İçməli su cədvəllə verilir. Bakının müəyyən yerlərində baxmayaraq ki, biz su xətləri çəkirik, bu gün bir hissəsi yenə də cədvəllə su alır. Ona görə də böyük proqram icra edilir ki, Bakı, bütün şəhərlər, əksər kəndlər içməli su ilə təmin olunsun. İnsanlar bunun xeyrini

görəcəklər – həm bugünkü, həm də gələcək nəsil. Çünki insanların sağlamlığı üçün içməli su əsas məsələdir. Masallıda təbiət gözəldir, hava təmizdir, dağlar, meşələr, ərzaq məhsulları keyfiyyətlidir. Yəni burada təkcə su məsələsi problem yaradır. Bu da güman edirəm ki, gələn ilin sonuna qədər həllini tapacaq və bütün digər sosial layihələr icra ediləcəkdir. Bilirəm ki, hələ də qəzalı vəziyyətdə məktəblər vardır. Onların sayı az da deyil. Onlar da əsaslı şəkildə təmir edilməlidir. Xəstəxana, içməli su, kənd yolları, elektriklə təchizat, qazlaşdırma sizdə yaxşı gedir. Masallı rayonunun bütün kəndləri qazlaşdırılmalıdır.

Bizim regional proqramımızın təməlində məhz bu prinsip dayanır. Çünki regional proqram dedikdə bəziləri hesab edir ki, rayon mərkəzi elə regiondur. Düzdür, amma kənd də, qəsəbə də var. Onlar da regiondur. İlk növbədə rayon mərkəzləri, şəhərlər diqqət mərkəzindədir, ancaq bütün kəndlərdə də yol, qaz, elektrik, su xətləri çəkilməlidir. Əgər belə getsə, burada yaxın illərdə bir dənə də olsun infrastruktur problemi qalmayacaqdır. Bütün məsələlər öz həllini tapacaqdır. Bununla bərabər, iqtisadi sahədə islahatlar davam etdirilməlidir. Kənd təsərrüfatının, turizmin inkişafı üçün Masallının potensialı böyükdür. Burada sənaye müəssisələri, iş yerləri yaradılır. Bu işlərə gələcəkdə daha da böyük təkan veriləcəkdir. Çünki hələ görüləsi işlər çoxdur. Biz hələ sizinlə gələcəkdə çox görüşəcəyik. Çünki növbəti açılışlar vardır. Su layihələri, xəstəxananın istifadəyə verilməsi, digər tədbirlər olacaqdır. Bu tədbirlərdə sizinlə bərabər olacağıq.

Sizi bir daha təbrik edirəm.

**Qardaş Fətullayev** (*Rayon Ziyalılar Cəmiyyətinin sədri*): Cənab Prezident, Sizi bütün masallılılar adından salamlayıram və Sizə «Xoş gəlmisiniz!» – deyirəm. Dediyiniz kimi, Masallıda son illər çox işlər görülüb, yaxşı küçələr, parklar salınıb. Başqa rayonlarda görülən bütün işlər burada da görülür. Bu işlər təkcə rayon mərkəzində yox, kəndlərdə də, qəsəbələrdə də görülür. Hazırda kəndlərimizə asfalt yollar, qaz xətləri çəkilir. Elə kəndlərimiz var ki, indiyədək təbii qaz görməmişdi,

amma indi təbii qazdan istifadə edir. Mən bir məsələni Sizin diqqətinizə çatdırmaq istəyirəm. Bizim bölgədə Muğan zonası deyilən bir ərazi var. Orada 110 min əhali yaşayır. O ərazidə bir çox problemlər həll olunub. Yolu asfaltdır, işığı daimidir, təbii qazı, müasir məktəbi vardır. Lakin onların çoxdandır ki, bir problemləri var – içməli su. 100 min əhali indiyədək suyu kənardan nəqliyyatla daşıyır. Qədimdə at arabaları ilə, indi isə maşınla daşıyırlar. Tarixən orada su olmayıb. İndi onlar çox sevinirlər ki, dediyiniz kimi, gələn ilin axırında oraya içməli su veriləcək, özü də təmiz bulaq suyu, dünya standartlarına cavab verən su. Buna görə onlar həmişə Sizə, ailənizə, balalarınıza, nəvələrinizə dua edirlər. Çünki bu onların ən ağrılı yeri idi. Dediyiniz kimi, su həyatdır, təmizlikdir, sağlamlıqdır. Siz bu problemi həll edirsiniz. Bu, rəhbərin xalqa qayğısıdır. Bu, prezidentin insanların sosial problemlərinin həlli üçün lazım olan bütün vasitələrdən istifadə etməsidir. Mən bunun üçün Sizə «Çox sağ olun!» – deyirəm. Bu, böyük, müqəddəs işdir.

Hazırda kəndlərimizdə istirahət mərkəzləri yaradılıb. Şəhərdə də bu cür mərkəzlər – Ağsaqqallar klubu, Gənclər Mərkəzi yaradılıb. Hətta uşaqlar da nəzərə alınıb. Onlar üçün əyləncə mərkəzləri yaradılıb. Bunlar çox gözəl işlərdir. Siz də, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva da mədəniyyətin inkişafına çox böyük diqqət yetirirsiniz. Burada bugünkü çıxışınız bir daha sübut etdi ki, doğrudan da mədəniyyətə diqqət yetirirsiniz. Bir xalqın mədəniyyəti olmasa, o xalqın heç nəyi ola bilməz. Çox sağ olun. Bizim mədəniyyət sahəsində təcrübəmiz çoxdur. Son 2 ildir biz ardıcıl olaraq Beynəlxalq folklor festivalına ev sahibliyi edirik. Bu, Azərbaycanda birinci dəfədir. Özü də xarici ölkələrdən buraya kollektivlər gəlir, bizim folklorumuzu öyrənir, gedib yayırlar. Bu gün Sizin qarşınızda duran bu milli geyimli xanımlar 50 ildən çoxdur ki, xalqa təmənnasız xidmət edirlər.

**N a t ə v a n   Ə l i y e v a** (*Mahmudavar kənd Mədəniyyət evinin direktoru*): Cənab Prezident, Sizi mədəniyyət işçiləri adından salamlayıram. Rayonumuza xoş gəlmisiniz! Çalışdığım

«Halay» folklor xor kollektivi 1956-cı ildə mənim anam Ümbülbanu Cəbiyeva tərəfindən yaradılıb. Yarandığı gündən bu günə qədər dünyanın bir çox ölkələrində Azərbaycan mədəniyyətini, Azərbaycan folklorunu uğurla göstərə bilmişik. Hər zaman Azərbaycanımıza yüksək mükafatlarla, diplomlarla, fəxri fərmanlarla qayıtmışıq.

Cənab Prezident, hələ 1981-ci ildə Azərbaycanda 30-cu Qurultay keçirilib. Qurultayda verilən yüksək konsert proqramında biz iştirak edirdik. Ulu öndərimiz Heydər Əliyev konsert proqramından sonra səhnəyə çıxdı və bizim yanımıza gəldi.

Masallı mədəniyyəti çox zəngindir, çox genişdir. Folklorumuz çox genişdir. Bizim gözəl meydan oyunlarımız, çox gözəl folklor nümunələrimiz vardır. Masallı folkloru haqqında Folklor İnstitutunda ikicildlik kitab hazırlanır. Artıq birinci cild hazırdır, ikinci cild üzərində tamamlanma işləri gedir.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Yaxşı olar ki, sizin kollektivləriniz Azərbaycanın müxtəlif şəhərlərində konsertlər versin. Çünki indi belə gözəl mədəniyyət mərkəzləri hər yerdə vardır. Hər bir bölgədə gözəl, müasir mədəniyyət mərkəzləri vardır. Bölgələr arasındakı əlaqələr daha da sıx olmalıdır. Çünki indi bizim mədəniyyətimiz çox zəngindir, çoxşaxəlidir, müxtəlifdir. Müxtəlif yerlərdə yaşayan insanların öz ənənələri, öz tarixi vardır. Yaxşı olar ki, sizin kollektiviniz Bakıda, başqa şəhərlərdə daha tez-tez çıxış etsin. Eyni zamanda, xaricə də qastrollara çıxsın ki, bu gözəl sənət tanınsın. Çünki burada bu mədəniyyətlə bağlı biz fikirlərimizi bölüşürük. Bir daha demək istəyirəm ki, bu əsasdır. Hər bir dövlətin, hər bir xalqın əsasıdır.

Azərbaycan uzun illər, əsrlər boyu başqa dövlətlərin tərkibində yaşamışdır. Ancaq öz milli xüsusiyyətlərini itirməmişdir. Nəyə görə? Ona görə ki, mədəniyyət, incəsənət güclü olub və Azərbaycan xalqı öz mədəniyyətinə həmişə bağlı olubdur. Bu gün müstəqillik dövründə, əlbəttə ki, bu sahədə daha da ciddi addımlar atılmalıdır. Çox vacib məsələ ondan ibarətdir ki, gənc nəsil də bizim milli mədəniyyətə maraq göstərsin. Çünki indi dünyada qloballaşma meyilləri gedir. 10 il

bundan əvvəl, demək olar ki, ictimaiyyətin əksəriyyəti bunu alqışlayırdı, indi bu məsələlərə daha da real baxışlar üstünlük təşkil edir. Qloballaşma, əlbəttə, zəmanənin tələbidir. Amma qloballaşma adı altında milli dəyərlər gərək itməsin, biz onu gərək itirməyək.

Gənclər milli ruhda tərbiyə almalıdırlar – vətənpərvərlik ruhunda, milli ruhda. Onlar öz ənənələrinə sadiq olmalıdırlar, öz incəsənətini yaşatmalıdırlar. Bu, nadir bir sənətdir. Bunu siz yaşadırsınız və sizdən sonra gələn nəsil də bunu davam etdirməlidir.

**Q a r d a ş   F ə t u l l a y e v:** Son günlərdə müəllimlərin, həkimlərin, mədəniyyət işçilərinin maaşlarını, təqaüdçülərin təqaüdlərini artırdığınıza görə Sizə təşəkkür edirəm. Bu bütün insanlarda ruh yüksəkliyi yaradıb. Həmin insanlar adından Sizə təşəkkürümü bildirirəm.

**İ l h a m   Ə l i y e v:** Sağ olun. Maaşlar vaxtaşırı artırılır, pensiyalar da artırılır. Bu artım da xüsusi məna daşıyır, çünki dünyada indi maaşlar artmır, əksinə, kəsilir, azaldılır, ixtisar gedir. İş həftəsi, pensiya müddəti artırılır, maaşlar kəsilir, iş yerləri kəsilir. Bəzi inkişaf etmiş ölkələrdə işsizlik 30 faizə çatmışdır. Ancaq Azərbaycan çox nadir ölkələrdəndir ki, hətta bu illərdə də maaşlar, pensiyalar artırılır. Bu son artım 3 milyon insana şamil ediləcəkdir, pensiyaçılarla bərabər. Əgər desəm ki, indiki dövlət işində işləyənlərin maaşı bizi qane edir, yəqin ki, düz olmaz. Ancaq dinamika, artım vardır. Azərbaycan iqtisadiyyatı gücləndikcə bu artımlar daha da təsirli olacaqdır. Ancaq hər şey müqayisədə ölçülür. MDB məkanında orta maaş və orta pensiyanın həcminə görə Azərbaycan qabaqcıl yerlərdədir.

Əsas odur ki, sosial məsələlər daim diqqət mərkəzindədir. Bax, bu Mədəniyyət Mərkəzinin açılışı sosial layihədir, içməli su sosial layihədir, kənd yolu, xəstəxana sosial layihədir. Görülən bütün işlərin hamısı sosialyönümlüdür. Bütün bu işlərə böyük vəsait tələb olunur. Azərbaycan o ölkələrdəndir ki, öz hesabına yaşayır, heç kimdən, heç bir başqa dövlətdən, beynəlxalq maliyyə qurumundan asılı deyildir. Əksinə, biz indi özümüz bəzi beynəlxalq maliyyə

qurumlarına kreditlər veririk. Yəni biz bu səviyyəyə çatmışıq. Ona görə biz bütün işləri öz hesabımıza edirik. Bu gün böhran içində olan ölkələrdə dövlət borcu onların ümumi daxili məhsulunun 100 faizindən çoxdur – 150 faiz, 180 faiz vardır. Yəni ölkədə il ərzində istehsal olunan məhsullar dövlət borcundan azdır. Yəni borc o qədər böyükdür ki, bütün iqtisadi artım onu ödəmir. Azərbaycanda isə xarici dövlət borcu ümumi daxili məhsulun 7 faizini təşkil edir. Bu, dünyada çox nadir hallarda müşahidə olunan bir məsələdir. Biz nəinki öz hesabımıza yaşayırıq, eyni zamanda, böyük ehtiyatımız vardır. İndi bizə müxtəlif yerlərdən təkliflər gəlir ki, kredit versinlər. Biz isə istəmirik, hər şeyi özümüz edirik.

Masallı rayonu da Azərbaycanın ümumi inkişafında həmişə xüsusi yer tutur. Burada vətənpərvər insanlar yaşayır. Sizi bir daha ürəkdən salamlayıram.

**M i r q i y a s  T ə h m ə z o v** (*Qafqaz Müsəlmanları İdarəsinin qazisi)*: Cənab Prezident, ulu öndər Heydər Əliyevin çəkdiyi o zəhmət bu gün bəhrəsini verir. Siz onun davamçısısınız. Mən həmişə tədbirlərdə deyirəm ki, bizim hamımızın üzərində ulu öndər Heydər Əliyevin haqqı vardır. Ümummilli lider bizim üçün 2 əmanət qoyub – biri canlı, o biri cansız əmanətdir. Canlı əmanət Sizsiniz. Cansız əmanət isə bizim müstəqilliyimizdir. Biz rəhbərimiz, böyüyümüz kimi, hər zaman Sizin arxanızdayıq. Sizə çox böyük minnətdarlıq edirəm. Həzrəti Peyğəmbərə sual verdilər ki, ya Rəsulallah, ən qiymətli yer haradır? Peyğəmbər dedi ki, ən qiymətli yer məktəbdir. Dedilər, ya Rəsulallah, məsciddən də qiymətlidir? Dedi, bəli. Dedilər, Məkkədən, Minbərdən də? Dedi, bəli. Çünki məktəb bizim gələcəyimizi yetişdirir. Minbərdə oturan, moizə edən alim də məktəbdə yetişib. Məkkəyə gedən də məktəbdə yetişib gedir. Siz ki Mehriban xanımla birlikdə mədəniyyətimizə, təhsilimizə, məktəblərə, universitetlərə, ziyalılarımıza bu qədər qiymət verirsiniz, mənim cəddim xatirinə, Peyğəmbər xatirinə Allah Sizə yar olsun, Allah Sizə uzun ömür, cansağlığı versin. Eşitdik ki, bizim Heydər balamız instituta daxil olub, ona görə də Sizi təbrik edirik. Bu nəsil bizə həmişə lazımdır. Heydər balamıza da Allah cansağlığı versin. O gün olsun ki, bu

görüşü biz Qarabağda – Şuşada, Xankəndidə keçirək, sevincimiz daha da artsın. Çox sağ olun.

## Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının yeni inşa olunmuş inzibati binasının açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 4-də Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının yeni inşa olunmuş inzibati binasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi. İkimərtəbəli binanın inşasına 2012-ci ilin iyulunda başlanılmış, tikinti işləri yüksək səviyyədə həyata keçirilmişdir. Ümumi sahəsi 2650 kvadratmetr olan bina müasir inventar və havalandırma sistemi ilə təchiz edilib. Binanın foyesində ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin Yeni Azərbaycan Partiyası ilə bağlı fəaliyyətlərini əks etdirən fotolardan ibarət stend vardır. Birinci mərtəbədə, həmçinin partiyanın Qadınlar Şurası və Gənclər Birliyi üçün də otaqlar yaradılıb. Binanın ikinci mərtəbəsində Yeni Azərbaycan Partiyasının yaradıcısı ulu öndər Heydər Əliyevin büstü qoyulub. Burada, həmçinin inzibati otaqlar da vardır. Bu mərtəbədə müxtəlif tədbirlərin təşkli üçün 100 yerlik konfrans zalı, arxiv və digər otaqlar müasir səviyyədə qurulub.*

*Bildirildi ki, hazırda Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının 9111 nəfər üzvü vardır. Təşkilatın üzvləri rayonun ictimai-siyasi, sosial-iqtisadi həyatında fəallıq göstərirlər. Yeni Azərbaycan Partiyasının rayon təşkilatları üçün bu cür müasir binaların tikilməsi ölkənin bu aparıcı siyasi təşkilatının fəaliyyətinin daha da güclənməsinə xidmət edəcəkdir.*

## Taekvondo və boks mərkəzlərinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyevin sentyabrın 4-də Masallıya səfəri çərçivəsində taekvondo və boks mərkəzləri istifadəyə verilmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə Regional Taekvondo Mərkəzinin açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyev mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi. Məlumat verildi ki, son illərdə Masallıda idmanın müxtəlif növlərinin inkişafına xüsusi diqqət göstərilir. Bu cür mərkəzlərin istifadəyə verilməsi isə gənclərin idmana olan maraq və həvəsini daha da artırır. Ərazisi 5 min 613 kvadratmetr olan idman mərkəzinin tikintisinə 2012-ci ildə başlanılıb. İnşaat işləri yüksək səviyyədə aparılıb.*

*Mərkəzin foyesində ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin Azərbaycan idmanının inkişafına və idmançılara göstərdikləri qayğını əks etdirən fotostend yaradılıb. Taekvondo zalında yaradılan şəraitlə tanış olan dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, burada müxtəlif yarışların və məşqlərin keçirilməsi üçün hər cür şərait vardır. Yarışların gedişini 250 tamaşaçı izləyə bilər.*

*Daha sonra prezident İlham Əliyev Masallı Regional Boks Mərkəzinin açılışında iştirak etdi.*

*Dövlətimizin başçısı mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi. Məlumat verildi ki, Boks Mərkəzinin inşasına 2012-ci ilin əvvəlindən başlanılıb. Mərkəzin ümumi sahəsi 4 min 191 kvadratmetrdir. Foyedə ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin Azərbaycan idmanının inkişafına və idmançılara göstərdikləri qayğını əks etdirən fotostend yaradılıb.*

*Dövlətimizin başçısı boks zalı ilə tanış oldu.*

*Diqqətə çatdırıldı ki, zalda boks yarışlarının və məşqlərin keçirilməsi üçün hər cür şərait yaradılıb. Burada trenajor və ağır atletika zalları, həmçinin gənclərin idmanın digər növləri ilə məşğul olmaları üçün bütün imkanlar vardır.*

## ASTARA RAYONUNA SƏFƏR

*4 sentyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 4-də Masallıya səfərini başa çatdıraraq Astara rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə Astara şəhərinin mərkəzində ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstəsi qoydu.*

*Astara Rayon İcra Hakimiyyətinin başçısı Qəzənfər Ağayev Azərbaycan Prezidentinə Heydər Əliyev parkında yaradılan şərait barədə məlumat verdi.*

*Bildirildi ki, son illərdə Heydər Əliyev parkı sakinlərin ən çox üz tutduqları məkanlardan birinə çevrilib. Parkda astaralıların və rayonun qonaqlarının asudə vaxtlarını səmərəli təşkil etmək üçün geniş şərait yaradılmış, fəvvarələr quraşdırılmış, yaşıllıq zolaqları salınmış, müasir işıqlandırma sistemi qurulmuşdur.*

## MƏRKƏZİ XƏSTƏXANA BİNASININ ƏSASLI ŞƏKİLDƏ YENİDƏN QURULMASI İLƏ TANIŞLIQ ZAMANI ASTARA RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*4 sentyabr 2013-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 4-də əsaslı şəkildə yenidən qurulmuş Astara Rayon Mərkəzi Xəstəxanasında yaradılmış şəraitlə tanış olmuşdur.*

*Dövlətimizin başçısı əvvəlcə rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

**İ l h a m Ə l i y e v:** Biz Astara Rayon Mərkəzi Xəstəxanasının yenidən açılışına toplaşmışıq. Keçən il bu ərazidə görüşmüşdük. O vaxt mərkəzi binanın açılışını qeyd etdik. Sonra da mən fikir verdim ki, bu bina – poliklinika və təcili yardım hissələri təmirsiz qalmışdır. Əlbəttə, bu vəziyyət bizi qane edə bilməzdi. Ona görə göstəriş verilmişdi ki, bu bina da əsaslı şəkildə təmir edilsin.

İndi burada bütün işlər görülüb. Diaqnostika avadanlığı quraşdırılıb. Təcili yardım, poliklinika şöbələri yenidən qurulub. Astarada tibb məsələləri, demək olar ki, öz həllini tapmışdır. Yadımdadır, keçən il burada görüşmüşdük. Çox şadam ki, verilən göstərişlər vaxtında icra edilir. 1 il keçəndən sonra artıq biz yenidən burada görüşürük. Hesab edirəm ki, hər bir iş axıra qədər görülməlidir və heç bir iş yarımçıq qala bilməz, xüsusilə, səhiyyə sahəsində. Çünki bu, insanların sağlamlığı ilə bilavasitə bağlı olan sahədir. Azərbaycanda müxtəlif yerlərdə yeni səhiyyə ocaqları açılır. Bu gün Cəlilabadda böyük xəstəxananın açılışını etmişik. Keçən həftə

Ağcabədidə böyük xəstəxananın açılışını qeyd etdik, bu gün Astarada. Hər bir şəhərdə yüksək tibbi xidmət olmalıdır və artıq Astarada da keyfiyyətli müalicə almaq üçün bütün imkanlar var. Əsas məsələ odur ki, vətəndaşlar bu şöbəyə – diaqnostika şöbəsinə vaxtında müraciət etsinlər, müayinədən keçsinlər.

Mənim Astaraya səfərlərim çox olub. Son 10 il ərzində bu, altıncı səfərimdir. Hər dəfə açılışlarda iştirak edirəm, hər dəfə yenilikləri görürəm. Şəhər gözəlləşir, indi Astara müasir şəhərə çevrilibdir. Gözəl binalar tikilir, parklar, xiyabanlar salınır, insanların rahatlığı üçün şərait yaradılır. Kənd yollarının tikintisi məni xüsusilə sevindirir, çünki buna böyük ehtiyac var idi. Xüsusi sərəncamlar əsasında 2 böyük layihə icra edilir. Biri icra edilmişdir. Keçən il biz onun açılışını etdik. Digər böyük layihə isə icra edilir. Bu böyük layihələrin icrası nəticəsində, demək olar ki, əksər kəndlərə gedən yollar yaxşı vəziyyətdə olacaqdır. Bu problem Astara rayonunda öz həllini tapacaqdır. Hesab edirəm ki, yaxın aylar ərzində əsas məsələlər həll olunacaq və gələn illərdə qalan kənd yolları da normal vəziyyətə gətiriləcəkdir.

Əvvəlki dövrlərdə rayonda digər infrastruktur layihələri icra edilmişdir. Yadımdadır ki, elektrik stansiyası tikilmişdir. Bu stansiya bu gün bütün zonaya xidmət göstərir. Olimpiya Mərkəzi yaradılmışdır. Keçən il Gənclər evinin açılışını etdik. Yəni Astarada açılışlar çox olub. Çünki çox iş görülmüşdür. Şadam ki, biz bütün bu işlərin nəticələrini görürük. Əlbəttə ki, gələcəkdə hələ görüləsi işlər çoxdur. Demək olar ki, əsas infrastruktur layihələrinin başa çatması məni sevindirir. Onların içində içməli su layihəsi hələ ki, həll olunmamış qalır, hazırlıq işləri gedir. Güman edirəm ki, yaxın aylarda bu böyük layihə də icra edilməyə başlanacaq və beləliklə, Astara şəhərində içməli su, kanalizasiya problemi tam şəkildə öz həllini tapacaqdır. Ətraf rayonlarda da bu istiqamətdə işlər görülür.

Mənə verilən məlumata görə, qazlaşdırma işləri yaxşı gedir. Şəhər tam qazlaşdırılıbdır. Hər mənzildə, hər evdə təbii qaz vardır. Kəndlərdə də vardır. Amma çalışmalıyıq ki, hər bir

kənddə təbii qaz olsun. Bu layihə də böyük əhəmiyyət kəsb edir. Yəni bunlar əsas layihələrdir. İnfrastruktur və sosial obyektlərin yaradılması əsas məsələlərdir. Əlbəttə, bununla paralel olaraq digər məsələlər də öz həllini tapmalıdır. İş yerlərinin açılması, yeni müəssisələrin işə düşməsi. Bu istiqamətdə hələ görüləsi işlər çoxdur ki, vətəndaşlar işlə təmin olunsunlar, yaxşı işləsinlər, yaxşı maaş alsınlar və rahat, firavan yaşasınlar.

Bütün bu işlərin arasında əlbəttə ki, insanların sağlamlığı ön plandadır. Əminəm ki, burada həkimlər xəstələrə yaxşı xidmət göstərirlər. İndi burada quraşdırılan yeni avadanlıqla bu xidmət daha da yüksək olmalıdır. Sizi bir daha bu gözəl hadisə münasibətilə təbrik etmək istəyirəm.

**A y t ə n Ş i r i y e v a:** *(həkim):* Möhtərəm cənab Prezident, icazə verin, Sizi Astara torpağında bütün astaralılar adından ürəkdən salamlayım və Sizə «Xoş gəlmisiniz!» – deyim. Ötən il rayonumuza tarixi səfəriniz zamanı əsaslı təmir edilmiş Astara Rayon Mərkəzi Xəstəxanasının birinci korpusunun açılışını etmişdiniz. Əsaslı təmir edilmiş xəstəxanamız ən müasir tibbi avadanlıqlarla təchiz olunmuşdur. Bununla da Siz bizə – tibb işçilərinə və bütün Astara əhalisinə böyük bir hədiyyə bəxş etmisiniz.

Bu gün də çox sevindirici bir gündür. Xəstəxanamızın 2-ci korpusunu istifadəyə verirsiniz. Mən 5 ildir ki, xəstəxanamızda həkim kimi çalışıram. Uşaq həkimi olaraq çox sevinirəm ki, bu korpusda uşaqlarımıza yüksək səviyyədə xidmət edəcək poliklinika və stasionar şöbələr də vardır. İndi bu şəfa ocağında sakinlərimiz yüksək səviyyədə tibbi xidmət alacaqlar. Artıq sakinlərimiz müalicə və müayinə üçün uzaqlara getməyəcəklər. Çünki xəstəxanamızda belə bir şərait yaradılıb ki, ildə 1 dəfə sakinlərimiz buraya gəlib müayinədən keçə biləcək, müalicə alıb şəfa tapacaqlar. Cənab Prezident, belə səhiyyə obyektlərinin tikilib istifadəyə verilməsi regionlarda əhalimizin sağlamlığını lazımi səviyyədə təmin etmək üçün əlverişli şərait

yaradır. Bununla da Siz xalqımıza yüksək diqqət və qayğınızı bir daha sübut edirsiniz.

Təkcə səhiyyə sferası deyil, həyatımızın bütün sahələri yüksək sürətlə inkişaf edir. Şəhərlərimiz, kəndlərimiz yüksək dərəcədə dəyişir, inkişaf edir. İnsanlarımızın yaşayış səviyyəsi durmadan yüksəlir. Artıq Azərbaycanımız dünyada qüdrətli və hər şeyə qadir olan bir dövlətə çevrilmişdir.

Sizin yorulmaz fəaliyyətiniz, mətin iradəniz dövlətimizi xoşbəxt və parlaq gələcəyə aparır. Hər bir Azərbaycan vətəndaşı bunu artıq həyatında hiss edir və əmindir ki, onun bütün arzularını məhz Siz reallaşdıracaqsınız. Biz ölkəmizin taleyini, öz taleyimizi Sizə etibar edirik. Vaxtilə ulu öndərimizin böyük uzaqgörənliklə söylədiyi «Azərbaycan dünyaya bir günəş kimi doğacaq» sözlərini bu gün Siz səmərəli fəaliyyətinizlə bir həqiqətə çevirmisiniz. Həyata keçirdiyiniz məqsədyönlü, uğurlu siyasətiniz nəticəsində bu gün Azərbaycan beynəlxalq tədbirlərə və layihələrə ev sahibliyi edir. Artıq dünya ölkələri Azərbaycanı ən etibarlı tərəfdaş kimi qəbul edir. Biz Sizinlə fəxr edir və qürur duyuruq, cənab Prezident! Bu gün bütün səhiyyə işçilərimiz adından, astaralılar adından Sizi əmin edirik ki, biz insanlarımızın sağlamlığını təmin etmək üçün səylərimizi gücləndirəcəyik və vəzifələrimizi daha da böyük əzmkarlıqla yerinə yetirməyə çalışacağıq. Bizim üçün yaratdığınız bu ideal şəraitə görə Sizə bir daha bütün səhiyyə işçiləri və astaralılar adından dərin təşəkkürümüzü bildiririk. Sizə və ailənizə cansağlığı arzulayırıq.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Mən əminəm ki, burada yaxşı xidmət göstəriləcəkdir. Həkimlərin də əksəriyyəti gənclərdir. Gənclər bizim gələcəyimizdir. Əlbəttə ki, burada xəstələrə qayğı, diqqət, yüksək xidmət göstərilməlidir. Artıq Astaradan başqa yerlərə, başqa şəhərlərə getməyə ehtiyac qalmır. İndi bütün müayinə, diaqnostika, müalicə burada həll olunacaqdır. Burada bütün şöbələr vardır.

Bilirsiniz, ümumiyyətlə, hər bir ölkənin inkişafı təkcə paytaxtın inkişafı ilə ölçülmür. Əlbəttə ki, Bakı şəhəri indi dünyanın ən gözəl şəhərlərindən biridir. Bunu indi Azərbaycan vətəndaşları da,

Bakıya gələn qonaqlar da görürlər. Ancaq bölgələrin inkişafı hər bir ölkənin real gücünü göstərir. Son illərdə Azərbaycanın bölgələrində aparılan işlər bir daha Azərbaycanın qüdrətli ölkə olduğunu təsdiqləyir. Çünki hər bir yerdə, hər bir bölgədə inkişaf, quruculuq işləri gedir. Mən bütün ölkəni gəzmişəm. Hər bir rayonda bir neçə dəfə olmuşam. Astaraya artıq altıncı səfərimdir. Görürəm hər yerdə, ölkəmizin istənilən nöqtəsində, nəinki şəhərlərdə, kəndlərdə, qəsəbələrdə də böyük quruculuq işləri gedir. Rayonlar elə bil ki, bir-biri ilə rəqabət aparır. Amma bu, sağlam rəqabətdir və bizi inkişafa doğru aparan rəqabətdir.

Hər rayonun ictimaiyyəti, fəalları istəyirlər ki, onların rayonu daha da gözəl olsun, işlər daha da yaxşı getsin. Bax, uğurlarımızın təməlində dayanan bunlardır. Əlbəttə ki, düzgün qərarlar qəbul edilmişdir. 2 regional proqram qəbul edilib. Artıq ikinci proqram başa çatır. Mən bölgələrdə səfərlərdə olarkən əlavə göstərişlər verirəm. Bu canlı bağlantı bizə imkan verir ki, bütün məsələləri həll edək. Düzgün qərarlar uğurlarımızın təməlində dayanan amildir. Yerlərdə insanların təşəbbüsləri, zəhməti və öz dövlətinə olan sədaqəti, bax, bu uğuru daha da möhtəşəm edir. Çünki Astarada görülən işlər sizin, necə deyərlər, zəhmətinizin məhsuludur.

Düzdür, büdcəmiz də artır, investisiya proqramı da kifayət qədər böyükdür. Vəsait də ayrılır – həm dövlət büdcəsindən, həm Prezidentin ehtiyat fondundan. Ancaq bu maliyyə imkanlarını real həyata çevirmək artıq sizin işinizdir. Mən çox şadam ki, bütövlükdə son 10 il ərzində Azərbaycanın hər bir yerində quruculuq, inkişaf meyilləri çox güclüdür.

Cəmiyyətdə çox gözəl ab-hava vardır. Çox böyük quruculuq ab-havası vardır və hər bir bölgədə insanlar çalışırlar ki, öz əməyi ilə ölkəmizi daha da gücləndirsinlər. Hər bir bölgənin inkişafı nəticədə ölkəmizin inkişafını müəyyən edir.

Azərbaycan xəritəsində Astara rayonunun xüsusi yeri vardır. Bu, sərhəd rayonudur. Bakıdan uzaqda yerləşən rayondur. Ona görə buraya xüsusi diqqət daim olmalıdır, vardır, olacaqdır. Bu günə qədər görə bilmədiyimiz işləri biz növbəti illərdə görəcəyik.

Biz bu problemləri bilirik, onları həll edəcəyik və Astarada bütün infrastruktur, sosial məsələlər ən yüksək səviyyədə öz həllini tapacaqdır. Sizi bir daha ürəkdən təbrik edirəm.

* * *

*Səhiyyə naziri Oqtay Şirəliyev dövlətimizin başçısına məlumat verdi ki, bu tibb ocağının yenidən qurulması 2012-ci ilin mayında başlanılmış, bu ilin avqustunda başa çatdırılmışdır. Əsaslı yenidənqurma işlərinin aparılması, əlavə tibbi avadanlıq və inventarın alınması üçün Prezidentin ehtiyat fondundan 2 milyon manat vəsait ayrılıb. Yenidənqurma və təmir işlərinin görüldüyü ümumi sahə 10 min 674 kvadratmetrdir.*

*Xəstəxananın birinci mərtəbəsində poliklinika, hemodializ, şüa-diaqnostika, təcili tibbi yardım, laboratoriya şöbələri, həmçinin gigiyena və epidemiologiya mərkəzi yerləşir. İnzibati bölmə, poliklinika, fizioterapiya və pediatriya şöbələri ikinci mərtəbədə fəaliyyət göstərir. Bu səhiyyə ocağında xəstələrə yüksək səviyyədə tibbi xidmət göstərilməsi üçün hər cür şərait yaradılıb.*

*Burada yaradılan şərait rayon sakinləri ilə yanaşı, ətraf rayonların əhalisinə də yüksək tibbi xidmət göstərmək imkanı yaradır. Yenidənqurma işləri çərçivəsində ərazidə əsaslı abadlıq və yaşıllaşdırma tədbirləri həyata keçirilib. Burada müasir infrastruktur formalaşdırılıb.*

## «ASTARA» DÖVLƏT SƏRHƏDİNDƏN BURAXILIŞ MƏNTƏQƏSİNİN, SƏRHƏD KOMENDANTLIĞININ VƏ SƏRHƏD ZASTAVASININ ŞƏXSİ HEYƏTİ ÜÇÜN YENİ İNŞA OLUNAN YAŞAYIŞ ŞƏHƏRCİYİNİN, HƏMÇİNİN SƏRHƏD KOMENDANTLIĞI VƏ SƏRHƏD ZASTAVASININ ƏSASLI TƏMİR OLUNMUŞ XİDMƏTİ BİNALAR KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*4 sentyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev sentyabrın 4-də Dövlət Sərhəd Xidmətinin Lənkəran sərhəd dəstəsinin «Astara» dövlət sərhədindən buraxılış məntəqəsinin, sərhəd komendantlığının və sərhəd zastavasının şəxsi heyəti üçün yeni inşa olunan yaşayış şəhərciyi, həmçinin sərhəd komendantlığı və sərhəd zastavasının əsaslı təmir olunmuş xidməti binalar kompleksinin açılışında iştirak etmişdir.*

*Dövlət Sərhəd Xidmətinin rəisi, Sərhəd Qoşunlarının komandanı, general-leytenant Elçin Quliyev Ali Baş Komandan, prezident İlham Əliyevə raport verdi.*

*Bildirildi ki, kompleksin ətrafında geniş abadlıq-quruculuq işləri aparılmış, yeni tikililər inşa olunmuş, yaşıllıq zolaqları salınmışdır. Yeni şəhərciyin ərazisi 5 hektara yaxındır. Buradakı səkkizmərtəbəli binada 77, digər 2 binanın hər birində isə 8 mənzil vardır. Şəhərcikdəki 93 xidməti mənzildə də hər cür şərait yaradılıb. Burada 50 yerlik uşaq bağçası və İstirahət parkı da vardır.*

*Dövlətimizin başçısı yeni mənzillərin orderlərini sərhədçilərə təqdim etdi.*

**İ l h a m  Ə l i y e v:** Təbrik edirəm.

*Sərhədçilər Ali Baş Komandan, prezident İlham Əliyevi salamladılar.*

**S ə r h ə d ç i n i n  h ə y a t  y o l d a ş ı:** Xoş gəlmisiniz, cənab Prezidentimiz!

**İ l h a m  Ə l i y e v:** Sağ olun. Necəsiniz? Güzəranınız yaxşıdır?

**S ə r h ə d ç i n i n  h ə y a t  y o l d a ş ı:** Bizə yaratdığınız bu şəraitə görə Sizə çox böyük minnətdarlığımızı bildiririk. İnşallah, biz ümid edirik, Azərbaycan Sizin rəhbərliyiniz ilə daha da inkişaf edəcək və yeni-yeni uğurlara imza atacaqdır.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun. Siz bu evdə rahat yaşayın. Şərait gözəldir. Xidmət etmək üçün bütün imkanlar vardır. Azərbaycan dövləti bütün lazımi tədbirləri görür. Hərbçilərin məişət problemləri, ev məsələsi həll olunur, maaşlar artırılır. Azərbaycan güclü dövlətdir. Güclü dövlətin güclü hərbi potensialı olmalıdır.

**S ə r h ə d ç i n i n  h ə y a t  y o l d a ş ı:** Çox sağ olun. Minnətdarıq.

**İ l h a m  Ə l i y e v:** Sizə uğurlar arzulayıram. Sağ olun.

*Bildirildi ki, 25,3 kilometr məsafədə dövlət sərhədinin mühafizəsinə cavabdeh olan «Astara» sərhəd komendantlığının ikimərtəbəli qərargah binası da əsaslı təmir edilmişdir. «Astara» sərhəd zastavasının üçmərtəbəli xidməti binası da yenidənqurmadan sonra müasir standartlara cavab verir.*

## Boks Mərkəzinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 4-də «Gilan» İdman Klubu tərəfindən Astaranın Ərçivan qəsəbəsində inşa edilmiş Boks Mərkəzinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi. Prezident İlham Əliyev mərkəzdə yaradılmış şəraitlə tanış oldu.*

*Mərkəzin foyesində ümummilli lider Heydər Əliyev və prezident İlham Əliyevin rayona səfərlərini əks etdirən fotolardan ibarət guşə yaradılıb.*

*Məlumat verildi ki, mərkəzin tikintisi cari ilin fevralında başlanılmış və avqustunda yekunlaşdırılmışdır. İdman qurğusunun ərazisində hərtərəfli abadlıq və yaşıllaşdırma işləri aparılıb. Süni örtüklü yeni açıq mini-futbol meydançası yaradılıb. Meydançanın işıqlandırma sistemi də müasirliyi ilə seçilir.*

*Diqqətə çatdırıldı ki, ikimərtəbəli binanın birinci mərtəbəsində işçilər üçün hərtərəfli şəraiti olan otaqlar da vardır. Burada Beynəlxalq Boks Federasiyaları Assosiasiyasının standartlarına uyğun qurulmuş məşq salonu idmançıların ixtiyarına verilib. Mərkəzdə məşqlər üçün hər cür şərait yaradılıb. Binanın infrastrukturu da müasir standartlara cavab verir.*

## Ərçivan–Şuvi–Alaşa–Qapıçıməhəllə avtomobil yolunun açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 4-də Astara rayonuna səfəri çərçivəsində Ərçivan–Şuvi–Alaşa–Qapıçıməhəllə avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi. Prezident İlham Əliyevə məlumat verildi ki, 2013-cü il 15 iyul tarixli müvafiq Sərəncam ilə Ərçivan–Şuvi–Alaşa–Qapıçıməhəllə və Siyaku–Rinə avtomobil yollarının inşasına 3,3 milyon manat vəsait ayrılıb. Ümumi smeta dəyəri 2 milyon 680 manat olan Ərçivan–Şuvi–Alaşa–Qapıçıməhəllə avtomobil yolunun tikintisi cari ilin aprelində başlanılmış və bu günlərdə başa çatdırılmışdır. Yolun uzunluğu 13,5 kilometr, asfalt örtüklü hərəkət hissəsinin eni isə 6 metrdir. Yol boyunca 1 körpü və 20 suötürücüsü tikilib.*

*Bildirildi ki, Ərçivan–Şuvi–Alaşa–Qapıçıməhəllə avtomobil yolu 24 min nəfər əhalisi olan 17 yaşayış məntəqəsini əhatə edir.*

*Yeni yolla tanış olan prezident İlham Əliyev tapşırıq və tövsiyələrini verdi.*

## AZƏRBAYCAN MƏRKƏZİ KOOPERATİVLƏR İTTİFAQININ 22-ci QURULTAYINA

Hörmətli Qurultay iştirakçıları!

Sizi növbəti qurultayınızın işə başlaması münasibətilə salamlayır və səmimi-qəlbdən təbrik edirəm.

Bugünkü qurultay ölkəmizin regionda dinamik inkişaf edən lider dövlətə çevrildiyi, artıq beynəlxalq səviyyədə müstəqil siyasət aparan və irihəcmli investisiya yatıran, eyni zamanda, ehtiyacı olan ölkələrə öz köməyini əsirgəməyən dövlət kimi tanındığı bir dövrə təsadüf edir. Belə bir dövrdə Azərbaycanda kooperativlər şəbəkəsinin rolu danılmazdır.

Azərbaycanda ilk kooperativ təşkilat XIX əsrin sonlarında təsis edilmişdir. Qısa müddətdə əksər bölgələri əhatə edən kooperativlər vahid ittifaqda birləşmiş, 1920-ci ildən isə «Azərittifaq» adı altında fəaliyyət göstərməyə başlamışdır. Kooperativlər əhalinin mal və xidmətlərə olan tələbatının ödənilməsində, məşğulluğun təmin olunmasında mühüm rol oynamış, ölkə iqtisadiyyatının inkişafına önəmli təsir göstərmişdir.

Kooperasiya özünün ən yüksək inkişaf səviyyəsinə ümummilli lider Heydər Əliyevin Azərbaycana ilk dəfə rəhbərlik etdiyi dövrdə çatmışdır. Respublikamız müstəqillik qazandıqdan sonrakı ən ağır illərdə də kooperativlər ölkə əhalisinin ərzaq və ilkin tələbat malları ilə təchizatını təmin etmişdir.

«Azərittifaq» ən kütləvi təşkilatlardan biri kimi, ətrafında çoxsaylı pay sahiblərini birləşdirərək, öz fəaliyyətini yeni şəraitə uyğunlaşdırmışdır. Bu qurum ictimai iaşə və tədarük müəssisələri vasitəsilə vətəndaşlara müasir çağırışlara cavab verən ticarət və iaşə xidmətləri göstərir, kənd təsərrüfatı məhsullarını tədarük edərək, sənaye müəssisələrinin və əhalinin tələbatının ödənilməsinə yönəldir.

İstehlak kooperasiyası ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır və hesab edirəm ki, kooperativlər bundan sonra da ticarət, tədarük və istehsal sahəsindəki funksiyalarını layiqincə yerinə yetirəcək və kəndin sosial-iqtisadi inkişafına öz dəyərli töhfəsini verəcəkdir.

İnanıram ki, bu qurultayda qəbul edəcəyiniz qərarlar kooperativ təşkilatların əhalinin həyat səviyyəsinin yüksəlməsinə yönələn fəaliyyətini gücləndirəcək, onu müasir dövrün tələblərinə uyğun qurmağa kömək edəcək, bununla da şəhər və kənd arasında əlaqənin daha da möhkəmlənməsinə səbəb olacaqdır.

Qurultayın işinə və fəaliyyətinizə uğurlar arzulayıram!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 sentyabr 2013-cü il*

## LƏNKƏRAN RAYONUNA SƏFƏR

*5 sentyabr 2013-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 5-də Lənkəran şəhərinə gəlmişdir.*

*Dövlətimizin başçısı* ulu *öndər Heydər Əliyevin Xatirə parkındakı abidəsi önünə gül dəstəsi* qoydu.

*İcra hakimiyyətinin başçısı Taleh Qaraşov Heydər Əliyev Xatirə parkında aparılan yenidənqurma işləri barədə prezident İlham Əliyevə məlumat* verdi. Bildirildi ki, *yenidənqurma işləri 2012-ci ilin oktyabrında başlanılmış və 2013-cü ilin mayında başa çatdırılmışdır. Ümumi sahəsi 27 min 500 kvadratmetr olan istirahət mərkəzində geniş yaşıllıq salınmışdır. Ümummilli lider Heydər Əliyevin Xatirə parkındakı abidəsinin ətrafına* qranit *üzlüklər çəkilmişdir. İşıqlandırma* sisteminin *də tamamilə yeniləndiyi* parkda *3 fəvvarə əsaslı təmir olunmuşdur.*

### Şəhərə içməli suyun verilməsi mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev Lənkərana səfəri çərçivəsində sentyabrın 5-də şəhərə içməli* suyun *verilməsi mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başcısı «Lənkəran şəhərinin* su *təchizatı və* kanalizasiya *sistemlərinin yenidən qurulması» layihəsinin baş planını əks etdirən stendlərlə tanış* oldu.

*«Azərsu» Açıq Səhmdar Cəmiyyətinin sədri* Qorxmaz *Hüseynov prezident İlham Əliyevə məlumat* verdi ki, *Lənkəran şəhərinin su təchizatı və* kanalizasiya *sistemləri ötən əsrin 60–70-ci illərində yaradılmışdır. Şəhərə içməli* su *Xanbulançay* su *anbarından* verilirdi. *Lənkəran şəhərinin və* ona *bitişik kəndlərin 68 min əhalisinin cəmi 15 faizi mərkəzləşmiş qaydada*

*içməli su ilə təmin olunurdu. İçməli su həyət evlərinə fasiləsiz, çoxmənzilli yaşayış binalarına isə gündə 1-2 saat olmaqla, cədvəl əsasında verilir. Əhalinin qalan hissəsi isə tələbatını fərdi qaydada quyu suları ilə ödəyirdi. İndiyədək istismarda olan magistral və şəhərdaxili paylayıcı su xətləri isə yararsız vəziyyətə düşmüşdü. Şəhərdə cəmi 28 kilometr kanalizasiya xətti mövcud idi. Qalan ərazilərin tullantı suları açıq kanallarla təmizlənmədən dənizə axıdılırdı.*

*Diqqətə çatdırıldı ki, bu problemlərin həlli məqsədilə dövlətimizin başçısının göstərişinə əsasən hazırlanmış «Lənkəran şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi» 2035-ci ilədək perspektiv inkişaf nəzərə alınmaqla, Lənkəran şəhəri, Şilavar, Digah, Velədi, Sütəmurdov və Göyşaban kəndlərinin 82 min sakininin içməli su təchizatının və kanalizasiya xidmətlərinin yaxşılaşdırılmasına hesablanmışdır. Gələcəkdə magistral kəmər boyunca yerləşən Gərmətük, Şürük, Bala Şürük, Küvənil, Tütəpeştə, Lüvəsər və Səpnəkəran kəndlərinə də bu mənbədən içməli su verilməsi nəzərdə tutulur. Bütövlükdə layihədən 100 min nəfər faydalanacaqdır. Şəhərə saniyədə 348 litr su veriləcəkdir ki, bu da sakinlərin tələbatını tam ödəyəcəkdir.*

*Bildirildi ki, layihəyə əsasən Lənkəran şəhəri və ətraf kəndlər üçün içməli su mənbəyi kimi Xanbulançay anbarı seçilmişdir. Burada məhsuldarlığı sutkada 30 min kubmetr olan qum süzgəcli suqəbuledici qurğu inşa olunmuşdur. Lənkəran şəhərini fasiləsiz rejimdə içməli su ilə təmin etmək üçün tutumu 10 min kubmetr olan anbar tikilmiş və buradan şəhərə 11,6 kilometr uzunluğunda magistral xətt çəkilmişdir.*

*Prezidentə məlumat verildi ki, Lənkəran şəhərində tikintisi nəzərdə tutulan 233 kilometr paylayıcı su şəbəkəsinin 160 kilometrlik hissəsində işlər yekunlaşmış, 15 min abonentin 10 mini yeni şəbəkəyə birləşdirilmiş və onların 3 mini smart-kart tipli sayğacla təmin olunmuşdur. Layihə üzrə inşası planlaşdırılan 197 kilometr uzunluğunda kanalizasiya xətlərinin 20 kilometrlik hissəsi çəkilmişdir və 9,4 kilometr uzunluğunda mikrotunel tipli*

*kanalizasiya kollektorunun inşası davam etdirilir. Şəhərdə toplanan tullantı suları gələcəkdə inşa ediləcək və məhsuldarlığı sutkada 40 min kubmetr olacaq təmizləyici qurğuya ötürüləcəkdir.*

*Vurğulandı ki, icrasına 2011-ci ilin oktyabrında başlanılmış və dövlət büdcəsi vəsaiti hesabına maliyyələşdirilən layihə 2014-cü ildə başa çatdırılacaqdır. Gələcəkdə Astara şəhərinin və həmin rayonun 27 kəndinin 90 mindən artıq sakininə də içməli suyun Xanbulançay mənbəyindən verilməsi nəzərdə tutulur.*

*Layihə ilə tanışlıqdan sonra prezident İlham Əliyev Lənkəran şəhərinə içməli suyun verilməsini bildirən düyməni basdı.*

# QEYDLƏR

**1. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 10, 16, 17, 18, 20, 22, 27, 44, 45, 51, 55, 56, 100, 119, 131, 142, 206, 207, 208, 218, 241, 242, 245, 253, 258, 268, 276, 296, 297, 302, 303, 314, 324, 331, 333, 335, 337, 342, 345, 355.

**2. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, 2005–2017-ci illərdə Milli Məclisin deputatı olmuşdur. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun

nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 14, 15, 124, 140, 194, 208, 228, 228, 229, 243, 315, 334.

**3. Mehriban Əliyeva,** M e h r i b a n  A r i f  q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləyib. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görüb. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaradılmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə Milli Məclisin deputatı olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə,

genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 15, 124, 140, 194, 208, 229, 266, 315, 342.

**4. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min km$^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 16, 19, 34, 74, 76, 77, 78,91,95,154,164,272,343.

**5. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri və Xankəndidə yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar, 613 azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 16.

**6. Ramazan bayramı –** müsəlman aləmində orucluq bitəndən sonra keçirilən bayram. Qurani-Kərim oruc tutmağı islamın vacib əməllərindən biri hesab etmiş və insanlarda yol verilmiş xataların oruc tutmaqla bağışlanmasını təsbit edir. Bu bayram bir də ona görə əzizdir ki, məhz Qurani-Kərim müqəddəs Ramazan ayında nazil olmuşdur. – 26, 42, 43.

**7. İtaliya,** İ t a l i y a R e s p u b l i k a s ı – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Pa-

dan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301,3 min $km^2$, əhalisi 61 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Paytaxtı Roma şəhəridir. – 36, 68–82.

**8. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin inteqrasiya birliyi. Aİ-yə 28 dövlət daxildir.

Aİ-nin yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ-nin üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 34, 74, 77, 78, 81.

**9. İsveçrə,** İ s v e ç r ə K o n f e d e r a s i y a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 41,3 min $km^2$, əhalisi 8,2 milyon nəfərdir. İsveçrə federativ, 23 kantona bölünmüş respublikadır. Dövlət başçısı prezidentdir, prezidenti parlament Federal Şura üzvlərindən 1 il müddətinə seçir, yenidən seçilmək hüququ yoxdur. Prezident, həmçinin hökumət başçısıdır. Qanunverici hakimiyyət 2 palatadan ibarət Federal Məclisə məxsusdur. Paytaxtı Bern şəhəridir. – 37

**10. Ueli Maurer** (d.1950) – İsveçrənin dövlət və siyasi xadimi, 2013-cü ildə İsveçrə Konfederasiyasının Prezidenti olmuşdur. – 37.

**11. Pakistan,** P a k i s t a n İ s l a m R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 881,4 min $km^2$, əhalisi 201 mil-

yon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı İslamabad şəhəridir. – 39.

**12. Məmnun Hüseyn** (d.1940) – iş adamı. 2013-cü ildən Pakistan İslam Respublikasının Prezidentidir. – 39.

**13. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon $km^2$, əhalisi 325,8 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 40.

**14. Barak Obama** (d.1961) – ABŞ-ın 44-cü prezidenti (2008–2016). 2004–2008-ci illərdə Demokratlar Partiyasından ABŞ Senatının üzvü olmuşdur. 2009-cu ildə Nobel Sülh mükafatına layiq görülmüşdür. – 40.

**15. Rusiya,** R u s i y a  F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon $km^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 59–65, 84–100, 114, 169.

**16. Leyla Əliyeva,** L e y l a  İ l h a m  q ı z ı (d.1986) – «Baku» jurnalının baş redaktoru, Heydər Əliyev Fondunun vitse-prezidenti, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük qızı, Heydər Əliyevin nəvəsi. 2006–

2008-ci illərdə Leyla Əliyeva Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Leyla Əliyeva həm də Moskvada Heydər Əliyev Fonduna başçılıq edir. Azərbaycan Respublikasının «Tərəqqi» medalı ilə təltif edilmişdir. – 60, 334.

**17. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMT TŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü 1 səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 62, 77, 109, 184.

**18. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulublar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1991) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 74, 82.

**19. Vladimir Putin** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə

FTX-nın direktoru, 1999-cu ilin avqustundan Rusiya hökumətinin başçısı, 2008-ci ilin mayında Rusiya Federasiyasının Baş naziri təyin edilmişdir. 2012-ci ilin mart ayında yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 84–100.

**20. Sergey Lavrov** (d.1950) – 1994–2004-cü illərdə Rusiya Federasiyasının BMT-də daimi nümayəndəsi, 2004-cü ildən Xarici İşlər naziri və Rusiya Federasiyası Təhlükəsizlik Şurasının üzvüdür. – 89.

**21. Şəki Xan sarayı**– XVII əsrin 60-cı illərinə aid Azərbaycan memarlıq abidəsi. XVII əsrdə Azərbaycanda tikilmiş saray tipli binaların ən qiymətlisi hesab olunur. Müxtəlif dövrlərdə yaşamış rəssamların işlədiyi təsvirlər nəbati ornament kompozisiyalarından, insan və quş rəsmlərindən, müharibə və ov səhnələrindən ibarətdir. –146, 147,150.

**22. Sabit Rəhman,** S a b i t K ə r i m o ğ l u M a h m u -d o v (1910–1970) –Azərbaycan yazıçısı, dramaturq. Azərbaycan Respublikası Əməkdar incəsənət xadimi. – 146.

**23. Mirzə Fətəli Axundzadə** (1812–1878) – böyük Azərbaycan yazıçısı, dramaturq, materialist-filosof. Mirzə Fətəli Axundzadə Azərbaycan ədəbiyyatı tarixində pyesləri və fəlsəfi əsərləri ilə şöhrət qazanmışdır. 1850–55-ci illərdə yazdığı 6 komediya ilə Azərbaycan və bütün Şərq ədəbiyyatında realist dramaturgiyanın əsasını qoymuşdur. Mirzə Fətəli Axundzadənin fəaliyyətində yeni əlifba uğrunda mübarizə mühüm yer tutur. – 147,150.

**24. Abdullah Gül** (d.1950) – Türkiyənin dövlət və siyasi xadimi, iqtisad elmləri doktoru, professor. 1991-ci ildə TBMM-in üzvü seçilmişdir. Abdullah Gül Rəcəb Tayyib Ərdoğanla Ədalət və İnkişaf Partiyasının yaradıcılarından biridir. 2007–2014-cü illərdə Türkiyə Cümhuriyyətinin Prezidenti olmuşdur. Azərbaycan

Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 153–158,162–191.

**25. Qırğız Respublikası** – Orta Asiyanın şimal-şərqində dövlət. Sahəsi 200 min km$^2$, əhalisi 6 milyon nəfərdir. İnzibati ərazisi 7 vilayətə, 40 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Bişkek şəhəridir. – 155–158, 162–191, 236.

**26. Almazbek Atambayev** (d.1956) – Qırğız Respublikasının dövlət və siyasi xadimi. 2011–2017-ci illərdə Qırğız Respublikasının Prezidenti olmuşdur. – 155–158,162–191, 236.

**27. Qara Qarayev,** Qara Əbülfəs oğlu (1918–1982) – dahi Azərbaycan bəstəkarı. Musiqisi ümumdünya şöhrəti qazanmış, baletləri respublikamızın və bir sıra dünya teatrlarının səhnəsində tamaşaya qoyulmuşdur. Q.Qarayevin musiqiyə gətirdiyi yeniliklər Azərbaycan və dünya musiqisinin inkişafında mühüm rol oynamışdır. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət və Lenin mükafatları laureatı. – 157.

**28. Qazaxıstan,** Qazaxıstan Respublikası– Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2,7 milyon km$^2$, əhalisi 18 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Ali Sovetdir. Paytaxtı Astana şəhəridir. – 160–191.

**29. Nursultan Nazarbayev,** Nursultan Abiş oğlu (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan KP MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin Sədri, Nazirlər Sovetinin Sədri, 1989–91-ci illərdə Qazaxıstan KP MK-nın Birinci katibi, 1990-cı ildə eyni zamanda, Ali Sovetin Sədri, 1991-ci ildə Qazaxıstan SSR-in Prezidenti olmuşdur. 1991-ci ilin dekabrından Qazaxıstan Respub-

likasının Prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 160–191.

**30. İpək yolu**, B ö y ü k İ p ə k y o l u – beynəlxalq tarixi tranzit-ticarət yolu, eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Böyük İpək yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də Böyük İpək yolunun üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa İttifaqının iştirakı ilə Beynəlxalq Konfrans keçirildi, TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – Böyük İpək yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 165, 166, 177.

**31. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5000-ə yaxın ilk partiya təşkilatı var. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Üzvlərinin sayına görə parlamentdə çoxluq təşkil edir. Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP-ın təsis konfransında (1992) mərhum prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri

seçilmişdir. 2005-ci ilin mart ayından isə YAP-ın sədri prezident İlham Əliyevdir. – 215, 241–245, 268–269, 310, 331, 343.

**32. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay ( 1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli Fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də «Azərbaycan vətəndaşlığı» haqqında Qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 224, 259.

**33. Mali,** M a l i  R e s p u b l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 1,24 min $km^2$, əhalisi 16 milyon nəfərdir. İnzibati ərazisi 8 vilayətə və Bamako rayonuna bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Bamako şəhəridir. – 230.

**34. İbrahim Keyta** (d.1945) – Malinin siyasi xadimi. 2013-cü ildən Mali Respublikasının Prezidentidir. – 230.

**35. Malayziya** – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 329,7 min $km^2$, əhalisi 31 milyon nəfərdir. Malayziya federasiyadır. Tərkibinə 13 ştat və federal ərazi – Kuala-Lumpur və Lavyan daxildir. Malayziya konstitusiyalı monarxiyadır. Dövlət başçısı sultanlığın ştat başçıları tərəfindən 5 il müddətinə seçilən kraldır. Qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Kuala-Lumpur şəhəridir. – 237.

**36.Əl-Mutasimu Badli şah** (1927–2017) – 1970–1975 və 2011–2016-cı illərdə Malayziya Sultanlığının sultanı olmuşdur. – 237.

**37. Slovakiya,** S l o v a k i y a R e s p u b l i k a s ı – Şərqi Avropada dövlət. Sahəsi 49 min $km^2$, əhalisi 5,4 milyon nəfərdir. İnzibati cəhətdən 3 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Milli Şuradır. Paytaxtı Bratislavadır. 1992-ci ilin noyabrına qədər Çexoslovakiyanın tərkibində olmuşdur. – 238.

**38. İvan Qaşparoviç** (d.1941) – Slovakiyanın dövlət xadimi, hüquqşünas-alim, 2004–2014-cü illərdə Slovakiya Respublikasının Prezidenti olmuşdur. – 238.

**39. Özbəkistan,** Ö z b ə k i s t a n R e s p u b l i k a s ı – Orta Asiyanın mərkəzində dövlət. Sahəsi 447,4 min $km^2$, əhalisi 33 milyon nəfərdir. Özbəkistanın tərkibinə Qarakalpak Muxtar Respublikası və 12 vilayət daxildir. Dövlətin başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Daşkənd şəhəridir. – 238.

**40. İslam Kərimov,** İ s l a m Ə b d u q ə n i o ğ l u (1938–2016) – Özbəkistanın siyasi və dövlət xadimi. 1989–90-cı illərdə Özbəkistan KP MK-nın Birinci katibi, 1990–2016-cı illərdə Özbəkistan Respublikasının Prezidenti olmuşdur. –239.

**41. Sabir**, M i r z ə Ə l ə k b ə r Z e y n a l a b d i n o ğ- l u T a h i r z a d ə (1862–1911) – böyük Azərbaycan şairi, mütəfəkkir, ictimai xadim. Sabir Azərbaycan ədəbiyyatı, ictimai və bədii fikrinin ən qabaqcıl simalarındandır. O, Azərbaycan ədəbiyyatında tənqidi realizmin, satirik poeziyanın qüdrətli nümayəndəsidir. – 242–243.

**42. Şah İsmayıl Xətai** (1487–1524) – Azərbaycan Səfəvilər dövlətinin banisi; dövlət xadimi, sərkərdə və şair. 1501-ci ilin payızında Təbrizə daxil olan I Şah İsmayıl özünü şah elan etdi. Bununla da paytaxtı Təbriz olmaqla, Azərbaycan Səfəvilər dövlətinin əsası qoyuldu. I Şah İsmayılın dövründə Səfəvilər dövləti Yaxın Şərqin ən qüdrətli dövlətlərindən birinə çevrildi.

I Şah İsmayıl «Xətai» təxəllüsü ilə Azərbaycan, fars və ərəb dillərində şeirlər yazmışdır. – 259.

**43. Hüseyn Cavid,** H ü s e y n A b d u l l a o ğ l u R a- s i z a d ə (1882–1941) – böyük Azərbaycan şairi, dramaturq. Hüseyn Cavid Azərbaycan romantizminin banilərindən biri olmuşdur. O, lirik şeirlərin, lirik-epik, epik poemaların müəllifidir.

Hüseyn Cavid daha çox dramaturq kimi tanınmışdır. Onun fəlsəfi və tarixi faciələri forma yeniliyi baxımından Azərbaycan dramaturgiyasında yeni bir mərhələ yaratmış, milli teatr mədəniyyətinin inkişafına qüvvətli təsir göstərmişdir. Azərbaycanın ən dəyərli milli ziyalı nümayəndələrini məhv edən sovet totalitar rejiminin repressiya qurbanlarındandır. – 259.

**44. Mikayıl Müşfiq,** İ s m a y ı l z a d ə M i k a y ı l M i r z ə Ə b d ü l q a d i r o ğ l u (1908–1939) – şair. Poeziyasının əsas qayəsi müasirlik, xəlqilik, humanizm olmuşdur. Onun lirikası forma etibarı ilə novatorluğun ən yaxşı nümunələrindəndir. Azərbaycanın ən dəyərli milli ziyalı

nümayəndələrini məhv edən sovet totalitar rejiminin repressiya qurbanlarındandır. – 259.

**45. Vyetnam,** V y e t n a m S o s i a l i s t R e s p u b l i k a- s ı (VSR) – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 331,2 min $km^2$, əhalisi 92,5 milyon nəfərdir. İnzibati ərazisi 50 əyalətə bölünür. Dövlət başçısı prezident, ali orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Hanoy şəhəridir. – 280.

**46. Çıonq Tan Şanq** (d.1949) –2011–2016-cı illərdə Vyetnam Respublikasının Prezidenti olmuşdur. – 280.

## Şəxsi adlar göstəricisi

**Abakumov Sergey** – 63
**Abdullayev Səbuhi** – 119
**Abdullayev Rövnəq** – 85
**Abutalıbov Hacıbala** – 234, 281, 287
**Ağayev Qəzənfər** – 345
**Ağayeva Xoşbəxt** – 307–308
**Axundzadə Mirzə Fətəli** – 147, 150
**Akıncı Xəlil** – 167, 181–186
**Aleksandr** *(yepiskop)* – 17–18
**Alqayev Səbuhi** – 213–214
**Aristotel** – 259
**Alp Arslan** – 180
**Atambayev Almazbek** – 155–158, 162–191, 236
**Atakişiyev Hüseynağa** – 147
**Babayeva Arifə** – 124–125
**Badlişah əl-Mutasimu** – 237
**Berdıməmmədov Qurbanqulu** – 178
**Cabbarov Siraqəddin** – 258
**Cəbrayılov Yavər** – 300
**Çionq Tan Şanq** – 280
**Çunayev Rəsul** – 8–9
**Əhmədov Xəyal** – 264–266
**Əhmədzadə Əhməd** – 110, 112, 330
**Əhmədzadə Mübariz** – 218
**Ələsgərov Hüseynqulu** – 289–290
**Ələsgərova Yaqut** – 299
**Əli** *(imam)* – 27
**Əliyev Ceyhun** – 78
**Əliyev Heydər** – 10, 16, 17, 18, 20, 22, 27, 44, 45, 51, 55, 56, 100, 119, 131,

142, 206, 207, 208, 218, 241, 242, 245, 253, 258, 276, 296, 297, 302, 303, 314, 324, 331, 333, 335, 337, 342, 345, 355
**Əliyev İrşad** – 44
**Əliyev Natiq** – 296
**Əliyev Ruslan** – 60
**Əliyeva Leyla** – 60, 334
**Əliyeva Mehriban** – 15, 124, 140, 194, 208, 229, 266, 315, 342
**Əliyeva Natəvan** – 340
**Əliyeva Zərifə xanım** – 16
**Əzizov Aydın** – 106–108
**Əzizov Əziz** – 314
**Fatimə** – 27
**Fekete Vladimir** – 19–20
**Fətullayev Qardaş** – 338–339
**Göyçayev Teymur** – 157
**Gül Abdullah** – 153–158, 162–191
**Heydərov Kəmaləddin** – 88
**Həmidov Böyükağa** – 254
**Həsən** *(imam)* – 27
**Hətəmov Sevindik** – 324
**Hüseynov Qorxmaz** – 53, 308
**Hüseynov Rafil** – 333
**Hüseyn Məmnun** – 39
**Hüseyn Cavid** – 259
**Xətai Şah İsmayıl** – 259
**Xiyabani Şeyx Məhəmməd** – 259
**I Xuan Karlos** – 28
**İsmayılov Nazim** – 241
**Keyta İbrahim** – 230
**Kərimov İslam** – 239
**Kərzai Həmid** – 159
**Qarayev Qara** – 157

**Qasımov Fazil** – 254, 255
**Qaşparoviç İvan** – 238
**Quliyev Elçin** – 352
**Quliyev Mahir** – 303
**Qəribova Nuranə** – 273–274
**Qurbanov Eyvaz** – 131
**Lavrov Sergey** – 89
**Lebedov Nikolay** – 59
**Lefort Filipp** – 34
**Letta Enriko** – 68–82
**Mahmudov Yaqub** – 144, 149, 150
**Məhtumqulu** – 180
**Maurer Ueli** – 37
**Məhəmməd** *(əleyhissalam)* – 27
**VI Məhəmməd** – 35
**Mikayıl Müşfiq** – 259
**Məmmədli Ramil** – 199–200
**Məmmədov Əli** – 226
**Məmmədov Yaqub** – 9–10
**Məmmədov Ziya** – 89
**Məmmədov Şahin** – 268
**Məmmədova İradə** – 135–136
**Məmmədyarov Elmar** – 89
**Muxika Xose** – 232
**Mustafayev Şahin** – 153, 160
**Napolitano Ciorcio** – 36
**Nazarbayev Nursultan** – 160–191
**Nəbili Hikmət** – 146–148
**Nəzərli Nəzakət** – 319–321
**Novruzov Sabir** – 49–51
**Obama Barak** – 40
**Paşazadə Allahşükür** – 13–17, 26–27
**Putin Vladimir** – 84–100
**Puçkov Vladimir** – 88
**Sabir Mirzə Ələkbər** – 242–243

**Sabit Rəhman** – 146
**Sadıqov Mirdamət** – 102, 112, 113
**Seçin İqor** – 88
**Sokolov Maksim** – 89
**Sultanov Feyruz** – 327–328
**Süleymanova Vəfa** – 224–226
**Şəkiliyev Musa** – 192
**Şiriyeva Aytən** – 348–349
**Şirəliyev Oqtay** – 275
**Şükürov Əhəd** – 255–256
**Tasso Olyanta** – 29
**Timofti Nikolaye** – 233
**Təhməzov Mirqiyas** – 342–343
**Torkunov Anatoli** – 63
**Toyliyev Sapardurdu** – 178
**Usubov Elxan** – 142
**Yam Toni** – 41
**Yakiç Roman** – 240
**Yankoviç Zoran** – 240
**Yanukoviç Viktor** – 231
**Yayi Boni** – 38
**Yevdayev Milix** – 18–19
**Yudhoyono Susilo** – 101

## Coğrafi adlar göstəricisi

**Abşeron** *(yarımada)* – 291
**Ağcabədi** – 268–279
**Ağsu** – 53, 54
**Aktau** – 169, 170, 175
**Almaniya** – 114, 120, 169
**Almatı** – 170, 174, 184
**Araz çayı** – 308
**Aralıq dənizi** – 80, 188
**Amerika Birləşmiş Ştatları** – 40
**Asiya** – 166
**Astana** – 168, 180
**Astara** – 345–354
**Aşağı Küngüt** – 142
**Aşqabad** – 126
**Avropa** – 5, 11, 49, 71, 79, 80, 166, 169
**Aydınbulaq** – 142
**Balakən** – 103, 207–217
**Boyan** – 139
**Benin** – 38
**Bəhmətli** – 227
**Bəndər-Abbas** – 169
**Biləsuvar** – 303–313
**Bişkek** – 171,174
**Binəqədi** – 281–282
**Buzovna** – 234–235
**Cəfərabad** – 142
**Cəlilabad** – 314–323
**Cənubi Qafqaz** – 34
**Çapağan** – 142

**Çin** – 114, 169, 175

**Çolaqlı** – 142
**Dağlıq Qarabağ** – 16, 19, 34, 74, 76, 77, 78, 91, 95, 154, 164, 272, 343
**Əfqanıstan** – 82, 159, 184
**Füzuli** – 272
**Gəncə** – 14
**Gözbarax** – 225
**Xaçmaz** – 6
**Xankəndi** – 343
**Xəzər dənizi** – 95, 98, 169, 176, 188
**Xalxalqışlaq** – 139
**Xocalı** – 16
**İndoneziya** – 101
**İran** – 169
**İsmayıllı** – 102–118, 212
**İspaniya** – 28
**İssık-göl** – 188
**İtaliya** – 36, 68–82
**İsveçrə** – 37
**Kataniya** – 79
**Katex** – 216
**Kazan** – 5–12
**Kərimli** – 139
**Kiçik Pirəli** – 130
**Kiş çayı** – 250
**Kürdəmir** – 44–58
**Qafqaz** – 22, 23, 98, 175
**Qahirə** – 184
**Qax** – 103, 192–206, 212
**Qara dəniz** – 188
**Qazaxıstan** – 160–191
**Qəbələ** – 14, 103, 119–132, 153–158, 212

**Qırğız Respublikası** – 155–158, 162–191, 236
**Qumlaq** – 139
**Qobustan** – 212
**Lyublyana** – 240
**London** – 5, 6
**Mali** – 230
**Malayziya** – 237
**Masallı** – 333–344
**Maştağa** – 287–292
**Məkkə** – 342
**Mərkəzi Asiya** – 171
**Mərkəzi Avropa** – 63
**Mərakeş** – 35
**Mirzəbəyli** – 130
**Moskva** – 59–65, 145, 147
**Naxçıvan** – 45, 123, 163
**Nərimankənd** – 264
**Nic** – 130
**Nyu-York** – 184
**Oğuz** – 103, 131–141, 212
**Orta Asiya** – 175
**Özbəkistan** – 178, 239
**Pakistan** – 39
**Peru** – 29
**Rusiya** – 59–65, 84–100, 114, 169
**Saatlı** – 258–267
**Sabirabad** – 241–257
**Salyan** – 296–302
**Slovakiya** – 238
**Sloveniya** – 240
**Sinqapur** – 41, 284
**Sumqayıt** – 14
**Şamaxı** – 14, 103, 212
**Şəki** – 103, 142–152, 212
**Şərqi Asiya** – 175

| | |
|---|---|
| **Şimali Qafqaz** | – 22 |
| **Şuşa** | – 343 |
| **Şirvanlı** | – 139 |
| **Tayıflı** | – 139 |
| **Türkiyə** | – 75, 114, 153–158, 162–191 |
| **Türkmənistan** | – 162–191 |
| **Ucar** | – 54 |
| **Ukrayna** | – 231 |
| **Uruqvay Şərq Respublikası** | – 232 |
| **Vyetnam** | – 280 |
| **Yaponiya** | – 114 |
| **Yardımlı** | – 324–332 |
| **Zaqatala** | – 103, 212, 218–229 |
| **Zarağan** | – 130 |
| **Zərdab** | – 54 |
| **Zərgərli** | – 130 |

# MÜNDƏRİCAT

KAZANDA KEÇİRİLƏN XXVII ÜMUMDÜNYA YAY UNİVERSİADASININ QALİBLƏRİ, MÜKAFATÇILARI, ONLARIN MƏŞQÇİLƏRİ VƏ RESPUBLİKANIN İDMAN MÜTƏXƏSSİSLƏRİ İLƏ GÖRÜŞ

*24 iyul 2013-cü il...........................................................................5*

RAMAZAN AYI MÜNASİBƏTİLƏ İFTAR MƏRASİMİNDƏ İŞTİRAK

*24 iyul 2013-cü il.........................................................................13*

RAMAZAN AYI MÜNASİBƏTİLƏ İFTAR MƏRASİMİNDƏ ÇIXIŞ

*24 iyul 2013-cü il*.........................................................................21

İSPANİYA KRALI ƏLAHƏZRƏT I XUAN KARLOSA

*25 iyul 2013-cü il.........................................................................28*

PERU RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB OLYANTA UMALA TASSOYA

*25 iyul 2013-cü il.........................................................................29*

ZIĞ DAİRƏSİ – HEYDƏR ƏLİYEV BEYNƏLXALQ AEROPORTU AVTOMAGİSTRALININ 13-cü KİLO-METRLİYİNDƏN QALA QƏSƏBƏSİNƏ GEDƏN YOLUN AÇILIŞI MƏRASİMİ

*25 iyul 2013-cü il.........................................................................30*

PAYTAXTIN FÜZULİ VƏ MİRZƏAĞA ƏLİYEV KÜÇƏLƏRİNİN ARASINDA İNŞA OLUNMUŞ YERALTI AVTOMOBİL DAYANACAĞININ AÇILIŞI MƏRASİMİ

*25 iyul 2013-cü il..........................................................................32*

AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ FİLİPP LEFORTUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*26 iyul 2013-cü il..........................................................................34*

MƏRAKEŞ KRALI ƏLAHƏZRƏT VI MƏHƏMMƏDƏ

*27 iyul 2013-cü il..........................................................................35*

İTALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CİORCİO NAPOLİTANOYA

*29 iyul 2013-cü il..........................................................................36*

İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB UELİ MAURERƏ

*29 iyul 2013-cü il..........................................................................37*

BENİN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BONİ YAYİYƏ

*29 iyul 2013-cü il..........................................................................38*

PAKİSTAN İSLAM RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏMNUN HÜSEYNƏ

*30 iyul 2013-cü il..........................................................................39*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BARAK OBAMAYA

*2 avqust 2013-cü il .......................................................................40*

SİNQAPUR RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB TONİ TAN KENQ YAMA

*6 avqust 2013-cü il* ........................................................................................ *41*

RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN
XALQINA TƏBRİK

*7 avqust 2013-cü il* ........................................................................................ *42*

KÜRDƏMİR RAYONUNA SƏFƏR

*7 avqust 2013-cü il* ........................................................................................ *44*

KÜLÜLLÜ SU MƏNBƏYİNDƏN KÜRDƏMİR ŞƏHƏRİNƏ
İÇMƏLİ SUYUN VERİLMƏSİ MƏRASİMİNDƏ RAYON
İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*7 avqust 2013-cü il* ........................................................................................ *46*

MOSKVA DÖVLƏT BEYNƏLXALQ MÜNASİBƏTLƏR
İNSTİTUTU MƏZUNLARI ASSOSİASİYASININ «MGİMO
JOURNAL» NƏŞRİNƏ MÜSAHİBƏ

*8 avqust 2013-cü il* ........................................................................................ *59*

YASAMAL RAYONUNDAKI 31 SAYLI ORTA ÜMUM-
TƏHSİL MƏKTƏBİNDƏ APARILAN ƏSASLI TƏMİR VƏ
YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*10 avqust 2013-cü il* ...................................................................................... *66*

İTALİYA RESPUBLİKASININ BAŞ NAZİRİ
ENRİKO LETTANIN AZƏRBAYCANA
RƏSMİ SƏFƏRİ

*11 avqust 2013-cü il* ...................................................................................... *68*

İTALİYA RESPUBLİKASININ BAŞ NAZİRİ ENRİKO LETTA
İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*11 avqust 2013-cü il* ...................................................................................... *69*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*11 avqust 2013-cü il ........................................................................70*

İTALİYA RESPUBLİKASININ BAŞ NAZİRİ ENRİKO LETTA
İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA
BƏYANATLARLA ÇIXIŞLAR

*11 avqust 2013-cü il ........................................................................73*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*11 avqust 2013-cü il ........................................................................81*

SABUNÇU–ZABRAT–MAŞTAĞA–BUZOVNA AVTOMOBİL
YOLUNUN ZABRAT–BUZOVNA SAHƏSİNİN ƏSASLI
ŞƏKİLDƏ YENİDƏN QURULMASI İŞLƏRİ İLƏ TANIŞLIQ

*12 avqust 2013-cü il ........................................................................83*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR
PUTİNİN AZƏRBAYCANA SƏFƏRİ

*13 avqust 2013-cü il ........................................................................84*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*13 avqust 2013-cü il ........................................................................86*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*13 avqust 2013-cü il ........................................................................88*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR
PUTİN İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA
ÇIXIŞLAR

*13 avqust 2013-cü il ........................................................................90*

DAĞÜSTÜ PARKLA TANIŞLIQ

*13 avqust 2013-cü il ........................................................................96*

«İÇƏRİŞƏHƏR» DÖVLƏT TARİX-MEMARLIQ QORUĞU
İLƏ TANIŞLIQ

*13 avqust 2013-cü il ............................................................................97*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*13 avqust 2013-cü il ............................................................................98*

İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB SUSİLO BAMBANQ
YUDHOYONOYA

*14 avqust 2013-cü il ..........................................................................101*

İSMAYILLI RAYONUNA SƏFƏR

*14 avqust 2013-cü il ..........................................................................102*

İSMAYILLI ŞƏHƏRİNƏ İÇMƏLİ SUYUN VERİLMƏSİ
MƏRASİMİ

*14 avqust 2013-cü il ..........................................................................104*

İSMAYILLI RAYON İCTİMAİYYƏTİNİN
NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*14 avqust 2013-cü il ..........................................................................112*

QƏBƏLƏ RAYONUNA SƏFƏR

*14 avqust 2013-cü il ..........................................................................119*

QƏBƏLƏDƏ HEYDƏR ƏLİYEV KONQRES MƏRKƏZİNİN
AÇILIŞINDA RAYON İCTİMAİYYƏTİNİN
NÜMAYƏNDƏLƏRİ
İLƏ GÖRÜŞ

*14 avqust 2013-cü il ..........................................................................122*

OĞUZ PAYONUNA SƏFƏR

*14 avqust 2013-cü il* ........................................................................131

OĞUZ ŞƏHƏRİNƏ İÇMƏLİ SUYUN VERİLMƏSİ
MƏRASİMİNDƏ RAYON İCTİMAİYYƏTİNİN
NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*14 avqust 2013-cü il* ........................................................................133

ŞƏKİ RAYONUNA SƏFƏR

*14 avqust 2013-cü il* ........................................................................142

ŞƏKİ ŞƏHƏR İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ
GÖRÜŞ

*14 avqust 2013-cü il* ........................................................................144

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ABDULLAH
GÜLÜN AZƏRBAYCANA SƏFƏRİ

*15 avqust 2013-cü il* ........................................................................153

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ABDULLAH
GÜL İLƏ GÖRÜŞ

*15 avqust 2013-cü il* ........................................................................154

QIRĞIZ RESPUBLİKASININ PREZİDENTİ ALMAZBEK
ATAMBAYEVİN AZƏRBAYCANA SƏFƏRİ

*15 avqust 2013-cü il* ........................................................................155

QIRĞIZ RESPUBLİKASININ PREZİDENTİ ALMAZBEK
ATAMBAYEV İLƏ GÖRÜŞ

*15 avqust 2013-cü il* ........................................................................156

TÜRKDİLLİ DÖVLƏTLƏRİN ƏMƏKDAŞLIQ ŞURASININ III
ZİRVƏ TOPLANTISI ÇƏRÇİVƏSİNDƏ KEÇİRİLƏN
KONSERTDƏ İŞTİRAK

*15 avqust 2013-cü il* ........................................................................157

ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB
HƏMİD KƏRZAİYƏ

*16 avqust 2013-cü il ........................................................................159*

QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ
NURSULTAN NAZARBAYEVİN AZƏRBAYCANA SƏFƏRİ

*16 avqust 2013-cü il ........................................................................160*

QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ
NURSULTAN NAZARBAYEV İLƏ GÖRÜŞ

*16 avqust 2013-cü il ........................................................................161*

TÜRKDİLLİ DÖVLƏTLƏRİN ƏMƏKDAŞLIQ ŞURASININ III
ZİRVƏ TOPLANTISINDA İŞTİRAK

*16 avqust 2013-cü il ........................................................................162*

QAX RAYONUNA SƏFƏR

*16 avqust 2013-cü il ........................................................................192*

QAX RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ
GÖRÜŞ

*16 avqust 2013-cü il ........................................................................196*

BALAKƏN RAYONUNA SƏFƏR

*17 avqust 2013-cü il ........................................................................207*

BALAKƏN RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏN-
DƏLƏRİ İLƏ GÖRÜŞ

*17 avqust 2013-cü il ........................................................................209*

ZAQATALA RAYONUNA SƏFƏR

*17 avqust 2013-cü il ........................................................................218*

ŞƏHƏRƏ İÇMƏLİ SUYUN VERİLMƏSİ MƏRASİMİNDƏ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*17 avqust 2013-cü il* ........................................................................ *221*

MALİ RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İBRAHİM BUBAKAR KEYTAYA

*21 avqust 2013-cü il* ........................................................................ *230*

UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VİKTOR YANUKOVİÇƏ

*21 avqust 2013-cü il* ........................................................................ *231*

URUQVAY ŞƏRQ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB XOSE MUXİKAYA

*22 avqust 2013-cü il* ........................................................................ *232*

MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NİKOLAYE TİMOFTİYƏ

*24 avqust 2013-cü il* ........................................................................ *233*

BUZOVNA QƏSƏBƏSİNDƏKİ 26 SAYLI ORTA MƏKTƏBİN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ, YENİ TƏDRİS KORPUSUNUN AÇILIŞI MƏRASİMİ

*28 avqust 2013-cü il* ........................................................................ *234*

QIRĞIZ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALMAZBEK ATAMBAYEVƏ

*28 avqust 2013-cü il* ........................................................................ *236*

MALAYZİYANIN ALİ BAŞÇISI ƏLAHƏZRƏT ƏL-MUTASİMU BİLLAHİ MUHİBBUDDİN TUANKU ƏL-HAC ABDUL HALİM MUADZAM ŞAH İBNİ ƏL-MƏRHUM SULTAN BADLİŞAHA

*28 avqust 2013-cü il ........................................................................237*

SLOVAKİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İVAN QAŞPAROVİÇƏ

*29 avqust 2013-cü il ........................................................................238*

ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İSLAM KƏRİMOVA

*29 avqust 2013-cü il ........................................................................239*

LYUBLYANA ŞƏHƏRİNİN MERİ ZORAN YANKOVİÇİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 avqust 2013-cü il ........................................................................240*

SABİRABAD RAYONUNA SƏFƏR

*29 avqust 2013-cü il ........................................................................241*

KÜR ÇAYI ÜZƏRİNDƏ YENİ İNŞA OLUNMUŞ KÖRPÜNÜN AÇILIŞINDA SABİRABAD RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*29 avqust 2013-cü il ........................................................................250*

SAATLI RAYONUNA SƏFƏR

*29 avqust 2013-cü il ........................................................................258*

SAATLI RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*29 avqust 2013-cü il ........................................................................262*

AĞCABƏDİ RAYONUNA SƏFƏR

*29  avqust 2013-cü il* ........................................................................... *268*

AĞCABƏDİ RAYON MƏRKƏZİ XƏSTƏXANASININ YENİ BİNASININ AÇILIŞINDA RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*29 avqust 2013-cü il* ........................................................................... *270*

VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÇIONQ TAN ŞANQA

*30 avqust 2013-cü il* ........................................................................... *280*

BİNƏQƏDİ RAYONUNDAKI 135 VƏ 248 SAYLI ORTA MƏKTƏBLƏRİN BİNALARININ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMADAN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*30 avqust 2013-cü il* ........................................................................... *281*

«QƏLƏBƏ MEYDANI MÜXTƏLİF SƏVİYYƏLİ TUNEL TİPLİ YOL QOVŞAĞI» LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ İNŞA EDİLƏN 5 TUNELİN AÇILIŞI MƏRASİMİ

*2 sentyabr 2013-cü il*........................................................................... *283*

MAŞTAĞADA QƏSƏBƏDAXİLİ YOLLARDA APARILAN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*2 sentyabr 2013-cü il*........................................................................... *287*

AZƏRBAYCAN RESPUBLİKASI VƏTƏNDAŞININ İLK BİOMETRİK PASPORTUNUN TƏQDİM EDİLMƏSİ MƏRASİMİ

*2 sentyabr 2013-cü il*........................................................................... *293*

AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

*3 sentyabr 2013-cü il*........................................................................... *295*

SALYAN RAYONUNA SƏFƏR

*4 sentyabr 2013-cü il*........................................................................*296*

HEYDƏR ƏLİYEV MƏRKƏZİNİN AÇILIŞINDA SALYAN RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*4 sentyabr 2013-cü il* ........................................................................*297*

BİLƏSUVAR RAYONUNA SƏFƏR

*4 sentyabr 2013-cü il*........................................................................*301*

BİLƏSUVAR ŞƏHƏRİNƏ İÇMƏLİ SUYUN VERİLMƏSİ MƏRASİMİNDƏ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*4 sentyabr 2013-cü il*........................................................................*304*

CƏLİLABAD RAYONUNA SƏFƏR

*4 sentyabr 2013-cü il*........................................................................*314*

CƏLİLABAD RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*4 sentyabr 2013-cü il* ........................................................................*317*

YARDIMLI RAYONUNA SƏFƏR

*4 sentyabr 2013-cü il*........................................................................*324*

YARDIMLI RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*4 sentyabr 2013-cü il* ........................................................................*326*

MASALLI RAYONUNA SƏFƏR

*4 sentyabr 2013-cü il*........................................................................*333*

MASALLI RAYON İCTİMAİYYƏTİNİN
NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*4 sentyabr 2013-cü il* ..................................................................................*336*

ASTARA RAYONUNA SƏFƏR

*4 sentyabr 2013-cü il*....................................................................................*345*

MƏRKƏZİ XƏSTƏXANA BİNASININ ƏSASLI
ŞƏKİLDƏ YENİDƏN QURULMASI İLƏ TANIŞLIQ ZAMANI
ASTARA RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ
İLƏ GÖRÜŞ

*4 sentyabr 2013-cü il*....................................................................................*346*

«ASTARA» DÖVLƏT SƏRHƏDİNDƏN BURAXILIŞ
MƏNTƏQƏSİNİN, SƏRHƏD KOMENDANTLIĞININ VƏ
SƏRHƏD ZASTAVASININ ŞƏXSİ HEYƏTİ ÜÇÜN YENİ
İNŞA OLUNAN YAŞAYIŞ ŞƏHƏRCİYİNİN, HƏMÇİNİN
SƏRHƏD KOMENDANTLIĞI VƏ SƏRHƏD ZASTAVASININ
ƏSASLI TƏMİR OLUNMUŞ XİDMƏTİ BİNALAR
KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*4 sentyabr 2013-cü il*....................................................................................*352*

AZƏRBAYCAN MƏRKƏZİ KOOPERATİVLƏR İTTİFAQININ
22-ci QURULTAYINA

*5 sentyabr 2013-cü il*....................................................................................*355*

LƏNKƏRAN RAYONUNA SƏFƏR

*5 sentyabr 2013-cü il*....................................................................................*357*

QEYDLƏR...........................................................................................................*360*

*Şəxsi adlar göstəricisi*.....................................................................................*375*

*Coğrafi adlar göstəricisi* .................................................................................*379*

**Texniki redaktor** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompüter tərtibatı** *Məhəbbət Orucov*

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84x1081/32. Ofset kağızı 1. Şərti çap vərəqi 25,75. Uçot nəşr vərəqi 26,25. Tirajı 5000.
Müqavilə qiymәti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.
«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.